CƏLAL QASIMOV

ƏDƏBİ
məhkəmələr

Ak-?
46681

CƏLAL QASIMOV

ƏDƏBİ MƏHKƏMƏLƏR

BAKI – 2012

Elmi redaktoru və ön sözün müəllifi: *professor Kamran Əliyev*

Rəyçilər: *professor Tahirə Məmməd*
professor Məhərrəm Cəfərov

Cəlal Qasımov «**Ədəbi Məhkəmələr**»,
«Zərdabi LTD» MMC, 2012, 304 səh.

Professor Cəlal Qasımovun «Ədəbi məhkəmələr» monoqrafiyasında M.Cəlilin «Ölülər», C.Cabbarlının «Aydın», H.Cavidin «Şeyx Sənan» əsərlərinin qəhrəmanı - İskəndərin, Gültəkinin, Şeyx Sənanın və musiqi alətimiz olan tarın indiyədək tədqiqatdan kənarda qalan ədəbi məhkəmələri ilk dəfədir ki, arxiv və mətbuu materiallar əsasında araşdırma predmetinə çevrilir. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Q E3338370016
103 – 2012

© «Zərdabi LTD» MMC, 2012
© C.Qasımov, 2012

Mündəricat

Kamran Əliyev. Ədəbi əsərlərin mühakiməsi 4
Tahirə Məmməd. Ədəbi məhkəmə və repressiya –
bir yolun iki mərhələsi 11
Ön söz əvəzi 16
1920-1930-cu illərin ədəbi və sosial-psixoloji mühiti 21
Ədəbi məhkəmələr və onların tədqiqinə bir nəzər 54
«Ölülər» əsərindəki İskəndərin məhkəməsi 79
«Aydın» əsərindəki Gültəkinin məhkəməsi 122
"Şeyx Sənan" əsərinin qəhrəmanı Şeyx Sənanın
məhkəməsi 143
Milli musiqi alətlərinin, yaxud tarın məhkəməsi 193
Nəticə 210
Əlavələr 213
İstifadə olunmuş ədəbiyyat 296

ƏDƏBİ ƏSƏRLƏRİN MÜHAKİMƏSİ

Ədəbiyyat tariximizin keçmişi yalnız bu keçmişin özü üçün deyil, daha çox bu günümüz və gələcəyimiz üçündür. Axı unutmayaq ki, ədəbiyyatın özünün də ibrət dərsləri var və bu, digər ibrət dərslərindən daha mənalı və əhəmiyyətlidir. Çünki o, ayrı-ayrı fərdləri deyil, ictimai həyatı və bütövlükdə cəmiyyəti əhatə edir.

Zəngin və çoxəsrlik ədəbiyyat tariximizin əhəmiyyətli fakt və hadisələrinin tədqiqində və öyrənilməsində ədəbiyyatşünaslar tərəfindən xeyli işlər görülmüş və görülməkdədir. Ayrı-ayrı sənətkarların həyat və yaradıcılığı təhlil olunmuş, bu sənətkarların ideya-bədii gücü ilə seçilən əsərlərinə və həmin əsərlərdəki obrazlara xüsusi diqqət yetirilmiş, yazıçı və mühit problemlərinə olan elmi baxış ənənəvi şəkildə davam etdirilmiş və müxtəlif formatlarda hazırlanan çoxcildliklər çap olunmuşdur. Həmçinin əlavə etmək lazımdır ki, ədəbiyyat tarixi konsepsiyası ilə ədəbi-elmi fikir kifayət qədər inkişaf etmiş, bu sahədə nəzərə çarpacaq yeni nəticələr əldə edilmişdir. Söylədiyim bu mülahizələr Azərbaycan ədəbiyyatı tarixinə dair mərhələli inkişafın fərəhli olduğu barədə qənaətləri təsdiq etmək üçündür. Lakin bütün bunlarla yanaşı, ədəbiyyat tariximizin elə məqamları, elə qatı açılmamış səhifələri vardır ki, onların dərindən və hərtərəfli öyrənilməsinə ehtiyac yenə də qalmaqdadır, eyni zamanda ədəbiyyat tariximizi həmin fakt və hadisələrdən təcriddə təsəvvür etmək mümkün deyildir. Saraylardakı şeir məclislərindən tutmuş ayrı-ayrı deyişmələrə və dərnəklərə qədər ədəbi həyatın ənənələri tarixin yaddaşına düşən ən parlaq nümunələrdir. Amma sənət adamının həyatına qəsd edən reallıqları yaşadan elə faciələr də vardır ki, ədəbiyyat tariximizi onlardan da kənarda təsəvvür etmək qətiyyən mümkün deyildir. Bax bu ikincilərə aid faktlardan biri də XX əsrin 20-ci illərinə aid ədəbi məhkəmələrdir. Bu baxımdan Cəlal Qasımovun «Ədəbi məhkəmələr» tədqiqatı xüsusi maraq doğurur.

Yeri gəlmişkən, bir cəhəti də qeyd edək ki, Cəlal Qasımovun elmi araşdırmaları böyük zəhmət bahasına ərsəyə gələn araşdırmalardır. Başqa sözlə, o, başqaları kimi öz şəxsi kitabxanasındakı rəflərə düzülmüş hazır kitablara deyil, ərəb, latın və kiril əlifbalarında çap olunan mətbuat səhifələrindəki faktlara, arxiv künclərində gizlənib qalan və əldəyməmiş materiallara əsaslanaraq yazılmış tədqiqatları ilə tanınır. Ona görə də «Ədəbi məhkəmələr» kitabına həmin tədqiqatların davamı kimi baxdıqda təsadüfdən yox, məhz zərurətdən doğan yeni bir ədəbi-elmi faktın təbiiliyinə inanırsan.

Ümumiyyətlə, sivilizasiya tarixinin müxtəlif dönəmlərində sənət adamları ilə sənətin əksinə olan insanlar və qüvvələr arasında daima mübarizə və toqquşmalar olmuşdur. Bu mübarizə və toqquşmalar müəyyən dövrlərdə daha da kəskinləşərək sənətkarların ölümü və qətli ilə nəticələnmişdir. Həmin acı mənzərəni təsəvvür etmək üçün Qərbdəki inkivizisiyaları və Şərqdəki - bizdəki 37-ci il faciələrini xatırlamaq kifayətdir. Ötən əsrin 20-ci illərinin ədəbi-tarixi faktları olan ədəbi məhkəmələr məhz 37-ci il faciələrinin öncəsi baş verən «ərəfə» faktlarındandır. Yəni bu iki hadisəyə bir-birinin davamı kimi də baxmaq olar.

C.Qasımov öz tədqiqatlarında ədəbi məhkəmələrin mahiyyətinə varmaq üçün 1920-1930-cu illərin ədəbi və sosial-psixoloji mühiti barədə müəyyən təsəvvür yaradır. Yəni tədqiqatçının önəm verdiyi və qəti şəkildə söyləmək istədiyi fikir bundan ibarətdir ki, ədəbi məhkəmələrin dərki dövrün sosial-psixoloji mühitindən kənarda deyil.

1920-1930-cu illərin sosial-psixoloji mühiti hansı cəhətlərlə səciyyələnirdi? Birincisi, bu dövr yeni sovet quruluşunun bərqərar olduğu, bolşevizmin hakimiyyətdə möhkəmləndiyi, marksist-leninçi ideologiyanın cəmiyyətdə və dövlətdə hakim ideologiyaya çevrildiyi bir dövr idi. Belə bir dövr və belə bir ideologiya ədəbi həyata da ciddi şəkildə müda-

xilə edir, öz təşkilatlarını yaradır və öz sifarişlərini ictimai sifariş kimi qələmə verirdi. İkincisi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə tanınan və həmin dövrdən əvvəl yazıb-yaradan, məşhurlaşan sənətkarlar isə öz dəst-xətlərini davam etdirmək istəyirdilər. Bir-birinə qarşı dayanan bu iki istiqamət sənətkar həyatına, ədəbi yaradıcılığa təsirsiz qalmırdı. Hətta ötən əsrin 20-ci illərində - hələ 37-ci ildən xeyli əvvəl müəyyən həbslər də həyata keçirilirdi. Əhməd Cavadın, Cəfər Cabbarlının, Hacı Kərim Sanılının, Ömər Faiq Nemanzadənin, Əli Razi Şamçızadənin, Seyid Hüseynin həbsi «xatırlatma» funksiyası daşıyırdı. Digər tərəfdən həmin dövrün ədəbi tənqidi də yavaş-yavaş partiyalaşır və bədii yaradıcılığın sənətə xas olan xüsusiyyətlərini aşkara çıxarmaqdan uzaqlaşırdı. Bütün bunlar və bilavasitə bunlarla əlaqədar olan ədəbi fakt və hadisələr tədqiqatçı tərəfindən diqqətlə araşdırılır, həmin fakt və hadisələrin hər birinin 1920-1930-cu illərin ədəbi həyatına təsiri şərh və izah olunur.

Əhəmiyyətlidir ki, C.Qasımov ayrıca bir fəsildə ədəbi məhkəmələrin ədəbiyyatşünaslar tərəfindən öyrənilməsi məsələlərinə nəzər yetirməyi, ədəbi məhkəmələrin tədqiqi mənzərəsini lazımınca canlandırmağı da özünə borc bilir. Tədqiqatçının belə bir mövqeyi ənənəyə hörmət və ehtiram göstərmək prinsipindən irəli gəlir. Yeri gəldikcə digər ədəbiyyatlardan nümunələr gətirilir, Azərbaycan ədəbiyyatı tarixinin fakt və hadisələri ilə paralellər aparılır və ədəbi məhkəmələr barədə geniş təsəvvür yaratmaq məqsədi reallaşdırılır. Aydın olur ki, tədqiqatçı ədəbi məhkəmələrdən bu və ya digər dərəcədə bəhs edən heç bir ədəbiyyatşünasa etinasızlıq göstərmir, eyni zamanda hər bir ədəbiyyatşünasın gördüyü işi ürəkaçıqlığı ilə və yüksək səviyyədə dəyərləndirir. Ədəbi məhkəmələrin başlanması tarixi, o barədə olan afişa və elanlar, məhkəmələrdəki iştirakçıların adbaad siyahısı və s. mətləblər konkret şəkildə diqqətə çatdırılır.

Yeri gəldikcə ədəbi məhkəmələrini keçrilməsi ilə bağlı olan məqsədlər də bütün təfərrüatı ilə analiz edilir, yeni və ədəbi-elmi cəhətdən məqbul mülahizələr irəli sürülür.

Kitabın qalan fəsilləri bilavasitə ayrı-ayrı əsərlərin ədəbi məhkəmələrinə həsr edilmişdir. Beləliklə, əsas diqqət C.Məmmədquluzadənin «Ölülər», C.Cabbarlının «Aydın», H.Cavidin «Şeyx Sənan» pyeslərinin tamaşaları ilə bağlı materiallara yönəldilmişdir. Həmçinin bir musiqi aləti kimi tarın məhkəməsinə aid faktlar da araşdırılmışdır. Yaxşı cəhətdir ki, C.Qasımov adı çəkilən əsərlərin ədəbi məhkəmələr üçün təhqiqat predmeti kimi seçilməsinin əsl səbəblərini aşkarlamağa daha çox səy göstərmişdir.

Tədqiqatçı C.Məmmədquluzadənin «Ölülər» pyesinin yazılmasına, ilk səhnə təcəssümünə və eyni zamanda onun tamaşaları haqqında irəli sürülən müxtəlif mülahizələrə aydınlıq gətirir. «Ölülər»in həm din nümayəndələri, həm də dövlət orqanları tərəfindən təqiblərə məruz qalmasının səbəblərini araşdırır. Bu əsərin məhkəməyə çıxarılması barədə olan əsl həqiqətləri vurğulayır və sadalayır. Ədəbi məhkəmələrin İskəndərdən başlamasına Azərbaycan milli ziyalılığının mühakiməsi kimi ümumiləşmiş məna verir. Bəs İskəndər nədə ittiham olunur? İttihamçının fikirlərinə görə, «işsizlikdə», «tərbiyəsizlikdə», «kimisə aldatmaqda», «mühitin adətləri ilə, ənənələri ilə hesablaşmamaqda», «heç bir sözün yerini, heç bir hərəkətin vaxtını bilməməkdə».

C.Qasımov bu ittihamların tamamilə yersiz və əsassız olduğunu əsərdən gətirdiyi faktlara istinadən təkzib edir.

Tədqiqatdan aydınlaşır ki, məhkəmə prosesində İskəndər daha çox cəsarətsizlikdə təqsirli bilinir. Amma İskəndərin bütövlükdə ölülüyə etirazı cəsarət deyilmi?

Tədqiqatdan aydınlaşır ki, məhkəmə prosesində İskəndəri xalq müəllimi ola bilməməkdə günahlandırırlar. Amma sual olunur: C.Məmmədquluzadə İskəndərin xalq müəllimi olmasınımı istəyirdi?

Tədqiqatdan aydınlaşır ki, məhkəmə prosesində İskəndər yalançı və duyğusuz olmaqda, bacısı Nazlını müdafiə etməməkdə, Şeyxin fırıldaqlarının açılmasında rolunun olmamasında ittiham olunur. Amma unudulur ki, İskəndər məhkəmə prosesinin getdiyi sovet dövrünün deyil, XX əsrin lap əvvəllərində yaradılmış bir obrazdır və İskəndərin atdığı bütün addımlar Nazlını və bütün kimsəsizləri müdafiə etməkdən, Şeyx Nəsrullahın ifşa olunmasına çalışmasından ibarət deyilmi?

Bütün bu kimi sualların qoyuluşu və onların cavablandırılması C.Məmmədquluzadənin «Ölülər» pyesi barədə aparılan məhkəmə işinin məzmununu və nəinki məzmununu, hətta hər hansı bir kiçik detalını, başqa sözlə, lazımi incəliklərini araşdırmağa və təhlil etməyə imkan verir. Beləliklə, həm «Ölülər» pyesinin cəmiyyətə verdiyi mesajlar, həm əsərdəki obrazların ifadə etdiyi fikir və ideyalar, həm də pyesə qarşı yönələn təqiblər və bu təqiblərdən yaxa qurtarmaq istəyən mütərəqqi düşüncənin daşıyıcıları barədə tam təsəvvür yaradılır.

Ötən əsrin 20-ci illərində C.Cabbarlının «Aydın» əsərindəki Gültəkin obrazının məhkəməsi də xüsusi maraq doğurmuşdur. Açığı həmin dövrdə qıcıqlandırıcı məqamları ilə daha çox diqqətdə olan «Aydın» son dərəcə cəlbedici bir hadisəyə çevrilmişdir. Bəs Gültəkin nədə mühakimə olunurdu? C.Qasımov faktlara söykənərək onları bir-bir sadalayır: atası evində aldığı burjuaziya ruh və tərbiyəsini dəyişə bilməməsi, qadınlıq izzəti-nəfsini təhqir etməsi, Aydının arvadı ola-ola Dövlət bəyə könül verməsi, zinət düşkünü olması və nəhayət, Aydının fəlakətlərinin səbəbkarı kimi tanınması.

Tədqiqatda Gültəkinə qarşı yönələn bu ittihamların hər biri ayrı-ayrılıqda təhlil edilir. Əsərdən gətirilən nümunələrə, ədəbiyyatşünaslar tərəfindən irəli sürülən mülahizələrə istinadən və pyesin obrazlarına aid bütün psixoloji məqam-

lar nəzərə alınaraq məhkəmə prosesinin nə üçün qurulması və nəyə xidmət etməsi tam şəkildə aydınlaşdırılır. Gültəkinin mühakiməsindən başlayıb daha çox burjua cəmiyyətinin və sahibkarlığın ittihamına doğru uzanan istiqamətin ortaya çıxarılması müəllifin tədqiqatının əsas fikir yükünə çevrilir.

H.Cavidin «Şeyx Sənan» əsərinin qəhrəmanı Şeyx Sənanın məhkəməsinə də ayrıca fəsil ayrılmışdır. Təbii ki, bu faciənin də məhkəmə üçün təhqiqat predmetinə çevrilməsinin öz səbəbləri vardır. Tədqiqatçı həmin səbəblərin şərhindən öncə «Şeyx Sənan» əsərinin hansı təhriflərə məruz qalmasına aydınlıq gətirir. Başlıcası, «Şeyx Sənan»ın sufi görüşlərdən və romantizm prinsiplərindən sərf-nəzər edilməsi böyük bir yanlışlığın başlanğıcı demək idi. Digər tərəfdən dövrün ideoloji tələblərinə uyğun olaraq və Şeyx Sənana istinad edilərək məhkəmə prosesində, əsasən, din xadimləri məhşər ayağına çəkilirdi.

C.Qasımov məhkəmə prosesinin gedişatını tam doğruluğu ilə təhlil etməkdən ötrü, əvvəlcə, sufizmin tarixinə, prinsiplərinə və sufi dünyagörüşünə malik şəxsiyyətlərin fəaliyyətinə nəzər yetirir. Bu sıradan sufizmin mərhələlərinin - şəriətin, təriqətin, mərifətin və həqiqətin məzmununa diqqət yönəldir. Eyni zamanda bu mərhələlərə aid obraz və simvollarla «Şeyx Sənan» pyesindəki obraz və simvolların yaxınlıqlarını və təmas nöqtələrini aşkarlayır. Sufi dünyagörüşündən qaynaqlanan ideyaların «Şeyx Sənan»dan alınan ideyalarla üst-üstə düşməsini əsaslandırır.

«Şeyx Sənan» əsərinin ədəbi məhkəməsinə, konkret olaraq bu barədə təqsirnamənin maddələrinə gəldikdə isə tədqiqatçının ilk fikri belədir ki, ittihamnaməni irəli sürənlər onu romantizmin nümunəsi deyil, realist bir əsər kimi nəzərdən keçirmişlər. Yəni ittihamçı pyesin ideya istiqamətini və sufizmə dayanan simvollarını kifayət qədər duymamışdır.

C.Qasımov «Şeyx Sənan» pyesində mühüm və qabarıq yer tutan məsələləri – şərab içmək, xaç asmaq, Quranı yan-

dırmaq, donuz otarmaq kimi hadisələri araşdırarkən əsas diqqəti bu hadisələrin Şeyx Sənanın öz məsləkinə doğru hərəkətinin keçid pillələri kimi təqdim edir. Beləliklə, bu istiqamətə yönələn məhkəmə ittihamları əsassız hesab olunur. Maraqlı burasıdır ki, məhkəmənin «Şeyx Sənan» haqqında ağır ittihamlar irəli sürməsinə baxmayaraq, əsərin tamaşası teatrlarda yenə də böyük coşqu ilə davam etdirilir.

Tədqiqatçı alim Cəlal Qasımov ötən əsrin 20-ci illərində ədəbi-mədəni həyatda diqqəti özünə cəlb edən ədəbi məhkəmələrin geniş və hərtərəfli təhlilini verməklə ədəbiyyat tariximizin həmin dövrünə yeni bir işıq salmış və bu qiymətli yeni tədqiqatlara yol açmışdır.

Kamran Əliyev
F.e.d. professor

ƏDƏBİ MƏHKƏMƏ VƏ REPRESSİYA – BİR YOLUN İKİ MƏRHƏLƏSİ

Ədəbi şəxsiyyətlərin və milli-ruhi dəyərlərin repressiya illərində məruz qaldığı təqiblər haqda faktlara əsaslanan tədqiqatların aparıcı müəllifi olan professor Cəlal Qasımovun "Ədəbi məhkəmələr" əsəri xalqımızın keçdiyi keşməkeşli taledən dərs almaq üçün ciddi bir "dərslik"dir. Həm ədəbi-elmi, həm sosial-psixoloji, siyasi əhəmiyyəti olan bir mövzunun dəlil-sübutla elmi təhlilini verən bu monoqrafik əsər təkcə filoloqlara yox, bütün ziyalılara, xalqını, millətini sevən insanlara ünvanlanmışdır.

30-cu illərdən əvvəl və sonranı da həmin onillik ətrafında bir məcrada sistemləşdirən tədqiqatçı mübarizə tarixində verdiyimiz qurbanlar bahasına qoruyub saxlaya bildiklərimizin dəyərini göstərməklə bərabər, yeni boşluqların açılmaması yolunda sanki ziyalı səfərbərliyi elan edir.

Burada günümüzün bir çox yerli-yersiz mülahizələrinin elmi cəhətdən sistemləşdirilmiş cavabı vardır. Əsərdə elmi şərhlərlə təqdim olunan faktlar bolşevizm mühitində ziyalılara qarşı yönəldilən üsulların "iblis intiqamı" ilə düzənləndiyini sübut edir. Ən qiymətli dəyərin yalnız özünü qoruma yox, millətin mirasını saxlama olduğunu aşılayan tədqiqatçı "özü (H.Cavid, Ə.Cavad, M.Müşviq, S.Mümtaz və s.) və sözü (S.Vurğun, S.Rüstəm, M.Rahim və b.) həbs olunanlardan" bəhs edəndə, haqlı olaraq, yaşayanların da repressiyadan yaxa qurtara bilməmələri təsəvvürünü yaradır; çünki repressiyanın hədəfi ayrı-ayrı şəxsiyyətlərdən daha çox ənənəvi dəyərlər, milli ruh idi. Onu qoruyub saxlamaq istəyəndə şəxsiyyətlər məhz həmin cəhətlərilə mühakiməyə cəlb olunurdular, onların qüruru, qoruduqlarından aldıqları mənəvi güc cəzaya məruz qalaraq sınağa çəkilirdi.

Bolşevizmin irticaçı mahiyyəti mənbələrdə adətən repressiyalar dövründə aparılan kütləvi həbslər və dustaqxanalarda yaşadılan işkəncələrlə izah olunur. C.Qasımov uzun illər apardığı araşdırmalarla ədəbi məhkəmələri repressi-

yanın ilkin mərhələsi kimi elmi aktuallıq dövriyyəsinə gətirir. İlk baxışda ədəbi məhkəmə sanki bir oyun xarakteri daşıyır. Lakin bu, tamaşadan, oyundan daha çox hərəkətə gətirilən mexanizmin sürət götürmə anında yaratdığı tozanaq və gələcək oyunların baş məşqi idi; ədəbi məhkəmələrdə bir yazıçı yoldaş o birinin əsərinin qəhrəmanının ittihamçısı, prokuroru kimi çıxış edirdi, 37-nin repressiyalarında isə bir ziyalı o birinin üzünə dururdu, əleyhinə danos verirdi. C.Qasımov bu iki hadisə arasındakı əlaqə və bağları həssaslıqla müqayisə edərək üzə çıxarır. Hazırda belə fikirlər də mövcuddur ki, Lenin yaşasaydı 37-nin repressiyaları olmayacaqdı. Repressiyanın əsas səbəbkarı guya ki, Stalindir. Lakin bu əsərdə təqdim olunan faktlar bu qənaətin yalnışlığını sübut edir; tədqiqatçı repressiyayanın ilk qurbanının Azərbaycan Cümhuriyyəti olduğunu göstərməklə bərabər, 20-ci illərin ədəbi məhkəmələrinin də əslində milli-mənəvi dəyərlərimizin repressiyasına yönəlmiş bir siyasətdən başqa bir şey olmadığını izah edir. Cəmiyyətin arxasınca gedə biləcəyi şəxsiyyətləri üz-üzə gətirib "döyüşdürmək" mənəvi varlığımıza virus yolluxdurmaqdan başqa bir şey deyildi. Monoqrqfiyada bir üzləşdirmə oyunundan digərinə keçidi müəllif irticanın təkamülü kimi təqdim edir. Ədəbi məhkəmələrdə, eləcə də həbsxanada bir ziyalının başqası ilə qarşı-qarşıya qoyulması artıq şəxsiyyətlərin yox, dəyərlərin alçaldılması idi. Tədqiqatçı alim ədəbi məhkəmə və həbsxana məhkəməsi arasındakı paralelləri üzə çıxarma niyyəti ilə əsərdə hadisələr və illər arasında gediş-gəlişli keçidlərdən uğurla istifadə etmişdir; ayrıca ədəbi məhkəməni araşdırıb daha sonra 30-cu illərin repressiyalarına başlamamışdır, onları bir müstəvidə təqdim etmişdir.

Həbsxana üzləşmə və ifadələrində faktları üzə çıxaran müəllif "şahidlik etməmək" qəhrəmanlığından da bəhs edir ki, bu da yeni nəslin tərbiyəsi üçün çox mühüm bir örnəkdir.

Yaxşı haldır ki, monoqrafiyada hər hansı bir fakt təqdim edilərkən onun ətrafına da nəzər salınır. İstintaq materiallarının hansı şəraitdə verilməsi haqda da dolğun təsəvvür

yaradılır. Müstəntiqlərin cavabalma mexanizmi çox ağır olsa da verilən cavabların bir çoxu milli tarix faktlarını müəyyənləşdirmək baxımından müasir dövr üçün xüsusi əhəmiyyət kəsb edir. Əgər verilən cavablar o zaman hakim ideologiyanın nöqteyi-nəzərindən günah hesab edilərək həbs olunanlara fiziki ölüm hökmü hazırlanmasına səbəb olurdusa, eyni zamanda onların antisovet fəaliyyətləri bu şəxslərə əbədi və şərəfli bir ömür qazandırırdı.

Bəzən H.Cavidin və ailəsinin çəkdiyi əzablardan xəbəri olmayanlar ona qarşı guya ki, M.C.Bağırovun bir qədər yumşaq münasibət göstərdiyini, onu qorumağa çalışdığını bildirirlər. Lakin C.Qasımovun arxiv sənədlərindən təqdim etdiyi məlumatlar göstərir ki, bu heç də belə olmamışdır. Yazıçılar ittifaqının milli ruhlu nümayəndələrini "əclaf" adlandırarkən hər kəsdən daha artıq özü bu ada layiq olan M.C.Bağırov Cavidin də adını həmin sırada çəkir.

Ədəbi məhkəmələrin 37-yə təkcə aralarına gərginlik gətirilən ziyalıları yox, həm də xalqı hazırladığını göstərən müəllif bunu məhkəmələrin keçirilmə üsulları ilə əlaqələndirir. Təsadüfi deyil ki, ədəbi məhkəmələrdə giriş sərbəst idi. Bu isə adi maraq üçün də gələnlərə ideologiya qorxusunu, yasaqları tələqin etməyə yardım göstərirdi, daha doğrusu, qorxunun yoluxma dairəsini genişləndirirdi.

Tədqiqatçı alim ədəbi mübahisə və ədəbi məhkəmələri bir-birindən fərqləndirərək 20-ci illərdə onların fərqli məqsəd daşıdığını göstərir. Ədəbi mübahisə, bir növü müzakirə xarakteri daşıyırdı. Məhkəmələrdə isə həqiqi məhkəmələrə uyğun proses gedirdi, hətta müəllifin məlumatından o da aydın olur ki, bu işə hüquq müdafiəçiləri də cəlb olunur və onların əvvəlcədən ədəbi işçilərlə, məhkəmə-tamaşanı hazırlayanlarla birgə müşavirələri keçirilirdi. "Kommunist" qəzetinin o vaxtkı məramını həmin qəzetdə çap olunan məqalələr əsasında açan müəllif ədəbi məhkəmələrin əsas məqsədinin "Şura quruluşunun gedişinə mane olmaq dərəcəsi"ni müəyyənləşdirmək olduğunu bildirir.

Tədqiqatçı ədəbi məhkəmələrin mətbuatda təbliğinə də diqqət çəkməklə ictimai rəy formalaşmasına bolşevik hakimiyyətinin marağı və üsulları haqda geniş təsəvvür yaradır.

C.Qasımov ədəbi məhkəmələrlə bərabər, mərhələ-mərhələ məhkəmə qurulan əsərləri və onların müəlliflərinin yaradıcılığını, həyat fəaliyyətini, həbs olunanların dustaqlıq müddətində özlərini necə aparmalarını da tədqiqata cəlb etməklə yaradıcılıq və şəxsiyyət, ədəbi məhkəmə və elmi araşdırma arasında maraqlı paralellər təqdim edir.

Müəllif əsərləri təhlil edərkən yalnız onun dövr və zamanla bağlı məqamlarına toxunmur, eyni zamanda poetika-sənətkarlıq elementlərinə də yüksək elmi hazırlıqla yanaşır. Hər bir dramaturqun bədii dilinin poetik semantikasını onun öz dünyagörüşü və sənətkarlığı səviyyəsində açmağa çalışır. Bu isə tədqiqatçıdan geniş elmi bilik və hazırlıq tələb edir. Əsərdə bu, aydın şəkildə müşahidə olunmaqdadır. Xüsusən Cavidin "Şeyx Sənan" əsərinin təhlili zamanı Şərq dünyabaxışı sistemi olan sufizmə aid mənbələrə bələdlik onların tətbiqi ilə alınan nəticələr elmi əhəmiyyət baxımından təqdirəlayiqdir.

Tədqiqatçının ədəbi məhkəmə ilə ondan sonrakı onilliklərin ədəbi tənqidi arasında olan bağı, daha doğrusu ədəbi məhkəmənin tənqidi yönəltməsi məsələsini də önə çəkməsi bir çox baxımdan əhəmiyyətlidir.

Cəlal Qasımov maraqlı, ilk baxışda diqqəti cəlb etməyən bir məsələyə də diqqəti yönəldir; əslində sovet ideologiyasının əsas təbliğat və ictimai rəy formalaşdırma vasitələrindən olan ədəbi məhkəmələr maraqlıdır ki, "Şeyx Sənan" əsərinin məhkəməsində sanki islam dininin müdafiəçisi kimi çıxış edirlər. Müəllif doğru qiymətləndirir ki, bu şüurunda islamın dərin kök saldığı xalq kütlələrini dramaturqun əleyhinə yönəltmə üsulu olmaqla bərabər, həm də əsəri ənənəvi şərq ədəbiyatı kontekstindən ayırmağa xidmət edirdi, gələcək tədqiqatçıları da əsərin əsl mahiyyətindən ayıran təhlil metodlarına yönləndirirdi

Maraqlıdır ki, "Şeyx Sənan"ın məhkəməsi iki cümə davam etsə də qərar iştirakçıların qarşısında oxunmur, sonradan "Kommunist" qəzetində çap olunur. Bu fakt ədəbi məhkəmə keçirənlərin və onların rəhbərlərinin ehtiyatlılığının göstəricisidir. Görünür, qərar oxunarkən onların məqsədinə əks təsir göstərən hər hansı bir fikrin səslənməsindən qorxduqları üçün belə hərəkət etmişlər.

Ədəbi məhkəmələrin siyasi-ideoloji xarakter daşıması mətbuatdan təqdim olunan materiallarda da görünür. Belə ki, mətbuatda ədəbi məhkəməyə çağrılan aktyorları məhkəmədən sonra oynanılan tamaşalarda məhkəmə iradlarını nəzərə almadıqları üçün tənqid edirlər. Bu isə əslində dramaturq, aktyor və rejissorların siyasi təhdid və təqibinin başladığını göstərir.

Əsərdə musiqimizin bədxah qonşular tərəfindən mənimsənilməsinə dolayı yolla xidmət edən "tarın mühakiməsi" haqda da maraqlı məlumatlar təqdim olunur. Onun mühakiməsindən xəbərimiz olsa da musiqişünasların bu mühakiməyə qarşı apardığı mübarizə haqda demək olar ki, bir o qədər də məlumatlı deyilik. Ə.Bədəlbəylinin o illərdə "Kommunist" qəzetində çap olunmuş məqaləsi bunun gözəl nümunəsidir. Bundan əlavə, qərb-şərq sənətinin fərqli xüsusiyyətlərə malik olduğu üçün fərqli prinsiplərlə dəyərləndirilməlidir, ideyasını əsaslandıran Ü.Hacıbəylinin M.Quliyevə cavabı da o illərdə vətənpərvərliyin, millət sevgisinin insanları tərk etmədiyini göstərir. Biz özümüzə aid olanlardan imtina etdikcə, ona sahib çıxmadıqca onu sahiblənmək istəyən "yoxsullar" tapılır, bəddxah qonşularımız kimi.

Bu əsəri oxuduqca hazırda rastlaşdığımız bir çox problemlərin təməlləri və ilk sütunları haqda bizdə təsəvvür yaranır. Müstəqilliyimizin, itkilər vermə bahasına əldə olunsa belə, nə qədər müqəddəs və qiymətli bir nemət olduğu qənaəti bir daha əsaslandırılır.

Tahirə Məmməd
F.e.d. professor

ÖN SÖZ ƏVƏZİ

Məhkəmə sözünü eşidən hər kəsin yadına ilk öncə hansısa bir cinayətkar və ya onun törətdiyi əməllərlə bağlı hüquq-mühafizə orqanlarının həyata keçirdiyi ənənəvi mühakimə prosesi düşür. Həmin məntiqlə fikirləşmək olar ki, bu monoqrafiya da hüquqla bağlı bir kitabdır. Lakin burada söhbət hüquq normalarını pozmuş hər hansı bir təqsirləndirilən şəxsdən və ya cinayətkar qrupdan deyil, sovet həyat tərzinə uyğun gəlməyən, onun prinsipləri ilə uzlaşmayan, marksçı-leninçi baxışlar sistemini təqdir və təbliğ etməyən bədii əsər qəhrəmanlarının ədəbi mühakiməsindən gedir.

Arxivlərdən üzə çıxarılan, uzun müddət cəmiyyətdən yasaqlanmış, faktların və sənədlərin təhlili və tədqiqi göstərir ki, repressiyaların hədəfi yalnız şəxsiyyətlər yox, həm də milli mənəvi dəyərlər olmuşdur. Bu da sovet totalitarizminin repressiv aksiyalarının miqyas genişliyini, irticaçı simasını bütün tərəf və cəhətləri ilə üzə çıxarır.

Ədəbi əsərlərin mühakiməsi daha çox iyirminci yüzilliyin 20-ci illərində aparılsa da, sonrakı illərdə sovet totalitarizmi ədəbi əsərlərin obyektiv tədqiqinə imkan verməmiş və bütün bunlar düşünülmüş surətdə ədəbi tənqidin diqqətindən kənarda qoyulmuşdur.

Məlumdur ki, sovet repressiyalarının stalinizm dövrünün istintaq qovluqları bir qayda olaraq «Vətən xaini», «xalq düşməni» hökmü ilə başa çatır. Doğurdanmı Azərbaycan ziyalıları – Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əmin Abid, Əlabbas Müznib, Salman Mümtaz, Əli Nazim, Ömər Faiq Nemanzadə, Tağı Şahbazi, Əli Nəzmi, Mustafa Quliyev, Bəkir Çobanzadə, Seyfulla Şamilov, Yusif Vəzir Çəmənzəminli, Ruhulla Axundov, Hacı Kərim Sanılı, Əli Razi Şamçızadə, Seyid Hüseyn, Ümmügülsüm Sadıqzadə, Hənəfi Zeynallı, Vəli Xuluflu, Atababa Musaxanlı, Qantemir, İsmayıl Katib, İdris Axundzadə, mühacirətdə olanlardan

Məmmədəmin Rəsulzadə, Mirzəbala Məmmədzadə, Almas İldırım, Əbdülvahab Yurdsevər, Nağı bəy Şeyxzamanlı, Əhməd Cəfəroğlu, Şəfibəy Rüstəmbəyov, Ceyhunbəy Hacıbəyli və yüzlərlə başqaları «Vətən xaini», «xalq düşməni» olmuşdur? Bu sahə ilə az-çox məşğul olan bir araşdırıcı kimi qəti və birmənalı şəkildə deyə bilərəm ki, adlarını sadaladığım və ya sadalamadığım repressiya qurbanlarının heç biri Azərbaycan xalqının düşməni olmamışdır. **Onların içərisində antisovet, antiSSRİ təbliğatı aparanlar olsa da antiAzərbaycan təbliğatı aparan olmamışdır. Bu ziyalılar arasında «SSRİ mənim vətənimdir» şüarını həzm edə bilməyən, Azərbaycanın acı taleyini görən ziyalılar az deyildi. Ona görə də onların bəzilərinə, belə demək mümkünsə, SSRİ – imperiya xaini, imperiya düşməni demək olar, lakin Azərbaycan xalqının düşməni, Azərbaycan adlı vətənə xəyanət etmiş şəxs demək olmaz! Bu ziyalıların böyük əksəriyyəti milli əxlaqa və milli düşüncəyə malik türk ruhlu, türk təfəkkürlü sənətkarlar idi və onlar türkün ziddinə bir iş görə bilməzdi. Elə məsələnin əsl mahiyyəti də bunda - türk ruhunu, ortaq türk mədəniyyətini məhv etməkdə idi.**

Bu gün ədəbi məhkəmələrin materiallarının öyrənilməsi və tədqiqi nə dərəcədə aktualdır? Fikrimizcə, bu aktuallığı şərtləndirən birinci amil onunla bağlıdır ki, bizim milli mənəvi dəyər və sərvətlərimizin sovet totalitarizminin sərt qadağa və yasaqlarından necə çıxmasını bütün aydınlığı ilə dərk edək. **Ədəbi-mədəni irsin taleyinə qayıdış yalnız tarixi-siyasi hadisə deyil, həm də yaddaş hadisəsidir. Ədəbi-mədəni irsi mühafizə və müdafiə etməyin, gələcək nəsillərin malına çevirməyin ən doğru yolu yaddaşın bərpasıdır.** Çünki yaddaş və genetik kod itəndə və ya zədələnəndə mənəvi, əxlaqi, dəyər və sərvət də, dövlətçilik də şübhə altına alınır, ayaq tutmamış büdrəyir. Dövlətçilik ənənələri tarixin sınağından zədəsiz və fəsadsız çıxanda isə tarixə

Az-2
46685
AMEA
Mərkəzi Elmi Kitabxana /İRN

sədaqətini yenidən ifadə edir. Yaddan gələn Kirovabadı Gəncəyə, Jdanovu Beyləqana, Vartaşeni Oğuza, Qutqaşeni Qəbələyə, İliçi Şərura, Xanları Göygölə, Əlibayramlını Şirvana, Əzizbəyovu Xəzərə... və nəhayət, Azərbaycan SSR-ni müstəqil Azərbaycana - öz ilkin adına və ünvanına qaytarır. Bax budur milli yaddaşın bərpasının fəlsəfi mahiyyəti, siyasi modeli, gərəkliliyi.

İkincisi, öyrənək ki, sovet siyasi repressiyalarının ilk qurşunu şəxsiyyətdən öncə ədəbi-mədəni irsə dəymişdir. Həmin irsi qorumaq və bərpa etmək baxımından da bu mövzu aktualdır. Sovetlər dönəmində xalqdan gizlədilən, lakin xalqın tarixi və taleyi ilə bilavasitə bağlı olan qadağa qrifli və yasaq şifrəli sənədlər, o cümlədən məhkəmə materialları öyrənilmədikcə bolşeviklərin məqsəd və məramları da, ədəbiyyatımıza və mədəniyyətimizə vurduğu zərbələr də, etdiyi təhriflər də lazımi səviyyədə, faktlı, predmetli və əsaslandırılmış şəkildə araşdırılmayacaq, birtərəfli və natamam olacaq.

Onu da qeyd etmək lazımdır ki, ədəbi məhkəmələr zamanı daha çox dram əsərləri mühakimə edilirdi. Bunun əsas səbəbi 1920-1930-cu illərdə əhalinin böyük əksəriyyətinin intellekt səviyyəsinin, elmi-texniki tərəqqinin zəif olması və ictimaiyyətin aldığı bilgilərin özəyini birbaşa bədii informasiya təşkil etməsi və teatrlara gedənlərin sayının qat-qat artıq (kütləvi) olması idi. Başqa bir mühüm məqam ondan ibarətdir ki, ədəbi mühakimələrə M.Cəlil kimi, H.Cavid kimi, C.Cabbarlı kimi xalqın rəğbətini qazanmış və özünü tərənnümdən özünü təsdiqə keçmiş, müstəqilliyin nə olduğunu yaxşı dərk edən mütəfəkkir ziyalıların, ən görkəmli əsərləri cəlb edilirdi.

Ədəbi məhkəmələrdə şəxsiyyətlər, mütəfəkkirlər deyil, ondan daha dəhşətlisi, ondan daha bədtəri olan keçmişdən, dünəndən və yaddaşdan qaynaqlanan, güc alan intellektlər, düşüncələr, təfəkkürlər ittiham olunurdu. Beləliklə də, ədəbi

məhkəmələrdə repressiyanın hədəfi tarixlə ənənə, irslə varis, illərlə nəsillər arasındakı informasiya əlaqəsi - intellekt «mən», milli mənəvi sərvət və milli yaddaşın, bir sözlə ifadə etsək, svilizasiyanın özü olurdu.

Bütün bunlara baxmayaraq, onu da qeyd etməliyik ki, ədəbi mühakimələrin (eləcə də ədəbi mübahisələrin) müəyyən müsbət əhəmiyyəti də vardı. Əvvəla, bu siyasi aksiya dram əsərlərinin təbliği baxımından böyük əhəmiyyətə malik idi. Belə ki, keçən əsrin 20-ci illərində bir çox ədəbi əsərlərin Azərbaycan teatrlarında tamaşaya qoyulması, verilmiş elanlar vasitəsi ilə ziyalıların teatrlara cəlb edilməsi və həmin tamaşalarla bağlı dövri mətbuatda resenziyaların nəşri. İkincisi, dram əsərlərinin təhlili və tənqidi ədiblərin sənət əsərlərinə böyük məsuliyyət hissi ilə yanaşmasına səbəb olurdu. Üçüncüsü, böyük aktyor nəslinin, aktyorlar məktəbinin yetişməsi baxımından da əhəmiyyətli idi. Və nəhayət, ədəbi-fəlsəfi və teatr tənqidinin formalaşmasına yardım edirdi.

Repressiyanın mənəviyyat, mədəniyyət, ədəbiyyat tarixinə zərbələri və nəticələri barədə həm keçmiş sovet, həm də ən yeni dövr Azərbaycan ədəbiyyatşünaslığında ümumi şəkildə çox yazılıb. Lakin bu hadisələr – ədəbi-mədəni irsin repressiyası barədə ilk mənbə və təfsilat, yasaqsız, qadağasız bütöv həqiqət on illər boyu «tamamilə məxfi» yarlıqlı ştamp, möhür, kilid, qıfıl altında qalıb. Ötən əsrin 50-ci illərindən başlayaraq mütəfəkkir şəxsiyyətlər reablitasiya olunsa, üzərlərindəki «ləkə» silinsə də, onların əsərlərinin bir çoxu hələ də öz bəraətini gözləyir. **Ədəbi-mədəni irsin və ədəbi-elmi düşüncənin reablitasiyası yalnız dövlət rəsmisinin sərəncamı ilə deyil, həm də qədirşünaslıq işi görən alimin və tədqiqatçının, jurnalistin və tarixçinin arxiv küncündən, naməlum saxlanc yerindən işığa çıxardığı və ədəbi-elmi dövriyyəyə buraxdığı elmi-nəzəri, tarixi-publisist... əsərlərlə reallaşır.**

İmperiyanın özünün dağılmasından sonrakı şəraitdə, suveren, müstəqil Azərbaycanda ədəbi mədəni irsin repressiyası barədə ilk mənbədən alınmış təfsilatlı, həqiqəti geniş, monoqrafik elmi araşdırmanın predmeti, hədəfi etməyə imkan yaranıb. Fikrimizcə, indiki tədqiqatlar şəxsiyyətin repressiyası ilə yanaşı, həm də mənəvi dəyərlərin, ədəbi-mədəni irsin, dilin, dinin, genin və şəcərənin repressiyasını, bütövlükdə Azərbaycanın mənəvi-əxlaqi dəyər və sərvətlərinə dəyən zərbə və zədələri özündə ehtiva etməlidir. Müasir mədəniyyət və ya ədəbiyyat tariximiz yazılarkən kor-koranə şəkildə «sosializm», «Marks», «Lenin»... və s. epitetlərdən və ya bəzi iqtibaslardan imtina etməklə kifayətlənmək olmaz. Ədəbiyyat və mədəniyyətimizə öz milli ruhunu qaytarmalıyıq. Bir sözlə, **ədəbiyyat və mədəniyyət örnəklərimizi təhrifdən təmizləmək və təshih etmək istəyiriksə, tariximiz və taleyimizlə bağlı obyektiv, faktlı, predmetli və konseptual əsərlər kabinetlərdə deyil, arxivlərdə yazılmalıdır.**

1920-1930-CU İLLƏRİN ƏDƏBİ VƏ SOSİAL-PSİXOLOJİ MÜHİTİ

VƏTƏN içində yaşadığın deyil, içində yaşatdığındır. Deməli, VƏTƏN sərhəddən yox, YADDAŞDAN başlayır! VƏTƏNİN deyil, YADDAŞIN sərhədləri pozulanda onun bütövlüyünü bərpa etmək olmur!

Mübahisəsiz və mübaliğəsiz demək olar ki, repressiyaların formalarından biri olan ədəbi-bədii əsərlərin məhkəməsi, sözün geniş mənasında, Azərbaycanın ədəbi-fəlsəfi fikrinin və ədəbi düşüncəsinin mühakiməsi idi. Lakin biz ədəbi-fəlsəfi düşüncənin mühakiməsinə keçməzdən əvvəl 1920-1930-cu illərin ədəbi, eləcə də sosial-psixoloji mühitinə, sənətin və sənətkarın total cəmiyyətdə üz-üzə və başbaşa qaldığı dövrün və sistemin törətdiyi tragik-dramatik situasiyalara ümumi bir nəzər yetirmək istərdik.

Öz qaynağını mifdən, əsatirdən, eposdan alan hürriyyət və istiqlal mücadiləsi tarixi-xronoloji zaman ardıcıllığı baxımından daha çox və həm də daha sistemli Gülüstan – Türkmənçay «sülh müqavilələri» - Azərbaycanın parçalanması, zorla Rusiyaya və İrana birləşdirilməsi dövrünə təsadüf edir.

Həmin dövrdə bədii-fəlsəfi düşüncədə, milli mətbuatda, təhsil və teatr hərəkatında, bütünlükdə o illərin maarifçilik təsisatlarında formalaşıb milli miqyasda bərqərar olan Azərbaycançılıq ideyası XX əsrin əvvəllərində öz real bəhrələrini verdi. Şərqdə ilk milli demokratik dövlət zəngin milli-mədəni və sosial-fəlsəfi ənənə, realist və romantik - maarifçi konsepsiya ilə hazırlandı, mənəvi stixiyaya yad mühitdən süni şəkildə «import» edilən vulqar bolşevik doktrinası ilə məhv edildi. Bolşevikləşmədən dərhal sonra ədəbiyyat və sənət adamlarının proletar mədəniyyətinə yiyələnmələri üçün dövlət və hakim partiya diktaturası səviyyəsində hərtərəfli təşkilati-ideoloji proqram tərtib edildi və qlobal-strateji miqyasda, planlı-nizamlı şəkildə həyata keçirilməyə başlandı.

İctimai-əxlaqi təfəkkürü, milli özünüdərkin tamlığını və bütövlüyünü, müstəqil, demokratik Azərbaycanla yeni «sosialist» Azərbaycanın ədəbiyyatları arasındakı fərqi və ümumiliyi, ənənə, irs, yaddaş əlaqələrini və əlaqəsizliyini görmək baxımından o dövrdəki ədəbi prosesin təhlili göstərir ki, 1920-1950-ci illərdə Azərbaycan ədəbiyyatı iki istiqamətdə inkişaf etmişdir: Yeni cəmiyyətin ideoloqu elan olunan yeni sovet ədəbiyyatının əsas qayəsi yeni izmi təbliğ etmək və onun tarixdə, dünyada bərabəri olmadığını sübuta yetirmək, yeni həyatı, cəmiyyəti, məişəti, əxlaqı marksçı-leninçi platformadan əks etdirmək və dünya imperializminə meydan oxumaq, türkçülük, islamçılıq meyllərini ifşa etmək idi. Burada əsas məqsəd Azərbaycanda yaranmış və formalaşmış, əsası türkləşmək, islamlaşmaq və avropalaşmaq (müasirləşmək) olan genefondu dağıtmaq idi.

Ötən əsrin 20-ci illərində bu tələbləri həyata keçirmək o qədər də asan deyildi. Çünki həmin illərdə ədəbiyyata başçılığı milli məfkurəyə malik olan yaşlı nəslin nümayəndələri edirdi və onların təfəkküründə milli istiqlaliyyət, müstəqil yaşamaq düşüncəsi daha güclü idi. Yaşlı nəsli, xüsusilə də H.Cavid və Ə.Cavad kimi artıq şöhrət zirvəsində olan sənətkarları sosialist realizminin tələblərinə ideya cəhətdən hazır olmamaqda, cəmiyyətə, tarixə, sosial tərəqqiyə münasibətdə, marksçı-leninçi prinsiplər səviyyəsinə yüksələ bilməməkdə günahlandırırdılar. Əslində H.Cavid və Ə.Cavad artıq bir dəfə istiqtalın qələbəsinə - Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmış milli istiqlal hərəkatını hazırlayan mütəfəkkir ideoloq sənətkarlardan idilər və öz sənətləri ilə yenə də gəncləri Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə təşviq edirdilər. Bunu görən bolşeviklər çalışırdılar ki, gənc nəsli onlardan qorusunlar, yeni və yaşlı ədəbi nəsilləri bir-birindən uzaqlaşdırsınlar. Yaşlı nəsillə hakim ideologiya arasında ixtilaf güclü idi: «Bunun əksinə olaraq, yeni siyasi-ideoloji iqlimlə yeni nəslin - o vaxt cavan,

«komsomol» şairlərin ovqatı və əhvalı arasında tam bir uyğunluq hökmfərma idi. Köhnə dünyanı kökündən uçurmaq, məzarlar, uçuqlar, xarabalar üzərində yeni dünya qurmaq həm hakim ideologiya, həm də cavan poeziya, dramaturgiya və nəsr üçün ümumsiyasi eyforiya, şərikli bədii-estetik pafos və təlim idi»[1].

Bu da inkaredilməz faktdır ki, 20-ci illərdə Türkiyə ədəbiyyat və mədəniyyətinin Azərbaycan ədəbiyyatı və mədəniyyətinə güclü təsiri hələ davam edirdi. Belə ki, M.F.Köprülüzadənin «Azəri ədəbiyyatına aid tədqiqlər» (1926), İ.Hikmətin «Azərbaycan ədəbiyyatı tarixi» (1928) kitabları milli şüurun formalaşmasında az rol oynamamışdı. Doğrudur, bu ədəbiyyat tarixləri marksçı platformadan yazılmadığına görə Azərbaycan tənqidçiləri tərəfindən tənqid hədəfinə çevrilmişdir, lakin «vahid türk ədəbiyyatı» konsepsiyası dövrün milli tendensiyalı sənət adamları tərəfindən gizli şəkildə də olsa inkişaf etdirilirdi. Bu əsərlərin H.Zeynallı, Ə.Nazim, M.Hüseyn və digər tənqidçilərin diqqətini cəlb etməsi göstərir ki, onların müəllifləri Azərbaycanda böyük nüfuza və təsir gücünə malik olmuşlar. Həmin əsərlərdən daha çox yaşlı nəslin nümayəndələri təsirlənmiş və əsərlərində türkçülük ideyalarını qabarıq şəkildə olmasa da, müəyyən işarələrlə verməyə çalışmışlar. Rus bolşeviklərinin əsas məqsədi milli ideologiyanın inkişafının qarşısını almaqdan, onu türk ədəbiyyat sferasından çıxarıb sosialist, bolşevik rus ədəbiyyatının və mədəniyyətinin təsir dairəsinə salmaqdan, marksistləşdirməkdən ibarət idi. Ehkamçı, vulqar ədəbiyyat ideoloqları bu mübarizəni ədəbi nəsillər, eləcə də yeni və köhnə cəmiyyətlər arasında mübarizə səviyyəsində ümumiləşdirirdilər: «1919-cu il Azərbaycan tarixində murdar bir ləkədir. Əksinqilabçı burjua mülkədar firqəsi olan «Müsavat», bir yığım avantürist və bəy Azərbaycanı idarə etməyə baş-

[1] Yaşar Qarayev. Tarixi: yaxından və uzaqdan, Bakı, «Sabah» nəşriyyatı, 1996, səh. 481.

layır. Müsavatçılar öz qısa müddətli hakimiyyətləri zamanında ölkənin bütün təsərrüfatını dağıtmış, köhnə mütləqiyyət hökumətinin bütün qaydalarını müdafiə etmişlərdir. Müsavatçılar hakimiyyəti türk ədəbiyyatı tarixində ilan zəhri ilə dolu səhifələr buraxmışdır. Ədəbiyyat səhnəsinə bəy və burjuanın yaltaq nökərləri olan, milli ədavəti tərənnüm edən və alovlandıran, istedaddan məhrum adamlar çıxırlar»[2].

Bütün bunlar ədəbiyyatın və sənətin yönünü, axarını dəyişdi, onu gendən, kökdən, ənənəvi millilikdən uzaq saldı və yeni cəmiyyətin planlı təsərrüfat ədəbiyyatına çevirdi. «Pambıq», «plan», «kolxoz», «beşillik» sənətin təbliğat dairəsinə, «qolçomaqlara», «antisovetçilərə» ölüm şüarı isə ifşa, hücum hədəfinə çevrildi. Sənətdən insanların daxili-mənəvi aləminin, cəmiyyətin tragik-dramatik taleyinin təsviri deyil, bu mənzərəni daha da tündləşdirən fabrik və zavodların gurultusu, vahiməsinin təbliği tələb olunurdu: «Şerimizin çoxu köhnə ahənglə səslənir. Fabrik-zavodların gurultusu, şaqqıltıları hələ bizim şairlərimizin heç birinin misralarında öz əksini tapmamışdır»[3].

Bolşeviklər bu yolla sənətkarı yeni yaranan cəmiyyətin arzu və istəklərinə uyğun yazmağa, onu özünün ideyalarının ruporuna çevirməyə çalışırdılar. Yeri gəlmişkən belə bir xarakterik nümunəni yada salmağı məqsədəuyğun hesab edirik. Cavid haqqında yazılan xatirələrin birində deyilir ki, bir gün xalq maarif komissarı Mustafa Quliyev Hüseyn Cavidi evinə çay içməyə dəvət edir. Cavid bu təklifi məmnuniyyətlə qəbul edir. Çay içdikdən sonra M.Quliyev onu özünün kabinetinə aparır. Cavidin diqqətini maarif komissarının kabinetinin divarına vurulmuş şəkillər cəlb edir. Yağlı boyalarla çəkilmiş bu şəkillərin içərisində təbiət təsvirləri, gözəl qadın portretləri, natürmortlar və sair var imiş... Onlar

[2] Məmmədkazım Ələkbərli. Azərbaycan ədəbiyyatı, Bakı, «Azərnəşr», 1935, səh. 20.

[3] M.Hüseyn. Əsərləri, X cilddə, IX cild, Bakı, «Yazıçı», 1979, səh. 33.

kabinetdə söhbət edərkən M.Quliyev Cavidə deyir: Yoldaş Cavid! Siz böyük şairsiniz, xalq sizi çox sevir. Lakin sizin poeziyanız bizim yeni həyatımızdan çox geri qalır. Siz ancaq təbiət, məhəbbət, gözəl qadınlar və s. bu kimi apolitik mövzularda yazırsınız. Siz kəndlərimizdə yaranan dəyişiklikləri görmürsünüz? Kənddə həyat kökündən dəyişilib, kolxozlar təşkil olunub, çöllərdə traktorlar işləyir. Lakin təəssüflə deməliyəm ki, sizin şeirlərinizdə traktora təsadüf etmirik. Bəs siz nə vaxt traktor haqqında yazacaqsınız?

Böyük sənətkar özünəməxsus müdrikliklə kabinetin divarlarından asılan tabloları göstərib kinayəli təbəssümlə ona belə cavab verir: - Yoldaş, Quliyev! Sizin kabinetinizin divarlarında nələr görürəm? Təbiət, məhəbbət, gözəl qadın, alma, armud, qədəh, kuzə və sair. Nə üçün bu qadın portretlərinin yanında bir dənə də olsun traktor şəkli asmayıbsınız?

Cavidin gözlənilməz cavabından sonra Qulimyev deyir: - Siz nə danışırsınız, yoldaş Cavid! Bunlar bədii lövhələrdir. Traktorun bunların yanında nə işi var?

Cavid yenə kinayə ilə cavab verir: - Yoldaş Quliyev! Siz nə fikirdəsiniz, bəs mənim şerlərim bədii lövhələr deyil? Siz niyə öz tırtıltı traktorlarınızı mənim şeirlərimin içinə salırsınız? Əgər sizin divarlarınızdan, heç olmasa, bircə traktor şəkli asılsa, o zaman siz traktorun səsini mənim şeirlərimdən də eşidərsiniz. Cavid bu sözləri deyərək xalq maarifi komissarı ilə vidalaşıb onun evini tərk edir[4].

Bu nümunədəki iki mühüm xüsusiyyəti önə çəkmək istərdik. Birincisi, sənətin və sənətkarın qarşısında qoyulmuş tələblər. İkincisi isə, sənətkarın təfəkkür və düşüncə azadlığının əlindən alınması, nədən yazmağın sifarişinin əvvəlcədən verilməsi.

Yeni və köhnə cəmiyyət, eləcə də, əski və cavan ədəbiyyat arasında paralellər aparmaq və üstünlüyü yeni yaranana vermək də sovet ədəbiyyatının xarakterik xüsusiyyət-

[4] Cavidi xatırlarkən. Bakı, 1982.

lərindən idi: «Əski ədəbiyyatın qayəsi yalnız insanların hissiyyatını qıcıqlandırmaq, onların qəlbində bədii bir həyacan oyandırmaq idi. Əxlaqdan, həqiqətdən, məntiqdən bəhs olunmurdu; çünki əski ədəbiyyatın bunlarla heç bir bağlılığı olmadığı iddia edilirdi. Halbuki yeni ədəbiyyatın, yeni ədəbiyyatçılığın üzərinə çox böyük bir vəzifə də düşür ki, bunu əski ədəbiyyatda görə bilmərik. Bu da psixolojiləri tərbiyə etməklə gələcək cəmiyyətə yaxınlaşdırmaqdan ibarətdir»[5].

M.Quliyev 1929-cu ildə çap etdirdiyi «Türk ədəbiyyatında sağ uklon» adlı məqaləsində yazır: «Bir neçə il bundan əvvəl Ə.Cavad məhşur «Göy göl» şerində iflas etmiş müsavat ziyalılarının keçmiş «əzəmət» xülyası ilə yaşayaraq ömür keçirdikləri «uzaq ölkələrə» salam göndərmişdi. İndi Cavad bu səfillərə əl uzatmaq istəyir. Bu əli qırmanclamaq lazımdır. Yaltaqlıq, ikiüzlülük, xəyanət və riyakarlığa nəhayət verilməlidir»[6].

Tənqidçinin bədii-estetik təfəkkür xadimindən, yazıçı-ideoloqdan çox dövlət ittihamçısı, əli dəyənəkli müstəntiq və hakim rolunda çıxış etməsinə inanmaq üçün yuxarıdakı parça ilə, rəsmi ittiham stenoqramlarından biri arasında ötəri müqayisə aparmaq kifayətdir. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə də barışmaz mövqedə olan, ictimai həyatın eybəcərliklərini həmişə, hər şəraitdə tənqid edən H.K.Sanılı 28 iyul 1937-ci ildə dindirilərkən onunla dialoqda olan tərəfmüqabilin vulqar tənqidçi, yoxsa peşəkar müstəntiq olduğunu ayırd etmək çox çətindir:

«Sual: Siz bir aya yaxındır ki, özünüzün əksinqilabi millətçi fəaliyyətiniz barəsində açıq ifadə verməkdən boyun qaçırırsınız. İstintaq bir sıra faktlar aşkar etmişdir. Əgər gələcəkdə də açıq danışmasanız, onda sizi üzləşdirməyə məcbur olacağıq. Siz düzgün ifadə vermək fikrindəsinizmi?

[5] Ə.Nazim. Ədəbiyyatmı, xalqmı? «Yeni yol» qəzeti, 28 dekabr 1924.

[6] M.Quliyev. Türk ədəbiyyatında sağ uklon. «İnqilab və mədəniyyət» jurnalı, 1929, № 10.

Cavab: Mən özümü onda günahlandırıram ki, bir sıra əsərlərimdə əksinqilabi millətçi formada qolçomaq həyatını və məişətini tərənnüm etmişəm. Belə əsərlərə «Aran koçü» də aiddir. Mən kənd qolçomaq təbəqəsinin ideoloqu olaraq bu əsəri elə qolçomaqlara həsr etmişəm. Hal-hazırda ideloji cəhətdən özünü doğrultmadığına görə bu əsər nəşriyyatdan götürülmüşdür.

Sual: Deməli, siz həbs olunana qədər əksinqilabi qolçomaq və millətçi mövqedə durmusunuz?

Cavab: Bəli. Bəyəndiyim və ifadə etdiyim qolçomaq-əksinqilabi millətçi ideologiyanı mən öz əsərlərimdə göstərmişəm. «Aran köçü» əsərindən başqa mən «Namus davası» poemasını da yazmışam. Bu poemada mən poetik dillə iri feodallar (mülkədar) Cavad xan və Şəmsəddin mahalının bəyi Nəsib Sultan arasında gedən müharibəni tərənnüm etmişəm»[7].

«Ziyalı və inkvizisiya» tipologiyasına tarixdən, dünya ədəbiyyatından çox misallar gətirmək olar. XX yüzilin 20-30-cu illərində Azərbaycanda baş verən hələlik son «inkvizisiya» özünü mənəvi sərvətlərə qarşı çevrilmiş kütləvi, total repressiya şəklində göstərdi. Xüsusən, Azərbaycan Xalq Cümhuriyyəti repressiyaya məruz qaldıqdan sonra, onun yaranmasında və yaşamasında xüsusi xidmətləri olan, eləcə də olmayan bir çox şəxsiyyətlər - ictimai-siyasi xadimlər təqib və təzyiq qarşısında qaldılar. Əzilən və məhv edilən təkcə şəxsiyyətlər deyil, həm də mənəvi sərvətlər oldu. Şəxsiyyətin və mənəvi sərvətlərin məhvi - genlə, yaddaşla mənəvi əlaqənin və mənəvi ünsiyyətin məhvi demək idi.

Sovet hökuməti həyatın bütün sahələrində, o cümlədən sənət və ədəbiyyat sahəsində, diktatorluq yolu ilə proletar hegemonluğu yaratmağa çalışırdı. 20-ci illərin əvvəllərində kommunist partiyasının sənətin müxtəlif sahələrinə aid

[7] MTN-in arxivi. H.K.Sanılının istintaq qovluğu. 1937-ci il, RP – 25606.

çıxardığı qərar və qətnamə, eləcə də verdiyi fərmanlar məhz bu siyasətin tarixi sənədləri idi.

Bolşeviklər həyatda və sənətdə sosialist inqilabını başa çatdırmaq üçün şüur və psixologiyalarda maarifçi və tənqidi realizmlərdən fərqli olaraq yeni bir «izm» - sosialist realizm modeli, qəlibi yaratdılar (20-ci illərdə bu modelə müxtəlif adlar verilsə də, 1932-ci ildən sosialist realizmi adlandırıldı). Maarifçi və tənqidi realizmlər ədəbiyyatın, sənətin özündən doğan, ictimai quruluşun eybəcərliklərini tənqid edən, «baltanı dibindən vuran» (Ü.Hacıbəyov) ədəbi cərəyanlar idi. Sosialist realizmi isə bolşevik partiyası rəhbərlərinin «doğduğu» və ad verdiyi ədəbi, əslində isə siyasi cərəyan idi. Çünki ədəbiyyat və sənət, V.İ.Leninin dediyi kimi, proletar işinin «vintciyi», «təkərciyi» funksiyasını yerinə yetirir və partiyanın siyasətini bir mexanizm kimi hərəkətə gətirirdi.

Maraqlıdır ki, əvvəlki, klassik sənət nümunələri də sosialist realizm modelinə, qəlibinə uyğunlaşdırılır, bu qəlibə uyğun gəlməyənlər ya «montaj» olunur, ya da məhv edilirdi. Belə ki, bəşər tarıxinin idrakda və düşüncədə keçdiyi yola «fəlsəfə bu gün olduğu kimi, iki min il bundan əvvəl də partiyalı idi» (V.İ.Lenin) prizmasından yanaşan ehkamçı, doqmatik, sinfi, partiyalı şüur - marksçı-leninçi metodologiya Nizamini utopik sosialist, Bağdadda, Kərbəlada yaşayan Füzulini ateist elan etdi. Nəsimi də «həqq məndədir» fəlsəfi fikri ilə, sosialist tənqidinin köməyi nəticəsində sufilikdən materializmə qədər yuvarlandı. Lakin bu, heç də o demək deyildir ki, bolşeviklər istədiklərinə maneəsiz və qurbansız nail olur və heç bir sosial, ictimai, subyektiv maneəyə rast gəlmirdi. Əksinə, bu qırmızı terrora qarşı mübarizə aparmaq üçün Azərbaycanın əyilməz oğullarının təşkilatlanmaları barədə kifayət qədər faktlar vardır. Təəssüf ki, bir qayda olaraq dövri mətbuatda çıxan yazıların bəzilərində repressiya qurbanları barədə onların günahsızlığının formulası kimi «guya antisovet təbliğatı aparıb», «guya türkpərəst olub»,

«guya islamçı olub», «guya millətçi olub», «guya...» kimi epitetlər işlədilir və bununla da əməl və ideya yolunda qurban və şəhid təsəvvürü, dövrün üsyançı şəxsiyyət simvolu «günahsız müqəssir» obrazına çevrilir. Belə çıxır ki, nə müstəqil Azərbaycan Cümhuriyyəti yaranıb, nə o, süqut edib, nə də onun bərpası uğrunda mübarizə cəhdləri aparılıb. Həmin müəlliflərin «günahsız müqəssir» adlandırdıqları şəxslərin əslində «günahı» olmuşdur. Həmin günahlar indiki nəslə örnək ola biləsi, fəxr ediləsi, qürurlanası günahlardır və onları pərdələmək tarixi təhrifdən başqa bir şey deyildir.

Arxiv materialları hələ bu gün də «guya» epitetləri ilə işlətdiyimiz təşkilatların həqiqətən mövcudluğunu təsdiq edir. Eyni zamanda, mühacirətdə yaşayan azərbaycanlı mütəfəkkirlər də bolşeviklərə qarşı gizli təşkilatların fəaliyyətini inkar etmir. Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizə aparanlardan biri - Əbdülvahab Yurdsevər öz yazılarında müsavatın gizli fəaliyyəti ilə bağlı faktlar üzərində geniş dayanır[8].

Milli Təhlükəsizlik Nazirliyinin arxivində də dediklərimizə aid kifayət qədər dəlil və sübutlar vardır. Həmin sənədlərdən aydın görünür ki, sovet hökumətinə qarşı gizli mübarizə ictimai-siyasi həyatın bütün sahələrinə nüfuz etmişdir.

Bu illərdə böyük səlahiyyətlərə malik olan çekaçıların qarşısında duran əsas vəzifələrdən biri də Azərbaycan Xalq Cümhuriyyəti dövründə müxtəlif siyasi partiyalarda və ayrı-ayrı təşkilatlarda fəaliyyət göstərən şəxslərin işi ilə maraqlanmaq, bolşeviklərə, eləcə də sovetləşməyə onların münasibətini müəyyənləşdirmək və ölkədə «sabitlik yaratmaq» idi. Bu «sabitlik» isə ayrı-ayrı vəzifəli şəxslərin, eləcə də onların ailə üzvlərinin həbs edilməsi və güllələnməsi yolu ilə yaradılırdı. Təqib və həbslərə məruz qalanların böyük əksəriyyəti isə ziyalılar idi.

[8] Yurdsevər Əbdülvahab. Gizli müsavat təşkilatının xarakterik vəzifələri. «Müsavat» bülleteni, 1962, № 4, səh. 15.

Hansı ziyalılar ilkin olaraq təqib edilirdi? Sosializm prizmasından baxdıqda «milli» sözü ilə «millətçi sözü» birbirinin sinonimi kimi görünürdü. Ona görə də 20-50-ci illərdə «milli» sözü, demək olar ki, ayrılıqda deyil, müəyyən epitetlə işlədilirdi. Ədəbiyyatşünaslıqda da «milli ədəbiyyat» anlayışını «formaca milli, məzmunca sosialist ədəbiyyat» anlayışı əvəz etdi. Əslində bu prinsipin «formaca millilik» tərəfi formal xarakter daşıdı. Məzmunca sosialistlik isə aparıcı mövqedə dayandı. Həm forma, həm də məzmunca milli olanlar daha tez təzyiqlərə məruz qaldılar.

Ədalət naminə deməliyik ki, 1920-ci illərdə məhvetmə əsas məqsədə çevrilməmişdi. Belə ki, bəzi sənətkarlar həbs edilir, onlarla müəyyən «tərbiyələndirmə» işi aparıldıqdan sonra azadlığa buraxılırdılar. Məsələn, 20-ci illərdə Ə.Cavad 2 dəfə, C.Cabbarlı 2 dəfə, H.K.Sanılı 4 dəfə, Ö.F.Nemanzadə 2 dəfə, Ə.R.Şamçızadə 1 dəfə, S.Hüseyn 1 dəfə həbs olunsalar da, sonradan azadlığa buraxılmışdılar. İstintaqa cəlb olunmayan bir çox yazıçıları isə ədəbi məhkəmələr və dövri mətbuat vasitəsi ilə sosializmin süfrəsi başına gətirməyə çalışırdılar. Bu tədbirləri həyata keçirməkdə əsas məqsəd yeni cəmiyyətin məddahlarını hazırlamaq idi. Şübhəsiz ki, həmin illərdə mədhiyyə ədəbiyyatı ilə yanaşı, dissident ədəbiyyat da yaranırdı. Əslində dissident ədəbiyyat qadağa, senzor, hədə və təqib güclənəndə yaranır.

Əlbəttə, bu dissidentçilik bir qədər qapalı xarakter daşıyırdı. İrtica və istibdad gücləndiyindən görkəmli sənətkarlar yaratdıqları əsərlərdə öz ideyalarını böyük sənətin sətiraltı çalarlarında kodlaşdırırdılar.

Ümumiyyətlə, 20-50-ci illərin Stalin rejimi şəraitində yaranan, formalaşan Azərbaycan ədəbiyyatında açıq dissedentçilik axtarmaq tamamilə yanlış olardı. Bizcə, bu illərin ədəbiyyatında içində azadlıq odu alovlandıran rəmzlər və simvollara bələnmiş «qapalı» dissidentçilik axtarmaq daha doğru olardı. M.Ə.Rəsulzadə haqlı olaraq qeyd edirdi ki,

«bu rəmzlər çekist ruhlu tənqidçilər tərəfindən deşifrə olunub şairə (Ə.Cavad nəzərdə tutulur -C.Q) hücum üçün bir vasitə olur».

Maraqlıdır ki, bəzən 30-cu illərin repressiya burulğanından yaxa qurtaranlar da ayrı-ayrı mətbuat səhifələrində və tədqiqat əsərlərində tənqid hədəfinə çevrilir, H.Cavid, Ə.Cavad, M.Müşfiq, S.Mümtaz, V.Xuluflu və onlarca başqaları böyük təəssüflə anıldığı halda, S.Vurğun, S.Rüstəm, M.Rahim, M.Hüseyn və başqaları XDİK orqanları tərəfindən ittiham olunmamaqda günahlandırılırlar. Deməli, biz eyni anda həm əzən, fəlakətlər gətirən imperiyanı, həm də imperiyanın məhv etmədiyi şəxsləri ittiham edirik. Belə çıxır ki, Azərbaycanda həqiqətən vətən xainləri olmuş və bunlar ölənlər deyil, qalanlar imiş. Qəribə məntiqdir; biri öldürdüyünə – məhv edildiyinə, digəri isə öldürülmədiyinə – sağ qaldığına görə ittiham olunur. Daha dəqiq ifadə etsək, əslində 30-cu illərdə ziyalıların hamısı «həbs edilmişdi». Fərq onda idi ki, kimin özünü (H.Cavid, Ə.Cavad, M.Müşfiq, S.Mümtaz... kimi), kiminin isə fikir və düşüncələrini (S.Vurğun, S.Rüstəm, M.Rahim... kimi) həbs etmişdilər.

Ümumiyyətlə, hər hansı bir sənət adamının şəxsiyyətinə və yaradıcılığına elmi qiymət verərkən **ZAMAN** və **MÜHİT** amili unudulmamalıdır. Əks təqdirdə vaxtilə Puşkini, Dostayevskini, hətta Məhəmməd Füzulini «müasirlik gəmisindən» atmaq istəyən pülyerealistlərin səhvlərini təkrar etmiş olarıq.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, siyasi repressiya yalnız məruz qalanların deyil, eyni zamanda bu qiyam və qətllərdən qurtara bilən sənət adamlarının, bütövlükdə xalqın içindən, taleyindən keçdi, bu tragik-dramatik vəziyyəti, sosial-psixoloji durumu bütöv bir xalq yaşadı.

Bu baxımdan 20-50-ci illərdə ziyalıların yaşadığı taleyi və tərcümeyi-halı üç mərhələyə bölmək olar.

Birinci mərhələ - mənəvi ideoloji fəaliyyətin bütün sahələrində, o cümlədən, mədəniyyətdə və ədəbiyyatda

özünü doğrultma, mədh etmə, «özəlləşdirmə» və bolşeviklərə xidmət üçün hələ hamıya tədbiq olunan imkanın davam etdiyi mərhələsidir. Bu mərhələdə sənətdə, yaradıcılıqda qanuni, hüquqi, rəsmi status kəsb edə bilməyin birinci şərti isə yeni yaranmış dövləti mədh etməkdən ibarətdir. Sənətindən, peşəsindən və partiyalılığından asılı olmayaraq hər bir şəxs marksist-leninçi platformadan çıxış etməli və onların baxışlar sistemini həyata keçirməli idi. Müstəqil düşünmək qabiliyyətinə malik olanları isə totalitar rejimin 1930-cu illərinin sərt işgəncələri gözləyirdi.

İkinci mərhələ - mənəvi mədəniyyət tarixində və ziyalı tərcümeyi-halında artıq «siyasi özünütəsdiq» üçün verilmiş şansın, zamanın, vaxtın, möhlətin qurtardığı, şəxsiyyətə qəsd, həbs, sürgün və fiziki məhvetmə, mənəvi işgəncələrin başladığı mərhələdir. Bu mərhələnin əsas xarakterik xüsusiyyəti ondan ibarətdir ki, rejim Sovet hökumətini mədh etməyənə, yeni sovet adamına çevrilməyənə, çevrilərsə də şübhəli görünənlərə qarşı barışmaz, amansız mövqe nümayiş etdirirdi.

Stalin 3 mart 1937-ci ildə trotsksizmlə mübarizəyə həsr edilmiş plenumdakı çıxışında 30-cu illəri belə xarakteriza edirdi: «Partiyalı yoldaşlarımıza izah etmək lazımdır ki, xarici kəşfiyyat orqanlarının diversantlıq-ziyançılıq və casusluq işinin aktiv elementləri olan trotskiçilər çoxdan bəridir ki, daha işçi sinfində siyasi cərəyan deyillər, onlar, işçi sinfinin interesləri ilə bir yerə sığacaq hər hansı bir ideyaya çoxdan bəridir ki, daha xidmət etməyirlər, onlar xarici kəşfiyyat orqanlarına prinsipsiz və ideyasız ziyançılar, diversantlar, casuslar və qatillər bandasına çevrilmişlər.

İzah etməlidir ki, hazırkı trotskizmə qarşı mübarizədə indi köhnə metodlar deyil, diskussiyalar metodu deyil, yeni metodlar, kökünü kəsmək və darmadağın etmək metodları lazımdır»[9].

[9] «Şərq qadını» jurnalı, 1937, № 7, səh. 6.

1930-cu illər xalqın yaddaşında dərd ili, ağrı ili kimi qalmışdır. Bu faciənin əsas səbəbkarları və qatilləri «ellər atası» ləqəbini qazanmış Stalin, vaxtı ilə Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizlik orqanlarında (Əksinqilabla Mübarizə Təşkilatında) işləyən və həbs olunana qədər Azərbaycan Xalq Cümhuriyyətindəki fəaliyyəti ilə bağlı sənədləri seyfində saxlayan L.P.Beriya, məhkəmədə son söz olaraq «məni öldürmək azdır, asmaq azdır, məni şaqqalamaq lazımdır» - deyən M.C.Bağırov olmuşdur. Bu üçlüyün (troykanın) bilavasitə başçılıq etdiyi rejim Azərbaycanın mənəvi sərvətlərini, görkəmli elm, ədəbiyyat və sənət adamlarını məhv etmiş, tarixi şəxsiyyətlərini vətən xaini adlandıraraq, onların hətta qohumlarını da sürgünlərə məruz qoymuşdur.

Azərbaycan ədəbiyyatının ən görkəmli yazıçılarından olan, öz deyim və yozum tərzi ilə seçilən, gözəlliyə və sevgiyə tanrısı kimi baxan H.Cavidi, Azərbaycanın müstəqilliyi uğrunda daima mübarizə aparan, onun bayrağına, ordusuna nəğmələr qoşan Ə.Cavad və onların gənc dostları M.Müşfiq, görkəmli mollanəsrəddinçilərdən Əli Razi Şamçızadə, həmin jurnalın işıq üzü görməsində əvəzsiz xidmətləri olan Ömər Faiq Nemanzadə, eləcə də bəzən jurnalın redaktoru olmuş şair publisist Rzaqulu Nəcəfov, gözəl tarixi romanları və tədqiqat əsərləri ilə yadda qalan Yusif Vəzir Çəmənzəminli, Şərqin bədii və elmi sərvəti ilə arxivini zənginləşdirən S.Mümtaz və onlarca başqaları bu illərin qurbanı olmuşlar.

40-cı illərin repressiyası daha çox hərbi əsirlər ve legionerlərlə bağlıdır. Müharibə qurtardıqdan sonra Vətənə qayıdan əsirlərin hamısı, bir nəfər kimi, filtirasiyadan keçmiş, faşizm rejimindən və qanlı müharibədən qurtulanlar yenidən bolşevik repressiyası ilə üz-üzə qalmış və onların bir çoxu məhv edilmişdir.

Üçüncü mərhələ - şəhid, yaxud zərərdidə ziyalıların taleyinin və tərcümeyi-halının artıq hüquqi və mənəvi bəraət

aldığı mərhələni əhatə edir ki, bu da, əsasən, 1950-ci və ondan sonrakı illəri əhatə edir.

Bu mərhələnin özü də və həmin mərhələdə dövlət səviyyəsində həyata keçirilən siyasi-inzibati-hüquqi fəaliyyətin məzmunu da həm funksional missiya, metod, icranın üsul və vasitələri, həm də mənəvi-əxlaqi mahiyyət və məna baxımından ciddi təkzib, təshih düzəlişlərə material və əsas verir. Belə ki, vaxtı ilə yol verilən elliliklə, kütləvi cəzalar, qəsdlər və həbslər kimi, indi onlara verilən əfv, bəraət və xitamlar da tələsik, total, reklamvari kompaniya səviyyəsi daşıyır, arxiv, sənəd və ittihamnamələrin lazımi səviyyədə obyektiv, elmi tədqiqi və təhliəində çıxarılan informasiyaya əsaslanmırdı.

Bəraət almışların bir çoxunun əsərləri hələ də bəraət almamış, «zərərli məhsul» kimi məhv edilmişdi. Digər tərəfdən, bəraət sənədlərində və onlara əsaslanan sonrakı əsərlərdə H.Cavid, Ə.Cavad, M.Müşfiq, H.K.Sanılı, Ə.Abid, Ə.Müznib, S.Mümtaz, Ə.R.Şamçızadə kimi açıq milli məfkurə fədailəri, «qapalı dissedentler» hamısı bir ucdan sosializmin müdafiəçiləri kimi təqdim edilmişlər.

Bədii düşüncə və ədəbi prosesdə siyasi repressiyalar vahid ssenari əsasında müxtəlif yollarla həyata keçirilirdi. Qarşı-qarşıya qoyma, üzləşdirmə, dövri mətbuatda, qurultay və plenumlarda ifşa bu ssenarinin əsasını təşkil edirdi. Əslində isə üç üsul daha qabarıq görünürdü: dövri mətbuatda və yığıncaqlarda tənqid, ədəbi məhkəmələrdə gözdən salmaq, təhlükəsizlik orqanları tərəfindən həbs.

Varis-irs əlaqəsi, əsrlər və nəsillər, mənəvi, əxlaqi, estetik dəyərlər arasındakı təbii keçid ahəngi və qanunauyğunluğu iyirminci illərdə də (1920-1934), «sosialist realizmi»nə hazırlıq və tam keçid ərəfəsində də (müəyyən çərçivə və ölçüdə olsa da) davam edir. Körpü rolunu o zaman hələ sağ olan və yazıb-yaradan canlı klassiklər özü - H.Cavid, A.Şaiq, Y.V.Çəmənzəminli, C.Məmmədquluzadə, N.Vəzirov,

S.S.Axundov, Ə.Haqverdiyev, B.Talıblı, Qantəmir kimi «yeni dünyaya» «köhnə dünyadan» çıxıb gəlmiş şair, dramaturq və nasirlər oynayır. Həmçinin, Azərbaycan poeziyasının apogeyi məhz keçid dövrünə təsadüf edir. Onu yaradan növbəti nəslin nümayəndələri - H.K.Sanılı, Ə.Cavad, C.Cabbarlı, M.Müşfiq, A.İldırım kimi şairlər də həm sənətdə, həm də tərcümeyi-halda «iki dünyanın» sakinləri və şairləri kimi qızğın fəaliyyət göstərirlər.

Lakin artıq növbəti on ildə bədii proses ədəbi ənənənin təbii və tədrici növbələşməsindən daha çox onun total inkarına istiqamətləndirilir. Kazarma rejimi, hərbi-polis diktatura, hakim-rəsmi, ehkamçı doktrina öz iradəsini mənəvi, ideoloji və ədəbi prosesə birbaşa diktə edir. Milli mədəniyyətdə Azərbaycan Xalq Cümhuriyyəti intibahı ilə «sosialist» dirçəliş arasında otuzuncu illərin zorakılıq dövrü - monolit «sosialist realizmi»nə tam keçidin baş verdiyi mərhələ dayanır. Bu dövrdə bədii prosesə total, əzici təzyiq amili kimi irticaçı, ifrat - zorakı icra mexanizmi - repressiya və onun epoxası daxil olur. Əlbəttə, söhbət keçmiş sovet məkanında yekdil, vahid monolit dövlət siyasətindən gedir. Məsələni ayrıca «Azərbaycan repressiyası» şəklində qoymaq və qiymətləndirmək tarixi-elmi baxımdan özünü doğrultmur. Burada yalnız «sovet repressiyası»nın Azərbaycan şəraitində kəsb etdiyi konkret fərdi çalarlardan söhbət gedə bilər. Həmin çalarlar isə aşağıdakı kimi xarakterizə oluna bilər: hadisələrin, əməliyyat və mərasimləri spesifik yerli şəraitə tətbiqinin həm miqyasında, həm də forma və üsul çeşidində, həm irticanın, zorakılığın şiddət şkalasında və nəhayət, həm də təqib və təzyiq, cəza və ölüm üçün seçilən motivlərin səbəb-bəhanə tərkibində.

Hər yerdə kütləvi ölüm və qətl hökmləri xalis sinfi-siyasi ittiham çərçivəsində, Azərbaycanda isə, üstəlik həm də milli qövmi, etnik müstəvidə və əsasda irəli sürülürdü. Hər yerdə edam kötüyünə gedən qurbanın, öz məşum qurşununu

gözləyən eşafota, yaxud şürgünə və konslagerə gedən günahkar və ya günahsız məhkumun bir adı var idi: «xalq düşməni!» Azərbaycanda isə həm ruha, həm də vücuda eyni vaxtda basılan bu möhürə ikinci, üçüncü damğa da əlavə olunurdu: «pantürkist», «panislamist»! Hər yerdə hökmü oxuyan və qətli icra edən bolşevik cəlladının səsi və əli idi, Azərbaycana həm şimaldan, həm də qərbdən uzanan kabusun içində isə qoşa əl və qoşa səs həmişə ittifaq təşkil edirdi: bolşevik-daşnak tandemi, erməni-rus kəlbətini!

Repressiya (faşizm, inkvizisiya, genosid, NKVD, SAVAK...) bir kateqoriya və hadisə kimi özünün ayrıca, məxsusi fərdi elmi tarixinə malik olmur. Qeyri-təbii, qeyri-bəşəri vəzifəni, ekologiya, insan və cəmiyyət əleyhinə çevrilmiş şər və iblis missiyasını sadəcə olaraq bir alət, bir mexanizm kimi yerinə yetirir. Odur ki, onun heç məxsusi hüquqi siması və milli mənsubiyyəti də olmur və repressiyanın tarixi də əslində elə bu qəsd və qətllərin xronikası ilə, ölüm sobalarının, əsir düşərgələrini şəhid qəbirlərinin düzümü və sırası ilə yazılır.

Özünün, xüsusilə dəhşətli, amansız formasını repressiya «əxlaqi-estetik» doktrina mundiri geyəndə və mənəviyyata yaddaşa qarşı çevriləndə alır. Çünki qəsdin hədəfinə və qurbanına bu zaman ən bəşəri, ən əbədi dəyər və sərvətlər - sivilizasiya özü çevrilir.

Hərbi kommunizm, NEP, mədəni inqilab, çoxsaylı ədəbi-bədii cəmiyyət və dərnəklər... - ədəbiyyatda kommunist siyasətinin hələ repressiyanın məhv etmə mərhələsinə qədərki dövrünün faktları və hadisələri idi. Yeni meyar və dəyər axtarışı, «həyatda inqilab, mənəviyyatda inqilab, sənətdə inqilab» eyforiyası artıq çox geniş intişar və miqyas almışdı, lakin rədd olunan köhnə düşüncə, əxlaq, sənət tərzinə yeni, bolşevik alternativ axtarışları hələ əlvan bir polifoniya təşkil edirdi. Bu polifonizmdən qlobalizmə - vahid, mütləq, monolit normativə və stereotipə qəti dönüş hələ

qabaqda idi. Köhnə ilə, keçmişlə haq-hesab artıq çəkilib qurtarmışdı. Zəhmli, demonik, yarıhərbi irtica, ölüm, zorakılıq maşını öz tırtılını, repressiv konveyeri artıq bədii tərəqqinin bu vaxta qədərki bünövrə, təməl qanunauyğunluğu əleyhinə çevirmişdi. Ən böyük, yeni, çağdaş münaqişə isə indi təklif və tövsiyyə olunan yeni variantların və onların icrasını öhdəyə götürən cəmiyyət və təşkilatların öz arasında idi. Təsadüfi deyil ki, məhz bunların növ və tip çeşidi ta 34-cü ilə qədər davam edir.

«Bədii ədəbiyyat sahəsində partiyanın siyasəti haqqında» (1925), «Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında» (1932) kimi məşhur qərar və qətnamələrdən sonra Azərbaycanda «Gənc qızıl qələmlər» (1925), «Qızıl qələmlər» (1926), «Azərbaycan Proletar Yazıçılar Cəmiyyəti» (1927) və nəhayət, «Azərbaycan Sovet Yazıçılar İttifaqı» (1934) kimi yazıçı və tənqidçiləri öz ətrafmda birləşdirən təşkilatlar əmələ gəlir.

Mərkəzdən (rus ədəbi mühitindən) bizə artıq tanış «repressiya qabağı» polifoniya burada da özünü göstərir. Xalq Maarif Komissarı Dadaş Bünyadzadə «ana dilində məktəblərin açılması, dərsliklərin nəşri» üçün xüsusi «ədəbiyyat heyəti» yaratmaq barədə qərar qəbul edir. Mirzə Cəlil sovet Azərbaycanına dəvət olunur. Bakıda Sabirə heykəl ucaldılır. «Kommunist» qəzeti nəzdində «Ədib və Şairlər İttifaqı» (1923), «İldırım» yazıçılar birliyi (sədr - S.S.Axundov, müavin - H.Zeynallı, katib - M.Sidqi, bax: «Kommunist» qəzeti, 1923, 31 avqust) yaranır. «Ədəbiyyat cəmiyyəti» (1925) toplama və tədqiqat işləri ilə də məşğul olur. Cəmiyyətin təqdimatı ilə «Kommunist» səhifələrində, «Xalq ədəbiyyatı həyatdan doğar» silsiləsində folklordan və klassik irsdən nümunələr çap olunur. (S.Mümtazın sonralar repressiya arxivlərində məhv edilən Nəsimi, Vaqif, Vazeh, Zakir haqda materialları qismən burada çap olunur). O maraqlıdır ki, Cəmiyyətin fəxri sədri Əli bəy Hüseynzadə idi

və onun işində əsasən klassik irsi, ənənəni özündə təcəssüm etdirən yazıçılar iştirak edirdi: Cəlil Məmmədquluzadə, Nəcəfbəy Vəzirov, Süleyman Sani Axundov, Abdulla Şaiq, Məmməd Səid Ordubadi, Əbdürrəhimbəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cəfər Cabbarlı.

«Gənc qızıl qələmlər»də (1926), «Yaşıl yarpaqlar»da (1926), M.Müşfiq, M.Rahim və A.İldırım hələ eyni sıralarda çıxış edirdilər.

ÜİK(b)P-nin «Ədəbi-bədii təşkilatların yenidən qurulması barədə» 23 aprel 1932-ci il tarixli qərarı ilə belə təşkilatların bütün şəbəkəsi aradan götürüldü və iki il sonra 1934-cü ildə qələm sahiblərinin vahid birliyi - SSRİ Yazıçılar İttifaqı yaradıldı, həmçinin, elə həmin qurultayda sosialist realizmi vahid yaradıcılıq metodu elan edildi. Cərgədən çıxan, bu vahid metodda və təşkilatda birləşə bilməyənlər daha üç il sonra - 1937-ci ildə artıq fiziki şəkildə məhv edildi.

Ədəbi cəbhədə yüzlərlə ifşa, həbs, sürgün, mənəvi və fiziki darmadağın aktları buna hazırlıq idi. Polifonizmdən qlobalizmə keçid artıq baş vermişdi. Və bu dəfə də artıq işdə, təcrübədə polifoniyadan monopoliyaya keçidin müəllifi - baş icraçı Repressiya idi...

XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycan xalqı xüsusilə də ziyalılar milli mentalitetin, milli-genetik potensialın formalaşması istiqamətində xeyli işlər gördü. İmperiyaya qarşı ittiham oxuyan Cavad xanın Gəncəni rus caynağından qurtarmaq ideyası ziyalıların və sənət adamlarının səyilə Azərbaycan Xalq Cümhuriyyəti yaratmaq idealı ilə nəticələndi və öz təsdiqini tapdı. Bu illərdə yalnız Azərbaycan Cümhuriyyəti ideyası deyil, eyni zamanda türk dövlətlərinin birliyi, turançılıq, islam əxlaqına yiyələnmək meylləri də elmi və bədii ədəbiyyatın əsas predmetinə çevrildi. Sovetləşməyə qədər Əhməd Cavad, Məhəmməd Hadi, Abdulla Şaiq, Cəfər Cabbarlı və bu kimi yazıçı və şairlərin yaradıcılığında Azərbaycanın müstəqilliyi, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Hüseyn Cavid, Əlabbas Müznib, Əmin Abid və başqalarının əsərlərində türk xalqlarının birliyi ideyası özünü daha qabarıq göstərirdi. Bütün bunlar göstərir ki, Azərbaycan xalqının milli ideologiyası, milli genefondu artıq yaranmış və formalaşmışdı. Milli genefondla yanaşı, həm də aparıcı mövqe rolunu oynayacaq dərəcədə fərdi genlər formalaşmışdır. Məsələn, üç epoxanı, üç rejimi yaşayan Cavid dəyişməzliyi və bütövlüyü ilə kommunist ideologiyasının təsiri altına düşmür, əksinə istedadlı və bacarıqlı gəncləri öz təsir dairəsinə salırdı. Ona görə də Cavidə yaxın olan, onunla dostluq və yoldaşlıq edənlər dövri mətbuatda, iclas və yığıncaqlarda «Cavidin quyruğu» adlandırılırdı.

Sovetlər İttifaqında totalitar rejim milli genefondunu yaratmış millətlərə və fərdlərə qarşı daha amansız mövqe tutdu. Bu baxımdan SSRİ-də baş verən repressiv zəlzələnin episentri Azərbaycana düşdü. Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin sədri M.P.Frinovski 1930-cu ilərin əvvəllərində Moskvaya göndərdiyi məruzəsində göstərirdi ki, Qafqazda ən çox təqiblərə məruz qalan azərbaycanlılar olmuşdur.[10]

Repressiv aktlara yalnız ayrı-ayrı fərdlər yox, kök, genefond məruz qaldı və repressiyalardan yaxa qurtaranların bəzilərini mühit sıxıb «danosçuya», «şahidə», «sovet adamına» çevirə bildi. Cəmiyyətdə və NKVD orqanlarında elə bir mühit yaradılmışdı ki, şahid olmamaq ən azı qəhrəmanlıqdı və həqiqətən də, belə qəhrəmanlar var idi. Maraqlıdır ki, şahidlərin, üzləşmələrdə iştirak edənlərin əksəriyyəti ayrı-ayrı kamerada saxlanılan müttəhimlər idi. Belə ki, S.Mümtazla üzləşdirilən Qubaydullin (S.Mümtazın istintaq qovluğu. PR-25082. səh. 68-70), Cavidlə üzləşdirilən Kərimov Əli və Əli Nazim Mahmudzadə (H.Cavidin istintaq işi. PR-18845. səh. 101, 102), Vəli Xuluflu ilə üzləşdirilən Hənəfi Zeynallı (H.Zeynallının istmtaq qovluğu PR-26385. səh. 363-371),

[10] MTN-in arxivi. P-283.

Hənəfi Zeynallı ilə üzləşdirilən Biləndərli Hüseynəli Süleyman oğlu və Ruhulla Axundov (H.Zeynallının istintaq qovluğu PR-26385. səh. 359-360, 372-376) və başqaları kənardan deyil, məhz kameradan gətizdirilir, məcburi fiziki və mənəvi təzyiqlər altında ifadələr verirdilər.

S.Mümtazın qızı mərhum Şəhla Mümtazzadə bu üzləşmələr barədə belə deyirdi: «Atama yemək apararkən mənə dedi ki, Qubaydullin üzümə durdu və müstəntiq çölə çıxarkən ayaqlarıma düşdü, dedi ki, bilirəm Salman duzçörək kəsmişik, amma neynim incidirlər, dözəmmirəm». Bunlar bir daha təsdiqləyir ki, ifadələrin və üzləşmələrin çoxu təzyiqlər altında keçirilmiş, daha çox adam məhv etmək üçün bu üsuldan bir vasitə kimi istifadə edilmişdir. Sultan Məcid Əfəndiyev fiziki işgəncələrdən təngə gələrək bildirirdi ki, «mən heç bir əksinqilabi millətçi təşkilatın üzvü olmamışam, lakin nəyə deyirsinizsə verin imza atım»[11].

Eyni fikirlərə başqa istintaq materiallarında da rast gəlmək olur. Belə ki, Mahmudzadə Əli Nazimin 01 iyun 1937-ci ildə verdiyi ifadəsində oxuyuruq: «Mən məcburam boynuma alım ki, həbs olunan vaxta kimi əksinqilabçı mövqedə olmuşam və praktik olaraq əksinqilabi iş aparmışam. Mən etiraf edirəm ki, AK(b)P-nin daxilində olarkən riyakar əksinqilabçı olmuşam».[12]

Maraqlıdır ki, istintaqın təqib və təzyiqlər altında aparılmasını 30-cu illərdə NKVD orqanlarında işləyən və istintaq aparan şəxslərin özləri də etiraf edirdilər: «Müstəntiqlər iş keyfiyyətinə, siyasi və əməli hazırlığına, agentura ilə işləmək qabiliyyətinə görə yox, dustaqdan yalan ifadələr ala bilmək məharətinə görə qiymətləndirilirdi. Dustaq nə qədər çox əksinqilab təşkilat nümayəndələrinin adını çəksəydi, müstəntiq bir o qədər çox tərifləndirdi. Müstəntiqin xidmət

[11] MTN-in arxivi. S.M.Əfəndiyevin istintaq qovluğu. PR-16647.
[12] MTN-in arxivi. Mahmudzadə Əli Nazimin istintaq qovluğu. PR-28010, səh. 95.

tərcümeyi-halı, onun işlədiyi müddətdə güllələnməyə məhkum etdiyi dustaqların sayı ilə müəyyən olunurdu. Güllələnmə qərarı nə qədər çox olsaydı onu çıxaran müstəntiq də bir o qədər qiymətli hesab olunurdu»[13].

Elə ona görə də istintaq materiallarında «Siz kimlərlə əksinqilabi əlaqədə olmusunuz» sualı daha çox vurğulanırdı:

«Sual: Azərbaycan Elmlər Akademiyasının filialında sizə yaxın olan yoldaşlarınızın adını deyin?

Cavab: Yaxın dostluq əlaqəsi saxlayıram: Tarix şöbəsinin rəhbəri Bukşpanla, Arxeoqrafiya sektorunun rəhbəri Həsən İmanovla, Dil və Ədəbiyyat İnstitutunun direktoru Z.İ.Zifeldmanla, Az.FAH nəşriyyatının müavini Zakirov Zinnətlə, təsərrüfat müdiri Arutyunovla, Dil və Ədəbiyyat institutunun direktor müavini Qulam Bağırovla, elmi əməkdaş Əli Kazımovla, tərcüməçi Həsənzadə Vahabovla... Protokol şəxsən mənə oxunmuş və düzgün yazılmışdır. Sorğunu apardı: 4-cü şöbənin rəisi DT kapitanı Avanesyan».[14]

Müttəhim Vəli Xuluflunun 25-28 fevral 1937-ci ildə verdiyi ifadədən: «Əli Nazim millətçi kimi mənə 1927-28-ci illərdən, hələ Leninqradda Şərqşünaslıq institutunda oxuyarkən məlumdur. O İstambula ezam olunmuş və orada Türk mətbuatında antisovet məqalələrlə çıxış etmişdir. Əli Nazim mənimlə olan sistematik söhbətlərində əksinqilabi mövqedən ÜK(b)P-nın və sovet hakimiyyətinin milli siyasətinə böhtanlar yağdırır, Azərbaycanda elmi kadrlara qiymət verilməməsi üçün partiya rəhbərlərinə qarşı olan narazılıqlarını bildirirdi. O narazılıq edirdi ki, Azərbaycanda milli kadrlar yetişdirmirlər. 1934-cü ildə mənim evimdə Əli Nazim əksinqilabi bir söhbətdə iştirak etmişdir. Bu söhbətdə ZSFSR hökumətinin büdcə siyasətinin düzgün aparılmama-

[13] Mir Cəfər Bağırovun məhkəməsi. (tərtibçilər: Nərgiz Rüstəmova və Telman Alıyev), Bakı, «Yazıçı», 1993, səh. 106.
[14] V.Xuluflunun 1 fevral 1937-ci ildə verdiyi ifadədən. MTN-in arxivi. PR-25014.

sından narazılıq edirdi. O deyirdi ki, guya Gürcüstan büdcədən Azərbaycan SSR-dən daha çox vəsait alır».[15]

İstintaqa az adam cəlb edilsin deyə bəzi yazıçılar «azadlıqda» olanları xilas etmək üçün müxtəlif formalardan istifadə edirdi. Belə ki, məhkum olunanların bir qismi artıq həbs olunmuşların adlarını verirdi. Qantəmir Əfəndiyev istintaq zamanı müxtəlif adlar çəkir və 02.02.39-cu ildə verdiyi ifadəsində bildirirdi ki, mən özüm-özümə böhtan atmışam və bu adları ona görə vermişəm ki, onlar artıq həbs olunmuşdular: «...Bütün məsuliyyətimlə bildirirəm ki, əksinqilabi təşkilatın üzvü olmamışam və müstəntiq mənə qarşı cəza tədbirləri gördüyündən (ayaq üstə qalmaq) və günahlarımı boynuma alıb-almamağımdan asılı olmayaraq, mənim işimin məhkəməyə aidiyyəti üzrə xüsusi kollegiyaya verilməsini və orada da mənim üçün təcrid edilmiş düşərgədə qalmaq üçün hökm çıxarılacağını tez-tez yadıma saldığından və mən ora düşmək istəmədiyimdən özüm-özümə böhtan yağdırmışam».[16]

Həmin illərdə «kamera mühiti» ilə yanaşı bir «ictimai mühit» də yaradılmışdı. İctimai mühit kamera mühitindən o qədər də fərqlənmirdi. Hər hansı bir ziyalı və ya kolxozçu, adətən, əvvəlcə ictimai mühitdə, sonra isə kamerada ittiham edilirdi. Bir çox hallarda isə «müttəhimə» hökmü məhkəmə zalında deyil, iclas salonunda, plenumda özü də müstəntiq yox, Mir Cəfər Bağırovun özü oxuyurdu. Cinayətinin nədən ibarət olduğunu hələlik özü müəyyənləşdirməyən «müttəhim» ölkənin başçısı tərəfindən «vətən xaini» elan edilir və müstəntiqlər onun həqiqətən «vətən xaini», «xalq düşməni» olduğunu sübuta çalışırdı, daha doğrusu, müstəntiq bunu etməyə məcbur idi. Mir Cəfər Bağırovun dediyi ifadələrin

[15] MTN-in arxivi. Mahmudzadə Əli Nazimin istintaq qovluğu. PR-28010, səh. 135.
[16] MTN-in arxivi. Qantəmir Əfəndiyevin istintaq qovluğu. PR-23199, səh. 65-70.

«doğruluğu» təkcə kameralarda, gizli kabinetlərdə sübuta yetirilmirdi, həm də açıq mətbuat səhifələrində, qərəzli yazılarda öz «təsdiqini» və «təsbitini» tapırdı. Millətin yaddaşında həmin şəxsin həqiqətən «vətən xaini» olması imici formalaşdırılırdı. (Yeri gəlmişkən qeyd edək ki, 20-50-ci illərdə onlarla təhlükəsizlik orqanı əməkdaşı da bu funksiyanı layiqincə yerinə yetirmədiyinə görə repressiyaya məruz qalmışdır).

Kamera mühiti, orada verilən işgəncə və cəzalar müttəhimləri yalan ifadə verməyə, digər müttəhim yoldaşından qisas və intiqam almağa vadar edirdi: «Yarıac rejim, 12 günlük bir adamlıq kamera həyatı, əsəbi çəkişmələr və nəhayət, demək olar ki, yuxusuz gecələr məndə belə fikir yaratdı ki, yalan və fitnəkar əsaslara qarşı birbaşa Ruhulla Axundova ünvanlanan elə o cür yalan ifadələr verim və bununla da onu əksinqilabçı təşkilata mənsub olmağım haqqında düzgün ifadə verməyə çağırım.... İndi mənim bu ifadəm Ruhulla Axundovu partlatmalıdır və o yəqin bundan sonra düzgün ifadə verəcəkdir».[17]

Bəzən isə qardaş qardaş barəsində ifadə verməli, onun həqiqətən pantürkist, əksinqilabçı olduğunu təsdiq etməli olurdu. Belə ki, Ə.Müznib qardaşı Ə.Abid barədə deyirdi: «Bəli, mənim qardaşım Əmin Abid pantürkistdir».[18]

Əzən və sıxan mühit hədəf kimi yaddaşı, geni seçir, onları zədələməyə çalışırdı. Gen və yaddaş zədələndikcə mühit daha amansızcasına şəxsiyyətləri məhv edirdi. Beləliklə də, repressiya maşınının altında qalan da, o maşından kənarda duran da rejimin quluna çevitdirilirdi.

Totalitar rejimin idarə və iş üsullarından biri kimi siyasi repressiya və deportasiyaların genə və genetik mexanizmə təsiri, bu təsirin demoqrafik-bioloji və sosial-ideoloji nəticələri yalnız şəxslərə, fərdlərə qarşı deyil, bütövlükdə millətin

[17] MTN-in arxivi. Hənəfi Zeynallının istintaq qovluğu, PR-26385, səh. 9.
[18] MTN-in arxivi. Əlabbas Müznibin istintaq qovluğu. PR-30749.

parçalanmasına yönəldilmiş siyasi aksiya idi. Tanınmış Amerika genetiki Luka-Kavalli-Sforts məhz genetik qanunauyğunluğun ifadəsi kimi qeyd edirdi ki, xalqlar nə qədər gec parçalanırlarsa, onlarda ümumi (ortaq) genlər daha çox olur və ya əksinə. Həqiqətən də, «müxtəlif amillərin təsirindən genlər dəyişikliyə -mutasiyaya uğrayır və nəticədə orqanizmin əlamət və xassələrində fərqlər meydana çıxır».[19]

Genetik parçalama qaynağı və sənədi, tarixi-siyasi genezisi Gülüstan - Türkmənçay müqavilələri olan, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra daha da kütləviləşən miqrasiya, deportasiya və repressiyalar silsiləsi tarixdə türklərin yenidən parçalanması ilə nəticələndi. Bolşeviklər ümumi, ortaq geni parçalamaq üçün xalqların milli mənsubiyyətinə (milli kimliyə) ciddi zərbələr vurdular. Azərbaycanın milli kimliyində ən böyük zərbə milli ideologiyaya, tarixə, coğrafiyaya, ədəbiyyata, mədəniyyətə, dilə, dini adət-ənənələrə və ədəbi abidələrə dəydi.

30-cu illərdə total rejim ədəbi tənqiddə "donos janrını" daha da inkişaf etdirdi. Donos janrı həm dövri mətbuata, həm də təhlükəsizlik orqanlarına ayaq açdı. Bu yeni «janrın» yaradıcıları arasında ədəbi aləmdə tanınanlarla yanaşı, gənc həvəskarlar da var idi.

Yeni janrın yaradıcılarının əsas qayə və amalı yeni cəmiyyətin tərəfkeşi, dəstəkçisi olduqlarını göstərmək idi. Əslində bu yazılar heç də həmişə kiminsə «evini yıxmaq», kimisə məhv etmək məqsədi güdmürdü, daha çox özünümüdafiə (nə qədər ləyaqətsiz müdafiə olsa da) xarakteri daşıyırdı. İstər gənc, istərsə də yaşlı nəslin nümayəndələri böyük canfəşanlıqla özlərinin «sosialist süfrəsi başına gəldiklərini» sübut etmək istəyirdilər. Maraqlıdır ki, onlar nə qədər canfəşanlıq etsələr də, sonradan (hamısı olmasa da) məhv edildilər.

[19] ASE. VI cild, Bakı, 1982, səh. 59.

Həmin donoslardan birində oxuyuruq: «Yazıçı Qafur Əfəndiyev (ədəbi təxəllüsü Qantəmir) yazmağa 1926-27-ci illərdən başlamışdır. O «ədəbi fəaliyyətə» heç bir bədii ideya və tərbiyəvi əhəmiyyəti olmayan xırda, şablon hekayələrlə başlamışdır. O zaman qəzet və jurnallarımızın başında oturan alçaq xalq düşmənlərinin yaxın köməyi ilə öz cəfəngiyyatını asanlıqla dərc etdirməyə müvəffəq olan Əfəndiyev sonradan bunları bir yerə toplayıb «Ağıl dəryası» və «Şarlatanlar» adlı kitablarda nəşr etdirmişdir.

Bu hekayələr tematika cəhətindən qətiyyən heç bir yeniliyə, heç bir orijinallığa malik deyildir. Bunların əksəriyyəti müxtəlif çeşidli anekdotlar, uydurmalar, sovet həyatına yabançı olan xəyali hadisələr üzərində qurulmuşdur. Bu hekayələr oxucuların ədəbi-bədii zövqünü oxşamır, onların şüurunu, düşüncəsini sosializm quruluşunun qələbələrindən, düşmən siniflərlə mübarizədən, partiyamıza və hökumətə sədaqətlə çalışan, canını verməyə hazır olan sovet adamlarından kənara çəkir, onların zehniyyətini, sayıqlığını kütləşdirir.

...Qantəmir öz yaradıcılıq praktikasında bizim ədəbiyyatımıza düşmən olan zərərli üsullarla hərəkət edir. O, şüurlu olaraq bizim həyatmızın ancaq təsadüfi cəhətlərini, sosializmin dünya əhəmiyyətli qələbələri üçün qətiyyən xarakterik olmayan ayrı-ayrı cizgiləri, qəhrəman sovet xalqı üçün qətiyyən tipik olmayan adamları- avantüristləri və şarlatanları təsvir edir. Onun «yaradıcılığının» əsl düşmən mahiyyəti orasındadır ki, o, bu təsadüfi hadisələri və nöqsan cəhətləri öz əsərlərində qəsdən həddindən artıq şişirdir, böyüdür və sadəlövh adamların nəzərinə xarakterik bir hadisə kimi çarpdıraraq sovet quruluşunu, sovet adamlarını, sovet hökumətini onların gözündən salmağa çalışır...

... Qantəmirin «yaradıcılığı» heç bir zaman, heç bir cəhətdən, heç bir dərəcədə Azərbaycan sovet ədəbiyyatı ilə, bu ədəbiyyatın böyük və şərəfli vəzifələr ilə Azərbaycan

xalqının duyğusu, düşüncəsi və mübarizəsilə, sovetlər ölkəsinin dünya əhəmiyyətli qələbələri ilə, partiya və hökumətimizlə bağlı olmamışdır. Bu «yaradıcılıq» bütün öz xüsusiyyətləri ilə boy atan və çiçəklənən Azərbaycan sovet ədəbiyyatının inkişaf dalğaları ilə kənara atılmağa məhkum idi».[20]

Bu donosla, həmin illərin dövri mətbuatında açıq imzalarla çap olunmuş məqalələr arasında heç bir fərq yoxdur və bir çox hallarda dövri mətbuatda çap olunan «donoslar» daha sərt, daha qərəzli, daha kəskin olurdu.

Sənət adamlarının tərcümeyi-halı, soy, kök, nəsil şəcərəsi göstərir ki, üzləşmək, şahid sifətində yalan ifadələr vermək, «donosçuluq» etmək gendən daha çox, mühitin, totalitar rejimin özündən gəlirdi. Hətta bəzən elə olurdu ki, 30-cu illərdə ifadə verənlər, 50-ci illərdə həmin ifadəni müəyyən təzyiq və fiziki işgəncə altında, məcburən verdiyini bildirirdi.

30-50-ci illərdə mühitin genə, genin mühitə təsiri məsələləri özünü həmişə, eyni səviyyədə, eyni sabitlikdə qoruyub saxlaya bilmirdi. Belə ki, M.Hüseyn və M.A.Dadaşzadə bəzən məqalələrində mühitin təsirinə düşüb vulqar sosiologiyaya meyl edirdisə, H.Hüseynovla bağlı keçirilən müşavirədə M.C.Bağırovla üz-üzə gəlir, görkəmli filosofun millət qarşısında xidmətlərini təqdir etməyə çalışır, özləri də mənəvi-psixolji təqiblərə məruz qalırdılar. Bu faktın özü bir daha təsdiq edir ki, totalitar rejimin 30-50-ci illərdə həyata keçirdiyi repressiya və deportasiya siyasəti türkləşməyə və islamlaşmağa qarşı yönəlmiş genosidlə ona əks qütbdən yanaşan genofondun - ziyalının qarşılaşması, mübarizə və çarpışması idi.

Ümumiyyətlə, həmin illərdə yazıçının istedadı, həyatı necə əks etdirmək gücü meyara çevrilmirdi, əksinə ən zəif yazıçının sovet cəmiyyətini layiqincə əks etdirə bilməməsi

[20] MTN-in arxivi. Qantəmir Əfəndiyevin istintaq qovluğu. PR-23199, səh. 71.

həmin yazıçının bu cəmiyyətə qarşı xəyanəti, təxribatı kimi qiymətləndirilirdi.

Tarixin dəqiq reqlament içinə alındığı, ssenarisi sanki əvvəldən yazılmış inqilabi, sosial qanunauyğunluqların sistemli və planlı şəkildə gerçəkləşdiyi barədə mifə materialist, marksçı «elmi» inam lap başdan gəlirdi. Bu qanunauyğunluqları əvvəldən «dərk edən», onların icrasına hamiliyi və rəhbərliyi (!) öz öhdəsinə götürən ən böyük, öndər «proletar ideoloqu» Vladimir İliç Lenin RK(b)P-nin VIII qurultayındakı çıxışında (1918) deyirdi: «Sovet hakimiyyətini həyata keçirməklə biz proletar diktaturasının xalqlararası ümumdünya formasının nə olduğunu əyani şəkildə hiss etdik... Dünyada heç bir qüvvə ümumdünya kommunist inqilabının ümumdünya Sovet respublikasına doğru hərəkətini dayandıra bilməz». «Diktatura» anlamının məzmununda repressiya tərkibi açıq-aşkar aparıcı yeri tutur. «Bütün dünya proletarları» «Ümumdünya sovet Respublikasına» doğru məhz «repressiya» adlı qara lokomotivdə, dəmir cəza maşınında, qiyamçı «Avrora»da hərəkət edirdi.

5 mart 1937-ci ildə Stalinin ÜİK(b)P plenumunda elan etdiyi «...indi biz məhv etmək yolunu tutmalıyıq»[21] direktivindən sonra Azərbaycan kommunistlərinin XIII qurultayında Mir Cəfər Bağırovun verdiyi replika məhz davam edən zorakı irticada - repressiyanın özündə baş verən dönüşü və «irəliyə» doğru addımı ifadə edirdi: «Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdir. Hazırda ifşa edilmiş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Triniç və başqa əclaflar!»

Beləliklə, repressiyanın hələlik tırtılı altında yox, sükanı arxasında duranlar əllərindən nə gəldisə etdilər, istisnasız, fərdi şüur və istedad sahibi olan hər kəsi standart, stereotip istehsal edən repressiya maşınına saldılar. Hətta Cavidə bolşevik və sosialist xammaldan «marksçı mundir» sifariş

[21] «Şərq qadını» jurnalı, 1937, № 7, səh. 6.

elədilər, lakin bolşevik libas «Peyğəmbər» və «Şeyx Sənan» müəllifinin əyninə gəlmədi. Gələ də bilməzdi, əgər gəlsəydi Cavid dərhal yox olardı və yerində yeni bir Məmməd Rahim, yaxud da Süleyman Rüstəm qalardı.

Repressiyanın bədii şüurda yaratdığı intuitiv filtrin - avtomatlaşmış daxili «qlavlitin» açıq-aşkar izi qalan əsərlər həm nəsrdə, həm də poeziya, dramaturgiya və tənqiddə özünü göstərirdi. S.Babayevskinin «Qızıl ulduzlu qəhrəman», V.Ajayevin «Moskvadan uzaqlarda» kimi konfliktsiz roman və poemaları hər yerdə yerli, «milli» dalğada davamını - ikinci nəşrini tapır. Nəsrdə «General» (H.Abbaszadə), «Qartal əfsanəsi» (Ə.Əfqan), «Mübahisəli şəhər» (S.Vəliyev), «Nəğməli könül» (X.Hasilova), «Anamın gəlini» (C.Əlibəyli), dramaturgiyada - «Çiçəklənən arzular», «Zərif tellər» (C.Məcnunbəyov), «Aydınlıq» (S.Rəhman), «Bahar suları», «Atayevlər ailəsində» (İ.Əfəndiyev) və s. Buraya Z.Xəlilin, G.Fəzlinin, İ.Kəbirlinin həmçinin, S.Rüstəmin, M.Rahimin, Ə.Cəmilin süni patetika və ibtidai mədh üsulunda yazdığı onlarla poemanı, şeri də əlavə etmək olar.

«Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onu yaxşılaşdırma tədbirləri haqqında» (1948) qərarda M.Rəfili və Ə.Sultanlı kosmopolit elan olunur. Mətbuatda «İnsan» (S.Vurğun) faciəsini mücərrədlikdə ittiham edən bir silsilə məqalələr çıxır. M.Hüseynin «Şeyx Şamil» dramı MK səviyyəsində tənqid və rədd olunur.

Cəfər Xəndanın, Mir Cəlalın XX əsrə aid tədqiqləri, həmçinın M.Cəfərin «Səni kim unudar» (M.Hadi haqqında) məqaləsi geniş diskusiyaya səbəb olur: «Alimlərimiz Məhəmməd Hadini ən mütərəqqi bir adam kimi təqdim etməklə tarixi həqiqəti təhrif etmiş, onu mürtəce, millətçi cəhətlərinə bəraət qazandırmışlar».[22] M.Rəfili, H.Araslı, F.Qasımzadə, Mir Cəlal ədəbiyyat tarixinə «vahid axın» mövqeyində yanaşmaqda, Ə.Vahid qəzəl janrına yeni həyat

[22] «Ədəbiyyat məcmuəsi». IX cild, 1949, səh. 5.

verməkdə, Abdulmuin Niyazi, Ağadadaş Dərviş mədhiyyə deyil, mərsiyə ədəbiyyatı yaratmaqda və pessimist əhval-ruhiyyə təbliğ etməkdə ittiham olunurlar.

Nəhayət, davamlı, sürəkli repressiya tarixinin hətta bu yeni, stabil mərhələsi də onun mənzərəsini sürgünsüz, həbssiz, ölümsüz təsəvvürə gətirməyə imkan və əsas vermir. Süleyman Vəliyev, Əkrəm Cəfər, Cəfər Rəmzi, Gülhüseyn Hüseynoğlu, İsmixan Rəhimov, Hacı Zeynalov... məhz bu dövrdə həbs olunur və Uzaq Sibirə göndərilən milli ziyalıların son nəslini təmsil edirlər (Bax. Süleyman Vəliyev. Qanadı sınmış quş da uçarmış: «Azərbaycan» jurnalı, 1988, N 3. səh.98). 37-nin bəraət kompaniyalarında 47-nin bu «son mogikanları» da təqsirsiz elan olunub vətənə qayıdırlar.

Sənətkarın böyüklüyü, bütövlüyü onun yaradıcılığı ilə səxsiyyətinin vəhdətində özünü tapır. Bu bütövliik onun sözü ilə işi, sənətdə yaratdıqları ilə həyatdakı mənəviyyat və əxlaqı, şəxsiyyəti, fərdi «mən»i arasında ahəngdən yaranır. Bu vəhdət pozulanda sənətkarla zaman arasında da harmoniya pozulur, nəsillər və illər arasında da sahman məhvərdən çıxır, «zamanın bağları» qırılır.

Bu qanunauyğunluq zamanla ədəbiyyat arasında münasibətlərin, istisnasız, bütün tarixində özünü göstərir, amrna xüsusilə qabarıq, açıq, klassik formaları – zorakılıq, irtica, inkvizisiya və repressiya dövrlərində alır.

Bu çətin zamanlarda öz şəxsiyyətlərini qoruyub saxlayan sənətkarlarımız bununla milli mentalitetimizə və mədəniyyətimizə xas olan yaddaşı, geni qoruyurdular. Hər cür əzablara qatlaşıb heç kimin əleyhinə ifadə verməyən H.Cavid, S.Mümtaz və onlarla başqaları millətin sarsılmayan iradəsinin, əsl xalq ziyalısının canlı ifadəsi idilər.

Cavidin ömür yoluna nəzər saldıqda, «Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə həqiqətdir» idealına olan sədaqət tam aydınlığı ilə görünür. Cavid sənətdə və Cavid

həyatda - bu iki Cavid arasında təzad yoxdur. Əslində Cavid sənətdə bir və həyatda ayrı bir Cavid kimi ikiləşmir, bir tam olaraq qalır. Həyatdakı Cavid sənətdəkini, sənətdəki Cavid isə həyatdakını tamamlayır.

Cavid özünün gözəllik konsepsiyasını və estetik təlimini elə bir vaxtda irəli sürürdü ki, hakim doqmatik ideologiya az qala bütün sənətkarlardan kommunist partiyasının üzvü olmağı tələb edirdi. Təsadüfi deyildir ki, Nəsimini marksçı və leninçi, Nizamini utopik sosialist, Füzulini ateist edənlər tapıldığı kimi, bu vaxt Cavidi «dindarlıqda», Peyğəmbəri idealizədə ifşa edənlər az olmadı.

Belə bir zamanda hiss və duyğuya söykənən müasir sənət adamları, o cümlədən, şairlər duyğularını cilovlamağı bacarmalı, Marksın, Engelsin və Leninin baxışlar sistemindən kənara çıxmamalı idilər. Əks təqdirdə həmin şairlər görkəmli tənqidçilər tərəfindən proletar ədəbiyyatının vintciyinə və təkərciyinə çevrilmədiklərinə görə tənqid atəşinə tutulurdu: «Şübhəsiz ki, məmləkətin son hadisələrindən az mütəəssir olan bu ədəbiyyat zümrəsi, təəssüflə deməliyəm ki, kəndisini bitərəf bir cəbhəyə doğru çəkir. İlhamını ya əski turan istilalarından («Topal Teymur» - Hüseyn Cavid), ya əski Ərəbistan çöllərindən («Peyğəmbər» - Hüseyn Cavid) alır, yaxud da «Qız qala»larından (Cəfər Cabbarzadə) və ya «Göy göl»ün (Cavad) füsünkar və simvolik mənzərələrindən ruhlanır. Məmləkətdə nə yapıldığı, yıxılan və qurulan işləri, yaradılan yenilikləri guya görmək belə istəmirlər».[23]

Həmin dövrdə repressiyadan uzaq düşmək üçün bolşevizmi tərənnüm edən ədəbiyyatla yanaşı, metaforik tərkib və ifadələrlə fikri ifadə edən əsərlər də yaranırdı. Lakin bu poetik əlamətlər də hakim rejimin nəzərindən qaçmırdı; Ə.Cavadın «Göy göl», M.Müşfiqin «Dəvət», «Gecə düşüncələri» və s. əsərlərində olduğu kimi.

[23] Əli Nazim. «Maarif və mədəniyyət» jurnalı, 1929, № 9.

Romantizmin əsas xüsusiyyətlərindən olan uzağı görmə, zamanı qabaqlama bəşəriyyətin iblisə uyduğu bir vaxtda çox qorxulu və təhlükəli idi. Belə bir zamanda H.Cavid «İblis»i, həm də iblis - mələyi deyil, iblis - insanı yaratdı. Onları göydə deyil, yerdə dolaşdırdı.

İblisin romantik monoloqu əslində bəşər tarixinin, xüsusilə XX əsrin tragik yaşantısının ən gerçək poetik duyumu və yozumu idi. Üstəlik, burada yaxın və uzaq gələcəklə də bağlı çox aydın düşüncə, müdrik fəlsəfi proqnoz və işarə vardır: bəşərin iblisli, yaxud iblissiz gələcəyi məhz XX yüz ildə insan - iblis münasibətlərinin həllindən bilavasitə asılı olacaqdır...

İblis insanın 20-ci illərdə Abbasmirzə Şərifzadənin rejissorluğu ilə səhnəyə gəlişi və çoxlarının mələk simasında tanıdığı İblisin insan qiyafəsində geniş kütlələrə təqdimi, İblisin intiqamına gətirib çıxarmalı idi. Cavid dinc durmayan, insan qanına susayan İblisin törədəcəyi fəlakətləri də gördü və beləliklə də, 1936-37-ci illərdə «İblisin intiqamı» yarandı.

20-30-cu illərin tənqidçiləri Cavidi «Teymur kimi qəddar bir istilaçını və o zamankı həyatı ideallaşdırmaqda» (M.K.Ələkbərli) da günahlandırırdılar. 70-80-ci illərin tənqidi isə burada idealizə olmadığını iddia edir və əsas arqument kimi onu gətirirdilər ki, əgər belə olsaydı Cavid Teymura «topal» deməzdi. Həqiqətən də, müəllif öz qəhrəmanını idealizə etməmişdir. Ümumiyyətlə, nəyin və kiminsə idealizəsi obyektivlikdən uzaq düşmək, obyekti olduğundan daha güclü, daha şişirdilmiş formada verməkdir. Cavidin seçdiyi qəhramanlar, Məhəmməd, Səyavuş, Xəyyam... eləcə də Teymur idealizədən tamamilə uzaqdırlar. Əgər Cavid Teymuru idealizə etsəydi onun göstərdiyi qəhrəmanlıqlarla dolu hərbi yürüşləri, cahangirlik və cəngavərlik səhnələrini qələmə alardı. O isə bunların əksinə olaraq iki böyük türk sərkərdəsinin apardığı mübarizələri daha çox qabartmışdır. Belə bir əsəri yazmağa onu nə vadar etmişdi?

Professor Y.Qarayev öz tədqiqatlarında Cavidin Teymura müraciətini tiranlıqla bağlayır və yazırdı: «...Cavid nifrət və lənət etdiyi «qan püskürən, atəş sovuran» «şahlar, ulu xaqanlar» haqda da mədhiyyə yaza bilməzdi, Teymurləng də bu məqsədlə seçilməmişdi. Cavid «İblis»də şəri şər dühasının- iblisin dili ilə təhlil və tənqid etdiyi kimi, «Topal Teymurda»da eyni üsuldan istifadə edir: tiranları ifşa üçün tiranların ən zalımını və ən dahisini - Teymuru seçir!».[24]

Bizcə, bu əsərdə tiranlığın tənqidi ilə yanaşı, Cavid ikinci bir problemə - Teymurda özünün turançılıq ideyalarına zidd cəhətlər gördüyünə görə müraciət etmişdir. Cavidi Teymurdakı tiranlıqdan daha çox (Cavid ümumiyyətlə tiranlığın əleyhinə idi), əcdadlarından - hunlardan, Göytürklərdən, oğuzlardan və nəhayət, Çingiz xandan miras qalmış turançılığın süqutu narahat edirdi.

Turançılıq bolşeviklər tərəfindən uzun müddət təhrif edilərək bəşəriyyətə fəlakətlər gətirəcək qorxulu bir ideologiya kimi təbliğ olunmuş və onun mahiyyəti üzərinə kölgə salınmışdır. Turançılığın mahiyyətini açıqlayan Ziya Göyalp yazırdı: «Turan» sözü «turlar» yəni «türklər» demək olduğu üçün, sadəcə türkləri içinə alan bir topluluğun adıdır. Deməli, «Turan» sözünü bütün türk boylarını içinə alan böyük Türküstan üçün işlətməyimiz lazımdır. Çünki «türk» sözü bu gün yalnız Türkiyə türklərinə verilən bir ad olmuşdur. Türkiyədəki türk kültürünə - harsına daxil olanlar təbii ki, yenə bu adı alacaqdılar. Mənim inamıma görə, bütün oğuzlar yaxın bir zamanda bu ad altında birləşəcəklər. Ancaq tatarlar, özbəklər, qırğızlar, ayrı kültürlər - harslar ortaya çıxardıqları zaman, ayrı-ayrı millətlər halını alacaqlar və buna görə də yalnız öz adları ilə anılacaqlar. O zaman bütün bu əski qohumları, qövmi bir topluluq halında birləşdirən ortaq bir ada ehtiyac duyulacaqdır. Bax, bu ortaq ad «Turan» sözüdür.

[24] Yaşar Qarayev. Ədəbi üfüqlər. «Gənjlik», Bakı, 1985, səh. 148.

Türkçülərin uzaq ülküsü - məfkurəsi Turan adı altında birləşən oğuzları, tatarları, qırğızları, özbəkləri, yakutları dildə, ədəbiyyatda və kültürdə - harsda birləşdirməkdir».[25]

Göründüyü kimi, burada bəşəriyyət üçün qorxu törədə biləcək heç nə yoxdur. Caviddə də turançılıq məkan və ərazi bütövlüyünə, torpaq iddiasına, coğrafi hüdudların genişləndirilməsinə yox, bütün türk dilli xalqların mənəviyyat, əqidə, ünsiyyət, ədəbiyyat, din və mədəniyyət bütövlüyünə xidmət edirdi. Cavidin fıkrincə, Teymur bir hökmdar kimi turançılığı işğal və müharibələr yolu ilə deyil, türkü türkə dost etməklə qorumalı idi.

Maraqlıdır ki, Caviddəki turançılıq ideyalarını 20-ci illərin tənqidi görmüş, göstərmiş və ən çox məhz bununla şairi ittiham etmişdir. Ədibin bəraətindən sonrakı illərdə turançılıq ideyası tədqiqat obyektindən kənarda qalmışdır. Sosializmin sonrakı mərhələlərində də turançılıq tamamilə zərərli və mürtəce bir ideya kimi təbliğ olunduğundan Cavid sənətinin böyüklüyünə xələl gətirən və onu yenidən ittiham obyektinə çevirən faktor olduğuna görə tədqiqatçılar bu məsələyə, demək olar ki, toxunmamışlar.

Repressiya illərində şəxsiyyəti, ideya və inamı sınaq qarşısında qalan xeyli sənətkarımız fiziki cəhətdən məhv olsalar da öz yollarından dönmədilər.

[25] Ziya Göyalp. Türkçülüyün əsasları. «Maarif», Bakı, 1991, səh. 38.

ƏDƏBİ MƏHKƏMƏLƏR VƏ ONLARIN TƏDQİQİNƏ BİR NƏZƏR

Millət şəcərədən, genetik koddan, milli yaddaşdan uzaq salınanda, manqurda, köləyə və kütləyə çevriləndə İBLİSLƏ MƏLƏYİN, MƏLƏKLƏ İBLİSİN yeri səhv düşür.

İdarə və iş üsulu repressiyalar olan Sovet totalitarizminin imperiyanın dayaqlarını möhkəmləndirmək və mühafizə etmək üçün müxtəlif icra mexanizmi olmuşdur ki, onun əsas formalarından biri də ötən əsrin 20-ci illərinin dövri mətbuatında deyildiyi kimi ədəbi mühakimələr və ya ədəbi məhkəmələr idi.

Diqqətlə fikir versək görərik ki, ədəbi mühakiməyə verilmiş bədii əsərlərin, demək olar ki, hamısı sovet dövründən əvvəl yazılmışdır. Maraqlıdır ki, ədəbi məhkəmənin mühakiməsinə tamın özü (bütövlükdə bədii əsər) deyil, onun bir hissəsi (hər hansı bir əsərin yalnız bir obrazı) verilirdi.

Araşdırmalar göstərir ki, hələ çar Rusiyası dövründə də hüquqşünas tələbələrin praktikasında mövcud olmuş improvizasiyaya əsaslanan qurama məhkəmə iclaslarının təcrübəsindən istifadə edirdilər. Bu məhkəmələr zamanı tələbələr özləri həm hakim, həm vəkil, həm ittihamçı, həm də müttəhim qismində çıxış edir və beləliklə də, nəzəri biliklərini konkret situasiyalara uyğun püxtələşdirirdilər. Başqa sözlə desək, məktəblərdə, tələbə dərnəklərində onlar müxtəlif ədəbi qəhrəmanlar üzərində məhkəmə qurur və onları mühakimə edirdilər. Beləliklə də, XIX əsrdə maarifin və tədrisin inkişafına xidmət edən qurama məhkəmələr XX əsrin 20-ci illərindən sovet hakimiyyətinin imperiya maraqlarına xidmət etməyə başladı, yəni çar Rusiyasından qaynaqlanan bu ənənə yeni hakimiyyətin əlində ciddi təsir vasitəsinə çevrildi. L.Tolstoyun, S.Yesenin və başqalarının qəhrəmanları üzərində ədəbi məhkəmələr quruldu. Start xəttini (başlanğıc

nöqtəsini) Moskvadan alan bu məhkəmələr qısa bir zamanda sovet siyasi repressiv aksiyalarının bir forması kimi özünü göstərməyə başladı.

Sovetlər dönəmində bədii düşüncədə və ədəbi prosesdə siyasi repressiyalar vahid ssenari əsasında müxtəlif metod və yollarla həyata keçirilirdi. Qarşı-qarşıya qoyma, üzləşdirmə, dövri mətbuatda, qurultay və plenumlarda ifşa bu ssenarinin əsasını təşkil edirdi. Əslində isə repressiyaların üç forması daha qabarıq görünürdü: dövri mətbuatda və yığıncaqlarda tənqid, sosializmin prinsiplərinə uyğun gəlməyən bədii və elmi əsərləri ədəbi məhkəmələr və senzuralar vasitəsi ilə gözdən salmaqla yasaqlamaq və görkəmli milli ziyalıları təhlükəsizlik orqanlarının əli ilə məhv etmək.

Bütün bu metod və üsullar yeni cəmiyyətin, yeni izmin (sosializmin) öz ədəbiyyat və sənət adamlarını yetişdirməyə xidmət edirdi. Almas İldırım ədəbiyyat cəmiyyətində əsərlərin üzərində bolşevik yazarların "proletar şairləri yetişdirmək" məqsədilə necə əməliyyat apardıqlarını "Bakı xatirələri" məqaləsində bütün çılpaqlığı ilə açıb göstərirdi. Almas İldırım "Düşmənə" adlı şerinə S.Rüstəmin etdiyi dəyişikliklərə belə aydınlıq gətirirdi: "Bən - Sərlövhəsi "Düşmana"dır.

Süleyman - (çapuq sözümü kəsərək) Hankı düşmana?.. İştə görürsənmi... siyasi yanlışlıq... düşmanı olduğu kibi yazmalıdır.

Bən - Canım bir dur; təbii şerin mövzuundan anlaşılır - dedim.

Süleyman - Yok, yok... şerin sərlövhəsi əsasdır. Düşmanın kimlərdən olduğunu yazmalı... Düşman kim?...

Bən - Bəlli ki, duşmanımız birdir. İştə ona qarşı yazılmışdır.

Süleyman - Kim? Kapitalizmi, imperializmi?... İştə onu yazmalı.

Bən - (artıq onun israr edəcəyini bildiyimdən) - pəki,... dedim və şeri oxumağa başladım.

"Genə qanlara dolmuş afaqın,
Canavar gözlərində kin parlar.
İti caynaqlı pəncədə,
Dedilər pək çox ağlayanlar var!"


Süleyman - Öylə, öylə, sərlövhəsini "Kapitalizmə", yaxud da "Qərbə xitab" qoymalısın"[26].

Şeir sərlövhəsindən son misrasına qədər «təshih» edildikdən, düşmənin imperializm və ya kapitalizm olduğu tam aydın, bütün tərəfləri ilə göründükdən, daha doğrusu əsl ünvan və ad dəyişdirildikdən sonra "Ədəbi parçalar"da çapına icazə verilir.

Tənqidçinin bədii-estetik təfəkkür xadimindən, yazıçı-ideoloqdan çox dövlət ittihamçısı, müstəntiq, prokuror və hakim rolunda çıxış etməsinə inanmaq üçün ədəbi məhkəmələrin materiallarını izləmək kifayətdir. Tədqiqatlar zamanı müəyyənləşdirdik ki, Azərbaycanda ədəbi əsərlərin mühakiməsinə hələ 1919-cu ildən başlanılmışdır. Belə ki, «Azərbaycan» qəzeti 1919-cu ilin 3 yanvar tarixli sayında bildirirdi: «Texniklər cəmiyyəti bu günlərdə Ə.Haqverdiyevin «Ağa Məhəmməd şah Qacar» pyesinin qəhrəmanı Ağa Məhəmməd şahı ədəbi mühakiməyə qoyacaqdır».[27]

Qulam Məmmədlinin verdiyi məlumata görə həmin ilin 12 oktyabrında «Yaşıl qələm» cəmiyyəti Parlaman binasının kitabxanasında Lenqiyelin «Tayfun» əsərinin ədəbi mühakiməsini keçirmişdir[28]. Qeyd etməliyik ki, 1919-cu ildə «Texniklər» və ya «Yaşıl qələm» cəmiyyətləri tərəfindən keçirilən ədəbi mühakimələr 20-ci illərin ədəbi mühakimələrindən tamamilə fərqlənirdi və həmin mühakimələr ədəbi mühakimədən daha çox ədəbi müzakirə xarakteri daşıyırdı. «Yaşıl qələm» cəmiyyətinin əsas məramı da «Azərbaycan

[26] "Qurtuluş" jurnalı, Berlin, 1936, № 18, səh. 531.
[27] Q.Məmmədli. Azərbaycan teatrının salnaməsi. Bakı, 1975, səh. 511.
[28] Q.Məmmədli. Azərbaycan teatrının salnaməsi. Bakı, 1975, səh. 533.



باکو خبرلری

صنایع قورصلاری

باکو بولتخنیق مکتبنده اوقویان تورك تخنقلری جمعیتنك تشبثی ایله آچلمش صنایع قورصلری بازاری سه‌شنبه و پنجشنبه گونلری آقشام ساعت ۳ ـ ۷ کمی اوچنجی عالی ابتدائی مکتبنده دوام ایدیر.

هندسه‌دن ـ نصرالله نوروز زاده.

الجبردن ـ اژدر علی زاده

فزیقا و کیمیادن ـ محمد زاده میرزابالا

درس ویریر.

تورکجه ادبیات و تاریخ قورصلری ده اورادہ اولوب باشقه گونلرده اوقونجقدر.

ادبی محاکمه

بو گونلرده همین جمعیت طرفندن عبدالرحیم بك حقویردوف طرفندن یازلمش مشهور تاریخی پیه‌سا «آقا محمد شاه قاجار»ك قهرمانی آقا محمد شاه ادبی محاکمه‌یه قویولاجقدر. بو شعبه مکتبلرده اوقویان یوقاریدا شاگردلرندن رجا اولنور که اشتراك ایتمك ایچون آدلرینی قیدجه یازدیرسونلر.

شنبه گونی کانون ثانی‌نك ۴ ده ساعت ۴ ده باکو ولایتی مکتبنده باکو شهری و اطرافی متعلملرنك عمومی اجلاسی واقع اولاجقدر. معین وقتده لازمنجه عضولر گلمزسه اجلاس بر ساعتدن صوکره قانونی حساب ایدیله‌جکدر.

Ə.Haqverdiyevin qəhrəmanı Qacarın mühakiməsi. «Azərbaycan» qəz., 1919, № 78.

xalqının fikrən yüksəlməsinə çalışmaq, Azərbaycan ədəbiyyatında müşahidə edilməkdə olan yeniliyi qüvvətləndirmək, onu türklüyə və sadələşməyə sövq etmək» idi[29].


1919-cu ildə keçirilən ədəbi məhkəmələrlə bağlı verilmiş elanda «başqa məktəbdə oxuyan yoldaşlarımızdan da rica olunur ki, iştirak etmək üçün adlarını qabaqcadan yazdırsınlar»[30] qeydi də təsdiqləyir ki, ədəbi məhkəmələr kiçik, həm də hələlik lazımi səviyyədə formalaşmamış cəmiyyət səviyyəsində təşkil edilmişdi. Bu ədəbi məhkəmələrə dəvət olunanlar da tanınmış ictimai-siyasi xadimlər deyil, «məktəbdə oxuyan yoldaşlar» idi. Bu ədəbi məhkəmələr hər hansı bir qərar qəbul edərək müzakirəyə çıxardıqları əsərin ideyasını marksistləşdirməyi qarşısına məqsəd qoymamışdı.

Bundan fərqli olaraq 1920-ci illərin əvvəllərində keçirilən mühakimələr isə ittiham və ya bolşeviklərin özlərinin də qəzet sərlövhələrinə çıxartdığı kimi məhkəmə (həm də siyasi məhkəmə) xarakterli idi. Həmin illərdə oxucuların qəzet səhifələrində tez-tez rastlaşdığı ədəbi məhkəmələrlə bağlı elanlardan bir neçəsinə nəzər salaq.

«Bu gün (1920-ci ilin 10 iyulu nəzərdə tutulur – C.Q.) saat 11-də Dövlət teatrında (sabiq Mayılov teatrı) «Ölülər» faciəsinin qəhrəmanı Kefli İskəndərin mühakiməsi olacaqdır. Teatıra daxil olmaq pulsuzdur. Məhkəmə heyəti»[31].

«Əxbar» qəzeti səbəbini göstərməsə də, ədəbi məhkəmənin 1920-ci ilin 23 iyuluna keçirildiyini qeyd edirdi: «Ölülər» pyesinin qəhrəmanı İskəndərin üzərində ədəbi mühakimə. Sədr – Ə.Haqverdiyev, prokuror – Hüseyn Sadiq. Məhkəmə üzvləri Hüseyn Cavid, Salman Mümtaz, Abdulla Şaiq, Sultanməcid Qənizadə, doktor Rəşid Sürəyya. Müdafiəçilər: F.Köçərli, Xəlil İbrahim. Kefli İskəndər – Mirzəağa Əliyev»[32].

[29] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. Bakı, 2005, səh. 435.
[30] «Azərbaycan» qəzeti. 3 yanvar, 1919, № 78.
[31] «Əxbar» qəzeti. 10 iyul, 1920.
[32] «Əxbar» qəzeti. 23 iyul, 1920.



«Ölülər» əsərinin qəhrəmanı İskəndərin mühakiməsi ilə bağlı elan. «Əxbar» qəz., 1920, № 40.



İskəndərin mühakiməsi ilə bağlı material.
«Əxbar» qəz., 1920, № 52

Yeri gəlmişkən, «Əxbar» qəzetinin bu qeydindəki bir məsələyə münasibət bildirmək istərdik. Həmin qeyddə müdafiəçilər arasında F.Köçərlinin də adının göstərilməsi olduqca maraqlı və təccüblüdür. Ona görə ki, Firudinbəy Köçərlinin iyul ayında keçirilməsi nəzərdə tutulan həmin mühakimədə müdafiəçi və ya qeyri-müdafiəçi sifəti ilə iştirakı mümkün deyildi. MTN-in arxivində olan F.Köçərlinin istintaq qovluğundakı sənədlər də bunun mümkün olmadığını təsdiqləyir. Belə ki, F.Köçərli 1920-ci il may ayının 10-da həbs edilmiş və həmin ilin 4 iyununda çıxarılmış qərara əsasən güllələnmişdir[33]. Dördü iyunda güllələnmiş bir şəxsin 23 iyulda ədəbi mühakimədə iştirak edəcəyi haqda xəbərinin qəzetdə getməsi olduqca təəccüblü görünür.

Mətləbi uzatmadan ədəbi məhkəmələrə qayıdaq. «Əxbar» qəzetində verilmiş bu qeydlərin izinə düşərək «Ölülər» əsərinin qəhrəmanı İskəndərin ədəbi məhkəməsinin necə aparıldığını və hansı nəticəyə gəlindiyini öyrənməyə çalışdıq. Lakin həmin ilin dövri mətbuatında elə bir materiala rast gəlməsək də, 1923-cü ilin «Maarif və mədəniyyət» jurnalında «Ölülər»in mühakiməsi ilə bağlı aşağıdakı məlumata rast gəldik: «Darülmüəllimat binasında: Molla Nəsrəddin tərəfindən yazılmış və dəfaətlə səhnəmizdə mövqeyi-tamaşaya qoyulmuş olan «Ölülər» namındakı pyesa üzərində məhkəmeyi-ədəbiyyə cərəyan etmişdir: müddeyi-ümumilər Cəfər Cabbarzadə, Əbdül Əbdülzadə və müdafiələr sırasında Hüseyn Sadiq, Cavad və Zeynallı Hənəfi iştirak etmişlər. Mühakimə birinci dəfə bir az da tərtibsiz və bir tağım nöqsanlarına baxmayaraq, son dərəcə maraqlı keçdi. İskəndəri müvəqqətən ictimai həyatımıza müğayir bir tip gördükləri üçün məhkəmə tərəfindən hüquqi-mədəniyyədən məhrum etdilər. Lakin Şeyx Nəsrullaha qarşı apardığı üsyanında müsbət bir hərəkət etdiyini də ayrıca qeyd etdilər»[34].

[33] MTN-in arxivi. F.Köçərlinin istintaq qovluğu, PS - 12206.
[34] «Maarif və mədəniyyət» jurnalı, 1923, № 2, fevral, səh. 30.


Ədəbi məhkəmənin 1920-ci ildən 1923-cü ilə keçirilməsinin səbəbini görkəmli tədqiqatçı-alim Qulam Məmmədli «Azərbaycan teatrının salnaməsi» əsərində 1920-ci illərdə keçirilən ədəbi məhkəmələrin hamısında müəlliflərin özlərinin iştirakilə bağlayır və məsələyə bu məntiqlə yanaşaraq vaxtın dəyişdirilməsini həmin dövrdə Mirzə Cəlilin Bakıda olmaması ilə əlaqələndirirdi. Lakin «Əxbar» qəzetində bu məsələyə belə aydınlıq gətirilirdi: «Qabaqda xəbər verilmiş olduğu üzərə keçən cümə günü Şura (Əbilov) teatrosunda «Ölülər» faciəsinin qəhrəmanı Kefli İskəndərin mühakiməsi olacaq idi. Fəqət müddeyi-ümuminin gəlməməyindən dolayı mühakimə baş tutmadı»[35]. Fikrimizcə, Qulam Məmmədlinin yürütdüyü mühakimə daha məntiqli görünür.

1924-cü ildə «Kommunist» qəzeti aşağıdakı elanı oxucuların nəzər-diqqətinə çatdırırdı: «Cümə günü oktyabrın 31-də səhər saat 9 tamamda «Kommunist» qəzetəsinin «Stalin» adına olan işçi müxbirləri kulubunda haman kulubun ədəbiyyat dərnəyi təşəbbüsüylə «Aydın» tamaşasının qəhrəmanı olan Gültəkin mühakimə ediləcəkdir. İşbu ədəbi mühakimədə ümumi mühərrir, müxbir, ədəbiyyat maraqlıları və bütün maarif xadimləri iştirak edə bilərlər»[36].

Həmin ildə növbəti bir əsərin – «Şeyx Sənan» qəhramanı Şeyx Sənanın müttəhimlər kürsüsünə çıxarılması barədə məlumat verilirdi. "Kommunist" qəzeti müdiriyyətinin təşəbbüsü ilə ədəbi əsərlər və ictimai tiplər üzərində bir çox mühakimələr qurulması təhdi qərara alınmışdır.

Bu yaxınlarda "Şeyx Sənan" üzərində mühakimə qurulacaqdır. Bu münasibətlə məzkur pyes dekabrın 4-də dövlət teatrında tamaşaya qoyulacaqdır"[37]. Göründüyü kimi, ədəbi əsərlərin mühakiməsi dövrünün aparıcı mətbuat orqanı olan «Kommunist» qəzetinin təşəbbüsü, başqa sözlə, bolşevik partiyasının mövqeyi idi.

[35] «Əxbar» qəzeti, 23 iyul, 1920, № 52.
[36] «Kommunist» qəzeti. 30 oktyabr 1924, № 242 (1242).
[37] "Kommunist" qəzeti, 30 noyabr, 1924.


صحیفه ۲

اجتماعی ادبی محاکمه

دولت تورك تئاتروسنده

«شیخ صنعان»

اداره

Şeyx Sənanın mühakiməsi ilə bağlı elan. «Kommunist» qəz., 1924, № 284

"Cümə günü dekabrın 12-də "Kommunist" qəzeti tərəfindən "Şeyx Sənan" üzərində ictimai-ədəbi mühakimə qurulur. Bu münasibətlə ayın 11-də Dövlət Akademik Teatrında "Şeyx Sənan" pyesi tamaşaya qoyulacaqdır. Mühakimə ilə teatr tamaşasının çox mərbut olması və biri-birinə nə qədər yardım etməsi qabaqkı təcrübəmizdən görünmüşdür. Ona görə bütün maraqlıların həm teatra, həm də mühakiməyə gəlməsi ayrıca tövsiyyə olunur"[38].

"Dekabrın 12-də Əli Bayramov klubunda yoldaş Həbib Cəbiyevin sədrliyi, Cəfər Cabbarzadə və Şirinbəy Səfərəlibəyov yoldaşların müddəi-ümumiliyi və Akif Kazımovun katibliyi ilə Hüseyn Cavidin "Şeyx Sənan" əsərinin qəhrəma-

[38] "Kommunist" qəzeti, 11 dekabr, 1924, № 277, səh. 7.

nı Şeyx Sənanın mühakiməsi başlanmışdır... Yerdə qalan şahidlərin dindirilməsi və müdafiəçiləri gələn cüməyə təxir edilərək mühakimə 4 yarım saatda kəsilir.

Məhkəmə salonu dopdolu idi. Yer olmadığından bir çoxları qayıtmağa məcbur oldu.

Məhkəmə xalqın bu həvəs və arzusunu nəzərə alıb gələn iclası türk tənqid-təbliğ teatrında toplamağa qərar verdi"[39].

15 dekabrda «Yeni yol» qəzeti isə öz oxucularına aşağıdakı məlumatı çatdırırdı: "Hüseyn Cavidin "Şeyx Sənan" əsərinin ədəbi məhkəməsi.

Məhkəmə sədri: Həbib Cəbiyev

Üzvlər: Əskərov, Xudadov, katib Akif.

Prokuror sifətilə: Səfərəlibəyov, Cəfər Cabbarzadə.

Müdafiəçilər: Yusifov, Xəlil İbrahim.

Şeyx Sənan - Hüseyn Sadiq, Zəhra - Dostuxanım"[40].

"İctimai-ədəbi mühakimə


Bu gün ayın 19-da "Kommunist" qəzeti ədəbiyyat dərnəyi tərəfindən Dövlət tənqid-təbliğ teatrında "Şeyx Sənan" üzərindəki ictimai-ədəbi mühakimə davam edəcəkdir.

Mühakimə tam saat 12-də başlanacaqdır. Bütün qəzet müxbirləri, ədib, şair, mühərrir və hər bir ədəbiyyatçı, ictimaiyyətin maraqlananları məhkəməyə dəvət olunurlar. İdarə"[41].

"İctimai-ədəbi mühakimə.

Dekabrın 19-da tənqid-təbliğ teatrında Hüseyn Cavidin əsəri "Şeyx Sənan"ın qəhrəmanı Şeyx Sənan mühakiməsi münasibətilə vüqu olan ikinci məhkəmə iclasının təfsilatı qəzetimizin səhifəsində müfəssəl dərc ediləcəkdir"[42].

[39] «Kommunist» qəzeti. 14 dekabr, 1924, № 279, səh. 4.
[40] "Yeni yol" qəzeti, 15 dekabr, 1924, № 44 (98).
[41] "Kommunist" qəzeti, 19 dekabr, 1924.
[42] "Kommunist" qəzeti, 23 dekabr, 1924.



Şeyx Sənanın məhkəməsi ilə bağlı elan.
«Kommunist» qəz., 1924, № 277

1925-ci ildə «Kommunist» qəzeti oxucuların nəzər-diqqətinə H.Cavidin başqa bir əsərinin - "Şeyda"nın mühakiməsini çatdırırdı: «Dekabrın 25-də gündüz Şaiq adına Pedaqoji texnikumun ədəbiyyat dərnəyi tərəfindən H.Cavidin "Şeyda" pyesindən Qara Musa üzərində ədəbi-ictimai mühakimə olacaqdır"[43].

Qulam Məmmədli «Azərbaycan teatrının salnaməsi» kitabında yazır: "Azərbaycan Lenin Kommunist Gənclər İdtifaqının Mərkəzi Komitəsi və "Gənc işçi" redaksiyası aprelin 27-də C.Cabbarlının "Od gəlini" əsəri üzərində ədəbi mühakimə keçirəcək və bu barədə Hənəfi Zeynallı məruzə edəcəkdir"[44]. Qeyd etməliyik ki, Qulam müəllim «Kommunist» qəzetində verilmiş bu elandakı «ədəbi mübahisə» ifadəsini ədəbi məhkəmə kimi oxumuşdur. 1920-1930-cu illərdə təşkil olunan ədəbi mübahisələrlə ədəbi məhkəmələri eyniləşdirmək olmaz.

Marksist tənqidin əsasını qoyan ədəbi mübahisələr 1920-ci ildə başlanmış və sonrakı illərdə də davam etdirilmişdir. Ədəbi mübahisələr zamanı hər hansı bir əsərin (H.Cavidin «İblis»i və ya «Şeyx Sənan»ı, C.Cabbarlının «Od gəlini») ideya-sənətkarlıq xüsusiyyətləri dövrün tanınmış simaları tərəfindən müzakirə obyektinə çevrilir və mübahisələr dövri mətbuatda davam edirdi. Ədəbi mübahisələrdə nə aktyorlar, nə müdafiəçilər iştirak edir, nə də prokuror olurdu.

Maraqlıdır ki, ədəbi məhkəmədən əvvəl hüquq mühafizə orqanlarının iştirakı ilə müşavirələr də keçirilirdi. Belə ki, 13 noyabr 1924-cü ildə «Kommunist» qəzetinin çap etdiyi bir bildirişdə göstərilirdi ki, ədəbi və ictimai tiplər üzərində mühakimələrin qurulması münasibətilə ədəbiyyat və məhkəmə xadimlərinin müşavirəsi çağrılacaqdır. Müşavirəyə aşağıdakı yoldaşlar Xalq Ədliyyə Komissarlığından - Vəlibəyov, Haşımov Mahmud, Məhəmmədov Talıb; Ali Məhkəmədən - Şükürov Nəsrulla, Musabəyov, Bağırov; Bakı Vilayət Məhkəməsindən - Poladxanov, Hadıyev Məhəmmədqulu, Babaxanov Məhəmmədəli, Ağalarov Sultan, Kərimov; Bakı Müddəi-Ümumiliyindən - Ramazanov, Həmidov; Hərbi Müddəi-Ümumiliyindən - Dağlı Əlihüseyn dəvət olunurlar[45].

[43] Qulam Məmmədli. Azərbaycan teatrının salnaməsi. Bakı, 1983, səh.255; "Kommunist" qəzeti, 25 dekabr, 1925.
[44] "Kommunist" 25 aprel, 1928.

Ədəbi məhkəmələr daha çox klublarda, teatr salonlarında ədəbi mübahisələr isə dövri mətbuat səhifələrində aparılırdı. Ədəbi mübahisələr tənqidçi və ya yazıçının fərdi təşəbbüsü, ədəbi məhkəmələr isə məqsədyönlü şəkildə rəsmilər tərəfindən həyata keçirilirdi. ***Ədəbi mübahisə ilə ədəbi məhkəməni yalnız bir cəhət birləşdirirdi; sənəti və sənətkarı yeni cəmiyyətin prinsiplərinə uyğun olaraq marksizmə-leninizmə yaxınlaşdırmaq.***

Onu da qeyd etməliyik ki, ədəbi mübahisələr ayrıca bir tədqiqatın mövzusu olduğundan burada onun üzərində geniş dayanmağı məqsədəuyğun hesab etmirik.

Bu elan və bildirişlərdən də göründüyü kimi ədəbi mühakimələrlə ədəbi mübahisələr arasındakı ortaq nöqtə ondan ibarət idi ki, müzakirəyə və ya mühakiməyə yaşlı və ortayaşlı nəslin nümayəndələrinin, eləcə də elmi-ədəbi ictimaiyyətdə artıq özünü tərənnümdən özünütəsdiqə kçmiş sənət adamlarının əsərləri cəlb edilirdi. Bu, bir tərəfdən, yaşlı nəslin yaddaşında daşlaşdırdığı və təbliğ etdiyi milli adət-ənənələri, kökdən, türklükdən və islamçılıqdan qaynaqlanan milli təfəkkür tərzini unutdurmağa, digər bir tərəfdən isə ədəbiyyatın istiqamətini dəyişib onu bolşevizm ideyaları ilə zənginləşdirməyə xidmət edirdi.

Tədqiqatçı alim Asif Rüstəmli haqlı olaraq yazır: «təcrübə təsdiqləyir ki, ədəbi mühakimələrə bədii cəhətdən zəif, sənətkarlıq baxımından yararsız işlər deyil, cəmiyyətdə güclü əks-səda doğuran, milli şüurun dirçəlişinə təkan verən məfkurə fədailərinin dram əsərləri verilirdi. Xüsusilə 1920-

[45] «Kommunist» qəzeti, 13 noyabr 1924, № 253 (1253).

30-cu illərdə digər ədəbi janrlarla müqayisədə dram əsərlərinin diqqət çəkməsi, nəzarətə götürülməsi, ədəbi məhkəmələrə təqdim edilməsi həmin dövrdə səhnə əsərlərinin populyarlığı və kütləvi təsir imkanlarına məxsusluğu ilə əlaqədardır. Sovetləşmənin ilk illərində azad sözün və azad fikrin meydanının daralması, üzərində ideoloji nəzarətin icrasını həyata keçirmək üçün təsir metodlarından biri də öncədən müvafiq strukturlar tərəfindən ssenariləşdirilən və səhnələşdirilən ədəbi məhkəmələr idi»[46].

Göründüyü kimi, ədəbi məhkəmələri keçirməkdə əsas məqsəd **birincisi,** Azərbaycan ziyalılarını və sənət adamlarını marksçı-leninçi platformaya yaxınlaşdırmaq və onları gələcək fəaliyyətlərində sovet totalitar ideoloji sisteminin təbliğatçısına çevirmək. **İkincisi,** bədii əsərlərdəki sovet düşüncə tərzinə uyğun gəlməyən məqamları «montaj» etmək və ədəbi səhnədən çıxarmaq. **Üçüncüsü,** əvvəl ədəbi düşüncədə formalaşmış, sonra isə ictimai həyatda təsdiq və təsbitini tapmış xalqın Cümhuriyyət duyğusunu, istiqlal mübarizəsini, hür yaşamaq arzularını yaddaşdan silmək...

Göründüyü kimi, teatr əsərlərinin mühakiməsi xalis siyasi təbliğat xarakteri daşıyırdı. Belə ki, mühakiməyə verilmiş əsərlərdə keçmişlə bağlı olan və sovet cəmiyyətinin tələblərinə cavab verməyən əsərlərin qəhrəmanları ittiham edilirdi. Yeri gəlmişkən qeyd etməliyik ki, sovet hökumətinin prinsiplərinə tam cavab verməyən əsərlər və onların müəllifləri mürtəce adlandırılaraq ədəbi səhnədən uzaqlaşdırılır və ya ən yaxşı halda təshih edilirdi.

Maraqlıdır ki, yalnız ictimai həyatda deyil, ədəbi düşüncədə də ədəbi qəhrəmanların siyasi mənsubiyyəti diqqətdən kənarda qalmırdı. Çünki sovetləşmə illərində qarşıda duran "ən mühüm, ən çətin məsələlərdən biri də "yeni həyat" məsələsi"[47] idi. Məqsəd də yeni həyata alqış deməyən,

[46] A.Rüstəmli. Cəfər Cabbarlı: həyatı və mühiti. Bakı, 2009, səh. 256.
[47] Ə.Yusifov. İctimai mühakimələr təşkili, "Kommunist" qəzeti, 20 noyabr 1924, №259.

onun neqativ hallarını göstərən ziyalıları və onların əsərlərini aradan götürmək idi. Ədəbi məhkəmələrin təşkilatçıları kimin və ya nəyin ittihamı sualına açıq şəkildə belə cavab verirdilər: "Əvvəla, kimi ya nəyi mühakimə etməliyiz? Mənim nəzərimcə, təşkil edəcək olduğumuz ictimai mühakimələrdə hal-hazırda davam edən şura quruluşunun möhkəmlənməsinə və qabağa getməsinə cürbəcür yollar və hərəkətlər ilə maneəçilik göstərən şəxsləri mühakimə etməliyik"[48].

İctimai məhkəmələrin məram və məqsədlərinin açıqlanması da tamaşaçı məktublarından doğan məcburiyyətdən irəli gəlirdi. Bu mənada Ə.Yusifovun «İctimai mühakimələr təşkili» münasibətilə "Kommunist" qəzetində verdiyi açıqlamalar olduqca maraqlıdır: «Məhkəmədə məqsəd – mühakimə etdiyimiz şəxsi ya şeyi (yəni bir ictimai hadisəni) hazırki Şura quruluşunun gedişinə mane olmaq dərəcəsinə nə kimi ümumi hadisələr, yaxud hansı siyasi və ictimai quruluş gətirdiyini müəyyən etmək ilə müqəssir şəxsində onun müqəssir olmasının əsasi səbəblərini tənqid etmək ilə onların təsviyəsi (həlli) yollarını qərarda göstərmək və onu mətbuat vasitəsilə geniş füqərayi-kasibə kütləsi arasında nəşr etməkdir.

Böyləlik ilə biz qurduğumuz mühakimələr nəticəsində cəmiyyətimizin yeni həyata doğru getməsi yolundakı bütün maneələri üzə çıxarmaq ilə onların əmələ gəlməsini füqərayi-kasibə nöqteyi-nəzərilə aşkara çıxarıb təsviyə yollarını və həyatın hər cəhətini füqərayi-kasibəyə göstəririk»[49].

Ə.Yusifovun ədəbi məhkəmənin mahiyyətini şərh edərkən «Şura quruluşunun gedişinə mane olan»ların ifşasını qarşıya məqsəd qoyaraq bu istiqamətdə mühakiməyə verilən dram əsərlərindən C.Cabbarlının «Aydın» pyesinin də

[48] Ə.Yusifov. İctimai mühakimələr təşkili, "Kommunist" qəzeti, 20 noyabr 1924, №259.
[49] Yusifov Ə. İctimai məhkəmələr təşkili. «Kommunist» əqzeti, 1924, 20 noyabr, № 259.

seçilməsi, bu sənət əsərinin ədəbi-bədii məziyyətinin, mənəvi-estetik siqlətinin «füqərayi-kasibə nöqteyi-nəzərilə» dəyərləndirilməsi təcrübəsinin «yeni həyata doğru irəliləyiş» olduğunu qeyd etməsi təsadüfi deyildir. Faktın özü onu təsdiqləyir ki, əvvəla, milli istiqlal məfkurəsinin daşıyıcıları, o cümlədən Cəfər Cabbarlı həbsxanadan azad olsa da, ideologiya bosslarının şübhə və nəzarətindən xilas ola, aministiya ala bilməmişdir. İkinci məqam ondan ibarətdir ki, cəmiyyəti öz ardınca irəli, elmin, təhsilin, mədəniyyətin ön cərgələrinə aparmağa layiq yazıçıların, dramaturqların, ədiblərin özlərinin və əsərlərinin gələcək taleyinin, aqibətinin «füqərayi-kasibə nöqteyi-nəzəri»nə həvalə edilməsi, dolayısı ilə kütləni idarə edənlərin ixtiyarına verilməsindən başqa bir şey deyildir ki, bu da cəmiyyətin özü üçün çox anormal və təhlükəlidir. Təəssüf ki, Azərbaycanda bolşevik rejiminin hökmranlıq etdiyi ilk 20-30 illərdə ziyalıların, alimlərin, sənətkarların, bir sözlə, cəmiyyətin zəka sahiblərinin böyük əksəriyyəti «füqərayi-kasibə nöqteyi-nəzəri»nə iltifat göstərənlərin məkrli niyyətlərinin və siyasi repressiyalarının qurbanına çevrildilər[50].

Məqalə müəllifi Ə.Yusifov göstərir ki, buraya ictimai həyatımıza, "yeni həyata" doğru gedişimizə müqavimət edən qüvvələrin hamısı daxildir. Mühakimələr zamanı əsas məqsəd nə idi? Bu suala həmin dövrdə belə cavab verilirdi: «Əfəndilər! Hər kəsə bəllidir ki, hər daim, hər halda çox vaxt məhkəmələrdə iki mübariz tərəf-müddəi-ümumi və müdafiələr bir-birilə çarpışar və nə vasitəsilə olursa olsun yek digərlərinə qalib gəlmək istəyirlər. Müddəi çox vaxt həqiqət və ədalətlə belə hesablaşmadan müttəhimin hər bir işini, sözünü və hərəkətini fənalığa yozar və müttəhimin məhkum edilməsinə çalışar: Eynilə müdafiələr caniliklərini açıq bildikləri bir adamı belə müdafiə edərkən bütün fəna hərəkətlərini

[50] A.Rüstəmli. Cəfər Cabbarlı: həyatı və mühiti. Bakı, 2009, səh. 262-263.

bilərək yaxşılığa yozmağa, cinayətləri əntüb pərdələməyə və nə vasitə ilə olursa olsun müqəssiri pak təqsirsiz çıxarmağa çalışarlar. Burası hər iki tərəfin bir növ vəzifələridir. Fəqət bu gün mən arzı edərdim ki, heç bir tərəf yoxdur, mütəəssübliyə qapılmayıb bir həqq, bir ədalət naminə mühakimə yürütsün, heç kəs bilərək haqdan qaçmasın və böyləliklə bugün müttəhimlər səndalyasında oturmuş İskəndərin əsl siması aydınlaşıb araya çıkmış olsun. Biz buna söz veriyir və əhd ediyiniz həmin bunu bu bitərəflik və ədalətli də müdafiə vətəndaşlardan gözlər, ümid və arzu edəriz»[51].

Yaxud başqa bir nümunəyə diqqət yetirək: "Mühakimələrdə əsas məqsədimiz nə olmalıdır? Aşkardır ki, belə mühakimələrdə bir şeyi, ya bir şəxsi mühakimə etdikdə adi ədliyyə mühakimələri verdiyi nəticə verilməməlidir"[52]. Lakin çıxardığı "hökmlərə" görə 1920-ci illərin ədəbi məhkəmələri o illərin ənənəvi cinayət məhkəmələrindən heç də geri qalmırdı. Buna səbəb isə ədəbi və cinayət məhkəmələrinin eyni rejissor tərəfindən idarə olunması idi. Burada başqa, incə bir məsələ də var idi. Ədəbi məhkəmələrdə əsərlərin gələcəkdə necə və hansı istiqamətdə təhlili edilməsi böyük ustalıqla yönləndirilir və ədəbi tənqidin məhz bu istiqamətdə inkişafı müəyyənləşdirilirdi (bu barədə aşağıda yeri düşdükcə bəhs ediləcəkdi – C.Q.).

Ədəbi məhkəmələr zamanı qarşıya qoyulan əsas məqsədlərdən biri də bədii əsərdəki hər hansı bir obrazı mühakimə etdikdən sonra onun nəticələri barədə dövri mətbuatda müfəssəl məlumat vermək idi. Mətbuatda, xüsusilə də «Kommunist» qəzetində verilmiş məlumatlarda məhkəmələrdəki bəzi çıxışlarla yanaşı ədəbi məhkəmələrin əhəmiyyəti və kütləyə təsir dairəsi barədə də təbliğatlar aparılırdı: «Məsələn, «Aydın» pyesası mühakimədən sonra oy-

[51] Azərbaycan Dövlət teatr muzeyi. inv. 530.

[52] Ə.Yusifov. İctimai mühakimələr təşkili, "Kommunist" qəzeti, 20 noyabr 1924, №259.

nandıqda tamaşaçıların səhnəyə nə qədər tənqid və mühakimə gözü ilə baxdıqlarını və zahiri görünüşlərdən ziyadə əsərin və hər tipin ruhuna diqqət verdikləri və hər uyğunluq və namüvafiqliklərini qeyd və zikr etdikləri bizə açıqca göstərdi ki, bu kibi mühakimələrin çok faidəsi vardır. Ona görədir işçi müxbirlər klubunun ədəbiyyat dərnəgi gələcəkdə bir çok böylə mühakimələr qurmaya qərar vermiş və hətta məhkəmə işçilərini də fəaliyyətə cəlb etmişdir. Ona görə yaxşı olar ki, həmən mühakimələrə hazırlanmaq içün o münasibətlə verilən tiyatrolara getsin və digər tərfdən hər pyesayı daha yaxşı bilməkdən ötri böylə ədəbi ictimai mühakimələrə gəlsin[53].

Ədəbi məhkəmələr açıq şəkildə, klublarda və teatr binalarında keçrilirdi. Bu məhkəmələr elə təşkil olunurdu ki, ora gələnlərin sayı klub və teatr binasında yerləşdirilən otracaqların sayından qat-qat çox olurdu. Məhkəmə heyəti əhalinin çoxluğunu nəzərə alaraq ədəbi mühakimələrin daha geniş binalarda keçirilməsi haqda qərar qəbul edirdi. Məsələn, "Kommunist" qəzeti "Ədəbi mühakimə" başlıqlı yazısını bu sözlərlə başlayırdı: "Kommunist" qəzeti idarəsinin "Stalin" klubunun "ədəbiyyat" dərnəyi tərəfindən Cəfər Cabbarzadənin "Aydın" adlı əsərinin "Gültəkin" qəhrəmanının... 31-nə təyin edilən ədəbi mühakiməsi "Stalin" klubunda yer azlığına görə Əli Bayramov klubunun salonunda Həbib Cəbiyevin sədarəti altında açıldı"[54].

Bununla yanaşı, mühakiməsi nəzərdə tutulan əsər məhkəməyədək tamaşaya qoyulur və geniş kütlələrə göstərilirdi. Məhkəmə zamanı tamaşada iştirak edən aktyorlar da şahid sifəti ilə məhkəməyə cəlb edilirdi. Hətta elə hallar olurdu ki, aktyorun səhhətini yoxlamaq üçün xüsusi tibbi komissiyalar yaradılırdı. Belə komissiyalardan biri Aydının sağlamlığını yoxlamaq üçün yaradılmış, onu müayinə etdikdən sonra,

[53] «Kommunist» qəzeti. 3 dekabr, 1924, № 270.
[54] «Kommunist» qəzeti. 2 noyabr, 1924, № 244.

həkimlərin çıxardığı qərar məhkəmədə oxunmuş və sonra məhkəmə öz işinə başlamışdır. Aydın barəsində həkimlərin çıxardığı qərarda oxuyuruq: "Təbiblər komissionu Aydının səhhəti və xüsusa səhhətini müayinə etdikdən sonra bu qərara gəlir ki, Aydının şüuru sağlamdır. Fəqət həyatında keçirdiyi məşəqqətlər, aclıq və sairə, şübhəsiz, səhhətinə təsir etmiş, əsəbiliyinə bais olmuşdur. Şahid tam səhhəti üzrə əqli-səlimə malikdir"[55].

Hər hansı bir əsərə və orada qaldırılan problemlərə görə müəllifin ittihamı dünya praktikasında mövcuddur. Sovetləşməyə qədər Azərbaycanda da belə hallar olmuşdur. Parça-parça edilən Fəzlullah Nəimi, dərisi soyulan İmadəddin Nəsimi, həbsxana küncünə atılan Qasımbəy Zakir, Əlabbas Müznib, sovet hakimiyyəti illərində sürgün edilən, qətlə yetirilən H.Cavid, Ə.Cavad, M.Müşfiq, B.Çobanzadə, S.Mümtaz, Ə.Abid, Ə.R.Şamçızadə, S.Hüseyn H.K.Sanılı, H.Zeynallı, Qantemir, T.Şahbazi və başqaları ideyalarına görə təqib olunmuşlar. Lakin müəllifi zalda əyləşdirib onun əsərindəki bir obrazı mühakimə etmək yeni hadisə, daha doğrusu, yeni siyasi aksiya idi. Belə siyasi aksiyalar keçirməklə Azərbaycan ədəbiyyatının yönünü dəyişdirmək, onu zəngin tarixi ənənələrindən, türkçülüyündən və islamçılığından, hətta islama qədərki mədəniyyətindən uzaq salmaq, yeni ədəbiyyat - sovet ədəbiyyatı yaratmaq və formalaşdırmaq istəyirdilər. Elə məhz buna görə də sovetlər dönəmində bu tipli məsələlərin, o cümlədən ədəbi məhkəmələrin təhlilinə və tədqiqinə birmənalı şəkildə icazə verilmirdi. Lakin bütün qadağa və yasaqlara baxmayaraq, sovetlər dönəmində də ədəbi məhkəmələrlə bağlı, sistemli olmasa da, bəzi fikirlər deyilmişdir. Ədəbi məhkəmələrin tədqiq tarixini şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar.

Birinci mərhələ, ədəbi məhkəmələrin keçirildiyi dövrdə qəzet səhifələrinə çıxarılmış elan, informasiya və reportaj

[55] «Kommunist» qəzeti. 2 noyabr, 1924, № 244.

Mən Cabbarlının bu sözlərinə heç şübhə etmirdim, doğrusunu desəm, mən ondan elə bu sözləri gözləyirdim. Çünki onun yeni qəhrəmanları olan Elxan və Gülüşlər, Almaz və Gülsabahlar, Aydın və Oqtaydan fərqli olaraq yalnız ifşaçı deyil, həm də yol göstərən idilər, həyatı dəyişdirən qəhrəmanlar idilər.

Mən «Ölülər»in mühakiməsini sonralar xatırlayanda bir də təsdiq etdim ki, kefli İskəndəri tənqid edərkən Cabbarlı öz yaradıcılıq prinsiplərindən sərf-nəzər edə bilməmişdi. O zaman hələ öz yeni qəhrəmanlarını yaratmamış olsa da, onların yaranmasının zəruri olduğunu, yeni həyatın yeni qəhrəmanlar tələb etdiyini hiss etmişdi.[58]

Bəli, akademik M.Arif özünün son fikrində tamamilə haqlı idi, C.Cabbarlının ədəbi məhkəmədə kefli İskəndəri amansız tənqidinin əsas səbəbi «yeni həyatın yeni qəhrəmanının» axtarışı ilə bağlı idi.

Bu hadisələrin şahidi olan, tanınmış yazıçı-publisist Seyfulla Şamilov «Kiçik səhifə» adlı xatirələrində ədəbi məhkəmələrə kimlərin dəvət olunduğunu göstərir və prokuror sifəti ilə çıxış edən C.Cabbarlının İskəndərə münasibətini şərh edərək yazırdı: «Mən bir gün əvvəl «Kommunist» qəzetində verilmiş elanda oxudum ki, Cəlil Məmmədquluzadənin «Ölülər» pyesinin ədəbi məhkəməsi olacaqdır. Onu da deyim ki, o vaxta kimi mən ədəbi məhkəmənin nə olduğunu bilmirdim. Səhv etmirəmsə, məhkəmənin sədri Cəfər idi. O, məhkəmənin iclasını açaraq, qısaca giriş sözü söyləyəndən sonra ədəbi məhkəmədə iştirak edən şəxslərin adlarını oxudu. Bunların içərisində Əli İskəndər Cəfərov, Abasmirzə Şərifzadə, Mirzəağa Əliyev, Rza Darablı və başqaları var idi. Onu da qeyd etməliyəm ki, həmin ədəbi məhkəmə salonunda N.Nərimanov da parterdə ikinci

[58] Böyük sənətkar (C.Cabbarlıya həsr olunmuş xatirələr və şerlər). Tərtib edən: Ş.Abbasov. Məmməd Arif. Mübariz sənətkar. Bakı, 1976, səh. 25-26.

cərgədə oturmuşdu. Müəllif isə Nərimanovdan bir sıra dalda, adəti üzrə əlini üzünə söykəyib əyləşmişdi. Məhkəmə iclası biz gənclər üçün çox maraqlı keçirdi.

Cəfər əsərin müsbət və baş qəhrəmanı olan kefli İskəndəri təqsirləndirərək deyirdi ki, əgər o müəllifin fanatizmə qarşı apardığı mübarizəni ciddi surətdə təmsil edirdisə, onda bəs nə üçün sərxoşluqdan əl çəkməyir? Sonra məhkəmənin axırında çıxarılan qərarı Cəfər özü oxudu»[59].

Biz Azərbaycanın görkəmli tədqiqatçı-jurnalisti Qulam Məmmədlinin də bu sahədəki əvəzsiz xidmətlərini xüsusilə qeyd etmək istərdik. Belə ki, o, öz salnamələrində[60] ədəbi məhkəmələrin hansı mətbu orqanlarda işıqlandırıldığı, hətta hansı arxivdə və hansı fonda saxlanıldığı barədə məlumat verir ki, bu da müasir tədqiqatçılara həmin materialların asanlıqla əldə edilməsində yardımçı olur.

Üçüncü mərhələ, müstəqillik illərini əhatə edir ki, bu dövrdə də ədəbi məhkəmələrlə bağlı müəyyən fikir və mülahizələr irəli sürülsə və bu materialları arxiv künclərindən çıxarıb elmi dövriyyəyə buraxmaq cəhdi olsa da, hələlik bu sahədəki mövcud boşluq doldurulmamışdır.

Təvazökarlıqdan uzaq olsa da, qeyd etməliyik ki, müstəqillik illərində ədəbi məhkəmələri ilk dəfə tədqiqata cəlb edən və faktlı, predmetli şəkildə sistemləşdirməyə çalışan, onun nə məqsədə həyata keçirildiyini, ədəbi mədəni irsimizə necə bolşevikləşdirilməsini və bütün bu proseslərin siyasi repressiyaların formalarından biri olduğunu üzə çıxaran[61] bu sətirlərin müəllifi olmuşdur.

[59] Seyfulla Şamilov. Kiçik səhifə. Böyük sənətkar (C.Cabbarlıya həsr olunmuş xatirələr və şerlər), Bakı, 1976, səh. 74.

[60] Q.Məmmədli. «Azərbaycan teatrının salnaməsi», Bakı, 1975; yenə onun «Cavid - ömrü boyu» həyat və yaradıcılıq salnaməsi, Bakı, 1982, yenə onun «Mola Nəsrəddin» (Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətinin salnaməsi), Bakı, 1982.

[61] Bax. C.Qasımov. «Repressiyadan deportasiyaya doğru», Bakı, 1998; yenə onun «Cavidi məhbəsə aparan yol», Bakı, 2007.

Filologiya elmləri namizədi Asif Rüstəmli «Cəfər Cabbarlı: həyatı və mühiti» adlı monoqrafiyasında görkəmli dramaturqun «Aydın» əsərinin ədəbi məhkəməsindən bəhs açmış, belə mühakimələrin təşkilinin səbəblərini aydınlaşdırmış, mətbuu mənbələrə söykənərək prokuror Seyid Hüseynin, müdafiəçi İbrahim Xəlilin məhkəmədəki çıxışlarına münasibətini bildirmiş və göstərmişdir ki, bu əsr həm Şuşada, həm də Bakıda ədəbi mühakimələrə cəlb edilmişdir[62].

Filologiya elmləri doktoru Aybəniz Babaxanlı isə «Azərbaycan ədəbi fikri və Hüseyn Cavid» adlı monoqrafiyasında «Şeyx Sənan»ın ədəbi məhkəməsində prokuror sifəti ilə çıxış edən C.Cabbarlının 1922-ci ildə «Zəhmət» qəzetində çap etdirdiyi «Ədəbi mübahisələr» məqaləsi arasında paralelliklər aparır və belə bir nəticəyə gəlir ki, Cabbarlının Cavidi tənqidi şəxsi münasibətlərdən yox, sadəcə, ədəbiyyata baxışların fərqliliyindən doğmuşdur[63].


Deyilənlər bir daha təsdiqləyir ki, indiyədək ədəbi məhkəmələr (kiçik qeyd və xatirələri nəzərə almasaq) ayrıca, həm də sistemli bir tədqiqatın predmetinə çevrilməmişdir.

[62] A.Rüstəmli. Cəfər Cabbarlı: həyatı və mühiti, Bakı, 2009, səh. 255.
[63] A.Babaxanlı. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid, Bakı, səh. 40.

«ÖLÜLƏR» ƏSƏRİNDƏKİ İSKƏNDƏRİN MƏHKƏMƏSİ

Keçmişindən və tarixindən qaynaqlanan mənəvi dəyər və sərvətinə sahib və yiyə çıxmayan millət bu gün var ola bilər sabah isə heç vaxt. Həmişə var ola bilməyin bir yolu var milli yaddaşın bərpası.

Faktlar sübut edir ki, sovetlər dönəmində ilk dəfə "Ölülər" əsərinin qəhrəmanı İskəndər ədəbi məhkəməyə cəlb edilmişdir. Lakin biz İskəndərin mühakiməsi məsələsinə keçməzdən əvvəl «Ölülər» əsərinin senzuralardan ədəbi məhkəmələrə qədər getdiyi yola nəzər yetirmək, öz fikir və düşüncələrimizi oxucu ilə bölüşdürmək istərdik. Həmidə xanımın xatirələrindən çıxış edərək deyə bilərik ki, C.Məmmədquluzadə «Ölülər» əsərini 1907-ci ildən yazmağa başlamış və 12 iyun 1909-cu ildə bitirmişdir. Lakin C.Məmmədquluzadə «Ölülər» əsərinin tamaşaya qoyulmasına 27 avqust 1909-cu ildə Qafqaz Mətbuat Komitəsindən razılıq alsa da onu reallaşdıra bilməmiş, əsər ilk dəfə 1916-cı il aprelin 29-da Bakıda H.Z.Tağıyevin teatrında tamaşaya qoyulmuşdu. Professor Hüseyn İsrafilovun fikrincə, «Ölülər»in 1916-cı ilə qədər tamaşaya qoyulmamasının əsas səbəbini də o zamanlar mövhumatın çox qüvvətli olması və mütərəqqi qüvvələrə qarşı çarizmlə ruhanilərin birgə mübarizəsi ilə izah etmək lazımdır»[64].



[64] İsrafilov H. «Ölülər», Bakı, 1966, səh. 138.

«Ölülər»in ilk tamaşasına ayrıca məqalə həsr etmiş görkəmli ədəbiyyatşünas alim Abbas Zamanov göstərirdi ki, əsərin ilk tamaşasından sonra ciddi mübahisələr başlandı. İki qrupa bölünən ziyalıların bəziləri «Ölülər»i təqdir etsələr də (Hüseyn Cavid, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Sultan Məcid Qənizadə, Seyid Hüseyn və başqaları kimi), digərləri bu əsəri tənqid etməyə («Seyriçi», Oruc Orucov və başqaları kimi) başladı. «Ölülər»in belə mübahisə doğurmağına, böyük müvəffəqiyyət qazanmasına səbəb – bir tərəfdən əsərin dramaturgiya və ideya cəhətdən qüvvətli olmasıdırsa, ikinci tərəfdən səhnədə məharətlə canlandırılmasıdır»[65].

C.Məmmədquluzadə əsərin ilk tamaşasının böyük müvəffəqiyyət qazandığını həyat yoldaşı Həmidə xanıma göndərdiyi teleqramda da qeyd edirdi: «Pyes qeyri-adi bir müvəffəqiyyət qazandı. Ağzına qədər dolu olan teatr hər fasilədə müəllifi sürəkli alqışla alqışladı». Bunun təsiri nəticəsindən idi ki, əsər tamaşaçıların xahişi ilə bir neçə gündən sonra (mayın 10-da - C.Q.) təkrar göstərildi.

«Ölülər» 1916-1924-cü illərdə (yəni məhkəməyə qədər – C.Q.) Şuşada, Gəncədə, Tiflisdə, Naxçıvanda, Dərbənddə, Orta Asiyada, Təbrizdə və başqa yerlərdə tamaşaya qoyuldu. Yeri gəlmişkən qeyd etməliyik ki, əsər müvəffəqiyyətlə tamaşaya qoyulsa da, müxtəlif yerlərdə ciddi müqavimətlərlə də üzləşirdi. Məsələn, Şuşada Qarabağ bəylərinin bir çoxu əsəri baykot edərək tamaşaya gəlməmiş[66], «Molla Nəsrəddin» jurnalı Bəhayi məzhəbinin əleyhinə çıxdığına görə mühafizəkar qüvvələr dövlət məmurlarına rüşvət verərək «Ölülər»in Aşqabadda oynanılmasına mane olmuşdular[67]. Naxçıvanda isə tamaşa ruhanilərin qəzəbinə səbəb olduğuna görə onların əlaltıları tərəfindən gecə teatrın binası

[65] Zamanov A. Əməl dostları. Bakı, 1979, səh. 342.
[66] «Revolyusiya və kultura» jurnalı. 1940, № 1.
[67] «Azərbaycan» jurnalı. 1961, № 4.

alt-üst edilmiş, dekorasiyalar dağıdılmış və «bir daha «Ölülər» əsərini oynamış olsanız özünüzü də öldürəcəyik» hədələyici məktub da yazılıb qoyulmuşdur.

1921-ci ildə «Ölülər»in Təbriz şəhərində tamaşaya qoyulmasına rəsmi razılıq verilsə də, tamaşa göstərilərkən senzor tərəfindən onun dayandırılması tələb olunmuş, əsərdə ruhanilərin tənqidinə həsr olunmuş hissələrin göstərilməsi qadağan edilmişdir. Senzor qadağalarına baxmayaraq, heç bir ixtisara yol vermədən tamaşa əvvəldən axıradək göstərilmiş, lakin tamaşa başa çatdıqdan sonra aktyorlar polis tərəfindən həbs edilmişdir. Xeyli danışıqlardan sonra Mirzə Cəlil cərimə edilmiş və tamaşada iştirak edənlərin hamısı azadlığa buraxılmışdır. Bundan qəzəblənən ruhanilər şəhər mədrəsəsinin 400 nəfər tələbəsini dəyənəklə silahlandıraraq aktyorların üzərinə salmışdır[68].

Maraqlıdır ki, «Ölülər» yalnız mühafizəkar ruhanilər və din xadimləri tərəfindən deyil, eyni zamanda dövlət senzurası tərəfindən də təqiblərə məruz qalmışdır.

Qaynağını orta əsrlərdən alan senzura (lat. censura) – rəsmi hakimiyyətin maraqlarını təmin etməyən çap məhsullarının – elmi, tarixi və bədii-publisist əsərlərin ideyası, məzmunu, nəşri və yayılması, eləcə də kino əsərlərinin, radio və televiziya verilişlərinin (ifası və göstərilməsi), dərsliklərin və dərs vəsaitlərinin, bəzən isə şəxsi yazışmaların üzərində qoyulmuş ciddi dövlət nəzarətidir.

Tarixi mənbələrin verdiyi məlumata görə 1865-1901-ci illərdə 205 kitabın (o cümlədən N.Q.Çernışevskinin, N.A.Dobrolyubovun, A.İ.Gertsenin, D.İ.Pisarevin, L.N.Tolstoyun və b.) və 10 jurnalın ümumi kitabxana və qiraətxanalarda istifadəsi qadağan edilmişdi[69].

Professor Əziz Mirəhmədov «Ölülər»in ilk redaksiyası» adlı məqaləsində müəllif əlyazması ilə 1925-ci ilin mətbu

[68] İsrafilov H. «Ölülər», Bakı, 1966, səh. 158.
[69] Azərbaycan Sovet Ensiklopediyası. VIII cild. səh. 347.

mətni arasında tarixi-müqayisəli tekstoloji tədqiqat aparır və bu əsərin çar senzurası tərəfindən necə filtirasiya olunduğunu, çarizmin maraqları ilə uyğun gəlməyən iki mühüm parçanın əsərdən nə məqsədlə çıxarıldığını elmi və məntiqi şəkildə əsaslandıraraq yazırdı: «Ölülər»in Azərbaycan SSR EA Respublika Əlyazmaları Fondunda saxlanılan avtoqraflarının (IV – 364, № 11687; VI – 295, 3198) və başqa şəxslər tərəfindən çıxarılmış surətlərinin müqayisəli tədqiqi göstərir ki, bir tərəfdən əsərin mətni üzərində müəllif özü 1909-1916-cı illərdə böyük yaradıcılıq işi aparmış, o biri tərəfdən də əsər, çox güman, çar senzurasının tələbi ilə müəyyən dəyişikliyə uğramışdır»[70].

Tədqiqatçı alim göstərir ki, əsərdən iki mühüm parça çıxarılmışdır. Pozulmuş birinci parça: «İskəndər: Bu qollarda Rüstəm pəhləvan kimi qüvvətim olaydı, yapışaydım sizin ayaqlarınızdan və ataydım göyün üzünə, başaşağı gəlib kal qarpız kimi «paqq» eləyib dağılaydınız ... (və özü də «paqq» eləyib atılır göyə). Tfu, şarlatanlar! ... (Kefli kimi ufuldayır. Sonra diqqət ilə öz-özünə baxıb gülə-gülə). Buy! Ədə, vallah dinmə, deyəsən, elə lap pəhlivanam! Xa! Xa! Xa! (Papirosu yandırıb, yavaş-yavaş gəlib durur Şeyx Nəsrullah oturduğu daşın üstündə, ayaq üstə durub, baxır qəbiristanlığa, bir qədər fikirli baxandan sonra heyfsilənib, əllərini dizlərinə vurub deyir)[71].

Məqalə müəllifi «bu qollarda Rüstəm pəhlivan kimi qüvvətim olaydı» ifadəsinin haradan gəldiyinə işarə edir, XX əsrin əvvəllərində də «Şahnamə»nin qəhrəmanlarının aktual olduğunu və yazıçıların bu mövzuya tez-tez müraciət etdiyini vurğulayaraq yazırdı: «Ədəbiyyatşünas Əmin Abidin yazdığına görə, o zaman (XX əsrin əvvəlləri nəzərdə tutulur

[70] Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, 1983, səh. 354.
[71] Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, 1983, səh. 355.

– C.Q.) Firdovsiyə maraq və məhəbbət o dərəcəyə çatmışdı ki, çar məmurlarından biri azərbaycanlıların «Şahnamə» oxumaqla «hissən rüstəmləşə» biləcəyindən qorxuya düşərək, bunun qarşısını almağı təklif etmişdi.

«Ölülər»in də məhz belə bir şəraitdə yazıldığını, belə bir vaxtda senzuraya təqdim edildiyini nəzərə alaraq ehtimal edirik ki, İskəndərin «Rüstəm pəhlivan» kimi bir qəhrəman olmaq arzusu haqqında sözlərini C.Məmmədquluzadə məcburiyyət qarşısında pozmalı olmuşdur»[72].

Pozulmuş ikinci parça: «Bunu bilirəm ki, mən heç bir şeyəm. Mən – çöllərin otuyam, küçələrin torpağıyam, dağların daşıyam, kolların kosuyam, ağacların qurduyam. Mən dünyada heç bir şeyəm... Əgər mən bir şey olsaydım, cibimdən bir bomba çıxardıb (əlini uzadıb, cibindən araq şüşəsi çıxardır), bu evi bir saniyə içində havaya dağıdıb, İsfahan lotusunu kərpiclərin altında diri-diri dəfn elərdim. Amma qorxmayın, mənim əlimdən elə şeylər gəlməz. Bu araq şüşəsidir və Şeyx Nəsrullah burada gecələr bu balaca uşaqları boğanda mən bu şüşədən araq içirdim... Yox, yox, o mənim işim deyil. O igid işidir. Siz tək camaatın igidi də mənim tək olar»[73].

Əziz Mirəhmədov mətbu mətnlə müəllif əlyazması arasında tədqiqat apararaq belə bir nəticəyə gəlir ki, «əsərin bütün məzmunundan, dramaturji konfliktin mahiyyətindən hasil olan başlıca ideya – ölülər dünyasını dağıdıb, təzəsini qurmaq lazımdır – ideyası pozulmuş»dur»[74].

«Baltanı dibindən vuran» (Üzeyr Hacıbəyov) «Molla Nəsrəddin» jurnalından, bütövlükdə isə inqilabi ideyalar

[72] Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, 1983, səh. 354.
[73] Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, 1983, səh. 357.
[74] Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, 1983, səh. 354.

yayan Mirzə Cəlil yaradıcılığından qırmızı bir xətt kimi keçən «yeni dünya qurmaq» ideyası ədib tərəfindən nə üçün çıxarılmalı idi? Bunlar imkan verir deyək ki, bu tipli ixtisarlar senzor təzyiqləri nəticəsində məcburən edilmişdi.

Professor Ə.Mirəhmədov «bu parçaların hər iki avtoqrafda – həm əsərin qaralama nüsxəsində, həm də senzuraya təqdim olunmuş və senzuradan keçmiş ikinci əlyazmasında pozulması nə deməkdir» sualına belə cavab verir. «Bu o deməkdir ki, həmin parçalar lap əvvəlcədən qaralama mətndə olmuş və müəllif əsərin üzünü ağardanda da onları mətndə saxlamışdır. Lakin görünür, «Ölülər» senzuradan keçərkən C.Məmmədquluzadə özü çar senzorunun tələbi ilə həmin parçaları mətndən pozub çıxarmağa məcbur olmuş və eyni ixtisarı yenə o özü qaralama əlyazmasında da aparmışdır. «Ölülər»in senzuraya 1909-cu ildə, birinci rus inqilabının məğlubiyyətindən sonra ağır irtica dövründə təqdim olunduğunu nəzərə alsaq, çar senzurası üçün «adi» işlərdən olan bu «əməliyyat»ın tarixçəsi daha da aydınlaşar»[75].

Maraqlıdır ki, Ə.Mirəhmədovun «Ölülər» əsəri ilə bağlı qeyd etdiyi bu ixtisarlar 1925-ci ildə, müəllifin sağlığında buraxılmış nəşrində bərpa edilməmişdir. Fikrimizcə, bunun səbəbini çar Rusiyası dövründən daha mükəmməl, daha irtiçaçı bir senzor sistemi yaratmış sovet imperiyasının özündə axtarmaq lazım idi. Nəzərə alsaq ki, 1925-ci ilə kimi milli istiqlal mücahidləri tərəfindən Azərbaycanın müxtəlif bölgələrində 52 üsyan aksiyası keçirmiş, gizli fəaliyyət göstərən partiya və təşkilatların, eləcə də mühacirət həyatı yaşamaq məcburiyyətində olanların ciddi müqavimət hərəkatları ilə üz-üzə qalmış, eyni zamanda bütün sənət əsərləri marksçı-leninçi ideologiyaya uyğunlaşdırılmış onda sovet hökumətinin azadlıq ideyalarına qarşı necə amansız olduğunun şahidi olarıq.

[75] Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, 1983, səh. 354.


Deyilənlərdən aydın olur ki, İskəndərin «ölülər» mühitində rastlaşdığı qüvvətli müqavimətlə ictimai həyatda «Ölülər» əsərinin özü də məruz qalmışdı. Həm də yalnız senzura və ya qərəzli tənqidlə deyil, eyni zamanda ədəbi məhkəmə ilə.

Yuxarıda diqqətə çatdırdığımız «Əxbar» qəzetinin verdiyi elanlardan da aydın görünür ki, 1920-ci ilin iyul ayında, yəni aprel işğalından təxminən bir ay keçmiş «Ölülər» əsərinin qəhrəmanı İskəndərin ədəbi məhkəməsinə başlanılacağı bildirilir. Sual doğur, nə üçün ədəbi məhkəmədə müttəhimlər kürsüsünə ilk dəfə çıxarılan İskəndər Hacı Həsən oğlu olur? Bu adi bir təsadüf, yoxsa düşünülmüş surətdə həyata keçirilən ardıcıl bir siyasət idi? **Fikrimizcə, ədəbi məhkəmələrə İskəndərdən başlamaq ziyalıdan başlamaq idi. Deməli, İskəndər Hacı Həsən oğlunun mühakiməsi, bütövlükdə Azərbaycanın milli ziyalılarının və milli ziyalı təfəkkürünün mühakiməsi idi. Belə başlanğıc azad düşüncəni, azad təfəkkürü və azad düşüncə sahiblərini bolşevik masasının başında əyləşdirməyə xidmət edirdi.**

Maraqlıdır ki, bunu o dövrün mətbu mənbələri də gizlətmir və açıq şəkildə bəyan edirdi ki, «İskəndər ziyalı olmasa idi və onun hərəkəti də ümumən ziyalılara toxunmasa idi şübhəsiz İskəndər məhkəməyə cəlb edilməzdi»[76].

Məhkəmənin gedişi barədə daha aydın təsəvvür yaratmaq üçün ədəbi məhkəmənin materiallarına müraciət edək. «Ölülər» pyesinin ədəbi məhkəməsində «prokuror» sifəti ilə çıxış edən Cəfər Cabbarlı məhkəmələrdə iki mübariz tərəfin olduğunu onlardan birinin ittihamçı, digərinin isə müdafiəçi kimi iştirak etdiyini vurğulayır. C.Cabbarlı hər bir şəxsi içində yaşadığı xalqın bir üzvü, ölkənin bir yavrusu adlandıraraq, xalqın biliyindən, ruzisindən, ab-havasından istifadə etməsini, ona bir mənfəət yetirməsini önə çəkir. Xalqına mənfəət

[76] «Yeni yol» qəzeti, 1923, 3 mart, № 8.



İskəndərin mühakiməsi ilə bağlı C.Cabbarlının çıxışının üz qabığı

kimi, «kafirlər» mühitindən qayıtmış İskəndər də ölülər mühitini qəbul edə bilmir. **Ölülər mühitindən «kafirlər» mühitinə düşən və sonra yenidən əvvəlki mühitinə qayıdan İskəndər ölülər mühiti tərəfindən ona görə qəbul olunmur ki, ölülər və «kafirlər» mühiti bir-birinə əks qütblərdir. İskəndər isə ölülər mühitini ona görə qəbul etmir ki, o «kafirlər» mühitindən diri qayıtmışdı. Bəzi tədqiqatçılar göstərir ki, İskəndər mühitinin övladıdır. Bu ifadə ilə sözün tam mənasında razılaşmaq olmaz. O, mühitinin övladı olsaydı, onda ölülər mühiti tərəfindən qəbul olunardı. Kafirlər mühitindən dönən İskəndəri ölülər mühiti övladlıqdan çıxarıb onu yad adama, hətta kefliyə və dəliyə çevirmişlər.**

Maraqlıdır ki, Cəlilşünaslıqda ölülər və diri ölülər mühiti barədə kifayət qədər danışılsa da «kafirlər» mühiti bir qədər diqqətdən kənarda qalmışdır. **«Ölülük» və «kafirlik» arasındakı fərq də özünü üst qatda, zahiri görüntüdə deyil, təftəl-şüurda, intellektdə, kültürdə biruzə verir.** C.Məmmədquluzadə sovet ideologiyasının təsiri altına düşmüş bəzi tədqiqatçıların dediyi kimi ölülüyün əsas səbəblərini dində deyil, dini fanatizmdə, cəhalətdə, mövhumat və nadanlıqda, hər cür yeniləşməyə əngəl olmaqda görür. Cəlil Məmmədquluzadə islam dinini nəinki tənqid edir, əksinə onu dinə ləkə gətirənlərdən, dini nüfuzdan salanlardan qoruyur və mühafizə edirdi. Görkəmli Cəlilşünas alim, akademik İsa Həbibbəylinin təbirincə desək «C.Məmmədquluzadə Şeyx Nəsrullah obrazı ilə islam dinini deyil, islam dinindən özlərinin çirkin məqsədləri üçün istifadə edib xalqa böyük, sağalmaz yaralar vuran fırıldaqçı din xadimlərini ifşa etmişdir. Yazıçının qayəsi islam dinini Şeyx Nəsrullah kimi İsfahan lotularından qorumaq, təmizləməkdir»[81].

[81] İ.Həbibbəyli. Ədəbiyyat – tarixi yaddaş və müasirlik, Bakı, 2007, səh. 70.

Hacı Həsənin kafirlər dünyası adlandırdığı Avropada təhsil almış İskəndərdən umacağı nədir? «Allah mənim oğlumu yoldan saydırma, ona kömək ol, mənim üzümü xəlq içində qara eləmə». İlk baxışda elə böyük bir umacaq deyil, hər bir valideyinin cəmiyət üçün sağlam övlad yetişdirmək arzusudur. Amma bu istəyin arxasında (iç qatında) dayanan ən böyük mətləb ondan ibarətdir ki, Tanrım onu diri adama çevirmə, qoy ölülər mühitinin sakini olaraq qalsın. Çünki İskəndərin dirilməsi Hacı Həsəni xalq içində üzü qara edəcəkdi. Hacı Həsənin bu istək və duaları qəbul olunmur, yuxarıda da dediyimiz kimi onun oğlu «kafirlər» mühitindən diri qayıdır. Əslində İskəndərin faciəsi də buradan – dirilikdən, diri olmaqdan başlayır. Ölülər mühitində diri yaşamaq, belə bir cəmiyətdə nüfuz sahibi olmaq, sözü keçən adama çevrilmək olduqca və olduqca müşkül məsələdir.

Cəfər Cabbarlı yazıçı, dramaturq kimi yox, prokuror kimi çıxışını davam etdirərək deyir: «İştə 10 il keçir, İskəndər Firəngistandan dönüb gəliyor, Hacı Həsən əminin yürəyi döyünür, çünki bu qədər çəkdiyi zəhmətlərin, töhmətlərin, iztirabların hədərmi, yerlimi olduğu ümumiyyətlə, nəticəsi şimdi anlaşılacaqdır. Hər kəs maraqlanıyor ki, əcaba İskəndər nə olmuş qayıtmışdır. Zatən şimdi də hər kəs maraqlanıyor». Görəsən Hacı Həsən əminin ürəyinin döyünməsinə, həyacanlanmasına və təşviş keçirməsinə səbəb nədir? Axı C.Cabbarlının özü deyir ki, Hacı Həsən əmi atalıq borcundan çıxaraq İskəndəri lazımi səviyyədə tərbiyə etmişdi. Əgər lazımi səviyyədə tərbiyə etmişdisə onda bu təlaş nədən qaynaqlanır?

C.Cabbarlı çıxışına davam edərək deyir: «Fəqət mən sizi maraq içində boğmamaq üçün əvvəlcədən söyləyirəm. Biliyirmisiniz İskəndər nə qayıtmışdır. Hakim əfəndilərin müsaidəsilə kefli İskəndər ki, mühitin ona verdiyi bu adı təhlil etdikdə, tərbiyəsiz, işsiz, gücsüz, tənbəl, birisinə it küskürər, o birisini yalandan aldatar, cocuqları yoldan çıxarıb səfalətə

alışdırmağa çalışar, mühitin adətlərilə, ənənələrilə hesablaşmaz, heç bir sözün yerini, heç bir hərəkətin vaxtını bilməz, başsız ayaqsız bir səfil, bir sərxoş qarşısında mühiti şu bədbəxt, qaranlıq xalqı cəhalət didiyor, əziyor, parçalıyor, məhv ediyor, möminlərlə Şeyx Nəsrullah şu bədbəxtləri aldataraq namuslarına tokunuyor, irzlərini-namuslarını canavarlar kibi çamurlara çırpıb tapdayor, bunların həpsini görüyor, bir ölü kibi hərəkətsiz qalıb ona müəyyən bir yol göstərməyir, onun üçün çalışmayır, xalqın səadəti üçün bir diləyi yok, bir ideyalı yok, ictimai işlər üçün bir projesi yok, öylə səfil bir halda dikirlənib gediyor. Fəqət əfv edərsiniz İskəndərin bir ideyalı, diləyi yoxdur deyincə, bən burada bir həqsizlik tapdım. Hər halda İskəndərin bir diləyi, bir ideyalı vardır. O da bilirmisiniz nədir. Bir şişəyi səhərdən içib axşama kimi, o biri şişəyi də axşamdan içib səhərə kimi keflənmək və İsrafil surini çalıncayadək ayılmamaq».

Buradakı ittihamların böyük əksəriyyəti ilə razılaşmaq olmaz. İlk cümlələrdən aydın olur ki, guya İskəndər Avropaya təhsil almağa gedəndə yüksək əxlaqa və tərbiyəyə malik olmuş, təhsil alıb qayıtdıqdan sonra isə tərbiyəsizə, işsiz və gücsüzə... çevrilmişdir. Unudulan odur ki, ölülər mühitində hansı yüksək əxlaq və tərbiyə ola bilərdi? Bəlkə, İskəndər Avropada təhsil aldığı müddətdə bunlar dönüb ölü olmuşdular? Əksinə İskəndər Avropaya «ölülər mühiti»ndən daxil olmuş, lakin orada aldığı təhsil və tərbiyə onu diri adama çevirmişdi.

Yuxarıda gətirdiyimiz iqtibasdan da göründüyü kimi C.Cabbarlı İskəndəri «işsizlikdə», «tərbiyəsizlikdə», «kimisə aldatmaqda», «mühitin adətlərilə, ənənələrilə hesablaşmamaqda», «heç bir sözün yerini, heç bir hərəkətin vaxtını bilməməkdə» ittiham edir. Əvvala İskəndər heç kimi aldatmır, heç bir tərbiyəsizlik etmir və bütün etik normaları qoruyur. «Mühitin adətlərilə, ənənələrilə hesablaşmamaq» məsələsinə gəldikdə qeyd etməliyik ki, əgər İskəndər mühitin adət

və ənənələri ilə barışsaydı, onda o da Mir Bağır ağa olardı. İskəndəri dəliyə və kefliyə çevirən amillərdən biri də elə bu feodal adət-ənənələrlə barışmaması idi. İskəndərin böyüklüyü ondadır ki, o da Məhəmməd Füzulinin Məcnunu kimi sxolostik adət-ənənələrlə barışmır və eyni zamanda onlara qarşı çıxırdı. Ölülər və fırıldaqçılar aləminə düşən İskəndər bu mühitdə özünün əxlaq və əqidə bütövlüyünü axıradək qoruyub saxlaya bilir ki, bu da onun mübarizliyi və feodal adətləri ilə barışmazlığı sayəsində baş tutur. Bir qədər obrazlı desək «vahid ideya» ətrafında birləşən «ölülər» və fırıldaqçılar da öz «məslək və əqidələrinə» İskəndər qədər sadiqdirlər. Buna görə də, İskəndər ölülər dünyasının sakinlərini öz dünyasına qaldıra, özü isə həmin dünyanın dibinə enə, ölü sakinə çevrilə bilmir. Daha doğrusu, onun özünü və dünyanı dərki, əhatəsində olduğu cahil və nadanların baxışları ilə, eyni müstəvidə əks qütblər olduqlarından bunlar bir-birinə mane olur. Şeyx Nəsrullah və "ölülər"lə İskəndərin mübarizəsi də buradan doğur.

İskəndərin gedən proseslərə reaksiyası və ya etirazı yalnız dediyi sözlərdə öz əksini tapmır, eyni zamanda o, etdiyi jestləri, ironiyası, məzhəkəsi, sarkazm səviyyəsinə yüksələn qəhqəhəsi ilə özünü ifadə edir. Bütün bunlar göstərir ki, o, ətrafında baş verənlərə «bir ölü kibi hərəkətsiz qalmır», həm də hər şeyi yerində edir. Əgər İskəndər «ölü kibi hərəkətsiz qalsaydı» özünü təhlükələrə atmaz, nüfuzunu itirməz, «dəli» və ya «kefli» ləqəbi almaz, bir çox «nüfuzlu» məmurlar kimi rahat yaşayar və böyük mənsəb sahibi olardı. Xalq yazıçısı Mirzə İbrahimovun dediyi kimi «İskəndər heç də boş-boş dolaşmaq və araq içməklə gününü keçirmir, İskəndər hərəkət etmək, fəaliyyət göstərmək, yaratmaq üçün çırpınan bir ruha malikdir. O, atası Hacı Həsənin idiotizminə, anası Kərbalayı Fatma xanımın sadəlik və avamlığına bütün varlığı ilə acıyır, onları ayıltmağa, gözlərini açmağa çalışır ki, həqiqəti görsünlər, dərk edə bilsinlər. İskəndər ölülər dünyasının

qapalı həyətinə daş atır, onu bütün dünyadan ayıran qalın darvazalı hasarları daşlayır. Bütün bunlar göstərir ki, İskəndər heç də hərəkətsiz, fəaliyyətsiz, iradəsiz bir adam deyildir»[82].

İskəndərin fəal və ya passiv olması məsələsinə 1920-ci illərin əvvəllərində məhkəmə münasibəti ilə yazılmış məqalələrdə də rast gəlirik. «Yeni yol» qəzetində «Qur» imzalı müəllif yazırdı: «O vaxtın ziyalıları nəinki tənbəl idilər, hələ bəlkə qulluq etmələri ilə xalqa zərərli idilər, qeyri millətin qulluqçuları ilə bunların bir fərqi görülmürdü. Fəqət İskəndəri onların cərgəsində aparmaq olmaz. İskəndər aktivni (fəal) işləməmiş isə də fəqət hər zaman xurafat və mövhumat əleyhinə getmişdir. Xalqda bir fikir və şübhə oyanmışdır»[83].

Biz «Ölülər» əsərindən aldığımız yalnız bir nümunə ilə yuxarıdakı məsələlərə aydınlıq gətirmək istərdik:

İskəndər: Ay qız, Nazlı, muştuluğumu ver! Nişanlın gəldi.

Kərbəlayı Fatma xanım: (İskəndərə acıqlı) Kəs səsini! Axmaq-axmaq danışma!

İskəndər: (gəlib durur Mir Bağırın qabağında) Mən ölüm əl ver! Lotusan həyə, əl ver! Vallah, ruhun var; düz doqquz yaşında; gərək bircə tikə artıq olmasın. Quzu əti, şax, tazətər, lətif, balaca. Ağzından süd qoxusu gəlir. Ləzzət, ləzzət! Vallah, ruhun var! Lotusan həyə, əl ver!

Mir Bağır ağa başını salır aşağı.

Mir Bağır ağa: (İskəndərə) Ayıbdı, ayıbdı! Heç olmasa, anandan həya elə, o sözləri danışma.

Kərbəlayı Fatma xanım: Onun həyası olsa, niyə o sözləri danışır?

İskəndər: (bir az durub, təəccüblü baxır özünə). Doğrudan, bəlkə məndə heç həya yoxdur (İki əlini ciblərinə salıb, bir şey axtaran kimi). Baxım, görüm bəlkə həya ciblərim-

[82] M.İbrahimov. Böyük demokrat. Bakı, 1957, səh. 142-143.
[83] «Yeni yol» qəzeti, 1923, 3 mart, № 8.

dədi: yox, yoxdur (Mir Bağır ağaya). Ağa, mən ölüm, sən də bir ciblərinə bax, bəlkə sənin ciblərində ola.

Mir Bağır ağa istəyir dursun ayağa.

Xa... xa... xa!.. Mən ölüm incimə! Lotusan həyə, incimə! Əyləş, əyləş. Bu saat gedib nişanlını gətirəcəyəm yanına»[84].

Məgər İskəndər vaxtı ilə bacısı Saranı almış və onu çərlədərək öldürmüş, indi isə kiçik bacısı Nazlıya talib olmuş, riyakar və ikiüzlü Mir Bağır ağaya lotu deməklə tərbiyəsizlikmi edir, ya nəyisə yerində etmir, yaxud da bir ölü kimi hərəkətsizmi qalır? Əlbəttə yox. Doğrudur, bu mətndə yerinə düşməyən bir ifadə var, o da Mir Bağır ağa tərəfindən İskəndərə ünvanlanmış «ayıbdı», «həya elə» kəlmələridir. «İskəndərin istehzasındakı oxlu-tikanlı sancmalar, acıtmalar, «həya» ləfzinin təkrarlanması həyasızlığın, abırsızlığın əsil timsalı Mir Bağır ağaların «həftadını» yandırır. O şey ki, Mir Bağır ağalarda, doqquz yaşlı qızı özlərinə arvad etməyi rəva bilənlərdə, lotu və dələduzlarda olmalıdır, onu insan hüquqlarını gözəl bilən və kiçik yaşlı qızları hər cür təcavüzdən müdafiə edən İskəndərdən tələb edirlər. Bu da özlüyündə qəribə bir paradoksdur»[85].

«Bir şişəyi səhərdən içib axşama kimi, o biri şişəyi də axşamdan içib səhərə kimi keflənmək və İsrafil surini çalıncayadək ayılmamaq» fikrinə gəldikdə isə deməliyik ki, İskəndər Fransadan kefli dönməmişdi. Əksinə Fransadan gələn İskəndəri ölülər kefliyə çevirmişdi. Maraqlıdır ki, məhkəmənin gedişi zamanı üzvlərdən biri «İskəndərə «şərab içməkdə məqsədin nə idi?» - deyib sual verdikdə İskəndər cavabən: «Şərab ilə ölülər sultanlığında inqilab yapmaq istərdim»[86] - deyir.

İskəndərlə Cəlalın mükaliməsindəki bir mühüm məqama fikir verək: «Cəlal, ay Cəlal! İndi sən məndən qaçırsan, de-

[84] C.Məmmədquluzadə. Əsərləri. Tərtib edəni və izahların müəllifi: İsa Həbibbəyli. 4 cilddə. I cild. Bakı, 2004, səh. 396-397.

[85] Məmmədov K. XX əsr Azərbaycan gülüşü, Bakı, 1989, səh. 118.

[86] «Yeni yol» qəzeti, 1923, 10 mart, № 9.

yirsən ki, mən kefliyəm; amma and olsun Qara ağac pirinə ki, sən də mənim kimi dərs oxuyub qurtarandan sonra, başlayacaqsan İskəndər dadaşın kimi küplərin dibində yatmağa»[87]. Cəlal yalnız o zaman küplərin dibində yatacaq, kefliyə çevriləcək ki, İskəndərin aldığı təhsili alsın. Əslində İskəndərin aldığı təhsil İskəndəri kefliyə çevirməyib, lakin ona imkan verib ki, ölülər mühitini dərk etsin. Cəlal da məhz İskəndərin təhsilini aldıqdan sonra «elmli insanın bir qəpiyə dəymədiyi» mühitdə kefliyə və ya dəliyə çevriləcəkdir. Başqa sözlə desək, Cəlal yalnız bu zaman – İskəndərin aldığı təhsili aldığı təqdirdə ölülər dünyasından qopub dirilər dünyasına daxil olacaq, özünüdərkin və diriliyin faciəsini yaşayacaqdır. Görkəmli Cəlilşünas alim, akademik İsa Həbibbəyli haqlı olaraq yazır: «Əsərdəki kefli İskəndər obrazı keçən əsrin əvvəllərində Azərbaycan cəmiyyətində nəzərə çarpan milli ziyalı təbəqəsinin ümumiləşmiş obrazıdır. Ali təhsil almış, oxumuş ziyalılardan olan İskəndər ətrafında baş verən hadisələri dərindən dərk edir və bütün bunları həmvətənlərinə çatdırmaq, onların gözünü açmaq üçün var qüvvə ilə ciddi cəhd göstərir. Lakin fanatizmin dərin girdabına düşmüş «şəhər əhli» onu anlamaq, başa düşmək səviyyəsində deyildir. Mövhumat və cəhalət onların gözlərini qapamışdır. Atası Hacı Həsən, anası Kərbəlayı Fatma xanım, şəhər sakinləri Məşədi Oruc, Məşədi Baxşəli, Hacı Kərim, Hacı Kazım, Mir Bağır ağa kimi «diri ölülər» İskəndərə dəli kimi baxırlar. Onlar İskəndərin adamları «ölü diriltmək» adı ilə yoldan çıxaran, aldadıb namusunu və şəxsiyyətlərini tapdalayan, İsfahan lotusu Şeyx Nəsrullahın iç üzünü açan təsirli sözlərinə inanmaq istəmirlər. Möminlər mühitində haq sözü demək, cəsarətli danışmaq üçün İskəndər kefli görünmək yolunu seçməyə məcbur olmuşdur»[88].

[87] C.Məmmədquluzadə. Əsərləri. Tərtib edəni və izahların müəllifi: İsa Həbibbəyli. 4 cilddə. I cild. Bakı, 2004, səh. 387.

[88] İ.Həbibbəyli. Ədəbiyyat – tarixi yaddaş və müasirlik, Bakı, 2007, səh. 69-70.

Bu mənada Qeysi «cünun»a çevirən mühit İskəndəri də "kefliyə" çevirmişdi. Belə bir müqayisə bir qədər qüsurlu görünsə də qeyd etməliyik ki, mövcud situasiyada «cünun»luq Qeysdən «keflilik» isə İskəndərdən ucada durur. Məlumdur ki, Mirzə Cəlilin, eləcə də mollanəsrəddinçilərin qəhrəmanlarının bir çoxu öz ideyalarını həyata keçirmək üçün hərəsi bir vasitədən istifadə edir. **"Şallaq" və "Dəyənək" kimi "Sərxoşluq" və «Keflilik» də ictimai məzmun daşıyır. "Şallaq" və "Dəyənək" dirilmənin qarşısını alma, ölüləşdirmə, koma vəziyyətində saxlama, "Sərxoşluq" «Keflilik» isə bir vasitə kimi ayıltma, oyatma, diriltmə, daha doğrusu, ölülər mühitinə etiraz məqsədi güdür.**

Maraqlıdır ki, əsərdə İskəndər bir neçə dəfə araq şüşəsini başına çəkir, yerişini və ya müvazinətini itirsə də dediyi sözlər arasındakı rabitəni itirmir, nitqindəki harmoniyanı pozmur. Bəzən oxucu və ya tamaşaçı kefli adamın belə məntiqli davranışına və danışmasına təəccüb edir. Tənqidçi, ədəbiyyatşünas Əli Nazim göstərirdi ki, «İskəndərin sərxoşluğu xuliqanlar və cahillər sərxoşluğu deyildir. Xeyr, o simvolik, o mühit və əxlaqa protest mahiyyəti daşıyan bir sərxoşluqdur».

Professor Abbas Zamanov da İskəndərin «kefli» verilməsini müəllif tərəfindən düşünülmüş surətdə edildiyini göstərirdi: «O zaman düşünmək, dərk etmək hisslərindən məhrum edilmiş, şüursuz kütlə halında olan insanlara İskəndərin dediyi sözləri ancaq sərxoş bir şəxs deyə bilərdi. İskəndərin Şeyx Nəsrullaha, Mir Bağır ağaya dediyi kəskin sözləri onun sərxoşluğuna bağışlayırdılar. Əgər bu sözləri başqa bir şəxs desə idi, kütlə onu daş-qalaq edərdi. Demək, müəllif, İskəndəri kefli verməklə onu fanatiklərin təqibindən xilas etmişdir». Abbas müəllim oxucunun diqqətini ikinci bir mühüm məqama yönəldir və yazır ki, «İskəndəri kefli verməklə Mirzə Cəlil başqa bir məqsəd də güdmüşdür. O, bununla həm də demək istəmişdir ki, ölülər aləmi açıq fikirli

insanların ruhən sarsılmasına, mənəviyyatca müvazinətini itirməsinə səbəb olur. Bu aləmin irəli gedən adamları da İskəndər kimi olur. Bununla da dramaturq əsas məqsədə – ölülər aləminin əsaslarını qamçılamaq məqsədinə xidmət etmişdir»[89].

Bütün bunlar göstərir ki, Cəlil Məmmədquluzadə ölülərin və fırıldaqçıların bir-biri ilə əlbir olduğu, hətta ittifaqa girdiyi mühitdə İskəndəri yaşatmaq, müdafiə və mühafizə etmək üçün keflilikdən bir vasitə, yaxud ədəbi fənd kimi istifadə etmişdir. **Bu mənada keflilik və sərxoşluq İskəndərin mübarizə silahı deyil. Onun ölmüşlərlə mübarizə silahı ironiya, gülüş və sarkazmdır. Bu silah öz gücünü keflilikdən alır. İskəndərdə keflilik, sərxoşluq ölülüyə yox, ayıqlığa xidmət edir. Ölülər və ölü dirildənlər arasında ayıq qalmaq İskəndər üçün çox ağırdır. Ona görə də, təkrardan qorxmadan deməliyik ki, o, sərxoşluqdan mübarizə vasitəsindən daha çox müdafiə vasitəsi kimi istifadə edir. Sərxoşluq İskəndəri ölülərdən və onların dərdindən uzaq salmır, bəlkə də onlara daha çox yaxınlaşdırır.**

İskəndər elm oxumaq, özünü və dünyanı dərk etməklə, sərxoşluq arasında da bir yaxınlıq görür. Ona görə də İskəndərin faciəsi ölülüyün yox, özünü, başqa sözlə, ölülüyü dərk etməyin faciəsidir. Vaxtilə xalq şairi R.Rza İskəndərin anlamaq dərdini poetik dillə belə ifadə edirdi:

Qınamayın İskəndəri,
Yaman olur anlayıb
Anlada bilməmək dərdi.

Ədəbi məhkəmədə, eləcə də İskəndərin təqsirnaməsində İskəndər daha çox cəsarətli olmamaqda (cəsarətsizlikdə) ittiham edilir. Diri ölülərin yarımallah zirvəsinə qaldırdığı

[89] Zamanov A. Əməl dostları. Bakı, 1979, səh. 339.

Şeyx Nəsrullaha lotu deməsi İskəndərin cəsarətli olması demək deyildimi? Təkcə bu sözə görə diri ölülər İskəndəri daşqalaq etməzdimi? **Faktlar təsdiqləyir ki, ölülüyün və ya ölülər dünyasının ittihamı Mirzə Cəlillə başlamasa da, Mirzə Cəlildə zirvəyə çatır.** Belə ki, Azərbaycan ədəbiyyatında M.Ə.Sabir, M.Hadi, H.Cavid və başqalarının əsərlərində epizodik də olsa «ölülərə» rast gəlmək olur. Hətta A.Səhhət «ölü» sözünü sərlövhəyə çıxarır, əsərlərindən birini «Ölü şəhər» adlandırır. «Qələmin müqəddəs vəzifəsi xalqa xidmətdir» prinsipinə həmişə və hər yerdə sadiq qalan Mirzə Cəlil də əsərlərindən birini «Ölülər» adlandırır. Burada ölülər konkret bir fərd və ya konkret bir şəhər deyil, bütöv bir millətdir. Millətə «ölü» demək cəsarətində bulunan isə İskəndərdir. **İskəndərin «ölülər»ə müraciətinin məzmununda təhqir və ya həqarət dayanmır, millətə sevginin, canyanğısının ifadəsi olan «oyan və ayıl» xitabı durur. İskəndər yaxşı bilir ki, həm diri, həm də çoxdan rəhmətə getmiş ölüləri diriltmək üçün millətin fanatizmindən, mövhumatçılığından və cəhalətindən məharətlə istifadə edən Şeyx Nəsrullah yox, milli əxlaqı, milli təfəkkürü, milli şüuru oyandıra bilən elm, təhsil, bütövlükdə maarifçilik lazımdır. İskəndərin maarifçiliyi fanatizmi inkar edən, dini elmlərlə, dünyəvi elmləri vəhdətdə götürən, inkişafa, tərəqqiyə yol açan maarifçilikdir.** Maraqlıdır ki, «Ölülər»in birinci məclisi Cəlalın müəllimi Mirzə Hüseyndən dərs alması ilə başlayır. «Simvolik səhnədir: ölülüyə çevrilmə belə başlayır – Cəlal mənasını bilmədiyi yad dildə kəkələyir»[90].

Biz İskəndərin ilk cəsarətli addımını da burada – «yad dildə kəkələməyə və ölülüyə çevrilməyə» etirazında görürük. Burada İskəndər həm də sxolastikaya, köhnə stereotiplərə etiraz edir. O, Cəlalın oxuduğu kitabı əlinə alaraq,

[90] Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, 2002, səh. 336.

ona müraciətlə «Tanıyıram səni. Mən də səni bir az oxumuşam. On beş il bundan irəli həmin otaqda (Cəlalın dərs oxuduğu otağı nəzərdə tutur – C.Q.) mən də səni oxumuşam» - deyir. Professor Hüseyn İsrafilov haqlı olaraq yazır: «Əsərdə müəllim Mirzə Hüseynin tədris üsulu, bu dərsin gedişi sxolastik mollaxana təliminin bir timsalı kimi rişxənd obyektinə çevrilir. Mirzə Hüseyn özü İskəndərin «mən ölüm Cəlala elm öyrət» kinayələri ilə tənqid oxuna tutulur»[91].

Yeniləşən cəmiyyətdə yenə də köhnə üsulla dərslərin tədrisi, təhsilin ictimai həyatla ayaqlaşmaması İskəndərin etirazına səbəb olur. Etirazın başqa bir mənbəyi ondan ibarətdir ki, «hər kəsə rast gəlirsən, elə bunu eşidirsən ki, elm oxu, alim ol»[92]. İskəndərin isə fəlsəfəsi başqadır; elm oxu, adam ol. Görkəmli alim Y.Qarayev yazır: «Məhz «adam olmaq» üçün çatışmayan hər şeydir - ölülük»[93].

«Ölülər» əsərinin lap əvvəlində göstərilir ki, dünyasını dəyişmiş hər hansı bir şəxs yenidən dirilə bilməz. Az keçməmiş Xorasanda dünyasını dəyişmiş Kərbəlayı Fətullahın dirilməsi barədə şaiyələr yayılır. Dirilmə şaiyəsinə «Qurani-Kərim»i az qala əzbər bilən hacıların, kərbəlayıların və axundların bəzilərində şübhə və tərəddüd olsa da, heç kəs cəsarət edib onun yalan olduğunu dilinə gətirmir. Buna inanmayan və öz gülüşü ilə etiraz edən yalnız İskəndər olur. Bütün bunlar etiraz idi və hələlik üsyana çevrilməmişdi. Etirazdan üsyana keçid isə İsfahan lotusu Şeyx Nəsrullah rəhmətə getmişləri «diriltməyə» gələndə baş verir. Bu üsyanın ilk qığılcımlarını Şeyx Nəsrullah özü də görür və Şeyx Əhmədə «mənim bu İskəndərdən gözüm su içmir» - deyir.

Əsərin sonunda Kərbalayı Fətullahın dirilmədiyi xəbəri yayılanda heç kimin cəsarət edib bu sözü Şeyx Nəsrullaha

[91] İsrafilov H. «Ölülər», Bakı, 1966, səh. 96-97.

[92] C.Məmmədquluzadə. Əsərləri. Tərtib edəni və izahların müəllifi: İsa Həbibbəyli. 4 cilddə. I cild. Bakı, 2004, səh. 386.

[93] Q.Yaşar. Realizm: sənət və həqiqət, Bakı, 1980, səh. 201.


deyə bilmədiyi halda, İskəndər qabağa yeriyib Şeyxin qapısını təpiyilə vurub açır. Bütün bunlar İskəndərin ölülər mühitində baş verənlərə cəsarətli etirazı deyildimi?

C.Cabbarlının ədəbi məhkəmədəki çıxışına qayıdaq: «Xalq etiraf edir ki, o qaranlıqdır, anlamayır. Bu onun üçün bir o qədər də ayıb deyil və bir günah da deyildir. İskəndər 10 il Firəngistanda oxumuş gəlmiş, heç şübhəsiz bu əvam mühitdən yüksəkdə olacaqdır və Parisdə götürdüyü XX əsrin pək uzaqlara getmiş fikrini, fəlsəfəsini, Nuh dövrünü yaşayan xalqa birdən söyləyərkən o anlamayacaqdır, ürkəcəkdir. Cəhalət xalqı parçalayır, burada mübarizə gərəkdir ki, gecələri uyumasın, müəyyən yollar, planlar düzəltsin, bütün varlığıyla ayıq bir fikir, düşüncə ilə xalqın içinə atılıb onun ruhunu adət və ənənəsini, tradisiyasını, psixologiyasını bütün dərinliklərinə, görülməz incəliklərinə qədər öyrənib onu təhlil etsin və bunlar üzərinə gecələr uyumayıb müəyyən planlar qursun, yollar düzəltsin və gündüzlər haman yolları xalqın anlayacağı bir tərzdə keçirsin, xalqı anlatsın, öyrətsin, xalq üçün bir müəllim olsun. Fəqət İskəndərdən böylə baş yorucu şeyləri sormayın, zatən bunları düzəltmək üçün ayıq bir vaktı yok ki. O, böylə cəfəngiyyata baxmaz»[94].

C.Cabbarlı göstərir ki, İskəndər Fransada 10 il təhsil almasına baxmayaraq, xalqa müəllim ola bilmir, daha doğrusu, bunun üçün o, ayıq vaxt tapmır. 10 il Fransada təhsil almaq hələ xalqa müəllim olmağa əsas vermir və İskəndər təhsil almağa gedərkən də qarşısına "xalqa müəllim olmaq" missiyasını qoymamışdı.

Yeri gəlmişkən deməliyik ki, heç müəllifin də məqsədi İskəndəri xalqa müəllim etmək deyil. «Bu komediyanı yazmaqdan dramaturqun məqsədi «müsəlman xalqlarını uzun əsrlər cəhalətdə, şəriət zülməti qaranlığında saxlayan», «camaatı behişt huri vədləri ilə yola verən», «həyat mübarizəsindən, dünya işlərindən uzaqlaşdıran, mövhumat içində

[94] C.Cabbarlı. Ədirnə fəthi, Bakı, 1996, səh. 207.



Б у ҳ л ə р

Əfəndilər! Hən kəcə bəllidir ki, hən dəfi,hən həftə çox vəxt məhkəmələrdə iki müdəiyə tərəf-müqabil-ymuki və müdafiələr bir-birilə çarpışar və nə vasitə ilə olursa olsun jəkdikərlərinə qələb qadmək istəjirlər.Müqabil çox vəxt həqiqət və ədalətlə bəla hesablaşmadan müttəhimin hər bir işini,səsyny və hərəkətini fənalığa jozar və müttəhimin məhkum edilməsinə çalışar:Ejnilə müdafiələr çəniliklərini əyər bildikləri bir adəmi bəla müdafiə edərkən bütün fənn hərəkətlərini bilərək jəxşılığa jormağa,çinajət ləri əftyb hərdələməjə və nə vasitə ilə olursa olsun müqəssiri pək tərsitsiz çıxarmağa çalışarlar.Buncn hən iki tərəfin bir növ vəzifələridir.Qəqət bu kün mən əzy edərdim ki,heç bir tərəf joxdur.Müvəqqəfliklə qanımajıb bir hərf bir ədalət sahibi müdafiə jurursun,heç kəs bilərək hərgiz rəhmsizlik və bojalıqla bu kün müttəhimlər qəndəjəsində otuymuş İskəndərin əsl simasın əjanlaşdırıb ortaja çıxmış olsun.Biz buna səs verijrik və ahd edijrik.Həmin buny bu bitərəflik və ədalət də müdafiə vətəndaşlardan xəbərsiz umid və arzu edərik.

Hə'mətlərindən istifadə etdiji mühitin bir jəvrusu bir fərdi dəqiqləşdirmək doğrudur,başlajır,jaşadır,böjüdür,tərbiə edər,özü-özünü idarə edə bilərsə,dolandıra bilərsə bir insan halına dəndərər ki,bundan hərci həmin şəxsin məhtəl dəftərlərində dajanmış bir borcudur.Alınan bir borc şübhəsiz ki,qajtarılmalıdır.Buny inkar etmək olmaz,həm də bu borcun marşalı nasıl olmalıdır.Təbiətdə ymumi bir qanun vardır.Tə'sir əks tə'sirə mücəvvidir.Bu qanuny dəqiqləşmiş məsələdə də işlədərsək olursa bojlə nəticə də'və bilərik ki,hər bir fərd yçyn nə qədər əftyr zəhmət çə...

İskəndərin mühakiməsi ilə bağlı C.Cabbarlının çıxışından

çürüdən» və dini, şəriəti soyğunçuluq vasitəsinə çevirən yalançı, fırıldaqçı ruhanilərin, «təsvir ustası» olan «mömin-lərin» maskalarını yırtmaq, onların həqiqi simasını olduğu kimi tanıtmaq olmuşdur. Çünki ədibin fikrincə, «nə qədər ki avam müsəlman ümməti mövhumat içində çürüməkdədir, o qədər onların gözü açılmayacaq ki, yaxşı ilə yamanı seçə bilsinlər...»[95]. Akademik İsa Həbibbəyli isə əsərin əhəmiyyətini belə dəyərləndirirdi: «Azərbaycan dramaturgiyasının nadir və bənzərsiz nümunəsi olan «Ölülər» tragikomediyası (1909) Azərbaycanın və ümumən türk-müsəlman dünyasının cəhalət və mövhumat əsarətindən xilası davasında atılmış atom bombası qədər təsirli bir bədii əsərdir. Ədəbiyyatda cəhalət dünyasının qatı dumanlarının qəti pardaxlanması «Ölülər» tragikomediyası ilə başlanır. «Ölülər» bütövlükdə türk-müsəlman dünyasında, o cümlədən Azərbaycandakı mənəvi buxovları, əsarəti, fanatizmi və xurafatı böyük cəsarətlə yıxıb dağıdan dahiyanə əsərdir. Azərbaycan ədəbiyyatında mövhumat və cəhalət əleyhinə yazılmış «Ölülər» qədər təsirli ikinci bir əsər tapmaq çətindir. Cəlil Məmmədquluzadənin «Ölülər» tragikomediyası milli dramaturgiyamızın şah əsəridir»[96].

Məlumdur ki, C.Cabbarlının öz qəhrəmanı Almaz mübarizədən qalib çıxır. Çünki Almaz düşdüyü mühit və zamanla iqtidar olduğu halda, Füzulinin Məcnunu və Mirzə Cəlilin İskəndəri müxalifətdə idi. Başqa sözlə, Almazı zamanı və mühiti təbliğ və təqdir etdiyi halda, Məcnunu və İskəndəri əzərək «cünun»a və ya "dəli"yə çevirirdi. Almaz hakim ideologiyanın təbliğatçısı, Məcnun və İskəndər isə zamanın və onun adət-ənənələrinin tənqidçisi idi. Almaz bir sovet müəlliməsi kimi dövlət siyasətinin icraçısı, Məcnun və

[95] Məmməd Cəfər. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı, 1973, səh. 289.

[96] İ.Həbibbəyli. Ədəbiyyat – tarixi yaddaş və müasirlik, Bakı, 2007, səh. 69.

İskəndər isə öz arzularının, ideyalarının həyata tətbiqinin qurbanlarıydı.

Ölülərin təmsil olunduğu şəhərdə bir neçə təhsil almış ziyalı var - Mir Bağır ağa, Heydər ağa, dilmanc Əliqulubəy, müəllim Mirzə Hüseyn, eləcə də bunlar arasına kənarda təhsil alıb gəlmiş Şeyx Nəsrullah və İskəndər. Nə üçün ölülər mühiti yalnız İskəndəri kefliyə və dəliyə çevirir? Çünki İskəndər C.Cabbarlının da dediyi kimi ölülərin və ölülər mühitinin fövqündə dayanırdı. 22 yaşlı İskəndərin baxışları, dünyagörüşü ondan yaşca böyük olan bu dünyanın ölülərinin baxışlarından və həm də təhsilindən tamamilə fərqli idi.

C.Cabbarlı deyir: «O (yəni İskəndər – C.Q.), hər şeyi təsadüfi görmək istər. O, sistema üsul-filan tanımaz. Yolunda yaxşılıqdan başqa heç bir şey etməyən, kəndisini heç bir şeydə müqəssir bilməyən Hacı Həsən əminin yanına gəlir və heç bir söz demədən, səbəbini anlatmadan birdən başlar: tfu sənin üzünə, hacı Nəcəfəliyə yetişir, heç bir söz demədən mans-mans kus-kus deyə itə yedirtmək istəyir. Axır neçin? Səbəbi bəlli deyil. İskəndər özü bilir və yaxud 2 aydan sonra gedib qəbristanda ölülərin məzar daşlarına nəsihət söyləyir».

Əsərlə tanış olanlar yaxşı bilirlər ki, İskəndər heç yerdə atasının və ya böyüklərin üzünə heç nədən tüpürmür. Yalnız bircə yerdə atası Hacı Həsən arvadı Kərbalayı Fatmaya deyəndə ki, Nazlını yola gətir onu Şeyx Nəsrullaha siğə edək, o zaman İskəndər «tfu» eləyib otaqdan çıxır.

Kərbalayı Fatma xanım: (girir içəri və durur bir tərəfdə). Hacı, mən sənin qızının öhdəsindən gələ bilmirəm; sən özün bəlkə onu dilə tutasan.

Hacı Həsən: (bir az fikirdən sonra) Arvad, Fatma, sən məni Allaha şükür tanıyırsan; bilirsən ki, hirsim tutanda gözümə heç zad görsənmir. Get dinməz-söyləməz qızıvın əlayağını qayır. Axşam gərək köçürək. (Fatma xanım çıxır,

Hacı Həsən onun dalınca). Dayan, dayan! (Arvad dayanır). Qızına de ki, razı olmasın gəlim onun qabırğalarını sındırım! (Fatma xanım çıxır; İskəndər bir az atasına baxandan sonra «tfu» eyləyib çıxır)[97].

Göründüyü kimi, İskəndər «tfu» ifadəsini elə belə, heç nədən işlətmir. «Zilhəccə ayının 18-də doqquz yaşı tamam olan», 10 yaşına yenicə ayaq qoymuş Nazlını dilə tutub «Şeyx Nəsrullah kimi müqəddəs bir vücuda» ərə verdiklərinə, eləcə də evlərini İsfahan lotusunun, yumuşaq desək, hərəmxanasına çevirməyinə etirazının ifadəsi olaraq belə edir. Maraqlıdır ki, Hacı Həsən Nazlını «dilə tutmaq» təklifini İskəndərə də edir, eyni zamanda bildirir ki, «bunu da sənə xəbər verirəm ki, razı oldun, olmadın, mənə heç təfavütü yoxdur... Mən səni daha adam yerinə qoymuram». Atası tərəfindən belə adam yerinə qoyulmadığını əvvəldən bilən İskəndər bundan başqa nə etməli idi? Mərhum professor Kamran Məmmədov haqlı olaraq yazırdı: «Bir də böyüyü o yerdə tanıyırlar ki, böyükdə böyüklükdən bir nişanə, bir əlamət olsun. «Ölülər»dən nə böyüklük!?»[98]

İskəndər yalnız Şeyx Nəsrullahın və onun şagirdinin üzünə tüpürərək "Tfu şarlatanlar" - deyir. İskəndərin kiminsə üzünə tüpürməsi əxlaqsızlığından və ya tərbiyəsizliyindən deyil, mənəvi ölülüyə etirazından, millətə yanğısından, gedən proseslərlə barışmazlığından irəli gəlir. Əslində İskəndər həmişə və hər yerdə fanatizmə, xurafata, cəhalətə, nadanlığa, ölülüyə tüpürür. Bu yalnız tüpürmək deyil, həm də İskəndərin ölülüyə etirazı və üsyanıdı.

Doğrudur, İskəndər öz məşhur monoloqunda iki dəfə «Tfu sizin üzünüzə» ifadəsini işlədir. Bəzi tədqiqatçılar sübut etməyə çalışırlar ki, guya İskəndər camaatın üzünə tüpürür. Bu belə deyil. O, birinci dəfə fanatik cahillərə tutduğu

[97] C.Məmmədquluzadə. Əsərləri. Tərtib edəni və izahların müəllifi: İsa Həbibbəyli. 4 cilddə. I cild. Bakı, 2004, səh. 420.
[98] Məmmədov K. XX əsr Azərbaycan gülüşü, Bakı, 1989, səh. 117.

hərəkətləri xatırladır və bildirir ki, "gələcək nəsillər bu qanlı səhifələri vərəqlədikcə deyəcəklər - tfu sizin üzünüzə". Dərhal da «bağışlıyın, kefli İskəndər bir az biədəblik eləyir» - deyərək üzürhaqlıq edir.

İkinci dəfə isə «Şeyx Nəsrullah ölülərin dirilmək ixtiyarını qoydu sizin qabağınıza, siz, dəriçədən məlakə axtaranlar, ölən qardaşlarınızın, bacılarınızın və övrət-uşaqlarınızın dirilməyinə razı olmadınız. Niyə razı olmadınız? Ondan ötrü ki, arvadlarınızın hamısını yumruq altında öldürmüşsünüz; ölən qardaşlarınızın arvadını almısınız, ölən dostlarınızın yetimlərinin malını yemisiniz. Razı olmadınız ki, dirilib gəlsinlər və sizin əməllərinizi görüb desinlər: «Tfu sizin üzünüzə!»

Deyilənlərdən aydın olur ki, «tüpürmək» də İskəndərin bu dünyanın ölülərinə ünvanlanmış «gülüş və qəhqəhələri» kimi ifşa formalarından biri idi və o, heç kimi, heç vaxt əbəs yerə tüpürməklə, «tfu sizin üzünüzə!» deməklə təhqir etmirdi.

Akademik İsa Həbibbəylinin dediyi kimi: «Əsərin əsas qəhrəmanı olan kefli İskəndərin məşhur monoloqu Cəlil Məmmədquluzadənin bütün fikirləri və düşüncələrini ümumiləşmiş şəkildə mənalandırır. Bu, Azərbaycan ədəbiyyatında dərin məzmunlu, ən təsirli və ibrətamiz monoloqdur. İskəndərin məşhur monoloqu təkcə «tarix kitabına qanla yazılmış səhifə» olaraq qalmır, bu monoloq tarixin bütün mərhələlərində hər dəfə səhnədə səsləndikcə hər dövrün özünəməxsus canlı ölülərini «diri-diri dəfn etmək» imkanlarına malik olan, silahdan da güclü səslənən kəsərli idtihamnamədir»[99].

«Qəbristanda ölülərin məzar daşlarına nəsihət söyləyir» fikrinə gəldikdə deməliyik ki, «Ölülər» əsərindəki qəbiristanlıq Cəlil Məmmədquluzadənin dahiyanə şəkildə düşündüyü tragik-dramatik səhnədir. O, bu səhnə ilə müsəlman

[99] İ.Həbibbəyli. Ədəbiyyat – tarixi yaddaş və müasirlik, Bakı, 2007, səh. 70-71.

Şeyx Nəsrullah, digəri isə bu xalqın içindən çıxmış, Fransada, Hacı Həsənin təbirincə desək kafirlər mühitində təhsil almış İskəndərdir. Onların hər ikisi «ölüdirildən»dir. İskəndər "diri ölüləri" Şeyx Nəsrullah isə çoxdan ölmüşləri, rəhmətə getmişləri, sümükləri belə çürümüşləri diriltmək istəyir. Bu səhnədəki, ən maraqlı konflikt də yalnız İskəndərlə Şeyx Nəsrullah arasında yox, "diri ölülər"lə rəhmətə getmişlər arasında baş verir. «Şeyx və möminlər qəbiristana – «ölü dirilməsi» dəstgahına yığışırlar və məlum olur ki, ölülərin dirilməsi o qədər də çətin bir şey deyilmiş, çətin şey – ölülərin dirilməsi üçün dirilərin razılığını almaq imiş! Bu paradoksdur. Amma o qədər əsaslanıb ki, dahiyanə bir realist süjet vəziyyəti əmələ gəlir. O vaxta qədər ki, ölüləri diriltmək şeyxdən asılıdır, dirilər onların dirilməsini arzu edirlər, amma o vaxt ki, bu dirilərin özlərindən asılı olur, onlar dərindən götür-qoy etməyə, fikirləşməyə gedirlər»[101].

Qəbiristanlıq səhnəsində iki ölü üz-üzə dayanır. M.Cəlilin diri ölüləri ifşa etmək və oyatmaq üçün məkan kimi qəbiristanlığı seçməsi də təsadüfi deyildir. Bu M.Cəlilə həm də ona görə lazım idi ki, diri ölüləri fikirləşməyə məhz buradan – qəbiristanlıqdan göndərsin. İlk dəfə idi ki, bu dünyanın ölülərini o dünyanın ölüləri «dirilsin - dirilməsin» dilemması qarşısında qoymuşdu. İlk dəfə idi ki, gəzən, hərəkətdə olan ölülər kütləvi şəkildə, cəm halında fikirləşməyə (və həm də qəbiristanlıqdan) gedirdi. Bizcə, fikirləşmək, düşünmək üçün göndərilmişlərə verilən fürsət M.Cəlilin insanı diriliyə çağrış dəvətnaməsi idi. Əslində «Ölülər» əsərinin özü başdan–başa diriliyə çağırışdır.

C.Cabbarlı deyir: «İştə böyləlik ilə İskəndər bütün varlığını alkoqolun müdhiş pəncəsinə tapşırmış, heç bir vəzifeyi-ictimaiyyəsini ifa etməmiş mühitdən aldığı faydaları da, borcları da bir midvər kimi bənimsəmiş qaytarmamışdır.

[101] Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, 2002, səh. 335.

Mühit mübarizələrə möhtac ikən o heç bir yaxşı iş görməmişdir. Hətta İskəndərin qarşısında cinayətlər işlənir. Şeyx Nəsrullah hər gün məsum zavalı bir yavrucuğun namusunu tapdayır. İskəndər susuyor. Heç bir əməli qəti təşəbbüsə girişməyir. Halbuki bu mümkün idi də. Şeyx Nəsrullah ölüləri diriltməki iddia ediyirdi. İskəndər bilirdi ki, bu yalandır. Orada xalqa bu yalanı anlatmaq üçün böyük fədakarlıqlar lazım idi. Bir igid istəyir idi ki, şu kor xalqın qarşısına çıxsın və şeyxə söyləsin ki, şeyxanə bu ölülərin həpsini dirilt, ya Heydər ağayı ögrədib göndərə idi ki, get ölülərini diriltməyi xahiş et, şeyx bunu bacarmayacaq və yalanların üstü açılacaq cinayətləri aradan qalxacaq idi. İskəndər bunu etməyir, çünki ayıq deyil idi. O hər şey bitəndən sonra sallana-sallana durub gəlmiş və toydan sonra nağara və ya ruslar demişkən «posle draki kulakami nemaşut». Ölülərə vəz ediyir».

İskəndər öz «vəzifeyi-ictimaiyyəsini» nəinki ifa etmir, hətta mükəmməl ifa edir və deyə bilərik ki, «mühitdən aldığı faydaları» artıqlaması ilə və həm də daha modern şəkildə mühitin özünə qaytarmağa çalışır. «Ölülər» əsərinin tədqiqatçılarından olan professor Hüseyn İsrafilov yazırdı: «Yaşadığı zəmanədə İskəndər cəmiyyətə xeyli fayda verir. O işləməyə-işləməyə çox xeyirli bir iş görür. Min illərlə paslanmış beyinlərdə şübhə oyatmaq, bu beyinləri «yenidən qurmaq» bir inqilab idi»[102]. Sultan Məcid Qənizadə isə ölü diriltmək məsələsini belə mənalandırırdı: «Şeyx Nəsrullahın ölüləri diriltməsi yalansa da, «Ölülər»in ölü fikirləri diriltməsinə şübhə edilə bilməz»[103]. Professor Əli Sultanlı isə Şeyx Nəsrullahın ölüləri diriltmək məsələsini belə mənalandırırdı: «Ölüləri diriltmək istəyən şeyx əslində diriləri öldürmək, onların heysiyyətini məhv etmək, mənliklərini əzmək məqsədini güdür»[104].

[102] İsrafilov H. «Ölülər», Bakı, 1966, səh. 109.
[103] «Açıq söz» qəzeti, 1 may 1916, № 173.
[104] Əli Sultanlı. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. B., 1964, səh. 217.

C.Məmmədquluzadə olduqca çətin olan ölü şüurları diriltmək missiyasını öz qəhrəmanı İskəndərə həvalə etmişdi. İskəndər öz əməli fəaliyyəti ilə ölülərin dirilməsi məsələsində atası Hacı Həsəni tam inandıra bilməsə də, şübhəyə salmağı bacarır: «Hacı Həsən: (İskəndərə) İskəndər, vallah deyəsən, mənnən zarafat eləyirsən. Mən burada hər bir zadı ayın-şayın görürəm. Nədən deyirsən ki, mənim başıma hava gəlib?

İskəndər: Ondan ötrü ki, Şeyx Nəsrullah sizə tələ qurmaqdan ötrü beyninizi doldurub ki, ölüləri dirildə bilər, sən də inanıb var-yoxunu istəyirsən verəsən İsfahan lotusuna!

Hacı Həsən: (bir qədər fikir eləyib) Yaxşı, bir saatlığa, tutaq ki, mən dəli olmuşam; bəs Mir Bağır ağa ki, alim adamdır, o niyə bəs ölülərin dirilməyinə inanır? Elədə o da dəlidir?

İskəndər: Yox, Mir Bağır ağa dəli deyil, ancaq eşşəkdir.

Hacı Həsən: (dikəlib hirsli, ucadan) Kəs səsini, namərbut! (Bir az baxıb) Bəs teleqrafçı Heydər ağa niyə inanır, elədə o da dəli olub?

İskəndər: Yox, dəli olmayıb. O da o səbəbə inanır ki, qulaqları çox uzundur.

Hacı Həsən: Hə, elədə dünyada səndən savayı hamı dəlidi, hamı eşşəkdi, bircə sən ağıllısan. Elədə Hacı Bəxşəli də dəlidi, Hacı Kazım da axmaqdı, Hacı Kərim də səfehdi. Hamı dəlidi, bircə İskəndər ağıllıdı.

İskəndər: Dünyada uzunqulaq məgər azdı? Nuhun gəmisində hər heyvandan hərəsindən bircə dənə var idi, amma indi gör bircə Həmədanda nə qədər eşşək var?

Hacı Həsən: (hirsli) Axmaq, axmaq danışma!»[105]

Göründüyü kimi, İskəndər əməli fəaliyyətində ironiyadan, gülüş və qəhqəhədən, yeri gələndə tüpürməkdən, lotu və ya şarlatan deməkdən məharətlə istifadə edir. Professor

[105] C.Məmmədquluzadə. Əsərləri. Tərtib edəni və izahların müəllifi: İsa Həbibbəyli. 4 cilddə. I cild. Bakı, 2004, səh. 419.

H.İsrafilovun dediyi kimi: «İskəndər elə ictimai nöqsanlara qarşı mübarizə aparırdı ki, onları nə islahat, nə zorakılıqla aradan qaldırmaq mümkün deyildi. Ona görə də ondan etdiklərindən artıq «tələb etmək» tipi və onun mühitini bir tərəfli anlamaq demək olardı»[106].

«Bir igid istəyir idi ki, şu kor xalqın qarşısına çıxsın və şeyxə söyləsin ki, şeyxanə bu ölülərin həpsini dirilt, ya Heydər ağayı ögrədib göndərə idi ki, get ölülərini diriltməyi xahiş et, şeyx bunu bacarmayacaq və yalanların üstü açılacaq, cinayətləri aradan qalxacaq idi» fikri ilə də razılaşmaq çətindir. Əvvala, «şu kor xalqın» dərdini şeyxə deyə bilən və deyən yalnız İskəndərdi: «Cənab şeyx, siz gərək şükr eləyəsiniz ki, mən şərab içirəm. Əgər mən şərab içməsəm, ağlım başımda olar; ağlım başımda olanda birdən gözümü açıb görərəm ki, aha, bizim şəhərimizə bir müctəhid gəlib, adını qoyub ölü dirildən və mömin hacılarımızın başını ricət məsələsi ilə piyləyə-piyləyə hər gecə bir balaca qız alır. Xa... xa... xa!.. Mən ölüm əl ver! Lotusan əl ver! Xa... xa... xa!..»[107].

Göründüyü kimi, ölülər mühitində Şeyx Nəsrullahın fırıldaqlarını görən və göstərən, eyni zamanda ona mane olan yeganə adam İskəndərdi. Ona görə də Şeyx Nəsrullah İskəndəri hər yerdə bir «şərab istemal edən», «mürtəd» və «babı» kimi rədd edir.

İkincisi, İskəndər qəbiristanlıqda «cənab şeyx, hər nə qədər ki, bu qəbristanlıqda ölü basdırılıb, hamısını dirilt»[108] - deyir, lakin eşidilmir və hətta rədd edilir.

Fikrimizcə, İskəndərin faciəsi və həm də zəif tərəfi onda idi ki, o, ölülər cəbhəsindən heç kəsi öz tərəfinə çəkə

[106] İsrafilov H. «Ölülər», Bakı, 1966, səh. 110.

[107] C.Məmmədquluzadə. Əsərləri. Tərtib edəni və izahların müəllifi: İsa Həbibbəyli. 4 cilddə. I cild. Bakı, 2004, səh. 415.

[108] C.Məmmədquluzadə. Əsərləri. Tərtib edəni və izahların müəllifi: İsa Həbibbəyli. 4 cilddə. I cild. Bakı, 2004, səh. 415.

bilməmişdi. Bunun da əsas səbəbi ölülər aləmində dini fanatizmin, cəhalət və nadanlığın, eləcə də ayıq və oyaq adamlara müqavimətin güclü olması idi. Belə bir situasiyada ölülər aləmində İskəndər yox, Şeyx Nəsrullah eşidilirdi. Ona görə də İskəndərin özünün, yaxud da İskəndərə qarşı yönəlmiş Heydər ağanın və ya qeyri-kimsənin «şeyxanə bu ölülərin həpsini dirilt» deməsinin (hansı ki, İskəndər bu sözləri şeyxin özünə deyir – C.Q.) heç bir faydası olmayacaqdı. Bu durumda Şeyx Nəsrullahı və onu dəstəkləyən hacıların ifşası üçün hadisələrin axıradək inkişafına böyük ehtiyac var idi.

Ədəbi-ictimai məhkəmədə İskəndəri ittiham edən C.Cabbarlı deyirdi: «İskəndər yalançıdır da, duyğusuz və canidir də. Bacısını müdafiə etməyə söz vermişkən bir fəlakətə məruz qalmış zavalı yavru son gündə hər yerdən əli üzülmüş bircə ona ümid edər, ona iltica edər, ondan müdafiə gözləyirkən gəl bacım mən ölmədikcə səni kimsə məndən ayırmaz deyə qollarını açıb onu qucmaq və qəhrəman kimi araya atılmaqdansa onu kobudcasına itələyib yıxır, fəqət İskəndər qollarını açıb qucuyur da həm də qucduğu şübhəsiz ki bilirsiniz nədir haman şişə ki bütün varlığı ondan ibarət bilir. Bəzilərində öylə bir nəzəriyyə var ki, nəhayət şeyxin torları açıldı, İskəndərin fikri qalib gəldi. İskəndər qalib gəldi. Xalq anladı ki, İskəndər haqlı imiş. Bəlkə bu özü də bir metoddur. Fəqət bu yalnış bir nəzəriyyədir. Əvət şeyxin fırıldaqları açıldı, həm də bir çox məsum qızlar çeynənəndən sonra açıldı. Fəqət bunda İskəndərin iştirakı olmadı. Qalib gələn İskəndər deyil idi. Bir təsadüf idi. Xalqın anladığı İskəndərin fikri deyildi. Bəlkə Şeyx Nəsrullahın fırıldaqları idi. İskəndər olmasaydı da bu fırıldaqlar açılacaq idi. O burada arabanın 5-ci çərxi də ola bilməmişdir. İskəndər bütün o cinayətlərə qarşı susmuş, özü də bir cani olmuşdur»[109].

[109] Azərbaycan dövlət teatr muzeyi. inv. 531.

C.Cabbarlıdan gətirdiyimiz bu sitatda İskəndər dörd mühüm məsələdə - yalançı və duyğusuz olmaqda, bacısı Nazlını müdafiə etməməkdə, Şeyxin fırıldaqlarının üstünün açılmasında rolunun olmamasında (daha doğrusu, bunun bir təsadüf nəticəsində açılmasında) və ətrafında baş verənlərə göz yumduğuna görə cinayətdə günahlandırılır.

Əsərdə elə bir məqam və ya epizod yoxdur ki, İskəndər kiməsə yalandan söz versin və o sözə əməl etməsin. Doğrudur, o, bacısı Nazlıya içməmək barədə söz verir: Nazlı: (qapıda görsənir) Dadaş, sən Allah az iç bu zəhrimarı!

İskəndər: Baş üstə, bax, mənim bu gözlərim üstə (əlini qoyur gözünə).

Nazlı: Vallah, yalan deyirsən.

İskəndər: Vallah, yalan demirəm. Nə qədər ki, sən burada durubsan, bir tikə də içmərəm; amma doğrudan-doğrusu elə ki, buradan gedibsən, içəcəyəm.

Nazlı: (gəlib yapışır İskəndərin əlindən) Mən də sənin yanından getmənəm.

Göründüyü kimi, İskəndər Nazlıya söz vermir ki, mən daha araq içməyəcəm. O bildirir ki, neçə ki, sən yanımdasan içməyəcəm və içmir də. Nazlı «Dadaş, bu zəhrimarı az iç» - deməklə arağ içməyi İskəndərə tərgitmək istəyirdi. Lakin **XIX əsrin sonu və ya XX əsrin əvvəllərində ölüləri diriltmək Şeyx Nəsrullahın, diri ölüləri ayıltmaq və oyatmaq İskəndərin, «kefli» İskəndəri «ayıq» İskəndərə çevirmək isə Nazlının imkanları xaricində idi.** Tanınmış teatrşünas alim Cəfər Cəfərovun sözləri ilə desək «İskəndər müvəqqəti sərxoşlardan deyildir... o daim sərxoşdur. Bu isə onun subyektiv bir zəyifliyindən, patoloji keyfiyyətindən deyil, qaranlıq və qəddar mühitin təzyiqi altında duyduğu dərdin çoxluğundan və ağırlığındandır»[110]. Deməli, nə Nazlı, nə də qeyriləri İskəndərin dərdlərini axıradək anlamaq və aradan qaldırmaq gücünə malik deyil.

[110] Cəfərov C. Azərbaycan dram teatrı, Bakı, 1959, səh. 137.

İskəndərin bacısı Nazlı və qardaşı Cəlalla, eləcə də ölülər mühitinin sakinləri ilə söhbətləri göstərir ki, o olduqca səmimi və həssas bir insandır, duyğusuz deyildir. Əgər o duyğusuz olsaydı onda kefliyə çevrilməzdi, özünü dərdlə yükləməz, diri ölülərin problemlərinin altına girməzdi.

Hacı Həsən Kərbalayı Fatma xanıma deyəndə ki, «Nazlı gərək Allahına şükür eləsin ki, Şeyx Nəsrullah kimi bir vücuda ərə gedir. Bir belə müqəddəs şəxslə qohum olmaq elə bir qənimət di ki, dünyada az-az adama qismət ola bilər. Bu bir mərhəmətdi ki, xudayi-taala bizə göndərir»[111] bu balaca qızcığaz son ümidini İskəndərə bağlayır. Qabırğalarının Hacı Həsən tərəfindən sındırılacağına inanan Nazlı son anda «İskəndərin razılığı olarsa Şeyx Nəsrullaha gedərəm» deyir və bilir ki, İskəndər buna razı olmayacaqdır. Nazlı ümidlərində yanılmır, həqiqətən də İskəndər Nazlının Şeyx Nəsrullaha siğə edilməsinə razılıq vermir.

«İskəndər «ölülər» mühitində çox oyadıcı, çağırıcı bir iş aparmışdır. Bütün müsəlman dünyasını biləyinə dolayan, hər yerdə, hər kəsə meydan oxuyan Şeyx ilk ciddi müqaviməti ancaq İskəndər ilə üz-üzə gələndə görür»[112]. Birinci müqavimətdə Şeyx Nəsrullah İskəndəri bəd dua oxumaqla qorxutmağa çalışırsa, qəbiristanlıq səhnəsində artıq bunun İskəndər üçün keçərli olmayacağını şeyx özü də dərk edir. İskəndər ölüləri və onlardan daha çox isə Şeyx Nəsrullahı ilk dəfə məhz burada – qəbiristanlıqda silkələyir. İskəndərlə ilk qarşılaşmasında Şeyx Nəsrullah onun qarşısındakının nə qədər barışmaz olduğunu dərk edə bilmir. Qəbiristanlıqdakı görüşündən sonra isə bunu dərk edir. **İskəndərin müqaviməti «diri ölüləri» fikirləşməyə göndərən Şeyx Nəsrullahın özünü də fikirləşməyə, tutduğu əməllərdən nəticə çıxarmağa, lotuluğundan əl çəkməyə vadar edir. Əslində İskəndər Şeyx Nəsrullahın rahatlığını pozur, onun özünü sakit oturmağa qoymur.** «Şeyx ağıllı adamdır, bilir ki, bu vəziyyət uzun sürə bilməz. Xüsusən İskəndər kimi bir «qığılcım» işığı artıra bilər, qafil adamları qismən də olsa ayılda bilər. Odur ki, İskəndər ilə mübahisəyə girişmir, «rədd ol!» - deyir və gecə ikən yığışıb qaçır»[113].

Şeyx Nəsrullahın gecə ikən qaçması məsələsinə ədəbi məhkəmədəki müdafiəçilər əsas səbəbkar kimi İskəndəri göstərsələr də, bir çox iştirakçılar C.Cabbarlının mövqeyindən çıxış edirdilər. Məsələn, H.İmanov göstərirdi ki, müdafiəçilər Şeyx Nəsrullahın hiyləsinin açılmasında İskəndəri birinci və ümdə səbəb sanırdılar. Amma əsərin gedişinə diqqət edərsək görərik ki, şeyxin qaçmasına səbəb İskəndər deyil, bəlkə işıqlanmış üfüqlərdən gələn və Şeyx Nəsrullahın kim olmasını daha yaxşı anlayan xəbərçilər olmuşdur[114]. Yuxarıda bu barədə danışdığımızdan mətləbi uzatmaq fikrində deyilik. Görünür, müəllifin dediyi üfüqləri sosializm günəşi işıqlandırmışdı.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, hacıların, məşədilərin və kərbayıların «müqəddəs və əlçatmaz bir vücud» kimi həyat səhnəsinə gətirdikləri Şeyx Nəsrullahı, İskəndər lotu, dələduz və fırıldaqçı kimi bu səhnədən düşürür.

Çıxışının sonunda Cabbarlı deyir: «İskəndər bir nümunədir ki, onu görüncə hankı bir axmaq öz oğlunu Firəngistana göndərəcəkdir. ...İskəndər bütün mədəniyyəti, bütün elmi, maarifi, onun əsl məna və əhəmiyyətini məhv etdi. İskəndər onların ölümünə bais oldu. İştə buna görə də İskəndər Firəngistanda keflənib qalsaydı, öz evini yaxmış olurdu, fəqət gəlib bu zavallı mühit içində keflənmiş, minlərlə evləri yaxmış, ailələri məhv etmiş, minlərlə zavallı cəllad-

[111] C.Məmmədquluzadə. Əsərləri. Tərtib edəni və izahların müəllifi: İsa Həbibbəyli. 4 cilddə. I cild. Bakı, 2004, səh. 418.
[112] Azərbaycan ədəbiyyat tarixi. 3 cilddə. II cild. Bakı, 1960, səh. 576.

[113] Azərbaycan ədəbiyyat tarixi. 3 cilddə. II cild. Bakı, 1960, səh. 571-572.
[114] «Yeni yol» qəzeti, 1923, 31 mart, № 11.

ların qaranlıq pəncəsində can çəkişməsinə səbəb olmuşdur. Ona görə bu gün ona bəraət qazandırmaq istəyənlərəsə, bütün gəncliyin haqqı vardır ki, qalxıb bir səslə bağırsın: Qaldırın onu mühitdən, o, bizə gərək deyildir. O gələcək nəslin qatilidir. O, Şeyx Nəsrullahdan daha bədtər canidir. Yolları ayrı, fəqət hədəfləri birdir. Şeyx Nəsrullah xalqı elmdən uzaqlaşdırıyor, qaranlıqda boğuyur. İskəndər elmi xalqdan uzaqlaşdırıyor, xalqı tapdayor, öldürüyor, məhv ediyor. Mən sözümü bitiriyor və əsl mühakiməyi möhtərəm hakimlərə tapşırıyoram, qoy onlar özləri kəsdirsinlər, kim daha böyük müqəssirdir?"[115] C.Cabbarlının mövqeyindən çıxış edən başqa bir müəllif isə Hacı Həsənlərin öz övladlarını Avropaya deyil, Kərbəlaya və ya Nəcəfə göndərəcəklərindən narahat olduğunu bildirirdi: «Avropa təhsili alıb, araq şüşəsindən başqa bir şey tanımayan İskəndəri görən Hacı Həsən təbii kiçik oğlunu da «piyaniska» etmək istəməyəcək və onu Avropa təhsilinə deyil, Nəcəfə yaxud Kərbəlaya göndərəcək»[116].

Hər iki müəllif mövqeyində haqlıdır, İskəndəri görənlər və həm də dərk etməyənlər oğlunu xaricdə təhsil almağa göndərməyəcək. O vaxta qədər ki, onların özü İskəndərləşməyib, təfəkkürü, şüuru dirilməyib, ölü kəfənini yırtıb atmayıb. Başqa sözlə, ölülər dünyasının adamından, dirilər dünyasının adamına çevrilməyib, özünüdərk prosesi getməyib. Bu isə uzun bir vaxt və zaman tələb edən prosesdir.

Görkəmli yazıçı və dramaturq C.Cabbarlının «İskəndər Firəngistanda keflənib qalsaydı, öz evini yaxmış olurdu, fəqət gəlib bu zavallı mühit içində keflənmiş, minlərlə evləri yaxmış, ailələri məhv etmiş, minlərlə zavallı cəlladların qaranlıq pəncəsində can çəkişməsinə səbəb olmuşdur» sözlərini anlamaq olmur. Belə çıxır ki, bu zavallıları fəlakətlə üz-üzə qoyan «minlərlə evləri yaxan», «minlərlə ailələri

[115] C.Cabbarlı. Ədirnə fəthi, Bakı, 1996, səh. 208.
[116] «Yeni yol» qəzeti, 1923, 31 mart, № 11.

məhv edən» İskəndərdir, o olmasaydı, onlar bu fəlakətlərlə üzləşməyəcəkdi.

İskəndər elmi xalqdan uzaqlaşdırmır, əksinə dünyəvi elmləri öyrənməyi təbliğ edir. Əsərin lap əvvəlində onun qardaşına dediyi sözləri xatırlayaq: "Sokrat bir adam idi; çoxdanın adamı idi. Çox, çox çoxdanın adamı idi. Sokrat deyərmiş ki, "mən dərs oxumamış elə xəyal edərdim ki, dünyada bir zad bilirəm; amma elm oxuyandan sonra yəqin elədim ki, heç zad bilmirəm". Xa... xa... xa!.. Yəni araq içməyi də bilmirəm! Cəlal, ay Cəlal! İndi sən məndən qaçırsan, deyirsən ki, mən kefliyəm; amma and olsun Qara ağac pirinə ki, sən də mənim kimi dərs oxuyub qurtarandan sonra, başlayacaqsan İskəndər dadaşın kimi küplərin dibində yatmağa. Xa... xa... xa!"[117]

Göründüyü kimi, İskəndər qardaşına cəhalətdən, nadanlıqdan, Avropada təhsil almasına baxmayaraq, düşdüyü mühitdə ona və onun elminə hörmət qoyulmamasından şikayətlənir. Hər kimin elmi var onun hörməti yoxdur (İskəndər kimi), hər kimin hörməti var onun da elmi yoxdur (Əli bəy və Heydər ağa kimi).

Görkəmli alim Y.Qarayevin dəqiq müşahidələri ilə desək: «Əgər Şeyx Nəsrullaha XIX əsr «ölülərini» diriltmək nəsib olsa idi və onlar Cəfər Cabbarlı dramaturgiyasının zaman və məkan məqamlarına gəlib düşsəydilər, onda İskəndəri mütləq Elxanın, Oqtayın, Yaşarın məfkurə və əməl cəbhəsində görərdik. Çünki İskəndər Elxanın, Oqtayın gedəcəyi cığırı təmizləyən bir obrazdır. Əgər İskəndər varsa, demək işığa yol var, tərəqqiyə, sabaha, gələcəyə hərəkət var»[118]. Elə bütün bunlara görə də İskəndəri hərəkətsizlikdə, gördüklərinə gözyummaqda, passivlikdə, hətta gələcək nəslin qatili olmaqda ittiham edib cani və ya cinayət-

[117] C.Məmmədquluzadə. Əsərləri, I cild, Bakı, 1966, səh. 33.
[118] Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, 2002, səh. 342.

kar elan etmək doğru deyil. İskəndər "ölülər" mühitinin yeganə diri adamıdır. Elə əsərin də əsas ideyasını ölülük yox, mənəvi diriliyə çağırış təşkil edir. Əgər o passiv (ölü) olsaydı, Şeyx Nəsrullah İskəndəri görəndə narahat olmaz, çəkinməzdi və müəllif onu da "ölü" adlandırardı.

Prokurorun, eləcə də müdafiəçilərin çıxışlarından sonra İskəndər Hacı Həsən oğlunun təqsirnaməsi hazırlandı. Həmin təqsirnaməni olduğu kimi oxuculara təqdim edirik: «Böylə bir zamanda haman şəhərdən Məşhəddən Nəsrullah adlı bir ölüdirildən bir şeyxin zühuri və bir neçə gün həmən şəhərdən keçib gedəcəyi haqqında bir məktub alınır və bir neçə gün sonra məzkur şeyx bir nəfər şeyx Əhməd adlı yoldaşıyla şəhərə varid oluyor. Mərhum ölülərinin dirilməsi həvəsilə mədhuş ölən əhali şeyxi boyük bir ehtiram və məsərrətlə istiqbal və qəbul edir şeyxin füsünkar natiqəsi və əvamhirib hərəkətləri bütün şəhər əhlinin o cümlədən əvam və sadədil Hacı Həsən əmiyə də ixfal ediyur. Şeyx öz hiylə və ixfasına müvəffəq olduğunu görüncə əvam camaatın irz namusuna belə əl atır. Hər gecədə bir məsum qızın nəfsi-həyvaniyəsinə fəda ediyur. Onların həyatlarını əbədilik zəhərləyir. İşlərin həpsini İskəndər görüyur, anlayur və yalnız bir tamaşaçı olaraq qalıyor. Nəhayət sonda İskəndərin 9 yaşlı bacısı zavallı Nazlıya gəlincə. Nazlı bu şeyxə varmaq təklifindən imtina ediyor. Ata-anasının israr və təhdidlərinə qarşı ağlayır, sızlayır, heç birisinə sözünü anlatmadığından qardaşının onu müdafiə edəcəyini və şeyxin qucağına düşmək fəlakətindən onu qurtaracağını ümidlə son bir çarə bir nicat olaraq «qardaşım razı olursa gedərəm» deyir və haqlı olaraq qardaşının onu qurtaracağı xüsusunda verdiyi vədlərə güvənir və böylə bir halda kəndisini şərab şüşəsini başına qondarmaqla məşğul olan qardaşının ağuşi himayəsinə atmaq istəyir. İskəndər isə onu birəhmanə surətdə itələyib yerə yıxır. Zavallı qıza heç bir yardım və müavinət etməyir. Bu aralıq bir təsadüf nəticəsi

olaraq şeyxin hiylələri anlaşılır, fəqət bundan əvvəl şeyx qaçmış imiş, nə qədər bir hüss təsadüf olaraq Nazlı şeyxin zəhərli ağuşuna düşməyir və onun kibi bir çok məsumlar qızlar şeyxin şəhvaniyəsi, nəfsaniyəsi qurbanı olduğu təzahür ediyor və şeyxin hərəmxanasında ağlar bir halda tapılırlar. Demək cinayət irtikab olunmuş. Onu İskəndər bilmiş, görmüş və qaytarmaq üçün heç bir şey eləməmişdir. Bu da İskəndər. Binaəniləh İskəndəri alim və ziyali bir şəxsiyyət olmaq hissi ilə kəndisinə yakışmayan işbu hərəkət və təbiətindən dolayı aşağıdakı qərar üzrə müttəhim ediyor və müqəssir görüyuruz.

Əvvəla, İskəndər əxlaqca zəifdir. Çünki hər zaman sərxoşdur. Hər kəsə qarşı tərbiyəsizcəsinə hərəkət ediyur və hətta atalıq vəzifəsində ona qarşı heç bir qüsuri olmayan ixtiyar atasının yüzünə tüpürür, hər kəsə sataşır, mənasız olaraq it küskürür və bu kimi hərəkətlərlə əyləniyur. Yalançıdır, bacısına şərab içməməyi vəd etmişkən sözündən qaçıb içir.

Saniyən, iradəcə zəifdir. Çünki qovlu ilə feli bir deyildir. Sözdə dediyini, fikirdə düşündüyünü həyatda tətbiq üçün özündə qüvvə, cəsarət görməyir. Bacısı Nazlıya o qədər də ciddi bir şey yoxkən yaşadıqları mühitdən çıkıb getməyi təklif etdiyi halda sonradan fəlakət gəlincə yardım belə etməyir.

Səlisən canidir. Çünki Şeyx Nəsrullahın cinayətlərinə qarşı imkan varkən bir ciddi təşəbbüs və hərəkətdə bulunmayır. Nazlı kibi məsum və zavallı qızların bədbəxt olması faciəsinə yalnız bir tamaşaçı olaraq qalıyor, hətta Nazlıyı belə rədd ediyor. Bunun üçün qanun ədalət böylə bir şəxsiyyəti başqa birinə ibrət olmaq üçün cəzasız buraxmaması qətiyyən mətlubdur.

Binaəniləh İskəndəri deyil, yalnız və bir insan kibi zəif bir şəxsiyyət nöqteyi-nəzərincə və zəif olduğundan mənfi bir sima görüyürüz, hətta ümumiyyət nöqteyi-nəzərincə və xüsusən alim və ziyalı bir şəxsiyyət olmaq hissilə kəndisinə

yakışmayan, fövqəlzikr hərəkət və təbiətindən dolayı ümumiyyət nöqteyi-nəzərincə də mənfi və müzir bir ziyalı sanıb aşağıdakı qərar üzrə onu müttəhim ediyor və müqəssir görüyürüz»[119].

Təqsirnamənin dilindən və üslubundan da görünür ki, o ədəbi-ictimai məhkəmənin prokurorunun çıxışına istinadən və bəlkə də C.Cabbarlının özü tərəfindən hazırlanmışdı. Təqsirnamədəki müddəaların demək olar ki, hamısına yuxarıda öz münasibətimizi bildirdiyimizdən bir daha həmin məsələlərə qayıtmırıq.

Və nəhayət, ədəbi məhkəmə (prokuror - C.Cabbarlı, müdafiəçilər S.Hüseyn, Ə.Cavad və H.Zeynallı idi -C.Q) belə bir qərar qəbul etmişdi: «İskəndər müvəqqəti olaraq ictimai həyata müğayir bir şəxsiyyət kimi mədəni hüquqdan məhrum edilsin. Lakin Şeyx Nəsrullaha qarşı üsyanı müsbət bir hərəkət kimi qeyd olunsun»[120].

Yeri gəlmişkən qeyd etməliyik ki, ədəbi məhkəmənin çıxardığı bu qərar ziyalılar tərəfindən heç də bir mənalı qarşılanmamışdır. Belə ki, «Qur» imzalı müəllif «İskəndər haqqında çıxarılan qərar yersiz və nahaq oldu»[121] deyə etiraz edirdisə, H.İmanov isə «Ölülər» qəhrəmanı İskəndərin məhkəməsi münasibətilə» adlı məqaləsində «bugünkü məhkəmənin cəzası yüngül oldusa, gələcək tarix məhkəməsi cəzasının pək ağır və şiddətli olmasına əminiz»[122] hökmünü verirdi.

Bütün bunlar ziyalıları bolşevik ideyalarının həyata keçirilməsində onlara yaxından kömək etməyə, "ölülərin" dirilib öz haqlarını tələb etməsinə mane olmağa yönəlmiş siyasi aksiyalar idi. Bu işdə İskəndər kimi "passivlik" göstərənlər və yaxud da çağdaş zamana müxalif mövqedə

[119] C.Cabbarlı. Ədirnə fəthi, Bakı, 1996, səh. 209.
[120] «Maarif və mədəniyyət» jurnalı. 1923, № 2.
[121] «Yeni yol» qəzeti, 1923, 3 mart, № 8.
[122] «Yeni yol» qəzeti, 1923, 31 mart, № 11.

duraraq onun təbliğatçısına çevrilməyənlər cəmiyyət üçün (əslində bolşevik cəmiyyəti üçün) artıq adamlardı. Guya Şeyx Nəsrullahın məqsədi "ölüləri" dirildib İskəndər kimi diri etməkdir. Əgər bütün ölülər dirilib İskəndər olarsa, onda Şeyx Nəsrullahın – İmperiyanın düşdüyü vəziyyəti göz önünə gətirmək o qədər də çətin deyildir. Bu zaman dirilərin hər biri bir İskəndər olar və sovet imperiyasına üz tutub deyərdi «mən ölüm, lotusan həyə əl ver». Əslində sovet imperiyasının məqsədi İskəndəri mühakimə etməklə ölülər mühitindəki dini xurafatı sosialist xurafatı, və ya sosializm ehkamı ilə əvəz etmək idi. Yəni millət kütləvi surətdə dində qoyulmuş ideyalara kor-koranə necə əməl edirdisə imperiyanın diqtə və tələblərinə də eləcə - düşünmədən, şübhə və tərəddüd etmədən əməl etməli idi.

Deməli, dirilər mühitində İskəndərlərə deyil, Nəsrullahlara yer yoxdur. Başqa sözlə desək, dirilər mühitindən İskəndərlər yox, Nəsrullahlar narahatdır. Yeni cəmiyyət – sovet imperiyası da ölüləri (xurafat və cəhalət girdabında olanları) ayıldıb ən azı İskəndər edərsə, onda bolşeviklərin də vəziyyəti aydınlaşar. Yeni cəmiyyətin İskəndəri - ziyalısı əks qütblü təbliğat aparmalı Nəsrullahların - bolşeviklərin mövqeyindən çıxış etməli idi. Əslində Şeyx Nəsrullahın və bolşeviklərin bir məqsədi və bir amalı vardı, diriləri (ayıq və oyaq düşüncə sahiblərini) "öldürmək". Yalnız bu zaman bolşeviklər qarşılarına qoyduqları çirkin məqsədə nail ola bilərdilər.

Nəticə olaraq deməliyik ki, M.F.Axundovun qəhrəmanı Şahbaz bəy («Hekayəti Müsyo Jordan və dərviş Məstəli şah») xaricdə təhsil almağa gedə bilmir, N.Vəzirovun Fəxrəddini («Müsibəti-Fəxrəddin») xaricdə təhsil alıb qayıtdıqdan sonra faciə qəhrəmanına çevrilir. N.Nərimanovun qəhrəmanı isə nadanlığın («Nadanlıq») qurbanı olur. İskəndər isə qurbana, şəhidə çevrilmir, döyüşdən qalib çıxır.

«AYDIN» ƏSƏRİNDƏKİ GÜLTƏKİNİN MƏHKƏMƏSİ

Çox «Quran» oxuyanlar gördüm ki, «Quran» ona lənət oxuyur. Deməli, İBLİS dərk olunanda rədd edilir, mütəfəkkir dərk olunanda isə qəbul olunur!



«Kommunist» qəzetinin təşəbbüsü ilə təşkil edilən ədəbi məhkəməyə cəlb olunan əsərlərdən biri də Cəfər Cabbarlının "Aydın" pyesinin qəhrəmanı Gültəkin olmuşdur. Keçirilməsi 1924-cü il oktyabr ayının 31-də Stalin adına klubda nəzərdə tutulan ədəbi məhkəmənin əsas təşkilatçıları iştirakçıların çoxluğunu nəzərə alaraq onun, daha geniş bir yerdə Əli Bayramov adına klubda reallaşması qərarına gəlirlər. Oktyabr ayının 31-də baş tutan məhkəməyə sədrlik edən Həbib Cəbiyev iştirakçıları Gültəkinin təqsirnaməsi ilə tanış edir. Həmin təqsirnamədə oxuyuruq:

"1. Aydın kimi səadət və istirahəti ancaq özünün əməyilə hazırlayan zəhmətkeş bir gənc tələbənin həyat yoldaşı olmasına baxmayaraq, özünün atası evində aldığı burjuaziya ruh və tərbiyəsini dəyişə bilməmişdir.

2. Öz heysiyyat və şərəfini saxlaya bilməyib Dövlət bəyin qucağına atılmış, onun-bunun alçaqcasına olan xahiş və arzularını yerinə yetirməklə qadınlıq izzəti-nəfsini təhqir etmiş, iradəsi zəif olduğundan düşdüyü çirkabın içərisindən çıxa bilməmişdir.

3. Aydından daha ayrılmadığı bir halda könlünü Dövlət bəyə vermiş. Onu sevmək qədər bir qəbahət yapmışdır.

4. Əski burjuaziya ruhunu dəyişmədiyi üçün əlbisə və zinət düşkünü olmuşdur.

5. Böylə bir əxlaq ilə Aydının fəlakətinə səbəb olmuşdur"[123].

Təqsirnamənin birinci bəndində göstərilir ki, Gültəkin «atası evində aldığı burjuaziya ruh və tərbiyəsini dəyişə bilməmişdir». Belə bir sual doğur, Gültəkin nə üçün atası evində aldığı burjua tərbiyəsini dəyişməli idi? Maraqlıdır, Gültəkinin burjuaziya ruh və tərbiyəsini dəyişməsi Gültəkinə, yoxsa yenicə yaranan şura hökumətinə lazım idi?

Bizcə, Gültəkini ailə tərbiyəsinə görə ittiham etmək, onun başına gələn oyunları, yalnız ailə tərbiyəsi ilə bağlamaq doğru deyildir. Cəsarətlə deyə bilərik ki, Gültəkinin ailə tərbiyəsi düzgün və həm də mükəmməl qurulmuşdu. Əgər onun tərbiyəsi düzgün qurulmasa idi o, həyat yoldaşı kimi Aydını – kasıb bir adamı deyil, ona aşiq olan (belələri az deyildi) hər hansı bir milyonçunu və ya hər hansı bir varlı əyləncə adamını seçərdi. Gültəkin kimə getdiyini, həqiqətən Aydının onu möhtəşəm imarətdə və saraylarda yaşada bilməyəcəyini yaxşı bilirdi. Hətta o özünün dediyi kimi "yoxsul evciklərini" atasının və başqa bəylərin imarətlərindən daha üstün tutur, səadəti, xoşbəxtliyi bu kiçik, həm də kasıb evlərin divarları arasında görürdü: "Səadət ancaq bizim bu qaranlıq evciyimizdə imiş... Gördüyüm böyük binalar, möhtəşəm salonlar, heç birisi mənə bu kiçik evciyimiz qədər doğma və əziz olmadılar"[124].

Almanlarda belə bir misal var: hər cür müqayisə qüsurludur. Bizim də Aydınla Gültəkinin aldığı ailə tərbiyəsini müqayisəmiz qüsurlu görünə bilər. Lakin belə bir müqayisə aparmaq vacibdirsə, onda demək olar ki, Gültəkinin aldığı tərbiyə Aydının aldığı tərbiyədən daha yüksəkdir. Uşaqlıqdan yetim qalan və bacısının himayəsində böyüyən Aydın varlanmağı, yaşadığı ağır həyatdan intiqam almağı həyat idealına çevirir. Bəlkə də, buna haqq qazandırıb deyə bilərik

[123] «Kommunist» qəzeti. 2 noyabr, 1924, № 244.

[124] C.Cabbarlı. Seçilmiş əsərləri, 4 cilddə, II cild, Bakı, 1983, səh. 221.

ki, bütün bunlar ağır, məşəqqətli həyat keçirmiş bir uşağın gələcək arzularıdır. Lakin unudulmamalıdır ki, Aydın böyüdükcə onun bu arzuları da böyüyür: «Bu, yaşadığım mühit və həyat şərtlərinin mənə verdiyi tərbiyədir. Mən çocuqkən yetim qaldığımdan, bircə bacımdan başqa kimsə mənə baxmazdı. Bacımın əri və günüsü həmişə məni və mənim üstümdə yazıq bacımı danlayır, kimsə məni insan bilməzdi. Bircə zavallı bacım mənim günümə yanar, məni oxşayardı. Sonradan qəza bir kənd müəllimi vasitəsilə məni məktəbə sövq edincə, çocuq könlümdə bir arzu oyandı. Mühitdən intiqam almaq və bacımı sevindirmək üçün varlı, həşəmətli bir adam olmaq... Daha sonra Çingiz xan və Napoleon kimi məşhur simaları öyrənincə, bu arzu böyüdü. Mən istəyirdim bütün dünya mənimlə hesablaşsın, küçələrdən keçərkən, Aydın gəlir deyə, xalq məni barmağı ilə göstərsin. Mən istəyirdim əyilmədən kimsə yanımdan keçməsin. Mən istəyirdim bütün bəşəriyyət mənim fikrimə tapınsın...»[125].

Məhkəmədə müddəi-ümumi (ictimai ittihamçı) sifətilə çıxış edən S.Hüseyn deyirdi: "...Gültəkin Aslan bəyin qızıdır. O həyatında qətiyyən ehtiyacın nə olduğunu hiss etməmişdir. Öylə zənn ediyordu ki, hər bir şeyi yalnız istəməklə əldə etmək mümkün olur. Çünki atası evində öylə də tərbiyə görmüşdü. Kəndisinə uzadılan əlləri qəbul etməyib Aydını intixab etdi. Çünki Aydın gənc bir tələbə idi. İyi tar çalıyordu, parlaq bir istiqbalı var idi. O, Aydına gəlirkən burasını düşünməmişdi ki, Aydın onu möhtəşəm imarətlərdə saxlaya bilməyəcək... İştə Aydının da faciəsi buradan başlayır"[126].

Göründüyü kimi, Gültəkin ittiham edilərkən onun ictimai mənşəyi - bəy ailəsindən çıxması əsas götürülürdüsə, Aydının da əməkçi bir ailədən olduğu xüsusi vurğulanırdı. Deməli, Gültəkinin əsas «eyiblərindən» biri Aslan bəyin qızı, bir sözlə, varlı bəy nəslindən olması idi. Əslində isə Aslan

[125] C.Cabbarlı. Əsərləri, 4 cilddə, II cild, Bakı, 2005, səh. 197.
[126] «Kommunist» qəzeti. 2 noyabr, 1924, № 244.

bəy o qədər də varlı deyildi. Onu da qeyd etməliyik ki, o, bir hərbçi kimi pis də yaşamırdı. Gültəkini nə Aydının gənc olması, nə tar çalması, nə də parlaq gələcəyi düşündürürdü. O, Aydını təmiz və təmənnasız bir məhəbbətlə sevirdi və axıra qədər sevdi də.

Təqsirnamədə göstərilir ki, Gültəkin öz heysiyyat və şərəfini saxlaya bilmədiyindən Dövlət bəyin qucağına atılmış, onun-bunun alçaqcasına olan xahiş və arzularını yerinə yetirməklə qadınlıq izzəti-nəfsini təhqir etmiş, iradəsi zəif olduğundan düşdüyü çirkabın içərisindən çıxa bilməmişdir. Əsərdən aydın olur ki, Gültəkin öz heysiyyat və şərəfini qoruyan, heç kimin alçaldıcı xahiş və arzularını yerinə yetirməyən, iradəsi güclü bir qadındır.

Aydınla Gültəkini birləşdirən də hər hansı bir çirkin niyyət yox, təmiz, saf, ülvi məhəbbət olmuşdur. Gültəkini Dövlət bəyin ağuşuna gətirən də pula, altuna olan ehtiyacı və ehtirası deyil, Aydına olan məhəbəbəti və sevgisiydi. Daha doğrusu, Aydın ailəsinin maddi ehtiyaclarını ödəyə bilmədiyindən və sarsıntılar keçirdiyindən, Gültəkin belə bir addım atmağa məcbur olmuşdur. Məhkəmə zamanı dindirilən Gültəkin (məhkəmədə həmin rolu ifa edən aktyor Dostuxanım Səfərova - C.Q) özünün son sözündə deyir: «Hər kəsin altunə səcdə etdiyi, altunun bütün mühitə hökmranlıq sürdüyü və bütün mühiti özünə tapındırmağı və pərəstiş etdirdiyi bir dövrdə yüzlər və minlər ilə həyat və təcrübə görmüş insanlar onun xiyalində əzilib, boğulub, məhv olurkən mən həyatda təcrübə görməmiş və bütün həyatını məktəb divarları arasında, kağız üzərində keçirmiş zavallı, gücsüz bir qadın – nə edə bilərdim ki, etməmişəm?! Mənə deyirlər ki, beş altunə satılmısan, bu yalandır. Öylə olsaydı mən atamın evindəykən yüzlər ilə məni istəyən milyonerlərdən birinə gedərdim. Mən Aydının yoxsulluğunu və onunla keçirəcəyim ehtiyac və iztirabları görərək və düşünərək onu sevdim. Həmin bu sevginin uğrunda da mən

bütün altunlarımı, ziynətlərimi, hər bir şeyimi verdim. Məndə yalnız iki şey qalmışdı, qarşımda iki yol açılmışdı. Ya bütün varlığımla sevdiyim, onun həyatı, ya öz namusum, mənliyim və həyatım. Bunlardan birisini fəda etməli idim.

Fəda etmək üçün ikincisini intixab etdim, mən öz könlümü, öz varlığımı öz eşqimə qurban verdim... Bu fəlakətlərə uğrayanlardan mən birincisi və sonuncusu deyiləm. Minlərlə mənim kimi və Aydın kimi zavallılar həmin altunun ağır məngənəsində özləri, namusları və həyatları məhv olub getmişdir. Mən heç, mənim kimi həyatı və mənliyi tapdalanmış milyonlarla insanları böylə faciələrdən qurtarmaq üçün bir yol vardır ki, o da altunun, onun yaratdığı hakimlər və məhkumlar mühitinin məhv və nabud (yox) olmasıdır. Bu gün mənim yerimdə – müqəssirlər kürsüsündə mən və kimsə deyil, Dövlət bəylər oturmalıdır»[127]. Həqiqətən də, nə üçün Dövlət bəy yox, Gültəkin ədəbi məhkəmənin qəhrəmanına çevrilir və mühakimə olunurdu?

Birincisi, Dövlət bəy bolşeviklərin təsəvvüründə burjua nümayəndəsi idi və o, proletariyatın nümayəndəsi ilə ailə qurmamışdı. Gültəkin isə proletariatın nümayəndəsinə – Aydına ərə getmişdi.

İkincisi, Dövlət bəy müəllifin özü tərəfindən ittiham edilmiş, mənfi bir tip kimi səciyyələndirilmişdi. Buna görə də onu yenidən ittiham etməyə ehtiyac duyulmur. Əslində məhkəmə prosesində burjua nümayəndəsi kimi yalnız Dövlət bəy deyil, bütün bəylər tənqid hədəfinə çevrilmişdi.

Mətləbə qayıdaq. "Aydın" pyesinin özündə də Gültəkinin yaşam tərzinə açıq işarələr vardır: "Barmağındakı brilyantlar qaranlıq otaqları işıqlandırırdı. Ətrafını şahzadələr kimi qulluqçular bürümüşdü. Bir məbud kimi bütün gənclərin səcdəgahı idi"[128] və sair.

[127] Ədəbi məhkəmə. «Kommunist» qəzeti, 1924, 2 noyabr, № 244 (1244), səh. 5.

[128] C.Cabbarlı. Seçilmiş əsərləri, 4 cilddə, II cild, Bakı, 1983, səh. 172.

Təkrardan qorxmadan qeyd etməliyik ki, həqiqətən də, əgər Gültəkin altun düşkünü və əyyaş bir qadın olsaydı, Aydını yox, zəngin bəylərdən birini seçərdi, öz həyatını beləcə altun içərisində başa vurardı. Lakin Gültəkinin yaşadığı mühit onu iki yol ayrıcında qoymuşdu: o ya Aydını yaşatmalı, ya da özünü öldürməli idi. O, bu yollardan birincisini – **AYDINI – EŞQİNİ – MƏSUM SEVGİSİNİ** yaşatmağı seçir. Əsərdə Gültəkin Aydına deyir: "Mən nə etdimsə, ancaq sənin üçün elədim. Mən öz varlığımı sənin eşqinə qurban verdim. Fəqət məni anlamadılar, məni aldatdılar, mənim könlümü, iradəmi zorladılar. Mərhəmət üçün tapınmış gücsüz, zavallı bir qadını yırtıcı bir canavarlar kimi didilər, çeynədilər, parçaladılar. Ox, mən səni xilas etmək üçün özümü məhv etdim"[129]. Məhkəmədə müdafiəçi sifəti ilə çıxış edən Xəlil İbrahimov da haqlı olaraq Gültəkini «eşqi uğrunda fədakar» adlandırırdı.

Təqsirnamənin üçüncü bəndində göstərilir ki, Gültəkin Aydından daha ayrılmadığı bir halda könlünü Dövlət bəyə vermiş. Onu sevmək qədər bir qəbahət yapmışdı. **Əvvala,** Gültəkin Dövlət bəyi heç vaxt sevməmiş və könlünü ona verməmişdi. **İkincisi,** o, Aydından boşanmamışdı ki, onu başqasının arvadı ola-ola başqasına getməkdə ittiham edək. «Dövlət bəyi sevmək qəbahətdir» məntiqinə gəldikdə isə deməliyik ki, onda Böyükxanım cinayətkardır. Çünki Böyükxanım Dövlət bəyə ərə getmişdir. Yəni bəyi sevməyi, bəylə ailə qurmağı qəbahət hesab etmək yalnız sosializmin prinsiplərinə ziddir. Çünki sosializm milli burjuanı, eləcə də bəyliyi bir sinif kimi məhv etməyi qarşısına məqsəd qoymuşdu.

Təqsirnamənin başqa bir bəndində isə Gültəkin «əski burjuaziya ruhunu dəyişmədiyi üçün əlbisə və zinət düşkünü olmuşdur» fikri ilə də razılaşmaq olmaz. Gültəkin heç vaxt əlbisə və zinət düşkünü olmamışdır. O nəinki, Aydını ona hər hansı bir geyim və ya bəzək əşyası almağa məcbur

[129] Yenə orada. səh. 221.

etməmiş, hətta həyat tərzlərini təmin etmək üçün ata evindən gətirdiyi zinət əşyalarını (altunlarını) belə satmışdır. O yalnız bircə dəfə Aydına «Mən deyirəm bu dəfə pul alanda bir-iki manat götürüm, heç olmazsa bir dəst sətin paltar almaq istəyirəm» - deyir və onun razılığını alır. Aydın isə «onu mən özüm deyəcəkdim»[130] - söyləyərək Gültəkinin əlbisələrinin nimdaş olduğunu bildirir. Gültəkin əlbisə yox, əlbisə içində adam arayırdı. Əgər belə olmasaydı, adamlıqdan uzaq olan zəngin əlbisəliləri seçərdi.

Yeri gəlmişkən qeyd etməliyik ki, ədəbi məhkəmədə müddəi-ümumi (ictimai ittihamçı) sifəti ilə çıxış edən S.Hüseyn Gültəkinin bəzənməsinə də etiraz edirdi: "... Gültəkin bu podrayı kim üçün kullanıyordu. Əgər o desə ki, mən bunu Aydın üçün istemal ediyordum düz deməmiş olur. Çünki Aydının ən çox nifrət etdiyi o yapma gözəlliklər idi. Gültəkin bu podrayı yalnız Dövlət bəy üçün kullanıyordu"[131].

Doğrudur, əsərdə Aydın içməyinin səbəbini podra ilə əlaqələndir: «Bax mənim üzümə, görürsən? (Evdən bir qutu rəng, pudra və bir güzgü gətirir.) Bura bax, bu rəng evimizə girən gündən bəri içməyə öyrəndim. (Qutunu yerə çırpır). Bu məni öyrətdi, bu! (Güzgünü qarşısına tutaraq). Bax üzünə, üç ay bundan əvvəlki səmimiyyət və məsumluqdan bir əsər varmı?»[132] Gültəkin üç ay bundan əvvəl ona görə pudra vurmurdu ki, o, evdən çölə çıxmırdı. İndi isə müəllimələlik edir, Dövlət bəyin arvadı Böyükxanıma dərs verir. Bu da Aydından gizlin edilməmiş, onun razılığı alınmışdı. Ona görə də Gültəkinin bəzənməsini Dövlət bəylə əlaqələndirmək tamamilə yanlışdır. Çünki hər bir qadın kimi Gültəkinin də gözəl görünmək istəyi onun mənəvi, əxlaqi haqqı və səlahiyyəti idi. Fikrimizcə, gözəl görünmək arzusu qadını (elə həm də Gültəkini) əxlaqsızlığa aparan yol deyil və ola

[130] C.Cabbarlı. Əsərləri, 4 cilddə, II cild, Bakı, 2005, səh. 202.
[131] «Kommunist» qəzeti. 2 noyabr, 1924, № 244.
[132] C.Cabbarlı. Əsərləri, 4 cilddə, II cild, Bakı, 2005, səh. 211.

da bilməz. Maraqlıdır ki, sosialistlər keçmişlə bağlı gözəlliyin özünə də burjua cəmiyyətinin eybəcərliyi, əxlaqsızlığı kimi baxırdı ki, bu da doğru deyildi. Ona görə də «Gültəkin bu podrayı yalnız Dövlət bəy üçün kullanıyordu" hökmü S.Hüseynin şəxsi fikirlərindən, şəxsi qənaətlərindən daha çox totalitar rejimin təşkil etdiyi ədəbi məhkəmə şousunun diqtəsinin məhsulu kimi qiymətləndirilməlidir. Asif Rüstəmli bu xüsusda yazır: «Təcrübəli tənqidçi, peşəkar ədəbiyyatşünas Seyid Hüseyn ona tapşırılan prokurorluq vəzifəsinin öhdəsindən gəlməyi, Gültəkin Aslanbəy qızının təqsirnaməsinin doğru olduğunu müxtəlif misallarla isbat etməyə çalışsa da, arqumentləri kifayət qədər inandırıcı görünmürdü. Ümumiyyətlə, tanınmış tənqidçinin yaradıcılığının ilk dövründən diqqət və qayğı göstərdiyi, həbsxana həyatının məşəqqətlərini birgə yaşadığı, istedadlı bir gənclə məhkəmə salonunda üz-üzə gəlməsi çox ağır fakt idi və onlar buna məcbur edilirdi»[133].

Təqsirnamənin beşinci maddəsində göstərilir ki, Gültəkin böylə bir əxlaq ilə Aydının fəlakətinə səbəb olmuşdur. Doğrudur, Aydın da «o, mənim qaranlıq fəzalarda parlaq ulduzlara doğru çırpınan qanadlarımı qırdı» deyərək Gültəkini suçlayır. Hətta xəstələnməsinin və işsiz qalmasının səbəblərini də Gültəkində görür. Lakin əsər boyu görürük ki, Gültəkin Aydını fəlakətə və ya uçuruma salan yox, fəlakətdən və ya uçurumdan çıxarmağa çalışan bir qadındır. Daha doğrusu, Gültəkin Aydını deyil, Aydın Gültəkini fəlakətə salmışdır. Ona görə də Aydının fəlakətini Gültəkində yox, Aydının özündə axtarmaq lazımdır. Çünki Aydın həyata həyatın özündən deyil, ədəbiyyatdan gəlir. O, həyata öz reallıqları ilə yanaşmır, kitabların gözü ilə baxır. Akademik Məmməd Arifin belə bir müqayisəsi çox məntiqli görünür: «Aydın» faciəsinin ikinci yadda qalan və təsirli obrazı Gültəkindir. Varlı ailədən çıxan bu qız ata-anasını, sərvəti

[133] A.Rüstəmli. Cəfər Cabbarlı: həyatı və mühiti. Bakı, 2009, səh. 259.

ataraq öz taleyini ürəkdən sevdiyi kasıb balası Aydınla bağlayır. Gültəkin onu həyatda necə varsa eləcə «sevir, oxşayır, əyləndirməyə çalışır». Aydın isə onu romantik aləmdə sevir. Xəyallardan reallığa enəndə qəm dəryasında boğulur. Aydının dərdi böyük olsa da o, xəyallar ağuşunda, şərab tamında ovunur. Bəzən öz kədərini ağlamağa da vaxt tapa bilmir. Gültəkin isə həmişə kədər və göz yaşı içində inləyir»[134].

Tədqiqatçıların diqqətdən kənarda qoyduğu (dəzgahla söhbəti) də Aydının fəlakətlərinin nədən qaynaqlandığını üzə çıxarır. Aydın «Mən həqiqətəm, bir heç deyiləm» düşüncəsindən «Mən bir heçəm» düşüncəsinə qədər yol gəlir...

Yuxarıda göstərdiyimiz beş maddədən ibarət olan təqsirnamənin özündən də görünür ki, **Gültəkinin ittihamı Gültəkindən çox burjua cəmiyyətinin, sərmayədarların, böyük mülk sahiblərinin, varlıların, bütövlükdə milli burjuaziyanın ittihamıdır**. Burjua cəmiyyətinə, milli burjuaziyaya nihilist münasibət bu məhkəmə prosesində tam aydınlığı ilə görünür. Məhkəmənin gedişinə diqqət yetirsək, görərik ki, burada yeni həyatla köhnə cəmiyyətin müqayisəsi gedir və bütün hallarda üstünlük yeni cəmiyyətə verilir. Gültəkin və onun atası Aslan bəy isə bu iki cəmiyyət arasında fərqi göstərə bilən əsas stimula çevrilir. "Gültəkin kimi iradəsi zəif, aldığı tərbiyənin təsirini özündən uzaqlaşdırmayan qadınlar hazırkı cəmiyyətimiz (söhbət sosializm cəmiyyətindən gedir – C.Q.) üçün mənfi şəxsiyyətlər olduğunu etiraf etmək, elələrinin cəmiyyət qarşısında təqsirini göstərmək mühit və zəmanəmizin icabatıdır"[135]. Qeyd etməliyik ki, C.Cabbarlı «Aydın» əsərində iki cəmiyyəti (kapitalizmi və sosializmi) üz-üzə gətirmir və gətirə də bilməzdi.

[134] Məmməd Arif. Seçilmiş əsərləri. II cild. Bakı, EA nəşriyyatı, 1968, səh. 220-221.

[135] «Kommunist» qəzeti. 2 noyabr, 1924, № 244.



ادبی محکمه

«قومموئیست» غزتهسنك ادارهسنك «مسئلین» قولوبنك «ادبیات»دن نکی طرقدن جعفر جبارزاده نك «آیدین» آدلی اثرینك «کلتکین» قهرمانی نك جمعه گونی نشرین اولنمش ۱۳۱ نجی عدد ایله بابلن ادبی «محکمه»سی «مسئلین» قولونده بر آز ائیله گوره علی بابراموف قولوبنك سائوندا حبیب جبی یفك صدارتی آلتدا آچیلدی.

محکمه مشاورلری عبدالله شریف و عزیز نوری یوداش مدعی عمومی سید حسین و مدافعه جی خلیل ابراهیم. کل تکین – دوستی سفروف.

«محکمه اجلاسی آچیلدقده تقصیرنامه اعلان اولندی: بالقوویچ نك اصلان بگ قزی (کل تکین)نك تقصیرنامه سی.

باکو شهرینك ساکنه سی کل تکین اصلان بك قیزی (۲۲) یاشنده ضیالی و مناعله،

۱ – آیدین کبی معلمه واسترا حتی آنجاق اونینك امکله حضرلیان زحمتکش بر گنج طبقه نك حیاتیه یوداشی اولمامسنه باقمیارق اونینك آتاسی نه وبنده آلدیغی بورژوآزیا روح و تربیه سنی دگیشه بیلمه مشدر.

۲ – اوز جنیت و شرفنی سائقیا یلمیوب دولت بگك قوجاغنا آتیلمش. اونك بونون آلچاقجاسنه اولان خواهش و آرزولرینی برینه یترمگله قادینلق عزت نفسنی تحقیر ایتمش، اداره سی ضعیف اولدیغندن دوشدیگی جرگابك ایچروسندن چیقا بیلمه مشدر.

۳ – آیدیندن داها آیریلمادیغی برخالده گوگلنی دولت بگه ویرمش. اونی سوومك قدار برقباحت یاپمشدر.

۴ – انسکی بورژوآزیا روحی دگیشمه دیگسی ایچون البسه و زینت دوشگونی اولمشدر.

۵ – بویله براخلاقی ایله آیدینك فلاکته سبب اولمشدر.

گل تکین کبی ارادهسی ضعیف، آلدیغی تربیه نك تاثیراتی ئوزیندن اوزاقلاشدیرمیان نادیدلار حاضر کی جمعیتمز ایچون مضر شخصیتلر اولدیغنی اعتراف ایتمك اولهاریني جمعیت قارشوسندا تقصیرلی گوسترمك محیط و زمانمزك ایجابلریدر. بونك ایچون کل تکینك فوقده گوسترلمش نقصانلارینك تحلیل ایدیلمه سی لازمی قرارلاد جیقاریلماسنی حاضر کی جمعیتمزك گنج قادینلغی نقطه نظرندن معقولدر.

تقصیرنامه اوقونديقدان سوگرا شاهدلردن اولنجه آیدین، دولت بك، نوروزبك، سودخای، بویوك خانم، دائیسی یوسف مدعی عمومینك تکلیفی اوزره آیدینك صحت دماغیه سنی معاینه ایچون طبیبلر قومسیونی دعوت اولنماقله تحقیقات اعلان اولنیور.

تحقیقدن سوگرا طبیبلر قومسیونك قراری اوقونور: «طبیبلر قومسیونی آیدینك صحیتی

Gültəkinin mühakiməsi.
«Kommunist» qəz., 1924, № 244

Birincisi, ona görə ki, «Aydın» əsəri 1919-cu ildə yazılmışdı və onda müəllif sosializm cəmiyyətinin nə olduğunu lazımınca bilmirdi; daha doğrusu, onun üçün hələlik iki cəmiyyət, iki izm (kapitalizm və sosializm) mövcud deyildi. Maraqlıdır ki, bəziləri 1924-1930-cu illərdə, yəni bolşevizmin mövcudluğu dövründə belə müəllifi sosializmi lazımınca dərk etməməkdə ittiham edirdi.

İkincisi, 1919-cu ildə C.Cabbarlı müstəqil dövlətimizin təbliğatçılarından biri idi və Azərbaycan Xalq Cümhuriyyətinə «Sevimli ölkəm» (1919), «Salam» (1920), eləcə də onun üç rəngli bayrağına «Sevdiyim» (1919), «Azərbaycan bayrağına» (1919) şeirlər yazırdı. Heç təsadüfi deyildir ki, o, əsərlərində Azərbaycanın istiqlal mücadiləsini və Cümhuriyyəti təqdir etdiyinə görə Məclisi-Məbusanda (indiki anlamda Milli Məclisdə) işə götürülmüşdü. C.Cabbarlının Cümhuriyyət dövründəki ədəbi-ictimai fəaliyyəti ayrıca bir tədqiqatın mövzusudur və biz mətləbi uzatmadan onun «Azərbaycan bayrağına» şeirini təqdim etməklə kifayətlənirik.

Buraxınız seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu, aman Allah! Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?
Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor,
Yulduzlardan hilaldan da yüksəklərdə fırlanıyor.

Kölgəsində ay əyilib bir gözəli qucmada.
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,
Şu görünüş bir ananın şəfqətinə oxşayor.
Düşündükcə zövqlərimi, vicdanımı oxşayor.
Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə böylə söyləmək!

Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yulduz da səkkiz hərfli OD YURDU
Əsarətin gecəsindən fürsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur
Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,
Yurdumuzu qucmuşdur!
Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!
Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın.

Hesab edirik ki, «Azərbaycan bayrağına» (1919) şeiri ilə yanaşı Azərbaycan Xalq Cümhuriyyətinin varlığını, onun atributlarını yuxarıda adlarını çəkdiyimiz və çəkmədiyimiz bir çox əsərlərində təqdir edən ədibin yalnız bu əsəri («Azərbaycan bayrağına») C.Cabbarlının Cümhuriyyətə münasibəti barədə ümumi təəssürat yaradır.

Maraqlıdır ki, C.Cabbarlının Cümhuriyyət dövründəki xidmətlərini nəzərə alan cümhuriyyətçilər onu parlamentdə işə götürdülər. «Azərbaycan Xalq Cümhuriyyətinin tarixində ən böyük və əhəmiyyətli hadisələrdən biri – 1918-ci il dekabr ayının 7-də Məclisi-Məbusanın (Parlamentin) rəsmi açılışı oldu. Parlament aparatına bir sıra istiqlalpərvər gənclər, o cümlədən Cəfər Cabbarlı, Mirzəbala Məhəmmədzadə, Əbdül Vahab Məmmədzadə, Seyid Hüseyn Sadıqzadə, Şəfiqə xanım Əfəndizadə və b. işə qəbul edildi. Redaktor, stenoqrafçı vəzifələrində çalışan bu gənclərə Şərqdə ilk Cümhuriyyətin yaradıcıları, görkəmli ictimai-siyasi xadimləri ilə gündəlik təmasda olmaq, onların dövlət quruculuğu yolla-

rında uğurlu və qüsurlu ilk addımlarını canlı müşahidə etmək, nitqlərini, mülahizə və mübahisələrini qeydə almaq səadəti nəsib olurdu. C.Cabbarlı «Azərbaycan» qəzeti redaksiyasındakı tərcüməçilik fəaliyyətini Parlamentdə stenorafçılıq işi ilə paralel və böyük həvəslə davam etdirirdi. Təbii ki, yeni yaranan Cümhuriyyətdə fəaliyyət meydanının genişliyi, işlərinin çoxluğu onun yaradıcılıq imkanlarını məhdudlaşdırırdı. Bununla belə gənc ədib mühüm tarixi prosesdə iştirakını və məsuliyyətini, dərk edir, xalqın milli-azadlıq arzularının rellaşmasında, dövlət müstəqilliyinin möhkəmlənməsində və dönməzliyinin təmin edilməsində məsləkdaşları ilə xidməti şərəf sayırdılar»[136].

Üçüncüsü, Cümhuriyyət dövründə yazdığı əsərlərində Türkiyəyə münasibəti tamamilə müsbət idi. Belə ki, türklərin qəhrəmanlığını əks etdirən «Ədirnə fəthi», «Trablis müharibəsi», «Bakı müharibəsi» də bu illərdə (1917-1919) yazılmış və tamaşaya qoyulmuşdu. Ümumiyyətlə, C.Cabbarlının bu dövr yaradıcılığında türkçülük və turançılıq ideyaları üstünlük təşkil edirdi.

Dördüncüsü, məlumdur ki, 1920-ci illərdə təhlükəsizlik orqanlarının qarşısında qoyulmuş vəzifələrdən biri də gizli partiyalara və təşkilatlara qarşı mübarizə idi. Azərbaycan Fövqəladə Komissiyasının AK(b)P MK-ya göndərdiyi 12 oktyabr 1920-ci il tarixli hesabatında milli təşkilatlara qarşı mübarizə ilə bağlı ifadə edilən narahatçılıq bu baxımdan diqqəti cəlb edir: «Əksinqilabla və onun əsas qüvvəsi olan Müsavatla müvəffəqiyyətli mübarizə mümkünsüzdür»[137].

Danılmaz faktdır ki, 1920-ci illərdə bolşeviklərin əsas mübarizə hədəfi Müsavat partiyası və müsavatçılıq ideyası idi. Həqiqətən də, müsavatçılar hakimiyyəti dinc yolla təhvil vermələrinə baxmayaraq, Azərbaycanda yeridilən siyasətlə

[136] Asif Rüstəmli. Cəfər Cabbarlı: həyatı və mühiti, Bakı, 2009, səh, 94-95.
[137] AR SPİHDA, f.1, siy. 1, iş 86, v. 160.

barışmır və mübarizələrini davam etdirirdilər. Onlar respublikanın müstəqilliyi uğrunda mübarizəyə çağıran gizli nəşrlər, bəyannamələr, bülletenlər vasitəsi ilə təbliğat apararaq həyatlarını təhlükə qarşısına qoymaqdan belə çəkinməyərək leqal fəaliyyətə can atırdılar.

Gizli şəraitdə fəaliyyət üçün xüsusi təşkilati qurumlar təsis edildi: MK və onun nəzdində hərbi şöbə; Bakı Komitəsi və onun nəzdində 5 hərbi təşkilat; Bakı şəhərində özəklər və qəzalarda təşkilatlar. 1921-1922-ci illərdə gizli fəaliyyətini davam etdirməyə müvəffəq olan təşkilat 1923-cü ilin 27 aprel tarixli bəyanatında sovet hakimiyyətinin iç üzünü bir daha açaraq deyirdi: «Nikolay Rusiyası ilə Lenin Rusiyası arasında fərq yalnız bundadır ki, o zaman cahangirlik başçısının adı Nikolay, indiki cahangirlik siyasətinin başçısının adı isə Lenindir. O zamankı zəncirlərin rəngi qara, indiki zəncirlərin rəngi isə qırmızıdır»[138].

Bolşeviklərin dövlət təhlükəsizlik orqanları gizli şəkildə mübarizə aparan partiyaların siyasi fəaliyyətini aşkarlayır və onları zərərsizləşdirməyə çalışırdı. Azərbaycanın xüsusi xidmət orqanları başqa partiyalarla müqayisədə Müsavata qarşı daha qəddar idi. AK(b)P II qurultayındakı (1920) nitqində Lominadze deyirdi: «Müsavat hökuməti və Müsavat bizdən güclüdür. Müsavat partiyası hələ məhv edilməmişdir. Bu vəziyyətlə barışmaq olmaz»[139]. Bu sözlərin arxasında Müsavatın və müsavatçılığın məhvi dayanırdı. Azərbaycan FK-nın sədri Baba Əliyev 4 saylı tam məxfi qrifli əmrində bildirirdi ki, müsavatçılardan Murtuza Axundov, Abuzər Rzayev və başqaları güllələnsin[140]. 22 avqust 1920-ci ildə adları çəkilən müsavatçılar güllələndi.

Bolşevik siyasi terrorunun qurbanına çevrilməkdən, total təqiblərdən yaxa qurtarmaq üçün mübarizə üsulu kimi gizli

[138] «Yeni Qavqaziya» curnalı, 1924, № 15, s. 30-31.
[139] AR SPİHDA, f.1, siy. 1, iş 8, v. 48.
[140] MTN-in arxivi, PR – 20552, v. 26.

fəaliyyətə qoşulan partiya və təşkilatlar kütlələri öz tərəflərinə çəkmək, müqavimət hərəkatını daha da gücləndirmək məqsədi ilə əməli fəaliyyətdən də qalmırdılar. M.Rəsulzadə yazırdı: "Bu əməli müqavimət hadisələri ilə bərabər məmləkətdə siyasi konspirasiya, yəni gizli çalışma aktları da güclü şəkildə davam etdi. Gizli bəyannamələr, hətta qəzetlər nəşr olundu. Bakıda, "Çeka"nın lap yaxınlığında gizli bir mətbəə işləyirdi: burada çap edilən "İstiqlal" qəzeti 19-cu nömrəsini buraxmağa müvəffəq olmuşdu"[141]. Yeri gəlmişkən qeyd etməliyik ki, gizli nəşr edilən "İstiqlal" qəzetinin materiallarının hazırlanmasında ağırlığın böyük hissəsi Mirzəbala Məhəmmədzadənin və Cəfər Cabbarlının üzərinə düşürdü. Bu xüsusda Mirzəbala Məhəmmədzadə yazırdı: «Qızıl Rusiya istilası üzərinə çalışmaya başlayan Müsavat firqəsinin mərkəzi heyətində Cəfərlə genə bərabər idik. Bərabər çalışıyorduq və gizli çıxarmaqda olduğumuz «İstiqlal» qəzetəsini basar və yaydırardıq. O, bu sifətlə Bağırovun idarə etdiyi Çeka (QPU) (FK olmalıdır, çünki, 1923-cü ildə Azərbaycan SSR-də hələ QPU yaranmamışdı – C.Q.) tərəfindən digər arkadaşlarımızla bərabər sulu və qaranlıq bodrumlarda qeyri-insani işgəncələrə məruz qalmışdır. Fəqət o qətiyyən sarsılmamış və prinsipindən, hürriyyət, milliyyət və Azərbaycançılığından zərrə qədər də geri çəkilməmişdir»[142].

Göründüyü kimi, Azərbaycanın müstəqilliyinin bərpası uğrunda və sovet hökumətinin yeritdiyi siyasətə qarşı mübarizə aparan təşkilatlar arasında ən fəalları «Müsavat» və «İttihad» partiyaları idi. Sovetləşmədən dərhal sonra Cəfər Cabbarlının şəhər kənarındakı mənzilində onun, Mirzəbala Məmmədzadənin, Əbdülvahab Yurdsevərin, Məmmədsadıq Quluzadənin və Məmmədhəsən Baharlının iştirakı ilə Müsa-

[141] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, 1991, s. 93.
[142] Mirza-Bala. Cafer Cabbarlı: Diriliği, yaratdıqları və vaxtsız ölümü, Berlin, «Kurtuluş» məcmuəsi, 1935, № 4, səh. 111.

vatın gizli mərkəzi yaradıldı. Bununla əlaqədar olaraq Əbdülvahab Məmmədzadə (Yurdsevər) deyirdi: "Partiya mərkəzi qurulduqdan sonra vəzifə bölgüsünə başlanmış və komissiyanın təşkilinə keçilmişdi. Əmin bəyin də razılığı ilə gizli təşkilatın başına Mirzəbala Məmmədzadə gətirilmişdi. Müavini sifəti ilə Bakı komitəsinin təşkili mənə (Əbdülvahab Yurdsevər nəzərdə tutulur - C.Q.) tapşırılmışdı. Bakı və onun xaricində Azərbaycanın digər bölgələrində köhnə müsavat komitələrini canlandırmaq və yenilərini qurmaq vəzifəsi Məmmədsadıq Quluzadəyə verilmişdi. Təşkilat məsrəflərini ödəmək işi Məmmədhəsən Baharlıya həvalə olunmuşdu. Ümumi mərkəzin baş katibliyinə isə Cəfər Cabbarlı seçilmişdi".[143] Süleyman Abdullayev, Seyid Hüseyn, Qasım Qasımov və başqaları MK-ya üzv seçildilər[144]. Beləliklə də, Azərbaycanın işğalından sonra vətənin istiqlalı uğrunda mübarizə yolundan dönməyən azadlıq mücahidləri gizli fəaliyyətə keçdilər. 1920-1923-cü illərdə gizli fəaliyyətlərini davam etdirən təşkilatlar sovet hakimiyyətinə qarşı səngiməyən müqavimət hərəkatının təşkili sahəsində tədbirlər həyata keçirdilər. Azərbaycanın işğalına qarşı davam edən mübarizə sovet siyasi sistemi əleyhinə daxildə azadlıq hərəkatının yeni mərhələsinin başlanğıcını qoydu.

Azərbaycan MİK-in katibi və Rəyasət Heyətinin üzvü E.Xanbudaqov 1923-cü il 17 iyun tarixdə xüsusi şöbəyə göndərdiyi məktubda bildirirdi ki, bizdə olan məlumata görə siz Seyid Hüseyn Sadıqovu və Cəfər Cabbarlını həbs etmisiniz. Həbs edilən zaman onlardan Azərbaycan MİK-in 3-cü sessiyasının hesabatının stenoqramı tapılmışdı. Xahiş edirəm, həmin hesabatı təcili Mərkəzi İcraiyyə Komitəsinə göndərəsiniz.

1923-cü ilin iyun ayında Azərbaycan FK tərəfindən Müsavat partiyası MK Rəyasət Heyətinin üzvləri olan

[143] "Müsavat" bülleteni, 1962, № 4, s. 15.
[144] MTN-in arxivi, PR – 41065.

Əbdülvahab Məmmədzadə, Məmmədsadıq Quluzadə, Cəfər Cabbarlı, eyni zamanda siyasi komissiyanın rəhbərləri və başqaları həbs edildi[145]. Xüsusi xidmət orqanları azadlıq mücahidlərinə nəinki fiziki işkəncələr verir, hətta onları sovet hökuməti ilə əməkdaşlığa sürükləyir, buna nail ola bilmədikdə istintaq materiallarını saxtalaşdırır, həbs edilənlərin «guya sovet hökuməti ilə əməkdaşlığı» haqda müraciət etdiklərini təbliğ edirdi.

Azərbaycan SSR Fövqəladə Komissiyasının sənədlərində deyilirdi: «1923-cü il avqust ayının 14-də həbs olunmuş müsavatçılar bəyannamə qəbul etmişdilər. Bu deklarasiyada onlar öz partiyalarını buraxılmış hesab edir və azadlıqda qalan müsavatçıları sovet hökuməti ilə işləməyə dəvət edirdilər. Bundan sonra həbs olunmuş müsavatçılar azadlığa buraxılır»[146]. Lakin istintaq materialları ilə tanışlıq sübut edir ki, saxta bəyanatların müəllifi kimi təqdim edilən azadlıq carçıları heç zaman amallarından dönməmiş, mübarizəni axıra qədər davam etdirmişdilər. Təsadüfi deyil ki, bütün bunlar Fövqəladə Komissiyanın məxfi yarlıqlı sənədlərində də etiraf edilirdi: «Bu, onlar tərəfindən ikiüzlülük idi, çünki onlar bundan sonra da dağıdıcılıq fəaliyyətlərini davam etdirirdilər»[147].

Göründüyü kimi, C.Cabbarlı (və eləcə də onun məsləkdostları) sovetləşmənin əvvəllərində də bolşevizmlə barışmamış, hətta bu mübarizəsinə görə birinci dəfə 1923-cü ilin iyunun 15-dən avqustun 12-nədək və ikinci dəfə 1923-cü ilin oktyabrın 5-dən, oktyabrın 30-nadək Azərbaycan Fövqəladə Komissiyası (FK) tərəfindən həbs edilmişdi. Ə.V.Yurdsevərin verdiyi bilgiyə görə müəllifin «Qız qalası» poemasının bir hissəsi də FK həbsxanasında yazılmışdır. C.Cabbarlının bu həbsləri onun 1920-ci ildə daxil olduğu Bakı

[145] MTN-in arxivi, PF - 274.
[146] MTN-in arxivi, PF - 292.
[147] Yenə orada.

Dövlət Universitetinin tibb fakültəsindəki təhsilini yarımçıq qoyması ilə nəticələndi.

Beşincisi, ədəbi məhkəməyə verilən əsərdə – «Aydın»da bəyə və bəyliyə, varlıya və ya burjuya münasibət də hələlik sovet dövründəki münasibət deyildi. Yəni Cümhuriyyət dövründə bəylərin bir sinif kimi məhvi ideyasından danışmaq olmazdı. Başqa sözlə desək, sovet dövründən fərqli olaraq Cümhuriyyət dövründə milli burjuaziyanı məhv etmək deyil, qaldırmaq və inkişaf etdirmək dövlətin ümdə vəzifələrindən biri idi.

«Aydın» əsərinin oyundakılar (iştirakçılar) hissəsində də bunu aydın görmək olur. Belə ki, dramaturq əsərin personajlarından olan Balaxanı «dövlət görməmiş, təsadüfi zənginlikdən quduran savadsız, kobud bir adam» kimi təqdim edirsə, Novruz bəyi «sərvət içində böyümüş, incə məcazlı, ağırtəbiətli bir adam»[148] kimi səciyyələndirir.

Biz bunu (iki cəmiyyətin üz-üzə gətirilməsini) sovet dövründə yazılmış «Oqtay eloğlu» (1922-1923) barəsində də deyə bilmərik.

Uzun-uzadı ittiham və mühakimələrdən sonra «Aydın» əsərinin qəhrəmanlarından Gültəkinin işinə baxan Bakı ictimai-ədəbi mühakimə heyətini, şahidlərin və müqəssirin bəyanatını, müdafiəçi və müddəi-ümuminin (ictimai ittihamçının) nitqini və təqsirnaməsini dinləyib aşağıdakı qərardadı qəbul edir:

1. Kapitalizm cəmiyyəti daxilində baxüsus xırda burjua və ziyalı kütləsi içində qadınların hüquqi və şəxsi həyat və bəxt-səadəti təmamilə kişilərin əlində qalıyor. Çünki, iqtisadi cəhətdən qadın tamamilə ərkəklərdən asılı bulunuyor. Ailə başı olan kişinin mübarizə həyatda aciz bir halda qalması köhnə ailənin ictimai əsaslarını qırıyor və ümumiyyətlə qadını burjua cəmiyyətinin ona vermiş olduğu ailəvi qeyri-

[148] C.Cabbarlı. Əsərləri, 4 cilddə (tərtib edəni A.Rüstəmli), II cild, Bakı, 2005, səh. 196.

hüquq və adətləri qırmağa və bu adətlərdən kənara çıxmağa vadar ediyor.

2. Nə özünü və nə arvadını lazımi iqtisadi cəhətdən təmin etməyə müqtədir olmayan avara ziyalı Aydının acizliyi Gültəkini öz ailəsini fəlakətdən qurtarmaq məqsədi ilə Dövlət bəyin əli ilə təslim olmağa vadar ediyor. Və bu kimi məcburi «xəyanət» sayəsində köhnə ailə münasibətinin kökünə zərbə vuruluyor və o ailə dağılıyor.

3. Burjua cəmiyyəti daxilində hər gün müşahidə etdiyimiz bu kimi əhvalat kişi ilə qadın arasındakı köhnə ailəvi münasibətin qırılması qayət təbii bir hadisə olaraq davam ediyor.

4. İctimai mühakimə heyəti yuxarıdakı 3 maddədə qeyd edilən ictimai əsaslara Gültəkinə isnad edilən təqsiri rədd etməklə Gültəkinin hərəkətində bir cinayət olmadığını elan ediyor. Mühakimə heyəti bütün Gültəkinə isnad edilən təqsiri kapitalizm cəmiyyətinin şəraitində görüb proletar əxlaqi nöqteyi-nəzər ilə Gültəkini tamamilə bəraət ediyor[149].

Göründüyü kimi, əsas mühakimə olunan Gültəkin yox, keçmiş kapitalizm cəmiyyəti idi. Lenin vaxtilə yazırdı ki, "Kapitalistlər aləmindən insan ləyaqəti axtarmağa dəyməz"[150].

Görkəmli alim Yaşar Qarayev «Aydın» və «Oqtay Eloğlu» əsərlərini nəzərdə tutaraq yazır; «Bu əsərlərdə Cabbarlının etirazçı qəhrəmanları burjua əxlaqının pozucu rolunu, mahiyyətini açırlar»[151].

«Mübarizə əslində neft fontanı sayəsində varlanan dövlətbəylər, novruzbəylər, balaxanlar və aslanbəylərlə aydınlar arasında idi. «Dayaz fikirli cahil adamlarla» (M.Arif) milli qeyrətdən uzaq milyonçularla istedadlı, savadlı, ağıllı gənclik arasında idi. Sonda bu əkslik ziyalı və əməkçi siniflə

[149] «Kommunist» qəzeti. 14 dekabr, 1924, № 279.
[150] V.İ.Lenin. Əsərləri, 24-cü cild, Bakı, 1957, səh.13.
[151] Y.Qarayev. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər, Bakı, 2002, səh. 558.

burjuaziyanın inkişafına təsadüfi qoşulan, nə millətə, nə həmin quruluşa yaraşan bir zümrə arasında idi. Odur ki, onları «burjuaziya» kimi təqdim etmək, ziddiyyəti burjuaziya ilə fəhlə sinfi arasına keçirib, siyasiləşdirmək bizi inandırmır»[152].

Kapitalist aləminə belə nihilist münasibət sovetləşmə illərində daha da gücləndi və ədəbi mühakimələr zamanı əsas prinsip kimi götürüldü. Keçmişin müəyyən cəhətlərini tənqid edən əsərlər vasitəsi ilə bu ideyalar həyata keçirildi. Maraqlıdır ki, ədəbi mühakimələr zamanı müsavat hökuməti - Azərbaycan Xalq Cümhuriyyəti də unudulmur, xalqda Azərbaycan Xalq Cümhuriyyətinə nifrət oyatmaq, onun mürtəce, xalqın qanını soran, onu fəlakətə sürükləyən bir dövlət olduğunu göstərmək üçün dəridən-qabıqdan çıxırdılar. Belə ki, məhkəmədə müdafiəçi kimi çıxış edənlərdən biri Gültəkinin faciəsinin səbəblərindən birini də "müsavat cəmiyyətinin" olmasında görürdü: "... Birisinin gündə 2000000 manat gəliri var ikən o birisi zəif, xəstə, olduğu halda gündəlik qutlayışa möhtac olmasıdır. Əgər cəmiyyətdə müsavat olmasa idi, əgər cəmiyyətdə bir xəstənin acından ölməsi, həlak olması təhlükəsi olmasaydı, əgər Gültəkin çirkin təklifləri rədd etdikdə Dövlət bəy əlində onun ərini xidmətdən çıxarmaqla ailə yaşayışını pozmaq imkanı olmasaydı, şübhəsiz ki, Gültəkin böylə hərəkətdə bulunmağa məcbur olmazdı"[153].

Çox təəssüf ki, sonrakı bir neçə on ildə də C.Cabbarlının tədqiqatçıları bu fikri daha da inkişaf etdirdi və müsavatı xalqın düşməni elan etdi: "Aydın"dakı tənqid "Oqtay Eloğlu"nda bir çox cəhətdən davam etdirilmişdir. "Oqtay Eloğlu"nda müəllif burjuaziyanın sənətə münasibətini, burjua sənətinin satqınlığını da ifşa etmişdi. Oqtay kimi istedadlı bir sənətka-

[152] Ə.Saraclı. Azərbaycan yazıçıları cümhuriyyət dönəmində. Bakı, 2007, səh. 215.
[153] «Kommunist» qəzeti. 2 noyabr, 1924, № 244.

rın səfalətə düşməsi, Qaraçıxanov kimi yırtıcı bir miliyonerin rejissorları rüşvətlə satın alması, teatrda aktrisa yoxluğu və sairə Azərbaycanda mənfur müsavatçıların hakimiyyət sürdüyü dövrdə sənətin və sənətkarın acınacaqlı vəziyyətini canlı və realistcəsinə əks etdirmişdir"[154].

«Ancaq iş burasındadır ki, Aydının öncədən haqsızlığa, riyakarlığa, altun dünyasına etirazı daha kəsərli idi. Bu tənqidlər isə kefli başın məhsuludur, bir növ kefli İskəndəri yada salır. Dərd burasındadır ki, kefli İskəndər üzünü «ölülərə», kefli Aydın isə sərxoşlara tutub deyir. Hər iki halda gözlənilən sonluğa çatılmır. Kefli İskəndərə «ölülər» mühitində, kefli Aydına da sərxoşlar məclisində məhəl qoymurlar. Hətta Aydını kazinodan qovmurlar, onun sözləri ilə məzələnirlər. İş o yerə çatır ki, Aydın bir tikə çörək üçün dəridən, qabıqdan çıxan fəhlələri «qoyun sürüsü» adlandırır, «uzanın gəlib sizə yasin oxusunlar» deməklə İskəndər kimi onları ölülər sayır»[155].

[154] M.Arif. Seçilmiş əsərləri, 2 cilddə, II cild, Bakı, 1968, səh. 74.
[155] Məmməd Arif. Seçilmiş əsərləri. II cilddə. Bakı, EA nəşriyyatı, 1968, səh. 217.

«ŞEYX SƏNAN» ƏSƏRİNİN QƏHRƏMANI ŞEYX SƏNANIN MƏHKƏMƏSİ

CAVİD ƏFƏNDİ təpədən dırnağa sufi olmasa da, təpədən dırnağa qədər sufi əxlaqına və sufi nəfsinə malik bir şəxsiyyətdir.



Klassik ədəbi-fəlsəfi düşüncədə din teizmdən panteizmə qədər yol gəlmişdi. Bolşeviklər isə teizmi və panteizmi inkar edərək ateizmə qədər yol gəldilər və dünyada ilk ateist imperiya yaratdılar. Sovet İmperiyası Tanrını inkar edərək İblislə izdivaca girdiyindən, şərin xeyir üzərindəki qələbəsini müvəqqəti də olsa təmin etdi. Tarixi təcrübə göstərir ki, böyük imperiyalar daha çox torpağı işğal edib, ərazini genişləndirib, milli mənəvi dəyərlərə, kültür və mədəniyyətə isə demək olar ki, əl vurmayıb, hətta bəzən işğal etdiyi dövlətin mədəniyyətindən bəhrələnib. Sovet imperiyası isə əksinə, həm milli mənəvi dəyərləri, həm mütəfəkkir şəxsiyyətləri, həm də torpağı, ərazini öz zorakı hakimiyyətinin təsir dairəsinə salıb.

Həmişə və hər yerdə bəşəri dini dəyərlərin nüvəsində məhəbbət dayanıb. «Məhəbbətdir ən böyük din» təlimi də klassik irfani düşüncədən qaynaqlanıb. İnsan-Cəmiyət-Təbiət və Tanrı münasibətləri (ünsiyyəti) qırılanda mənəvi-əxlaqi dəyərlərin deqradasiyası başlayıb, harmoniyanı xaos əvəz edib. Karl Qustav Yunqun dediyi kimi «məhəbbət tərk olunduğu yerdə qaba güc və terror hökm sürüb»[156]. Sovet hökuməti zamanı imperiya maraqlarından kənarda olan hər

[156] Юнг К.Г. Избранное, Минск, 1998, с. 135.

şey və hər kəs siyasi terrora və siyasi repressiyalara hədəf seçilib, başqa sözlə, hər şeyə və hər kəsə İblis dərs verib. İblisin verdiyi dərsin mahiyyət və məzmunundakı inkvizisiya və irtica H.Cavid və Ə.Cavad, M.Müşfiq və S.Mümtaz, Y.Çəmənzəminli və H.Zeynallı... eşefota, dar ağacına, çarmıxa, cəllad kötüyünə, NKVD məhbəsinə yaxınlaşdırılanda, hətta bu şəhid və qurbanlara bəraət veriləndə yox, bir xeyli müddət sonra müstəqilliyimiz tam bərpa olunanda dərk olunub.

Məlumdur ki, tarixdə dinin fitvası ilə dar ağacından asılanlar, çarmıxa çəkilənlər çox olub (Babək, Mənsur Həllac, Nəsimi... kimi). Tarixdə özünü «allah» elan edən imperatorlar da az olmayıb, lakin bu, heç bir halda Allahın inkarı deyildi. Allahı inkar bolşevizmin xarakterik xüsusiyyəti idi.

Başqa bir mühüm məqam ondan ibarətdir ki, bolşevizm «insanın Tanrı mənşəyini meymun mənşəyi ilə» (Yaşar Qarayev) İrfani düşüncəsini marksçı təlimlə (vəhdəti-vücudu vəhdəti-mütləqlə - C.Q.) əvəzləşdirmək, idealizmi deyil, materializmi əsaslandırmaq üçün klassik ədəbiyyatdakı təsəvvüfü, sufizmi məhv etdi. Hətta nəşr olunmuş mətbuu nümunələrin təhlili zamanı sufizm kənara itələndi və həmin örnəklər sosializm prizmasından tədqiq edildi. Elə ona görə də ideoloji basqılar və diqtələr altında qalan Hənəfi Zeynallı dərindən bələd olduğu H.Cavid yaradıcılığındakı sufizmi dramaturqun baxışlarındakı ziddiyyət kimi qiymətləndirir və onun «Rza Tofiq kimi dinsiz bir sufi şairin əfsununa düşən bir gənc»[157] olduğunu vurğulayırdı. Nəticədə H.Zeynallı belə bir qənaətə gəlir ki, H.Cavid «Şeyx Sənan» əsəri ilə «rühanilik içində olan çürüntü və yıprantıları tamamilə meydana atmaqla mollalığa və ümumiyyətlə dinə olan ikraha bir az da qüvvət vermiş»dir[158].

[157] Cavidşünaslıq. (Tərtib edəni Göülbəniz Babaxanlı), II – III cild, Bakı, 2007, səh. 273.

[158] Cavidşünaslıq. (Tərtib edəni Göülbəniz Babaxanlı), II – III cild, Bakı, 2007, səh. 290.

Professor Tahirə Məmməd göstərir ki, H.Zeynallının «əsasını qoyduğu bu yanlışlıq sonrakı tədqiqatlar üçün təməl rolunu oynayır. İstər əsrin başlanğıcında, istərsə də ondan sonra təsəvvüfə qayıdışın bir mədəni hadisə kimi izahı və mahiyyəti, onun ədəbi mühit yaratması heç bir tədqiqat işində öz əksini tapmır»[159].



Yeri gəlmişkən qeyd etməliyik ki, Tahirə Məmməd bu tənqidində haqlıdır, lakin alimin bəhs açdığı bu təməl Hənəfi Zeynallı tərəfindən deyil, 1920-ci illərdə təşkil edilmiş ədəbi mühakimələrdə, yaxud da ədəbi məhkəmələrdə qoyulmuşdu.

Mübaliğəsisiz və mübahisəsiz demək olar ki, Azərbaycan ədəbiyyatının (elə həm də tarix və mədəniyyətinin) bütün tərəf və cəhətləri ilə birtərəfli və təhriflərlə, sinfi və partiyalı mövqedən öyrənilən mərhələsi sovet dövrüdür. Bu mənada Cavid əfəndinin də əsərləri forma və məzmun cəhətdən müəyyən təhriflərə məruz qalmışdır ki, bunlar içərisində «Şeyx Sənan»ın xüsusi yeri vardır.

Bolşeviklərin sovetləşmənin ilk illərində təşkil etdiyi «ədəbi mübahisə», «ədəbi mühakimə» və «ədəbi məhkəmələr»də təhriflərin reallaşmasına, bədii əsərlərin ideya-məzmununun dəyişdirilməsinə, daha doğrusu, idarə və iş üsulu repressiya olan totalitar rejimin milli mənəvi dəyərlərin kökdən, tarixi yaddaşdan uzaqlaşdırılmasına stimul verdi.

Şərq sufi ədəbiyyatının ənənəvi mövzularından qaynaqlanan Cavid əfəndinin «Şeyx Sənan» əsəri hansı təhriflərlə üz-üzə qaldı? Biz burada əsərin dili, üslubu ilə bağlı dəyişiklərə toxunmadan onun ruhu ilə bağlı dəyişiklərin üzərində

[159] Tahirə Məmməd. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı, 1999, səh. 20.

dayanmaq istərdik. Bəri başdan qeyd etməliyik ki, heç bir siyasi proseslərə qoşulmayan, əsərlərində öz istək və arzularını ifadə edən, türkçülük və turançılıq ideyalarını konseptual şəkildə bədii ədəbiyyatın təmiz havasına gətirən Cavid əfəndinin «Şeyx Sənan» əsərindəki sufi ruh, irfani təfəkkür, yəni türkün arxaik düşüncə tərzi ilə əlaqəsi təhrifə məruz qaldı.

Mətləbdən uzaqlaşmadan deməliyik ki, başdan başa sufi düşüncə tərzinin, eləcə də romantizm ədəbi məktəbinin mükəmməl nümunəsi olan «Şeyx Sənan» əsərini sovet ədəbiyyatının məhsuluna çevirmək üçün ondan realist bir sənət nümunəsi kimi bəhs edilməyə başlandı. Deyilənləri əsaslı şəkildə ictimai həyata tətbiq etmək üçün «Şeyx Sənan», daha doğrusu, Şeyx Sənan obrazı realist bir əsər qəhrəmanı kimi ədəbi məhkəmənin mühakiməsinə verildi.

"Şeyx Sənan"da «Aydın» və «Ölülər»dən fərqli olaraq ictimai-siyasi həyatda baş verən yeni bir məsələ – Şeyx Sənanın timsalında din xadimlərinə münasibət məsələsi mühakimə olunur. Dinin mühakiməsi sovet hökumətinin həmin illərdə və elə ondan sonra da həyata keçirdiyi ateizm siyasətinin tərkib hissəsi idi. İnkarolunmaz faktdır ki, 1920-ci illərin əvvəllərində din və din xadimləri hələ böyük nüfuz sahibləriydi və yeni cəmiyyətin qarşıya qoyduğu tələbləri həyata keçirməyə mane ola bilirdilər. Ona görə də bolşeviklərə ateizmi və ateizm təbliğatını gücləndirmək üçün dinin və din xadimlərinin nüfuzunu qırmaq, eyni zamanda gözdən salmaq lazım idı. Həmin illərdə bu istiqamətdə müəyyən işlər görülmüş, komsomolçulara və partiyaya tapşırıqlar verilmiş, hətta qurultay, plenum, yığıncaq və mətbuat səhifələrində dinin gərəksizliyi barədə marksçı-leninçi təlim qabarıq şəkildə önə çəkilmişdi. Yuxarıda da qeyd etdiyimiz kimi dinin və dini dəyərlərin tənqidi həm də ədəbi-ictimai məhkəmələrin salonlarından eşidilirdi.

"Ölülər"in məhkəməsi zamanı Şeyx Nəsrullah mühakimə olunmur. Çünki Şeyx Nəsrullah lotu kimi Mirzə Cəlilin özü tərəfindən ittiham edilmiş bir obrazdır və bir fırıldaqçı dələduz kimi yeni cəmiyyətin ideya istiqamətlərini müəyyənləşdirməyə əsas vermir. Bunun üçün şeyxlərin dahisi, daha irəli getmişi və istedadlısı seçilməli idi ki, bu da Şeyx Sənan idi. Nə üçün dinin ifşası üçün "Peyğəmbər" yox, məhz "Şeyx Sənan" seçilir? Peyğəmbər ki allaha daha yaxın olan, seçilmiş və bütün müsəlmanlar tərəfindən tanınmış və qəbul olunmuş bir şəxsiyyət idi.

Əvvəla, "Peyğəmbər"də qoyulmuş bir çox problemlər öz başlanğıcını "Şeyx Sənan"dan alır. Peyğəmbərin fəaliyyətində təkcə dini yox, həm də siyasi motivlər vardı. Belə ki, Peyğəmbər bütün ərəbləri birləşdirməyə çalışırdı. Cavid də bütün türk dövlətlərini mənəvi cəhətdən birləşdirmək arzusundaydı. Bu məsələləri ədəbi məhkəmələrdə müzakirə etməyə hələlik ehtiyac yox idi. Bunun əvəzində həmin əsər peyğəmbərin idealizəsi adı altında daim tənqid edildi.

İkincisi, «Peyğəmbər» əsərinin ədəbi məhkəməyə verilməməsinin əsas səbəblərindən biri onun 1923-cü ildə tamamlanması və ictimai kütlə arasında geniş yayılmaması, eləcə də tamaşaya qoyulmaması ilə bağlı idi. Maraqlıdır ki, "Peyğəmbər" əsərinin tamaşaya qoyulmasını, nədənsə, müəllif özü də istəmirdi. H.Cavid dostu Ə.Şərifə yazırdı: "Əlan yeni təb edilmiş "Peyğəmbər"i zakoznoy olaraq sənə göndərirəm. Təbii, mütaliə edib, bir vaxt nöqteyi-nəzərini yazarsan. Lakin bir rica edəcəyəm. Burada oynanılmadığı kimi, oradakılara da rast gəlsəniz, oynanılmamasını tənbeh və tövsiyə edəsiniz. Şimdilik mən razı olmayıram"[160].

Üçüncüsu, dinə zərbə vurmaq üçün «Şeyx Sənan» əsəri, xüsusilə də Şeyx Sənan obrazı bolşeviklərə daha çox material verirdi. Belə ki, Peyğəmbər gürcü qızına (xristian

[160] «Yeni fikir» qəzeti. 8 fevral, 1924.

gözəlinə) vurulmur, şərab içmir, xaç asmır, Quranı yandırmağa təşəbbüs göstərmir, donuz otarmır və s.

Bütün bunlara görə də «müttəhimlər kürsüsündə» Cavid əfəndinin qəhrəmanı Peyğəmbər deyil, Şeyx Şənan əyləşdirilir. Ədəbi məhkəmədə Şeyx Sənan obrazı, əsasən, aşağıdakılarda ittiham edilirdi.

1. Hissiyatının, şəhvət və ehtirasatının əsiri olmaqda.
2. İradəsi zəif olmaqda.
3. Səbatsızlıqda.
4. Yalançı olmaqda.
5. Zəhra və Xumarın fəlakətinə bais olmaqda.

Şeyx Sənan hissiyatının, şəhvət və ehtirasatının heç vaxt əsiri olmamışdır. Ona görə də Şeyx Sənan eşqdən başqa hər şeyə tövbə edir.

Eşqdən başqa, hər nə varsa, əvət,
Tövbə, min tövbə...Eylədim tövbə.

Sufi düşüncəsində Təriqət pilləsinin 7 məqamından biri olan **TÖVBƏ** şəriətə formal əməl etməyə son qoyub ürəyi, nəfsi və bədəni, eyni zamanda fikir və düşüncələrini Allaha doğru yönəltməkdir. **Şeyx Sənanın TÖVBƏSİ Allahdan qorxmaq və ya Allahdan mükafat almaq üçün edilən tövbə deyil, əksinə qorxu və mükafat olmadan, təmənnasız Tanrıya üz tutmaqdır.**

Eşqdən başqa hər şeyə tövbə edən, bütün düşüncələrini yalnız Allaha yönəldən Şeyx Sənan da Tanrıya çatmaq üçün bütün sufilərdə olduğu kimi məcazi eşqdən (keçici məhəbbətdən) bir sınaq kimi keçir. «Şeyx Sənan» əsərindəki məcazi məhəbətin simvolu Zəhra yox, Xumardır. Çünki Zəhra Sənanı ictimai həyata, Xumar isə Tanrıya, Allaha bağlayır. Beləliklə, Sənan məhəbbətdə məcazi olandan gerçəkliyə doğru addımlayır. Xumar Sənanın məcazi və gerçək eşqini vahidləşdirir, necə ki Leyli Məcnunda belə bir eşq vəhdəti yaratmışdr.

Məlumdur ki, Allahın varlığı sufiyə – Aşiqə görə İşıqdır, nurdur. Maraqlıdır ki, Şeyx Sənan da gördüyü yuxuda gecəni aydınladan işıqdan, «mevceyi-nur»dan bəhs edir. Deməli, sufi üçün hər şey bu İşığın, yəni Allahın təzahürüdür. Bu İşıq-Allah sufinin iç qatında, batinindədir. «Sufilər zahirən bu işığı qadın obrazında təsəvvür edirlər. Sufi zahirən qadını sevir – məcazi məhəbbət, lakin bu qadın İlahinin simvoludur – həqiqi məhəbbət»[161].

Xumara aşiq olduğunu görən Şeyx Mərvanın «Sən ki əvvəl qadından ürkərdin, Şimdi fikrin niçin dəyişdi, niçin?» sualına Şeyx Sənan belə cavab verir:

Onu seçməz sənin gözün əsla,
O mələkdir, qadın deyil haşa!

(məcrub bir halda ümumə)

Seyr edin bir o hüsni-məbhuti,
O baqışlar nasıl da lahuti!
Oqunur gözlərində ülviyyət,
Sanki bir heykəli-üluhiyyət...

Bu misralarda Cavid əfəndinin əsərdə gerçəkləşdirdiyi «məhəbbət konsepsiyasının» əsas müddəaları əks olunmuşdur. Mətndə reallaşmış səviyyələri və onları təşkil edən bəzi işarələri nəzərdən keçirək:

1. «Onu seçməz sənin gözün əsla, // O mələkdir, qadın deyil haşa!»:

Şeyx Sənana görə onun - Xumarın şəxsində gördüyü (gözəlliyi) Şeyx Mərvanın gözləri görə bilməz. Şeyx Sənan da, Şeyx Mərvan da hər ikisi insandır və hər ikisinin fiziki gözləri gerçəkliyin işıq spektrini eyni dərəcədə qavrayır.

[161] Rzasoy S. Nizami poeziyası: mif-tarix konteksti. Bakı, 2003, səh. 192.

Lakin Şeyx Mərvan Xumarın şəxsində Şeyx Sənanın görə bildiyini görə bilmir:

Şeyx Mərvanın gördüyü – bir **qadın;**

Şeyx Sənanın gördüyü – bir **mələkdir.**

Mələk – ilahi varlıqdır: cinsi və maddi bədəni yoxdur. Yeri – Allahın dərgahıdır. İnsan oğlu onu adi gözlə görə bilməz. Onu görmək üçün insana fiziki gözdən başqa, fiziküstü – metafizik – bəsirət gözü gərəkdir. Şeyx Sənanın bir qadının (Xumarın) simasında artıq mələyi görməsi onun fiziki görüntülərin fövqündə duran dünyanı – metafizik Aləmi görməsi, o aləmdə olması, o aləmlə ünsiyyəti deməkdir.

2. «Seyr edin bir o hüsni-məbhuti, // O baqışlar nasıl da lahuti!»

Şeyx Sənan insanları, onu əhatə edən makro və mikro mühiti görə bilmədiklərini görməyə çağırır. Bu, hüsni məbhut və lahuti baxışlardır.


Hüsni məbhut – məbhuti gözəllik, ilahidən gələn, qaynağını ilahidən alan gözəllikdir.

Lahuti baxışlar – hərfi mənada lahuta məxsus, lahutla bağlı baxışlar deməkdir. Lakin Cavid şerinin ilahi-irfani, təsəvvüfi-ilahi məna aləmi ilə bağlılığını ən açıq formada göstərən məhz «lahut» elementdir. Baxışın «lahutiliyi» növbəti misralarda Xumarın bir mələk kimi ilahi aləmlə bağlılığını təsdiq edir.

3. «Oqunur gözlərində ülviyyət, // Sanki bir heykəli-üluhiyyət»:

Xumarın gözləri cismi ilə bu dünyada, fiziki aləmə, insanların adi gözlə görə biləcəkləri maddi görüntü dünyasına, ruhu ilə ilahiyyət aləminə, insanların yalnız bəsirət gözü ilə görə biləcəkləri bir dünyaya bağlıdır. Həmin dünya lahut aləmi adlanır. Bu aləmlə bağlılıq insanın varlığının ilahiliyini təsdiq edir. A.Knış yazır ki, «təsəvvüfdə «lahut» ilahilik, ilahi təbiət mənalarında olub, insan təbiətini bildirən nasut aləminə antonim mənadadır».[162]

[162] Кныш А. Очерк «Лахут» // Ислам. Энциклопедический словарь. М.: Наука, 1991, стр. 147.



Varlığın təsəvvü modelinin strukturuna görə, Aləmi-lahut və Aləmi-nasut iki dünyadır: biri – ilahi təbiəti, ikincisi – insani təbiəti bildirir. Bu iki Aləm bir-biri ilə bağlıdır. Həllac Mənsurun sufi təliminə görə, «nasut» ilahinin bəşər dünyasında (yaradılış, xəlq olunmuş dünyada – C.Q.) zühurunun ən kamil formasıdır.[163] Başqa sözlə, ilahi təbiət – lahut

[163] Кныш А. Очерк «Лахут» // Ислам. Энциклопедический словарь. М.: Наука, 1991, стр. 190.

insani təbiətdə – nasutda zühur edir. Lakin bu adi gözlə görünən hadisə deyil. Bu, ilahi təcəllanı görmək üçün insana ilahi göz lazımdır. Şeyx Sənan artıq lahuti baxışları nasuti varlıqda görmək səviyyəsinə qalxmış bir varlıqdır. Bütün bunların fonunda bolşeviklərin Şeyx Sənanın şəxsində fizioloji hisslərin daşıyıcısını görməsi artıq bu ideologiyanın özünün naqisliyini, doğrudan-doğruya ilahi mənalar aləmindən təcrid olunduğunu göstərir. Mələk simalı Xumar Tanrı ilə insan, Yerlə (Ərzlə) Göy (Ərş), mərifət mərhələsinə çatmış Sənanın Haqqa, Tanrıya qovuşması arasında bir əlaqəçidir, daha doğrusu, öz şəxsində məcazi və ilahi məhəbbəti qovuşduran varlıqdır. Ona görə də o, şeyxlərin, din xadimlərinin deyil, Xumarın çağrışına qoşulur, onunla ucalığa, haqqa yüksəlir. Bu mənada Şeyx Sənanın Xumara məhəbbəti dünyəvi məhəbbət deyil, ilahi bir eşqdir. Ədəbi məhkəmədə çıxış edən "Şeyx Sənan" (Şeyx Sənanı oynayan aktyor Hüseyn Sadiq – C.Q) deyirdi: «Bütün ömrümdə mən ehtizasatdan qaçmış və yalnız ruhani ehtiyacları hiss ediyordum»[164].

Sufilərin fikrincə, din nəticə etibarı ilə həqiqətdir, yəni Tanrıda, Allahda əriyib yox olmaqdır, onunla təcəlli etməkdir. Cüneyd Bağdadi yazırdı: "Sufilər o şəxslərdir ki, allahtaala ilə onların işi olur, sufilər üçün yalnız Allah mövcuddur". Sufi nəzəriyyəçisi və şairi Cəlaləddin Rumi isə bu məsələyə münasibətini belə ifadə edirdi: "Sevənlərin (sufilər nəzərdə tutulur - C.Q) etiqadı bütün etiqadlardan fərqlənir. Sevənlərin etiqadı və dini Allah-taaladır"[165]. Əbu Səid Əbül-Xeyr yazırdı ki, «Təsəvvüf həqiqətdə vaqe olan bir addır, o, tamam olub sona çatdıqda yalnız Allah qalar»[166]. Lakin sufi «mən»i ilə həqiqət arasında keçilməsi o qədər də asan olmayan yollar vardır. Sufilər üçün bu yol dörd mərhələdən ibarətdir.

[164] «Kommunist» qəzeti. 3 noyabr, 1924.
[165] Ş.Sultanov, K.Sultanov. Ömər xəyyam, Bakı, 1991, səh. 269.
[166] www. islam.az

Birincisi, ŞƏRİƏTə, müsəlman dininin qoyduğu qanunlara dərindən bələd olmaq və onları pozmamaq, yəni islamın əsas ehkamlarını mənimsəmək.

ŞƏRİƏT – idrakın «elm əl-yəqin» (inanılan bilik) pilləsidir. Sufi mütəfəkkir Əl-Qəzali deyirdi: «Şəriətə hamı əməl edə bilər. Əsl çətin yol təriqətdir. İnsan öz nəfsini paklaşdırdıqdan sonra yeni bir məqama qədəm qoyur – sidq və səmimiyyət zivəsinə yüksəlir»[167].

İkincisi, **TƏRİQƏT** (yol) mərhələsi, könüllü və şüurlu olaraq gerçək aləmdən və öz iradəsindən əl çəkmək, yoxsul və tamahsız yaşamaq, yəni nəfsi zöhdlə boğmaq və onun pis xassələrini yaxşıları ilə əvəzləmək. **TƏRİQƏT** – idrakın «əyn əl-yəqin» (tam yəqinlik) pilləsidir. **TƏRİQƏT** kamilliyə doğru aparan sınaq yoludur. Şeyx Sənanın «Kəsbi-irfan için, fəzilət için» müxtəlif yerlərə getməsi onun təriqət mərhələsindən keçdiyini göstərir.

Şeyx Kəbir deyir:

Səni annən doğurdu Turanda,
Yaşadın bir zaman da İranda,
Kəsbi-irfan için, fəzilət için
Sonra İranı tərk edib gəldin,
Ərəbistanı ixtiyar etdin.
Gənc ikən kəsbi-iştihar etdin.

Üçüncü mərhələ - **MƏRİFƏT**dir, "idrakdır". **MƏRİFƏT** mərhələsində sufi şəhvət hissi istəyindən əl çəkməli, "təkliyə" qapılmalıdır. Bu məqama daxil olan sufi mənən tamamilə paklanmalı, onunla Tanrı arasında heç bir maneə qalmamalıdır. Şeyx Sənanın şərab içməsi, xaç asması, Quranı yandırmaq istəməsi, donuz otarması onun mərifət mərhələsində olduğuna işarədir.

[167] Misgin Abdal. Bakı, «Səda» nəşriyyatı, 2001, səh. 4.

Dördüncü mərhələ - **HƏQİQƏT**dir. Bu mərhələyə çatmış sufi Allahdan başqa varlıq tanımır, Tanrı ilə daim ünsiyyət mərhələsində olur. Daha doğrusu o, Tanrı nurunda əriyib yoxa çıxır və iddiasında olduğu həqiqi «mən»ə çatır. **HƏQİQƏT** – idrakın «həqq əl-yəqin» (həqiqi yəqinlik) pilləsidir. **HƏQİQƏT** son mənzil və ya son dayanacaqdır, Allahda təcəlli etmək, özünə qovuşmaqdır. Sənanın bu mərtəbəyə qalxdığını Dərvişin dili ilə Cavid əfəndi belə təqdim edir:

Baqma, şeyxim, şu halı-pürqəminə,
Giriyorsun həqiqət aləminə.
Fəzli-həqq runüma kəmalında,
Parlıyor nuri-həqq cəmalında.
Səndə bir əhli-hal əlaməti var,
Səndə əlan xuda qiyafəti var.

Verilmiş Şer parçası onla işlənən anlayış-konseptlər baxımından təsəvvüfi-irfani düşüncəyə, daha doğrusu, bu düşüncənin təməl anlayışlarına bağlanır. Doğrudur, şərq şerinin tarixi göstərir ki, təsəvvüfi-irfani anlayışların şeirdə işlənməsi heç də bütün hallarda onun müəllifinin düşüncəsinin bütünlükdə təsəvvüfi-irfani aləmə bağlanması demək deyil. Şərq poetik düşüncəsi tarixən təsəvvüfi-irfani düşüncə ilə o qədər çuğlamışdır ki, sufi şairlərlə sufi olmayan şairlər bu anlayışları özündə əks etdirən təsəvvüfi-irfani leksikadan, demək olar ki, eyni dərəcədə istifadə etmişlər. Yəni təsəvvüf zamanla şərq şerinə o dərəcədə nüfuz etmişdir ki, təsəvvüfi ideya və anlayışları inikas edən obrazlar ümumpoetik leksika halına gəlmiş, təsəvvüfi-irfani obrazlardan sufi olub-olmamasından asılı olmayaraq, şairlərin hamısı istifadə etmişdir. Lakin H.Cavidin «Şeyx Sənan»ında fərqli mənzərəni müşahidə edirik. Unutmaq olmaz ki, yuxarıda söylənilənlər ənənəvi şərq şerinə, yəni

divan ədəbiyyatına mənsub olub, onun poetikasını əks etdirdi. Ümumşərq, türk poeziyası və şərq ədəbi-bədii, təsəvvüfi-fəlsəfi fikri ilə yaxından tanış olan H.Cavid dünyagörüşü, mənsub olduğu, zəminində təşəkkül tapıb formalaşdığı ənənələr baxımından divan şairi deyildi. Bu cəhətdən «Şeyx Sənan»da müşahidə olunan təsəvvüfi ideya və obrazlar onun yaradıcılığına ənənə zəminində daxil olan «irfanizmlər» olmayıb, şairin bu əsərdə təsəvvüfi ideyaya şüurlu şəkildə müraciət etməsinin göstəricisidir. Bu cəhətdən əsərdəki «irfanizm»lər bir sistem boyunca düzülüb müəllifin təsəvvüfi-irfani poetikaya şüurlu münasibətini ortaya qoyur. Verilmiş şeir parçasında işlənmiş təsəvvüfi-irfani obrazlar bunu açıq şəkildə nümayiş etdirir:

1. «Həqiqət aləminə girmiş halı-pürqəm» obrazı:

«Həqiqət aləmi» Allaha aşiq olub ona qovuşmaq üçün Təriqət yolu ilə gedən salikin (yolçunun) dörd məqamdan (Şəriət-Təriqət-Mərifət-Həqiqət) ibarət yolunun sonuncu pilləsi.

2. «Camalında haqqın nuru parlayan aşiq» obrazı:

Həqiqət pilləsində Aşiq öz Məşuquna – Allaha qovuşur, onda əriyir və Allahın nuru onun varlığında şölələnir.

3. «Hal əlamətləri daşıyan aşiq»:

Aşiqin «hal» məqamı onun «əhvalının» xüsusi səviyyəsidir. Bu gerçəkliyin, dünyanın materiyanın mövcudluğunun ilahi səviyyəsidir. Düşüncələri hal məqamına bağlı yaradıcı subyektlər «halı» bir yaşantı kimi poeziyaya gətirmişlər. Məsələn, «Ələsgər varlığı «hal» məqamında təsvir edə bilir. Bunun üçün yaradıcı subyektin o «hala» düşməsi, dünyanın «halını» öz «halında» - psixoloji mənində «əhvallaşdırması» gərəkdir. «Hal»ın «əhval»a çevrilməsi prosesi ömrün – subyektiv yaşantının obyektdə təcəssümü, insanla dünyanın içiçəliyi, subyektin öz varlığın obyektdə idrak etməsi deməkdir. Ələsgər Tanrının ona bəxş etdiyi ömrü eyni zamanda həm dünyanın (obyektin) «halı», həm də öz cisminin

(subyektin) «əhvalı» kimi yaşayırdı. Başqaları üçün dağların qılınc kimi doğrayan şaxtası, zəhrimar kimi soyuğu onun üçün dünyanın ilahi «hal-əhvalıdır». Məhz bundan dolayı dağlar onun gözləri qarşısında ağ qarı ilə ilahi paklığın və vüqarın, əzəmət və möhtəşəmliyin əlaməti kimi zühur edir»[168]. Cavid şerinin qəhrəmanı da Ələsgər kimi bu qeyri-adi durumu – «hal»ı yaşayır.


حکومت تورك نارونی

حکومت تورك نارونی

شیخ صنعان

[168] İsmayılov H.

4. «Allahın qiyafətini daşıyan aşiq» obrazı:

Bu artıq aşiqin varlığının Məşuqun (Allahın) varlığında əriməsi, yox olması, nüzul (eniş) – üruc (ucalma) trayektoriyasının tamamlanması, ikiliyin Birdə – Vahiddə birləşməsi, qovuşması məqamıdır. Cavid əfəndi bu məqamı «Allahın qiyafətini daşıyan aşiq» obrazında verir. Bu, Həllac Mənsurdan gələn həmin «Ənəl həqq» obrazıdır.

Şerdə verilmiş bu obrazların sıra ilə düzümü təsəvvüfi-irfani düşüncənin sistemini özündə əks etdirir. Bu obrazlar təsəvvüfün mahiyyətini, onun təməl ideya və prinsiplərini əks etdirməklə H.Cavidin təsəvvüfün tarixinə, onun təməl ideyalarına, təsəvvüfi düşüncə tarixinin görkəmli simalarının fikirlərinə dərindən bələd olduğunu nümayiş etdirir.

Görkəmli sufi ideoloqu Qəzzali sufizmin təməl prinsipləri haqqında XI-XII əsrlərin qovşağında bəyan etmişdir ki, təsəvvüf qəlbi Allaha bağlayıb, ondan qeyriləri ilə əlaqəni kəsməkdir.

Beləliklə, Cavid şeri təsdiq edir ki, sufi kamalında «fəzli-həqq», sufi cəmalında «nuri-həqq» parlayanda, onda «əhli-hal» və «xuda qiyafəti» olanda sonuncu mərhələyə, həqiqət aləminə daxil olur. Sufilər qarşılarına bu dörd mərhələni keçməyi məqsəd qoyur və mövcud mərhələlərin mərkəzində yalnız Tanrı və Tanrıya sevgi dayanır.

Tanrıya qovuşmaq iddiasında olan Tanrı aşiqini – sufini bu uzun yolda böyük maneələr gözləyir. Cavid əfəndinin qəhrəmanı Şeyx Sənan da Tanrıya gedən yolda böyük maneələrlə rastlaşır. Sənanın – şərab içməsi, Sənanın – xaç asması, Sənana verilən – Quranı yandırmaq tapşırığı, Sənanın – donuz otarması maneələrində olduğu kimi.

Maraqlıdır ki, məhkəmənin gedişi prosesində Şeyx Sənanın şərab içməsi, xaç taxması, Quranı yakması, donuz otarması və s. kimi əməllər önə çəkilir və o, bütün bunlarda ittiham edilirdi. Ədəbi məhkəmələrdə məhz bu amillərin qabarıq verilməsi və yanlış hökmlərin çıxarılması əsərdəki

sufizmin düşünülmüş surətdə, bilərəkdən nəzərə alınmaması ilə bağlı idi.

"ŞƏRAB" klassik şairlərin ən çox müraciət etdikləri obrazdır. Şəraba münasibət klassik ədəbiyyatda, eləcə də təriqətlərdə müxtəlif cür olmuşdur. Bəziləri ona bolluq, bərəkət kultu, bəziləri Tanrını dərk etməkdə köməkçi vasitə, bəziləri məkruf, haram, şeytan əməli, bəziləri qəm dağıdan, kef gətirən kimi baxmışlar. Marksistlər isə şərab məsələsinə öz münasibətlərini belə ifadə edirlər: «Məlamətiyyə məktəbi (Nişapur, IX əsr) daxili paklığın qəsdən dinsizliklə (məs., şərab içməklə) əlaqələndirilməsi təlimini yaratmışdı; bu kənar şəxslərin tənəsinə səbəb olmalı və qürrələnməyin qarşısını almalı idi».[169]

Sufilərin baxışlar sistemində şərab eşqin kamalı və məhəbbətin şiddətiindən doğan məstlik halıdır. «Bu anlam həm də substansiya baxımından təcəlli məqamı və arifin qəlbinin vəcdə gəlməsi kimi izah edilir. Şərab məqamı aşiqin ruhunun əzəl dəryasına girişi, şərab içmək isə Haqqa yaxınlıq çeşməsindən içməkdir... Şərab ümumiyyətlə əzəli məhbubun cilvəsindən qəflətən Haqq aşiqinin qəlbinə dolan, onu məst edən zövq və haldır»[170].

Xuraman Hümmətova göstərir ki, «sufi terminologiyasına bələd olan şairlər divan şerində işlətdikləri məcaz və simvollara tam dərindən bələd olmuş və digər şairlər tərəfindən də bunlar aydın başa düşülmüşdür. «Bu ədəbiyyatda işlədilən «şərab», «mey», «meyxanə», «badə», «zülf», «kirpik», «qaş», «üz», «xətt», «ağız» və sair ifadələrin təsəvvüf şeirində özünəməxsus mənası olmuş və təbii ki, bu ifadələr xalq dilində aydın təzahürünü tapmamışdır. Bu ifadələr inkişaf edib təkmilləşdikcə söz funksiyasından çıxaraq söz birləşməsi, frazeoloji birləşmə şəklində sinonimik mənalar da kəsb etməyə başlamışdır. Deməli, sufi terminalogiyasından istifadə edən şairlər şeirin həm məna gözəlliyinə, həm də ifadə dəqiqliyinə böyük önəm verirdilər. Bu terminologiyada «sevgili», «məhbub», «sultan» və s. kimi ifadələrdə Tanrı «şərab» kəlməsində «Tanrı eşqi» «ağız» (dəhan) «qönçeyi-xəndan» (gülən qönçə) «qönçeyi-mestur» (örtülü qönçə) və ya «kirpik» (müjgan, ox, qılınc), «leşker» (əskər ordusu), «üz» isə (ruy, didar), «yanaq» (günəş, gün), «şəms» (günəş), «mahi-taban» (parlaq ay), «abi-rəvan» (axar su) və s. müraciət formaları nəzərdə tutulmuşdur»[171].

Göründüyü kimi, yeri gələndə sufilər də şərabdan istifadə edir və bunu Tanrının dərgahına aparan yol kimi mənalandırırdılar. Deməli, Sənanın içdiyi mey, şərab Tanrıya olan eşqin rəmzidir. Ona görə də şərab içməyi sufilər qəbahət hesab etmirlər. Bu məsələ ilə bağlı ədəbi məhkəmədə söyləninənlərə diqqət yetirək: «Platon kişi adamdır. O, Sənan kimi andını geri götürən, bu saat verdiyi sözdən utanmadan qaçan adamlardan deyildir. Fəqət Xumar qoca, ixtiyar bir mollanın əlində məhv olacaqdır. Keşiş çarə tapır. Qarşıdakı böyük bir kütlənin rəhbəri, böyük bir ordunun komandanı, məsləkli, səbatlı, əqidəli bir adamdır. Öylə isə al bu şərabı iç. Fəqət keşiş hesabında pək yanlışdır. Sənan üçün öz şəxsiyyəti hər şeydən artıqdır. Doğrudan da, Sənan alır, içir. Ya Şeyx içdiyin haram deyilmi? İctihad, daha doğrusu, bəhanə hazırdır. Bir istəkəna eybi yoxdur».

Hər yerdə və hər şeydə yalnız Allah-taalanı görən və axtaran sufilər yerdə qalan dini qaydalara, adət-ənənələrə o qədər də əhəmiyyət vermir, onlara məsələnin zahiri tərəfi kimi baxırdılar. Ona görə də Şeyx Sənanın ***bir qədər*** şərab içməsi sufi təlimində qəbahət yox, fəzilətdir. Şərab içmək məsələsinə Sənan öz münasibətini belə bildirir: "Ürəfa

[169] ASE. 9-cu cild, Bakı, 1986, səh. 91.
[170] Göyuşov N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı, 2001, səh. 224-225.

[171] Hümmətova X. Klassik poeziya və metaforik-terminoloji sabitlik // Elmi əsərlər. Bakı Slavyan Universiteti, 2011, səh. 111.

məşrəbincə var miqyas". Deməli, ariflərin şəraba miqdarında, əndazəni aşmadan meyl göstərməsi məqbuldur.



Şeyx Sənanın məhkəməsinə dair məqalə.
«Kommunist» qəz., 1924, № 259

Şəraba münasibət elə «Quran»da da buna oxşar şəkildə qoyulmuşdur. Bu məsələ ilə əlaqədar professor Rafael Hüseynov yazır: "Quran"da şərabla bağlı bir sıra yasaqlı ayələr var. "Ən-Nəhl" surəsinin 67-ci ayəsi: "Xurma ağacından və üzümlüklərin barından səkər - məstedici içki - və yaxşı ruzi alırsınız". Bu ayədə şərab kultunun izi var, çünki məstedici içki bar-bərəkət, ruzi kimi xatırlanır. Amma "Ən-Nisə" - Qadınlar - surəsinin 43-cü ayəsi şərabı rədd edir (hərçənd ki, tam yox. Ehtiyatla. Yerli-dibli içməməyi yox, namaz qılarkən sərxoş olmamağı tələb edir): "Ey iman gətirənlər! Məst ikən namaza yaxın düşməyin ki, nə dediyinizi biləsiniz...". "Əl-Maidə" - Süfrə surəsinin 90-cı ayəsində: "Ey iman gətirənlər! Şərab, qumar, bütlər və qismət oxları şeytan əməlindən olan murdar şeylərdir. Onlardan iraq olun ki, bəlkə uğura yetəsiniz" deyən və 91-ci ayədə: "Şeytan şərab və qumarla sizin aranıza ədavət, kin-küdurət salmaq, sizi Allahı yad etməkdən və namaz qılmaqdan..." xəbərdarlığını irəli sürən "Quran" şəraba tərs münasibətini, ikrahını bariz göstərir. Bununla belə son olaraq "Quran" bilərəkdən, ya şüuraltı hislə şərab kultu mövqeyindədir. Əvvələn, "Əl-Mutaffifin" - Əskik verənlər-surəsinin 25-ci ayəsində cənnətə düşmək qazanan müsəlmanlara o dünyada digər nemətlərlə yanaşı "raqih məxtum" - ağzı möhürlənmiş köhnə çaxır vəd olunur. İkincisi də "Məhəmməd" surəsinin 15-ci ayəsində cənnətdə "içənlər üçün ləzzətli olan xəmr - şərab çaylarının" varlığı bildirilir. Şərab çayı "Quran"dakı qrotesk obrazlarından biridir"[172].

"Bəzi sufi şeyxləri dini təlimləri inkar eləməklə təsdiq edirdilər ki, onlar bütün peyğəmbərlərin və müqəddəs sayılan müxtəlif dinlərin ən yüksək keyfiyyətlərini özündə təcəssüm etdirirlər"[173]. Sənan qeyd edir ki, Allah birdirsə, onun nuru bütün insanlara eyni dərəcədə siraət edirsə, onda

[172] Rəfael Hüseynov. Məhsəti necə varsa. Bakı, 1989, səh. 169-170.
[173] Ş.Sultanov, K.Sultanov. Ömər Xəyyam, Bakı, 1991, səh. 269.

insanları xristian və ya müsəlman dünyasına bölməyə ehtiyac varmı?. Sənanın xristianlığa münasibəti insana münasibəti ilə eyniyyət təşkil edir. Yəni Sənan üçün dinlərdən əvvəl böyük hərfli İNSAN vardır. O hamıya insan - Tanrının yaratdığı kimi baxır:

Birsə həqq, cümlə din də bir... naçar,
Xəlqi yalnız ayırmış azğınlar,
Hər kəs uymuş cahanda bir hissə...

Sənan onu əhatə edən din adamlarını (şeyxdən mömünə, keşişdən papasadək) hiyləgərlikdə ittiham edərkən də insanlar arasında dini ayrıseçkilik salmamaq fəlsəfəsinə söykənir. Qatı millətçi sifətilə ittiham edilən H.Cavid də öz qəhrəmanı kimi bütün insanları müqəddəs bilir və onlar arasında fərq aramırdı.

XAÇ ASMAQ məsələsini ədəbi məhkəmə belə mənalandırırdı: «Al bu xaçı da as. Sənan alır. Ya Şeyx nə yapırsan? Ab şur əst. Xeyr nədarəd. Bununla bir parça gümüş arasında heç bir fərq yoxdur. Pək eyi, Şeyx əfəndi, bunu nə üçün sən demirdin? «Olsun, o xaç bir parça gümüşdür» - mən də qəbul edirəm. Fəqət sən özün hər şeydə bir rəmz arayırkən sən bilməyirdinmi ki, onu sənə verirkən-al, bu gümüş parçasını as, - demir. Al, taqın, xristian ol – deyirlər. Əvət, sən pək gözəl bilirdin. Bilərək də aldın. Çünki sən öz ehtiraslarının əsiri, iradəsiz bir adamsan. İstəmədən xristian olursan! Deməli, sən öz məqsədini, öz əməlini, cəmiyətin nicatı üçün düşündüyün bütün əməl və idealları öz şəxsiyyətinə, öz şəxsi ehtiraslarına, öz nəfəsinə fəda edən bir adamsan. İstəmədən xristian oldun. Olmadınsa, yalançısan. Xristian olmadan qarşıdakıları aldatmaq üçün xaçı alıb asır və bununla da sənə tabe olan böyük bir kütləni doğru bildiyin yoldan sapdırır, inanmadığın bir yola sövq etmiş olursan».

Sənanın fikrincə, xaç taxmaqla gümüş üzük taxmaq arasında elə bir ciddi fərq yoxdur və bununla müsəlman çevrilib xristian olmaz. Çünki bu işin mahiyyət və məzmunu deyil, zahiri və formal tərəfidir:

İştə bir parçacıq gümüşdür bu,
Bunu asmaqla bir yzük taxmaq
Məncə birdir, bir... anladınmı bunaq!

Digər tərəfdən isə o, xaçla özü arasında da heç bir fərq görmür. Onun fikrincə, insanın forması elə xaç şəklindədir, Amma bütün halda bunlar formadı:

İbni Məryəm asıldı darə, fəqət
Onu təkrarə varmıdır hacət?
Bumu İsanın ərşə meracı?
Mən nəyim şimdi?
Canlı dar ağacı...

Burada çox böyük bir fəlsəfə vardır. Və bu fəlsəfə təsəvvüfi-irfani dünyagörüşünü özündə əks etdirir. Özünü dar ağacından asılmış İsa ilə eyniləşdirən Şeyx Sənanın insanı «canlı dar ağacı» hesab etməsi ilə onun mənəvi babası Ömər Xəyyamın:

«Dün çaşıb kuzəmi daşlara çaldım,
Sərxoşdum, bilmədim əlimdən saldım.
Kuzə də dilə gəlib dedi ki, mən də
Sənin kimi idim, bu günə qaldım» -

- sözləri arasında əslində heç bir fərq yoxdur. Ömər Xəyyamın əlində tutduğu palçıqdan (gildən) düzəldilmiş və dil açıb şairlə danışan kuzə həmin «canlı dar ağacı» kimi özü də «canlı kuzə» olub, insanın panteist modeldə konsep-

siyalaşdırılmasının ifadəsidir. Bu sufi-panteist model sabit struktur elementlərinə malikdir. Həmin elementlərin düzümü sufi dünya modelinin strukturunu özündə əks etdirməklə sufizmin qneseoloji əsaslarını özündə əks etdirir. Funksional strukturu Xəyyamdan Cavidədək dəyişməz qalan bu modelin elementləri sufi dünya modelində İnsan-Dünya-Allah əks etdirir və burada «şərab» funksional dinamikanı əks etdirən element kimi mühüm rola malikdir.

Sufi Həyat-Ölüm trayektoriyası ilə aramsız hərəkətdədir. Bu hərəkət məkanda Nüzul (enmə) – Üruc (qalxma) kimi reallaşır:

Nüzul – tanrıdan qopmaq, ayrılmaq;

Üruc – tanrıya çatmaq, qovuşmaq.

Sufi məkan-zaman sistemində şərab həyatdan ölümə, nüzuldan üruca, insandan tanrıya qovuşmanı simvollaşdırır. «Şeyx Sənan» əsərindən verdiyimiz yuxarıdakı epizodda sufi dünya modeli aşağıdakı simvollarda təzahür edir:

İnsan ---------- Nüzul-Üruc ---------- Tanrı
Şeyx Sənan -------- Həyat-Ölüm ---------- Həzrəti İsa
Şeyx Sənan ---------- Şərab ---------- Dar ağacı
Canlı dar ağacı ---------- Şərab ---------- Həzrəti İsa

Beləliklə, Şeyx Sənan üçün şərab insandan tanrıya, həyatdan ölümə, Şeyx Sənandan dar ağacına, canlı dar ağacından Həzrəti İsaya gedən yol, qovuşmanını vasitəsi, üsuludur.

Sufizmdə üruc – qalxma, ucalma həm də merac («üruc» və «merac» ərəbcədə eyniköklü sözlərdir) obrazında təcəssüm edir. Merac sufinin (cism və cəsədin yox, ruhun) haqqa doğru mənəvi yüksəlişidir. Sənanın dediyi kimi, cism göylərə, ucalığa, Allahın yanına uçmur: «Olsa merac olur da ruhani, Həp yalandır üruci-cismani». Sufi mənəvi yüksəlişinin zirvə nöqtəsinə sufizmin mərhələlərinə mükəmməl

yiyələndikdən sonra çatır – kamil insanlar, daha doğrusu, onların ruhu ərşə merac edir və qeyb aləminə qovuşur. Professor Kamran Əliyev haqlı olaraq yazır: «Şeyx Sənan həyatda və ədəbiyyatda şəxsiyyəti və kamilliyi hər şeydən uca tutur, şəxsiyyətin və kamil insanın cəmiyyəti və insanı dəyişdirmək bacarığını qiymətləndirir».[174]

Ədəbi məhkəmədə Şeyx Sənan barəsində oxunan təqsirnaməyə fikir verək: "Şeyx Sənan (35 yaşında) Turan əhllərindən kiçik vaxtından Ərəbistana gedib, Şeyx Kəbirin qızı Zəhraya aşiq olub, təhsilini bitirdikdən sonra onunla tahl etmək vəd etmiş isə də 6 ildən sonra islamə intişar vermək qəsdilə səyahətə çıxmış və səyahət əsnasında Gürcüstanda gürcü Platonun qızı Xumara bənd olduqda fikrindən büsbütün daşınıb onun uğrunda hər bir şeyi qurban ediyor. Xumarı almaq üçün keşişin çaxır içmək, xaç taxmaq və "Quran"ı yandırmaq kimi təkliflərini qəbul edib, Xumarı almaq üçün onun atasının donuzlarını iki il otarıyor və nəhayət Xumarı da fəlakətə düçar ediyor"[175].

Göründüyü kimi, məhkəmə iştirakçıları əsəri realist bir dram kimi aldıqlarından və yozduqlarından ciddi yanlışlıqlara yol vermiş, oradakı rəmz və simvollar, dini-mifik, fəlsəfi anlamlar da düzgün açıqlanmamışdır. Biz bu məsələnin üzərində ona görə israrla dayanırıq ki, bu ədəbi məhkəmələr bədii əsərlərin gələcəkdə necə və hansı metodoloji aspektdən təhlil və tədqiq edilməsinə də istiqamət verirdi. Maraqlıdır ki, Cavid əfəndi bəraət aldıqldan sonra da tədqiqatçılar həmin istiqaməti tutub gedir və Cavidşünaslığı da bu istiqamətdə arxasınca aparırdılar. **Elə ona görə də yalnız Şeyx Sənan deyil, Cavid əfəndinin özü də dərk olunandan daha çox dərk olunmayana çevrilirdi.** Əslində bütün bunlar ictimai-mühakimələrdə səslənən bu fikirlərdən qaynaqlanırdı: "Fəqət Sənan Xumarı ona görə sevməyir ki,

[174] Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, 2008, səh. 32.
[175] «Kommunist» qəzeti. 14 dekabr, 1924.



Şeyx Sənanın məhkəməsindən bəhs edən məqalə
«Kommunist» qəz., 1924, № 279

cəmiyyəti-bəşəriyyəyə xeyirdir, ona görə sevir ki, Xumar gözəldir, döşünə yatır. Xaçı ona görə asmayır ki, onun xeyri vardır, ona görə asır ki, Xumarı almaq üçün o bir vasitədir. Burada məqsəd Xumar, mühərrik isə, onun nəfsi, onun qadınçılığı, onun daxilindəki saxlanmaz adi, bayağı ehtiraslar. İştə həmin bu ehtiraslara da Sənan bütün əməlini, diləyini, ictimai məqsədlərini, məfkurəsini, məsləkini qurban verir»[176].

Xaç asmaq Xumarı almaq üçün vasitə deyil, əksinə Xumar özü Sənanla Tanrı arasında bir vasitədir, məcazi

[176] Cabbarlı C. Ədirnə fəthi, Bakı, 1996, səh. 249.

eşqdir. Məlumdur ki, Məhəmməd (s) peyğəmbər Hira dağında Allaha ibadət edərkən Sənan isə mələk simalı Xumarla danışarkən bayılır. Göründüyü kimi birinci Tanrının özü, ikincisi isə onun vasitəçi mələyi hüzurunda bayılır. **Sufi üçün bayılmaq, huşunu itirmək xəstəlik deyil, ekstaz vəziyyətinə gəlməklə ətraf aləmdən təcrid olmaq, ilahi eşq dövriyyəsinə daxil olmaqdır.**

Sənanın Xumarla son görüşü mərifət mərhələsindən həqiqət mərhələsinə keçidin başlanğıcı idi. Əsərin əsas süjet xətti də bu iki mərhələ arasında baş verən vaqeələrdir. Bu mərhələlər arasındakı körpü isə Xumardır.

Sənanın dərvişlə görüşündən sonra ondakı ilahi eşq daha da güclənir. O artıq tənha yaşamağa üstünlük verir. Əsərin sonunda Dərviş onun düşdüyü halı belə xarakterizə edir:

Baqma, şeyxim, şu halı-pürqəminə,
Giriyorsun həqiqət aləminə.
Fəzli-həqq runüma kəmalında,
Parlıyor nuri-həqq cəmalında.
Səndə bir əhli-hal əlaməti var,
Səndə əlan xuda qiyafəti var.

Fikir verin, həqiqət aləminə daxil olmağa hazırlaşan Sənanda artıq «fəzli-həqq»in kamalı, «nuri-həqq»in cəmalı, «əhli-hal»ın əlaməti, bir sözlə, xuda qiyafəti görünür. «Fəzli-həqq»in kamalı, «Nuri-həqq»in cəmalı, «Əhli-hal»ın əlaməti bütün bunlar Arifin – Kamil insanın əlamətləri, əxlaqi keyfiyyətləridir. Təsəvvüfdə Ariflik pislikdən, çirkab və rəzalətdən təmizlənmə, ruhi paklığa və ruhi aydınlığa çıxmaqdır. Ariflik həm də nəfsdən xilas olmaqdır. Arif batini və zahiri nəfsini itirəndə, mənəvi kamillik zirvəsinə çatanda Haqqı – Tanrını tapır. Deyilənlərdən iki istiqamət – sufinin mənəvi kamilliyi və əxlaqı, Allah, Dünya və İnsan modeli də aydın görünür.

Ədəbi məhkəmədə Quranın yandırılmasına münasibət məsələsi C.Cabbarlı tərəfindən belə şərh edilir: «Quran yalnız kağız və mürəkkəb isə nə üçün onu boynunuzda gəzdirirsiniz? Nə üçün bunu dünən demirdiniz? Pək eyi, kağız və mürəkkəbdir. Mən də qəbul edirəm. Fəqət sən başqalarına arif ol deyirkən düşünməyirdinmi ki, burada məqsəd kağız və mürəkkəbin yanması deyil, sənin tutduğun yolun, məsləkin, əqidənin yaqılması, çeynənməsi, tapdalanmasıdır. Halbuki, sən dinə hələ inanırdın. Hökmi-Quran ilələbəd ucalır dyeirdin. Və istəmədən üz tutduğun yolun müqəddəsatını, komandanı bulduğun kütlənin, ordunun bayrağının yaqılmasına yol verirdin. Çünki sən öz məsləkini, öz əqidəsini şəxsi səadətinə satan bir adamsan»[177].

QURANIN YANDIRILMASI yalnız ədəbi məhkəmədə yox, sonrakı illərdə də tənqidçilərin diqqətindən kənarda qalmır və demək olar ki, onlar məsələnin qoyuluşuna eyni mövqedən yanaşır, bəzən isə bu yanlış baxışı bir qədər də inkişaf etdirərək onu ateizm mövqeyindən təhlil etməyə çalışırdılar. Lakin son illərdə bu məsələyə münasibətdə elmi baxış təzələndi, sovet alimlərinin ehkam kimi irəli sürdükləri oturuşmuş fikirlər çağdaş müstəvidən təhlil edilməyə başladı. «Quranın yandırılması kimi sadəlövh təklif Sənana görə gülüncdür. Çünki Quranın özündə də söylənilir ki, onun əsli göylərdədir. Deməli, Quranı yandırmaq qeyri-mümkündür, yalnız ələ götürülən, gözlə görülən, maddi çəkiyə, fiziki xassəyə malik olan kağız və mürəkkəb yana bilər. Maddi olan hər bir şeyin məcaziliyini dərk edən Sənan üçün maddini yandırmaq, əslində, ilahi təcəlli qarşısında maddi olan bütün dəyərlərdən uzaqlaşmaq, haqqa doğru yaxınlaşmaq məqamıdır»[178].

[177] Cavidşünaslıq. (Tərtib edəni Göülbəniz Babaxanlı), II – III cild, Bakı, 2007, səh. 143-144.

[178] Tahirə Məmməd. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı, 1999, səh. 31.

Əsərə fikir versək Quranın yandırılması ilə Sənanın yaşadığı daxmaya od vurub Sənanı yandırmaq səhnəsi arasında da oxşar notları görə bilərik.

Şeyxi məhv oldu sanmayın zinhar!
İştə qarşındayım, sevimli Xumar!
Kim ki, eşq atəşilə oldu hədər,
Onu yandırmaz öylə atəşlər.
Bəni öldürsələr də, bən yaşarım,
Tərk edib xəlqi xaliqə qoşarım.
Əbədiyyət bənim məzarımdır,
Çünki sultani-eşq yarımdır.
Eşq için can inisar edən ərlər
Əbədi bir həyat içində gülər.
Bəni həp parça-parça doğrasalar,
Ruhum ölməz səmayi-eşqə uçar.
Uçar, ən möhtəşəm fəzalər aşar
Yenə cənnətdə həp səninlə yaşar.

Göründüyü kimi, sufilərin nəzərində Quran və ruh ucalıqdan, səmadan endiyindən onu atəşdə, odda yandırmaq mümkün deyil. Elə ona görə də, Sənan «bəni öldürsələr də, bən yaşarım», «tərk edib xəlqi xaliqə qoşarım», «ruhum ölməz səmayi-eşqə uçar» – deyir.

Məsələ burasındadır ki, Cavid əfəndi öz qəhrəmanına Quranı yandırmaq fürsətini də vermir. Hər şeydən əvvəl ona görə ki, Sənanda sufi əxlaqı var. Quran isə sufinin baxışlar sisteminin tərkib hissəsini təşkil edir. Ona görə də Şeyx Sənan «yanan Quran yox, kağız və mürəkkəbdir» desə də, onu yandırmır. Hətta Platona xatırladır ki, sənin yandırtmaq istədiyin Quranda İsanın və Məryəmin də adı var.

Hökmi-Quranı tutmuyan məğrur,
Onu atəşdə yakmış ədd olunur.

Bir də bihudə etdiyin israr,
Bunda İsa və Məryəmin adı var.

Deməli, **Sənanın davranışları bir sufi kimi Qurana deyil, sosializm prinsiplərinə ziddir.** Çünki «materializmcə dünya göründüyündən artıq deyil. Dünya dünyayla məhduddur. Bəsitdir. İdealizmcə dünya dərk olunduqca böyüyür, ülviləşir, müqəddəsləşir. Dünya dünyadan kənara çıxır. Sufi təfəkkürü materialist dünyasından doğan idealist dünya mənasını, yəni Ağılla Ruhun qovuşuğunu təsdiqləyir. Əslində dünyanın mahiyyətini dərk etməyincə, idrakın sonuncu – Haqqa yetişmək mərhələsinə çatmaq olmaz»[179]. Bax sosializm prinsiplərinə zidd olanlar da bunlar idi.

DONUZ OTARMAQ. Şeyx Sənan iki il donuz (oxu heyvan) otarır, çobanlıq edir (Musa və Yaqub peyğəmbər kimi). Başqa sözlə o, şeyx libasını çoban qiyafəsinə dəyişir. **Şeyxlikdən çobanlığa dönüş Sənanın sadəliyi və kamilliyi, həm də Tanrıya sədaqəti idi. Haqqın dərgahına aparan yolda donuz otaran sufi alçalmır, kiçilmir, əksinə ucalır və yüksəlir.** Çünki bu yol sözün müstəqim mənasında səhraya, otlağa aparan yol deyil, Tanrıya ucaldan və qovuşduran yoldur. Əslində səhra Sənan üçün təklənmək – təklənmək və Tanrı ilə ünsüyyət qurmaq vasitəsidir. Bu mənada **Şeyx Sənan donuz çobanı deyil, "irfan çobanı"dır.** Ona görə də Platonun

Şeyxim, bir iş də yapmalısan,
İki il tam donuz otarmalısan

təklifini Şeyx Sənan təhqir hesab etmir. Professor Kamran Əliyevin dəqiq müşahidəsi ilə desək: «Artıq Quranı unutmaq, şərabı, donuz otarmağı qəbul etmək Şeyx Sənan üçün təhqir deyil, bunlar yeni ideala-məhəbbətə doğru gedən yolun keçidləridir və o inanır ki, yalnız bu keçidlər onu həqiqətə çatdıra bilər»[180].

[179] Misgin Abdal. Bakı, «Səda» nəşriyyatı, 2001.

Şeyx Sənanın şərab içməsi, xaç asması, «Quran»ı yandırmaq tapşırığı alması, donuz otarması onun üçün əzabdı, lakin bu Allaha uğraşmaq, Haqq ilə Haqq olmaq idealına qovuşmaq istəyində olduğundan aşiqə əzab yox, zövq verir.

Ədəbi məhkəmələrdə donuz amilinin bu qədər qabardılması bu heyvanın islam aləmində murdar və zərərli hesab edilməsi ilə bağlıdır. Qurani-Kərimdə də buna aydın işarələr vardır. Belə ki, Quranın «Əl Bəqərə» surəsinin 173-cü, «Ən Nəhl» surəsinin 115-ci, «Maidə» surəsinin 3-cü, «Ənam» surəsinin 145-ci ayələrində göstərilir ki, «Allah sizə ölü və qan və donuz ətini və Allahdan başqasının adı ilə kəsilən hər şeyi haram edir. Ancaq, hərgah biri məcburiyyət qarşısında olsa və həddini aşmasa Allah bağışlayan və rəhimdir». Deməli, donuz otarmaq Qurana asi olmaq və ya islama qarşı çıxmaq deyil. Hüseyn Bayqara yazır: "Kamil insan Fəzli-həqq məqamına yetincə, şəriətin inkarında təsdiqini tapır, təriqətin inkarında özünü görür"[181]. Dərvişin Sənana dediyi kimi:

Şəriətdən, təriqətdən kənarım,
Həqiqət istərəm, yalnız həqiqət!
Yetər artıq şəriət, ya təriqət!

Şəriətdən və təriqqətdən kənar olmaq onları inkar etmək yox, onlara həqiqətə qədərki keçilmiş (yaşanılmış) mərhələ kimi baxmaqdır. Fəridəddin Əttar «Şeyx Sənan» əsərində göstərirdi ki: «Həqiqi aşiq heç bir dini tanıya bilməz, belə ki, onun imanı məhəbbət özüdür. Onu cəmiyyətdə tutduğu mövqe də maraqlandırmır, çünki aşiqlikdən (xilqətin xaliqə aşiqliyindən – C.Q.) daha yüksək mövqe yoxdur»[182]. Bu

[180] Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, 2008, səh. 41.
[181] «Azadlıq» qəzeti. 29 noyabr, 1997, № 247.
[182] S.Xəlilov. Cavid və Əttar, «Ədəbiyyat qəzeti», 1 may, 2009.

mənada Sənandakı dini "inkarçılıq" da əslində özünü Tanrıda tapma və özünü şəriətdə təsdiqləmə idi. O, yaxşı anlayırdı ki, Tanrı dərgahına getmək üçün zahiri qiyafə, üst qat, rütbə, titul yox, ağıl, əməlisalehlik, mənəvi təmizlik, mənəvi saflıq, mənəvi kamillik... lazımdır. Və burada da sufizmə zidd ola biləcək heç nə yoxdur. Sufizmdə "müridin şeyxin iradəsinə tamamilə tabe olmasını istiqamətləndirən xüsusi təlimlər işlənib hazırlanırdı. Cəlaləddin Rumi göstərirdi ki, «sufilər şagirdin sınaqdan çıxmasına min bir gün ayırırdılar. O, iqamətgahda 40 gün mehtər vəzifəsini yerinə yetirir, 40 gün ayaqyolunu təmizləyir, 40 gün su daşıyır, 40 gün həyəti süpürür, 40 gün odun doğrayır, 40 gün aşbaz işləyirdi və s. Nəyin bahasına olursa olsun sınaq müddəti keçənin məğrurluğunu qırmaq, şeyxin hər bir sərəncamını yerinə yetirmək, onun hazır və razı olduğunu sınaqdan keçirmək lazım idi"[183].

Cavid əfəndi də hadisələrə yaradıcı yanaşmış, onu estetik idealına uyğun şəkildə vermişdir. Bizcə, H.Cavid donuz otarmaq süjetini Fəridəddin Əttarın «Məntiqütteyr» əsəri ilə yanaşı digər dini bir hədisdən də almışdır. Həmin hədisdə göstərilir ki, dini elmlərə bələd olan bir müridi bir şeyxin yanına göndərirlər ki, bu elmi daha dərindən mənimsəsin. Həmin mürid təhsilini başa vurub qayıtdıqdan sonra aqil bir qoca ondan nələri öyrəndiyi ilə maraqlanır və həmin mürid də öyrəndiklərini ona danışır. Aqil qoca bildirir ki, sənə bir şeyi öyrətməyiblər, mən onu öyrədərəm, lakin bir şərtim var. Gərək sən iki il qoyun otarasan, sonra deyəm. Əlacı kəsilən mürid aqil qoca ilə razılaşmağa məcbur olur. O, iki ili tamam olduqdan sonra aqil qocadan öyrənmədiyinin nə olduğu ilə maraqlanır. Qoca cavab verir ki, sənin öyrənmədiyin o şey səbr idi ki, onu da bu iki ildə öyrəndin.

Bütün bunların ədəbi məhkəmələrdə tənqidi İslam təssübkeşliyidirmi? Xeyr. Bolşeviklər bununla ilk zərbəni islama

[183] Ş.Sultanov, K.Sultanov. Ömər Xəyyam, Bakı, 1991, səh. 278.

və islami dəyərlərə vururdular. Onlar yaxşı anlayırdılar ki, islami dəyərlərin xalqın yaddaşından silinməsi bu xalqın Şərqlə, eləcə də mənəvi irslə, kök, yaddaş və şəcərə ilə əlaqəsinin kəsilməsidir.

C.Cabbarlının ədəbi məhkəmədə səsləndirdiyi bir fikrə diqqət yetirək: "Fəqət başındakı bir fikri, inandığı bir əqidəyə doğru sandığı bir məsləki, bayrağını gəzdirdiyi bir orduyu ancaq öz şəxsiyyətinə, öz mənfəətinə, öz şəxsi səadət və ehtiraslarına fəda edən bir adama nə ad vermək olar. Doğrusu, mən tapmadım. Ona görə də, təqsirnamədə də yazmamışam. Ancaq indi başıma bir söz gəldi ki, o da xain kəlməsidir. Bu sözün nə qədər münasib olduğunu məhkəmə heyəti qərar çıxararkən düşünə bilər"[184].

"Xain" sözü 1920-1930-cu illərdə hüquq-mühafizə orqanlarının tez-tez işlətdikləri bir ifadə idi. Lakin bu illərdə «xain» sözünün miqyası xeyli genişlənmiş, ədəbi məhkəmələrə, hətta ədəbi tənqidə də yol tapmışdır. İndi isə bu adı bədii əsər qəhrəmanlarına verirdilər. Sonrakı illərdə isə şəxsiyyətləri "vətən xaini", «xalq düşməni» adı ilə ləkələyirdilər. Şeyx Sənan heç nəyə və heç kimə xəyanət etməmiş, öz ideyaları uğrunda mübarizə apararaq bütün maneələri dəf etmişdir. Sənanın mövcud maneələri dəf etməsi nəfsin paklanmasına, Allaha yaxınlaşmasına xidmət edir.

Şeyx Sənanın ittiham edilməsinin əsas səbəblərindən biri də onun Zəhraya olan məhəbbəti və bu məhəbbətin axıra qədər olmaması, Zəhranın Xumarla əvəz edilməsidir. Şeyx Sənən yalnız Zəhradan deyil, «cinsi-bəşərdən» uzaq durur.

Əgər fövqəlbəşər olmaq dilərsən,
Kənar ol daima cinsi-bəşərdən.

Dərvişin Şeyx Sənana verdiyi bu məsləhətinə diqqət yetirən C.Cabbarlı çıxışında deyirdi: «Dərviş ona (Şeyx

[184] C.Cabbarlı. Ədirnə fəthi, Bakı, 1996, səh. 246.

Sənan nəzərdə tutulur – C.Q.) demişdi: yalnız bulun, deməmişdi ki, get evlən. Dərvişin sözləri Sənanı hələ islamlıqdan döndərməmişdi, çünki ondan sonra, Quranı yaxmaq təklifi alarkən Sənan özü deyir ki: «Hökmü-Quran ilə məbəd ucalır». Bu sözlərə heç bir şərh vermədən bildirməliyik ki, Şeyx Sənanı nə Dərvişin, nə Platonun, nə də qeyrilərinin sözləri islamlıqdan döndərməmiş, onu xristiyana, yaxud da ateistə çevirməmişdi. Cavid əfəndi tərəfindən ideal sevgili kimi xristiyan qızı Xumarın seçilməsi də təsadüfi deyildir. Fikrimizcə, bunun iki mühüm səbəbi vardır; İlahi eşqin daha böyük maneələri aşmaq gücünə malik olduğunu və İlahi eşqin din və ya dinlər arasında fərq tanımamasını göstərmək.

Birsə Həqq, cümlə din də bir... naçar,
Xəlqi yalnız ayırmış azğınlar.

Çıxışına davam edən C.Cabbarlı bildirirdi: «Deməli, dərviş onu hiylə yolundan çıxarmamışdı. Onu yoldan çıxaran başqa birisi idi. Gözəl bir gürcü qızı Xumar idi... Xumar pək gözəldir. Mən də etiraf edirəm. Qumral saçlar, mavi gözlər, bilməm al dodaqlar, latuhi bir baxış, ilahi bir görünüş. Bu qadın onun zövqünə uyan, onun yaratdığına bənzər bir qadındır. İştə burada illərdən bəri Sənanın şöhrət və böyüklük həvəsinin ağırlığı altında susmuş qadınçılığı varlığına da, iliklərinə də uymuş adi, bayaqı bir erkəklik, saxlanmaz ehtirasları qalxır. Deyil, yalnız onun böyüklük və şöhrət həvəsini, hətta onun bütün varlığını, bütün mənliyini, izzətünəfsini, şərəfini, məsləkini, əqidəsini, bir sözlə, ürəyində yaxşılıq adına hər nə saxlanmışsa, həpsini alt-üst edib çevirir. Və nəticədə dünən qadınlardan qaçan, dünən qadınlara qarşı kin bəsləyən, dünən öz şeyxinə söz vermiş. Bu gün dərvişdən bir çox nəsihətlər dinləmiş və böyük bir kütlə yanında Kəbəyə qarış and içib yola çıxmış Sənan bütün dinini, imanını, məsləkini, əqidəsini, əməlini, diləyini, idealı-

nı, məqsədini, hər bir şeyini böyük bir rəzalətlə bir qadının ayaqlarına sərib: - mən təslim, - deyə bayrağını endirir, silahını təslim edir»[185].

Deyilənlərdən belə çıxır ki, Şeyx Sənanı yoldan çıxaran Dərviş yox, Xumardır və ya onun gözəlliyidir. Əslində isə Sənanı haqqa qovuşmaq yoluna gətirən Dərviş və ya Xumar olmadığı kimi, onu bu yoldan çıxaran da Dərviş və ya Xumar olmur. Çünki Sənan onlarsız da bu yolu tutub gedirdi. Bu mənada həm Dərviş, həm də Xumar Sənana məslək və idealına (vəhdəti-vücuda) doğru irəlləməsində sadəcə, lakin sədaqətlə bələdçilik edirlər. Cavidşünas alim Kamran Əliyevin dediyi kimi «Şeyx Sənanı Xumar özü yox, Xumarın qalxa biləcəyi yüksəklik orbiti maraqlandırır... Deməli, Şeyx Sənanın həyat devizini Xumarın gözəlliyi, Xumarı qadın kimi sevmək deyil, məhz Xumarın ilk dəfə göründüyü məkan – yüksəklik idealı şərtləndirir»[186]. Bunlardan belə bir nəticəyə gəlmək olar ki, Sənanın Zəhranı tərk etməsi real eşqdən uzaqlaşmağının, onun Xumara yaxınlaşması isə eşqi-ruhaniyə doğru yüksəlişinin başlanğıcıdır. Başqa sözlə desək, **Şeyx Sənanın nə Zəhraya, nə də Xumara ehtiyacı yoxdu, Ali Haqqa – Allaha ehtiyacı var.**

Sənandakı eşqi-ruhaniyi Zəhra özü də çox gözəl anlayır və bilir ki, Sənan ona xəyanət etməmiş, ilahi eşqə düşdüyündən onu tərk etmişdir. «Şeyx Sənanın Zəhraya «sadiq qalmaması»nın səbəbi Zəhranı sevməməkdə deyil. Əsas məsələ ondadır ki, Zəhra Şeyx Sənanı şeyxlər mühitinə bağlayır və ona daha çox yaxınlaşdırır, əksinə, Xumar Sənanı şeyxlər mühitindən ayırır və ondan daha çox uzaqlaşdırır»[187]. Şeyxlər mühitindən uzaqlıq ədəbi məhkəmədə səsləndirildiyi kimi dindən, imandan, məslək və əqidədən

[185] Cavidşünaslıq. (Tərtib edəni Göülbəniz Babaxanlı), II – III cild, Bakı, 2007, səh.
[186] Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, 2008, səh. 176.
[187] Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, 2008, səh. 175.

uzaqlıq deyil, əksinə Ali Haqqa qovuşmaq idealına yaxınlıqdır. Elə ona görə də Zəhra Sənanı bağışlayır, "keçən keçmiş" - deyir:

Daha bir çarə yox, keçən keçmiş;
Çünki Sənan ürəklə and içmiş.
Həp qadınlardan eyliyor nifrət,
Başqa bir fikrə bəsliyor hörmət.

Sənan ərə getməyi ölüm hesab edən, yalnız monastrlara meyl göstərən Xumara qadın yox, mələk kimi baxır. Akademik Məmməd Cəfər Cəfərov haqlı olaraq yazır: «Xumar onun (Şeyx Sənan nəzərdə tutulur – C.Q.) nəzərində qadın deyil, hər şeydən əvvəl, «gözlərində üluhiyyət oxunan bir mələk», «Allahın bir heykəli» kimi görünür»[188].

Əslində elə əsərdə də Xumar həmişə mələk timsalında təsvir edilir. Maraqlıdır ki, H.Cavid Xumarla Sənanı görüşdürəndə (istər yuxuda, istərsə də həyatda) onu həmişə Sənandan ucada, onun fövqündə təsvir edir. Belə ki, birinci pərdənin birinci səhnəsində Şeyx Sənanla Zəhranın görüşdüyü yerdə Sənanın gözünə Xumar da görünür. Cavid əfəndi remarkada yazır: «Bu sırada səhnənin işığı çəkilir, ta ucda ikinci pərdə qalqar. ***Azacıq yüksəkdə***, olduqca şairanə, cazibədar, behişti bir mənzərə görünür. Altun qanadlı mələklər əl-ələ, qol-qola olaraq incə qəhqəhələrlə gülüşüb gəzinirlər. Təbii, mələk qiyafəsində olan Xumar da onların içində bulunur». Yüksəkdə, ucalıqda görünən Xumarın Sənana ilk müraciəti də yüksəl olur. Xumarın «yüksəl» xitabı Şeyx Sənanı əbədi, ilahi eşqə çağrışdır:

Şeyx, gəl-gəl! Sevimli Sənan, gəl!
Sana layiq deyil o yer yüksəl!».

[188] M.Cəfər. Hüseyn Cavid, Bakı, 1960, səh. 94.

Şeyx Sənan da Xumarı həmişə mələk kimi görür. Onun Şeyx Mərvana dediyi sözlər də fikrimizi təsdiqləyir:

Onu seçməz sənin gözün əsla,
O mələkdir, qadın deyil, haşa!..

Ədəbi-ictimai məhkəmədə müddəi-ümumiyyə sifəti ilə çıxış edən C.Cabbarlı «Ölülər»də olduğu kimi burada da məhkəmələrin xüsusiyyətləri barədə danışdıqdan sonra Şeyx Sənan obrazının üzərinə qayıdır və onun kimliyi məsələsinə aydınlıq gətirməyə çalışır: " Beləliklə, Sənan kimdir? İlk görüşlə biz, Sənan yaşının məsuliyyət daşıya biləcəyi bir çağında 30 yaşında ağıllı, fəqət öz cinsiyyət duyğularına adi, bayağı bir erkək, şəhvət və ehtiraslarına tapğın yalançı, eyni zamanda, gözəl və xoşsima bir tələbə görürük.

Əsasən, açıq fikirli olan Şeyx Kəbir ona, adətən, atalıq edir. Öz doğma oğlu kimi sevir, oxudur, biliklərini öyrədir, tərbiyə edir, bir sözlə tərbiyəsində heç bir qüsur göstərməyir. Fəqət buna qarşı Sənan Şeyx Kəbirin müsaidətindən istifadə ilə onun zavallı qızını Zəhrayı çocuqluğundan istifadə ilə bir çox yalan vədlər ilə aldadıb özünə bənd edir.

Əvvala, oğlum - deyə müraciət edən bir adamın qızına göz əymək, onunla xəlvətdə görüşüb əlaqəyə girmək insanda nə qədər saxlanmaz bir ehtiras, nə qədər alçaq bir nəfs olması lazım olduğunu mən təsəvvür etmirəm.

Pək eyi, tutalım ki, bu bir şey deyildir. Ata-oğulluq məsələsini bir tərəfə buraxalım. Qızdır, oğlandır. Görmüş, sevmiş, vəd etmiş, nəticə etibarı ilə Zəhrayı alacaq və məsələ də bununla bitmiş olacaqdır. Fəqət Sənan bunu da yapmayır. 6 il yazıq cocuğu başda gəzdirib bir çox macəralar keçirdikdən sonra nəhayət, ondan doyur, soyuyur, usanır. Şimdi o öz fikrində, öz təsəvvüratında mavi gözlü yeni bir qadın yaradır. Və öylə bir qadın bulmaq istəyir"[189].

[189] C.Cabbarlı. Ədirnə fəthi, Bakı, 1996, səh. 242.

Deyildiyi kimi, H.Cavidin əsas məqsədi Sənan-Zəhra məhəbbətini və bu məhəbbətin tragik-dramatik taleyini yox, ondakı "eşqi-ruhani"yi, bu yolda çəkdiyi sarsıntı və iztirabları göstərməkdi. Sənan Zəhranı atmır. Çünki Sənanın yolu təsəvvüf yoludur. «Təsəvvüf yolu: pis xislətdən uzaqlaşaraq bəyənilmiş əxlaqa yiyələnmək, nəfs ilə mücadilə, hər kəsin yükünü çəkmək, kimsəyə yük və dərd verməmək, heç bir irqi, dini, milli və başqa ayrı-seçkiliyə yol vermədən ümumbəşəri birlik məktəbi, həmişə Haqq ilə, Haqqın hüzurunda olmaq, nəfsdən qurtuluş və insanlığın kamal mərtəbəsinə yüksəlmək, Haqqa qovuşmaq yoludur»[190].

«Heç bir irqi, dini, milli və başqa ayrı-seçkilk» tanımayan sufinin mavi gözlü mələk bulması da məhəbbəti əyləncəyə, Zəhranı isə bu əyləncənin oyuncağına çevirmir. Cəfər Cabbarlı isə belə fikirləşmir və Sənanı məhz Zəhranı oyuncağa çevirməkdə, aldadıb atmaqda, hətta onun fəlakətinə səbəb olmaqda ittiham edir: Sənan «vəd etmiş, aldatmış, sözündən qaçmış, Zəhranın fəlakətinə səbəb olmuşdur. Unutmamalıyıq ki, bu şimdiki vaxt üçün bir o qədər ağır görülməyir. Pək eyi, qızdır. Əvvəl sevdim, şimdi sevmirəm. Fəqət Zəhranın mühiti düşünülərsə, bu onun üçün bir fəlakətdir. Adı dillərdə gəzən Zəhrayı ölüm deyil, nə qurtara bilər?! Ona görədir ki, Zəhra deyir: «Məni qəhr et də, lakin atma aman». Sənan Zəhranın tələblərinə qarşı boyun əyməyə məcburdur. Sən mələksən atmam – deyə yenidən ona söz verir. Fəqət yalan, həm də məcburi bir yalan, fəqət dadlı gözəl bir yalan. Həmin bu dəqiqədə Zəhranın nə olursa-olsun artıq köhnəldiyini düşününcə və xəyalında yaratdığı mavi gözlü qadını xatırlayınca həmin gözümüzün önündə sözündən qaçır. Böylə səbatsız bir adama. Bu dəqiqə söz verib ikinci dəqiqədə qaçan yalançı bir adamın sözünə və özünə nə kimi bir qiymət verilə bilər.

[190] Göyuşov N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı, 2001, səh. 179.

Nə isə Sənan Zəhrayı artıq sevməyir, gecə-gündüz başqa bir qadını düşünür».

Fikrimizcə, Sənanı yalançı adlandırmaq, qadın düşkünü elan etmək, etdiklərinə görə peşimançılıq hissi keçirməmək reallıqdan uzaqdır. Əgər həqiqətən belə olsaydı onda bu macəradan 10 il keçdikdən sonra Zəhranı görən Sənan:

Ah Zəhra, zavallı solğun nur,
Səni Sənan göründə alçalıyor –

deyərək, keçirdiyi mənəvi iztirab və əzabları, psixoloji sarsıntıları biruzə verməzdi. Sənanın Zəhranı tərki şəhvani hisslərin, "zövqi-nəfasi"nin tərki, aradığı, bulduğu isə ilahi eşq, Tanrı sevgisidir.

Dinamik obraz olan Sənan nəticədə sevgisini real Zəhradan almış aşiqdən Tanrı aşiqinə çevrilir. Deməli, Sənan Zəhranı Xumara yox, Tanrıya dəyişir. Tanrı isə əsil sufi üçün bütün Zəhralardan üstündür:

Mən otuz il cahanda zahidvar,
Bilmədim qız-qadın nədir zinhar.
Nə qədər məndə varsa hissü həyat,
Ehtirasatə düşmənim... heyhat!
Mana biganə zövqi-nəfasi,
Sevdiyim Yalnız eşqi-ruhani...
Daha könlümdə qeyri eşqə, inan,
Yer bulunmaz, xayır, xayır...

Şeyx Sənan məhkəmə iştirakçıları, eləcə də əsərdə Papas tərəfindən dindən və məzhəbdən uzaq adam olmaqda məzəmmət edilir. Şeyx Sənan Papasa belə cavab verir:

Arif ol, arif!.. Atma vicdanı,
Ara qəlbində dini, imanı.

Sufilərin əsas sevgisi Tanrı olduğundan və Allahı çox sevdiklərindən zahiri əlamətlərə o qədər də fikir vermirdilər. Dini və məzhəbi onlar Tanrıya olan sevgilərinə qurban verməyə həmişə hazırdılar və yeri gələndə verirdilər də. Bu, onlarda dinsizliyə yox, dinə, allahsızlığa yox, allaha sevgiyə xidmət edirdi. Sufilər çalışırdılar ki, Tanrı ilə onların arasında heç nə qalmasın. Hətta ibadət zamanı Şeyx Bistami Allaha - aşiq olduğuna üz tutaraq deyirdi: "Allah, sənlə mənim aramda "mən" durduğuna görə mənə ölüm ver"[191].

Deməli, sufilərin əsas məqsədi Tanrı ilə özləri arasında olan "mən" maneəsini aradan qaldırmaq idi. Məhkəmədə son söz deyən Şeyx Sənan rolunun yaradıcısı özünün müqəssir olmadığını bildirir və məsələlərə belə aydınlıq gətirirdi: "Şeyx Sənan müttəhim edildiyi təqsirlərin heç birində özünü müqəssir bilməyib, bunların onun haqqında iftira olduğunu bəyan ediyor, deyir ki: Mən türk ikən türklər arasında islam yayıldığı zaman təhsil üçün Ərəbistana getmiş və orada sözümü islamlığın dar çərçivələrinə salmışdım. Türklərdə bir azadlıq qanı cərəyan etdiyinə görə islamlıq məni sıxmış və islamlıq qəbul etmişəmsə də, bir çox məsələlərdə (merac və bu kimiləri) tərəddüd edib, fikrimdə bir çox dolaşıqlıqlar var idi. Şeyx Kəbirin nəsihətlərinə görə qadınların insan üçün bir fəlakət mənbəyi olmasına sahib olaraq qadınlardan həzər edib onlara nifrət bəslərdim. Zəhra Şeyx Kəbirin qızı olduğundan ona yalnız ehtiram edərdim, amma sevməzdim. Bütün ömrümdə mən ehtizasatdan qaçmış və yalnız ruhani ehtiyacı hiss ediyordum. İnsaniyyətin məadətini din ixtilaflarını qaldırmaqda və hamını bir islam dini ətrafında birləşdirməkdə görərək mən bu məqsədlə də səyahətə çıxdım. Qafqasiyaya getdikdə buranın təbiəti əski qanımı cuşə gətirdi. Və islamın xaricində də məqsud yaşamağın mümkün olduğunu din haqqındakı tərəddüdlərim daha da qüvvətləndi!"[192]

[191] Ş.Sultanov, K.Sultanov. Ömər Xəyyam, Bakı, 1991, səh. 266.
[192] «Kommunist» qəzeti. 14 dekabr, 1924.

Deyilənlərdən bir daha aydın olur ki, sufilər öz sevgilərini yalnız Allaha yönəldir və bu arzularına çatmaq üçün bütün maneələri dəf etməyə çalışırdılar.

Əsərin finalı da sufi dünyagörüşü ilə tamamilə bağlıdır. Xumar və Sənan əsərin əvvəlində arzulanan yüksəkliyə (bütün mənalarda), dağ başına qalxmışlar. Həm coğrafi, həm də mənəvi mənada bu yüksəkliykdən aşağıda dayananlar o ucalığın təhlükəli olduğunu bildirir və Sənanı aşağı enməyə səsləyirlər. Enməyi yox, ucalmağı məqsədə çevirən Sənan isə onlara deyir:

Yüksələn məhv olur, fəqət enməz!
Nuri-həqq daima yanar, sönməz!

«Yüksələn məhv olur» ifadəsi sufizmin vəhdəti-vücud təliminin təməl prinsiplərindəndir. İfadədə iki komponent var: «yüksələn» və «məhv olan».

Yüksələn – ruhdur. Lakin ruh yüksəlmək – səmayi-eşqə qalxmaq üçün bədəndən ayrılmalıdır.

Məhv olan – bədəndir. Ruh bədəndən çıxdıqdan sonra, cansız bədən məhv olub torpaqlara qarışır.

Başqa sözlə, «yüksələn məhv olur» ifadəsi fənafillah-bəqabillah modelini inikas edir. Aşiq bəqabillaha yüksəlmək (çatmaq) üçün fənafillahdan – cismin məhvi mərhələsindən keçməlidir. Burada sufinin cismən ölüb torpaqlara qarışması şərt deyil. O, öz cismini funksionallaşdıran nəfsi öldürməlidir. Sənanın şəhvani istəklərdən uzaq durması artıq öz cismində gəzdirdiyi nəfsi öldürməsi deməkdir. O, bundan dolayı özünü «canlı dar ağacı», yəni ruhən diri, cismən ölü hesab edir. Nəfsini artıq öldürmüş bir insan (Sənan) nəfsani bir varlıq olan Zəhraya evlənib onu xoşbəxt edə bilməzdi. Zəhra nəfslə ruhun vəhdətindən ibarət adi bir insan idisə, Sənanın varlığında cism – bədən bir kəpənəyi andıran qabıq, zahiri görüntü idi. Buna görə də Dərviş bütün bunları

başa düşməyib Şeyx Sənanı məzəmmət edənlərə belə xitab edir:

Pək tuhaf, bən nə söyləyim! ... Həpiniz
Adəta canlı bir cənazəsiniz,
Şeyx Sənan Xumarı izləyərək,
Rəqs edər göydə şimdi, sanki mələk.
Sizdə yalnız gurultu, dəhşət çoq;
Fəhmü idrak yoq, bəsirət yoq.
Hər kimin kor deyilsə vicdanı,
Görür əlan Xumarı, Sənanı.

Sonda hər iki qəhrəman qayadan, ucalıqdan nəhrə atılır. Lakin nəhrə yox, qayanın dibinə (dərinliyə) yox, dağ kəmərinə (yenə də ucalığa) düşürlər. Dağ kəmərində yaralı vəziyyətində olmasına baxmayaraq Sənan yenə də Xumarı qucağına alaraq yüksəkliyə doğru qalxmağa çalışır və nəhayət hər ikisi dünyasını dəyişir. Bir qədər sonra isə onların daha ucada, kosmosda olduqlarını Dərviş görür və bəyan edir:

Aldı ağuşə qaliba mələkut,
İştə qeyb oldular, sükut, sükut!

Sənanın və Xumarın qeyb olmasını sonda hamı müşahidə edir. Görkəmli alim Yaşar Qarayevin göstərdiyi kimi, irfani təlimə görə «Torpaqdan əmələ gələn hər şey torpağa da qayıdır. Amma Torpaq ədalətli biznesmen və sivil sahibkardır: o, yalnız verdiyini alır – əti və sümüyü, vücudu və kəmiyi. Ruh və poeziya İnsana ilahidən, səmadan gəlir və ilahiyə, səmaya da qayıdır. Ona görə də öləndən sonra sümüklər hamıdan, ruh və poeziya isə yalnız ululardan, təklərdən qalır. Yalnız ürəyi Allahla bağlayan tel insanı torpaqdan ayırır və o, yerin dibini «koramala, ilbizə, soxulcana təhvil verib», özü yarı yer, yarı səma sakini olur»[193]. Deməli,

[193] Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, Elm, 2002, səh. 12.

sonda tən, bədən, cism yerdə qalır və ruh səmaya Tanrının özünə qayıdır, vəhdəti-vücuda qovuşur.

Maraqlıdır ki, H.Cavid əsərdə sufizmin yalnız təməl ideyalarını deyil, eyni zamanda əfsanəvi obrazlar sistemini də təcəssüm etdirmişdir. Bu cəhətdən Dərviş obrazı xarakterikdir. Dərviş sanki bütün əsər boyu Sənanı müşaiyət edir. Şeyx Sənanın bütün əməlləri Dərvişin vasitəsi ilə Haqq aşiqliyi – Haqqa aşiqlik kimi mənalanır. Bu cəhətdən Dərviş obrazında məhəbbət dastanlarında aşiqlərə buta verən, onları hər dərd-bəladan qoruyub Haqqa qovuşduran Şahi Mərdan – Həzrət Əli obrazının semantik cizgilərini görmək olur. Dərviş obrazını məhəbbət dastanlarının nümunəsində geniş şəkildə araşdırmış prof. M.Cəfərli yazır: «Məhəbbət dastanlarının təsəvvüfi-poetik strukturunda iki aydın semantik qütb var: Aşiq və Məşuq. Bunların arasında isə dərviş obrazı dayanır... Məhhəbt dastanlarında baş qəhrəmanları bir-birinə dərviş obraz-kompleksi buta verir. Bu baxımdan, dərviş bir-birindən uzaq məkanlarda (ayrı-ayrı ölkələrdə, şəhərlərdə, evlərdə) yaşayan qəhrəmanlar arasında vasitəçi rolunu oynayır. Onun vasitəçi rolu, əslində, struktur-semantik baxımından Mediator (ayrı-ayrı dünya qatları, sakral və profan dünyalar arasında əlaqə yaradan, vasitəçilik edən) roludur. Bu obrazın mediator rolu, mediativ funksiyası Azərbaycan folklorşünaslığında çox zəif işlənmişdir. Halbuki onun butavermədəki roluna məhəbbət dastanlarından bəhs edən bütün tədqiqatlarda toxunulmuş, haqqında deyilmişdir. Dərviş – Həzrət Əli Xızır Nəbi obrazına məhz mediativ funksiya baxımından yanaşdıqda, onun məhəbbət dastanlarının struktur-semantik poetikasındakı rolu Aşiq və Məşuqun oynadığı rol qədərdir. Başqa sözlə, Aşiq və Məşuq dərvişsiz (mediatorsuz) mümkün deyil»[194].

[194] Məhərrəm Cəfərli. Azərbaycan dastanlarının struktur poetikası. Bakı, «Nurlan», 2010, səh. 186.

«Şeyx Sənan»dakı Dərviş obrazının funksiyasına diqqət yetirdikdə onun da, əslində, Aşiqlə Məşuq, Yerlə Göy, Cəmiyyətlə Şeyx Sənan, Şeyx Sənanla Tanrı arasında bir Vasitəçi – Mediator rolunu oynadığını görürük. Onun ənənəvi obraz cizgiləri Cavid yaradıcılığına məhz təssəvüfi-irfani düşüncədən gəlir. M.Cəfərli yazır: «Məhəbbət dastanlarında dərviş – Həzrəti Əli-Xızır Nəbinin rolu həmişə bu dünya ilə o dünyanın arasında olur. Onlar qəfildən zahir olub çətinə düşmüş qəhrəmanı qeyri-adi yolla xilas edirlər. Məsələn, qəhrəmanı möcüzəli şəkildə zəhər quyusunda salamat saxlayırlar, dəfələrlə ölümdən qurtarırlar. Bu baxımdan dərviş-mediatora xilaskar funksiyası da xasdır. Qəhrəman deyilən müddətə yolu gedə bilmir və köməksiz olaraq yolun ortasında ilişib qalır. Bu vaxt göy altı peyda olur və üç günlük yolu «bir göz açıb-yumunca» qət edərək qəhrəmanı möcüzəli şəkildə gətirib mənzil başına çıxarırlar»[195].

Dərviş bu anlamda istər məhəbbət dastanlarında, istərsə də «Şeyx Sənan»da eyni funksional rola malikdir. F.e.d. M.A.Allahmanlı bu funksiyanı «Abbas və Gülgəz» dastanında Abbası xilas etmiş göy atlı obrazı ilə bağlı dəqiqləşdirərkən yazır ki, qəhrəmanla ilahi qüvvənin təması var. O, başlağıcından mərhələdə olduğu kimi, insan şəklində çox adi təsir bağışlayır və qəhrəmana kömək etmək məqsədini bildirir. Lakin son anda onun ilahi görkəmi, ilahi funksiyası açılır və qəhrəman gözünü açanda onu yanında görmür... Qəhrəman çətinlikləri aşmada müəyyən ümidsizliyə qapılanda həmin qüvvələr peyda olur və onu mövcud vəziyyətdən çıxarır. Burada funksiyanı «göy atlı» yerinə yetirir. Bu isə göy atlıdan çox, göydən gələn atlıya bənzəyir, yəni adi haldan çox, qeyri-adi halın funksiya daşıyıcısı olur. Daha doğrusu, qəhrəman üçün mümkün olmayanı mümkün

[195] Məhərrəm Cəfərli. Azərbaycan dastanlarının struktur poetikası. Bakı, «Nurlan», 2010, səh. 187.

edir. Göy atlının özü ilahi funksiyalıdı və bir yaradanla xilqət arasında vasitəçidi»[196].

Dərviş təsəvvüfi-irfani ənənəyə uyğun olaraq bir hami ruh kimi Sənanı «sonacan» müşaiyət edir. Yaxında və uzaqda olmasından asılı olmayaraq, ondan bir növ heç vaxt ayrılmır. Harada olursa-olsun, süjetin ən dramatik anlarında gəlib çıxır. Bu, ümumiyyətlə, istər «Şeyx Sənan»da, istərsə də, məhəbbət dastanlarında dərviş obrazının təsəvvüfdən gələn ayrılmaz funksional keyfiyyətdir. Lakin bu obrazın «Şeyx Sənan»da sabit, ardıcıl semantik keyfiyyətlə çıxış etməsi təkcə təsəvvüfi-irfani ənənə ilə yox, eyni zamanda Cavidin qırılmaz tellərlə bağlı olduğu türk etnik-mənəvi düşüncəsi ilə bağlı idi. M.Cəfərlinin yazdığı kimi, «dastanlarda buta verən ilahi qüvvə axıradək qəhrəmanı müşaiyət edir. Bu dərviş Həzrət Əli, Şahmərdan, Ağa, göy atlı, Xızır peyğəmbər, Xızır Nəbi və s. adlarla adlandırılır. Mahiyyət eynidir. Bunlar hamısı bir obraz kompleksinə daxildir. Həmin obraz isə mediator – vasitəçi olmaqla türk epik ənənəsinin vacib struktur elementlərindəndir. Öz kökü etibarilə bu obraz kompleks şaman kompleksinə gedib çıxır. Bu şamanın bu dünya ilə ruhlar dünyası arasındakı vasitəçiliyinin dastandakı uzun yol keçmiş transformasiyasıdır»[197]. Prof. M.Seyidovun da yazdığı kimi, «Xızırın aşiqlərə kömək etməsi məsələsi bir çox mifik inamlarla, təbiəti, həyatı, hətta insanların ailə quruluşunu dərk etməsi ilə də bağlıdır. Xızır həm gəncləri bir-birinə sevdirir, həm də darda qalanlara kömək əlini uzadır. Onun furğun-aşiq etdiyi oğlanlar birdənbirə aşıq da olurlar. Deməli, Xızır gəncləri həm aşiq, həm də aşıq edir»[198].

[196] Allahmanlı M. Din, təriqət və aşıq. Bakı, «Şur», 1999, səh. 146-147.

[197] Məhərrəm Cəfərli. Azərbaycan dastanlarının struktur poetikası. Bakı, «Nurlan», 2010, səh. 188.

[198] Seyidov M. Azərbaycan mifik təfəkküründün qaynaqları. Bakı, «Yazıçı», 1983, səh. 129.

«Şeyx Sənan» əsərində təcəssüm etdirilmiş Aşiq-Məşuq (Sənan-Xumar) modelində Dərviş mütləq elementidir. Onun təsəvvüfi dünya modelinə heç nə ilə əvəz olunmayan rolu var və dərvişin əsərdəki bütün funksional aktivliyi rolla müəyyənləşir: «Məhəbbət dastanlarında baş qəhrəmanlar Aşiq və Məşuqdur. Bunlarla eyni semantik cərgədə Vasitəçi-Mediator obrazı dayanır. Düzdür, mediator süjet fəallığına malik deyil. Ancaq struktur-semantik planda Qəhrəman və onun Sevgilisi Mediator obrazsız, sadəcə, düşünülə bilmir. Bu baxımdan, Vasitəçinin süjet fəallığının nə dərəcədə olmasından asılı olmayaraq, o, semanitik qütblər arasında əlaqəyaradıcı obraz kimi dastanın strukturu üçün çox vacib elementdir»[199].

Ədəbi məhkəmədə bu deyilənlərin heç biri nəzərə alınmadı, əsər sosialist realizmi prinsipləri ilə təftiş edildi. Mraqlıdır ki, bunu C.Cabbarlının özü də gizlətmirdi: «Ən doğru məktəbi-ədəbi indilik realizmdir və biz də hər kəsi bu arşınla ölçər və yazıçılarımızın da bu münval ilə yazmalarını arzu edərdik»[200]. C.Cabbarlının arzuları öz yerində, lakin klassik romantik örnəklərimizi realizm qəlibinə salmaq və o qəlibin meyarları ilə təqdim etmək yolverilməzdir.

«Kommunist» qəzeti 16 yanvar 1925-ci ildə «Şeyx Sənan» haqqında ədəbi-ictimai mühakimənin qərarı» sərlövhəli materialda məhkəmənin çıxardığı 9 maddədən ibarət olan böyük bir mətni çap etdi. Həmin qərarı olduğu kimi burada verməyi məqsədəuyğun hesab edirik[201].

«Oxucularımıza məlum olduğu üzrə, dekabr ayında Hüseyn Cavidin «Şeyx Sənan» adlı əsərinin qəhrəmanı olan Şeyx Sənan Bakı ədəbi-ictimai məhkəməsi tərəfindən mühakimə edildi.

[199] Məhərrəm Cəfərli. Azərbaycan dastanlarının struktur poetikası. Bakı, «Nurlan», 2010, səh. 188.
[200] «Zəhmət» qəzeti. 28 iyun, 1922.
[201] «Kommunist» qəzeti, 16 yanvar, 1925.

Mühakimə iki cümə davam etmiş, fəqət qərar o gün elan edilməyərək, sonra qəzetəmiz vasitəsilə elan ediləcəyi bildirilmişdi. Məhkəmə heyətinin uzun-uzadı müşavirəsindən sonra Şeyx Sənan haqqında böylə bir qərar çıxarılmışdır:


1. Turanda doğulmuş, səbavəti məchul (dumanlı) Şeyx Sənan din təhsilini ikmal üçün Ərəbistana gəlmiş və gənclik həyatını (dövri-şəbabəni) bütün bir nəslin və dövrün nümayəndəsi olan Şeyx Kəbirin təhti-nüfuzunda keçirmişdi. Bu dövrdə artıq milyonlar təşkil edən kütləyə bir mərkəzdən rəhbərlik imkanı qalmamışdı və islamiyyət mərkəzi iki ictimai münasibətlərin vücuda gəlməsi ilə özünün sabiq təşkilatçı və rəhbərlik rolunu tədricən itiriyor idi.

Buna görə də fəlsəfi cəhətdən «islam rəhbərləri» içərisində belə müəyyən təzad və şübhələr oyanmaqdaydı və Şeyx Kəbirin şagirdləri üçün islamiyyət məfkurəsi həyati-ideal (qayeyi-əməl) olmayırdı. Mədinə kibi mərkəzlərdə təhsilə sarılmışlar və alimlik (ruhanilik) fikri ilə tərbiyə edilənlər hər kəsin bildiyi üzrə ümumi-islamlar tərəfindən göndərilən əməkçilər parası ilə və əməyi ilə müftəxorcasına, tüfeyli olaraq yaşayırdılar. Özləri də həyatdan və mübarizə həyatından iraq düşmüş kiçik bir təbəqə (qrup) təşkil etməkdə idilər.

Buna görə də işbu dairədə bulunanlar mənən mərkəzi-kainat, mərkəzi-xilqət yalnız özlərini görüyor. Gecə-gündüz metafizik mavəraüt-təbiət ilə uğraşar və tamam düşüncələrini din kibi füqəra əfyununa və s. sxolastikaya həsr etməklə vaxt keçirməkdə idilər.

2. Böylə bir mühitin içində otuz il yaşayan birisi aldığı tərbiyə nüfuzundan çıxmayacağı təbiidir. İştə Şeyx Sənan da o mühitin yetişdirməsi, onun oğlu olaraq meydana çıxıyor. Məlum ki, ağacdan düşən çürük alma kötükdən çox uzağa düşəməz.

Fəlsəfəcə mütərəddid qalan eklektik üləmanın varisi olan və müftəxorluq ilə işsiz vaxt keçirən, çürük prinsip



Şeyx Sənan haqqında çıxarılmış qərar.
«Kommunist» qəz., 1925, № 13

(əsas) və məfkurəsi olan Sənan dəxi içində oyanan şübhələr ilə əsrinin əleyhinə çıxmaq kibi pürqüvvət qəlbə və iradəyə sahib olmayor: ümumi cərəyana tabe olaraq quru şübhələr ilə iktifa ediyor. Lakin yenə də özünü mərkəzi xilqət görmək, hüsni-mütləq peşində qoşmaq, «eşqi» hər şeydən yüksək saymaq kibi metafizik, həyatı unmayan məsələlər ilə məşğul oluyor və bunun nəticəsində Şeyx Sənan həyatdan uzaq, natamam, qeyri-təbii və avara Sima

olaraq ərzi-vücud ediyor. Və bütün bu misal mütəsəvvifanə fikirlərdən bəhs edən Şeyx Sənan tamamilə bir sufi kibi də axıra qədər özünü aparamayor.

3. Süquta üz qoyan böylə mühitin qeyri-təbii övladı şəxsiyyətini hər şeydən uca, arzularını hər şeydən üstün bilirdi və eyni zamanda ətrafında milyonlar ilə həqir xalq işləri ilə çalışmaz və həyat ilə çarpışmada asar göstərməzdi. Yaşayış çəkişməsində iştirak etməyənlər fəqət tüfeylisayaq başqasının əməyilə yaşayarlar. İştə Şeyx Sənan da müftəxor ruhlu, hər kəsin və hər şeyin özünün zövqi-nəfsanisində fəda olmasını güdən bir individualist və ictimaiyyəti tərəqqiyə sövq edəcək qüvvələrdən tamamilə uzaq bir şəxsdir.

4. Geniş ictimai kütlələr içərisində yaşamayanlar onun ehtiyaclarını bilmədikləri kibi, heç bir ictimai ideala da malik olamazlar. Şeyx Sənan dəxi sufi bir dairə içində olaraq geniş xalq kütləsindən tamamilə ayrı yaşadığı cəhətdən ölənə qədər başqalarının ehtiyacını duymaz olduğu üçün nəinki müxtəlif iqlimlərdə (ölkələrdə) yaşayan məzlum xalqın, hətta bir dəstə üləmanın belə rəhbərliyi vəzifəsinə xəyanət ediyor. Bütün bu hərəkətlərin təbii nəticəsi olaraq Şeyx Sənan öz kefi, şıltağı, eşqbazlığı yolunda öylə bir nöqtəyə varıyor ki, ardınca düşüb iltimas edən üləma və xalq kütləsindən üz çeviriyor və bütün fəziləti uçurumlara atılmaqda görüyor.

5. Sənan kibi geniş ictimai xalq kütlələrindən tamamilə uzaq olan bir çox idealistlər, romantiklər üçün sevimli görülə biləcək Şeyx Sənan hər işin mafövqündə mərifət olduğunu, öznünü din və etiqad qulu olmadığını çaxır içmək, xaç salmaq, donuz otarmaq kibi bir taqım oyuncaqlar ilə göstərmiş olduğu zənn olunursa da, bütün bu hərəkətlər düşüncəli, ağıllı bir surətdə hazırlanmış bir çərçivə içinə sığmadığı üçün, həqiqi bir ateizm məqsədilə yapılmadığı üçün realist, həqiqi tənqid qarşısında məqbul görülən bir

hərəkət sayılmaz. Bunların həpsi şəxsiyyətə fəda olan ideyalar – namüəyyən etiqad və hər bir kiçik əngəllər qarşısında müxtəlif şəkillərə girə biləcək məqsəd və qayələrdən sayıldığı üçün geniş xalq içərisində yayılmasında əsassız, idealsız tiplər tərbiyə edəcəyi aydındır.

6. Səthi baxışdan o qədər yüksək görünən «Sənan eşqi» həqiqi halda təbii və sağlam bir ruha malik zatın eşqi degildir.

Bu «eşq» dəxi Sənanın qeyri-təbii şəxsiyyətinə müvafiq yenə də qeyri-təbii məstanə bir şıltağından, keçici arzusundan ibarət idi. Metafiziklərdə olduğu kibi, mücərrəd (abstraktiv) bir eşqdən bəhs etmək təbiətdə olmadığı üçün, hər bir həqiqət müşəxxəs olduğu kibi, eşq də müşəxxəs olaraq nəzərə alınmalıdır. «Eşq» namını alan, təbii ki, bu işdə iştirak edən əşxas cismani və psixoloci cəhətlərdən yekdigərinə mütəmmi olub, ikisinin də bir vahid təşkil etməsi qanunu təbiətcə qəti və mütləqdir.

Ərəbistanda fəqət ruhani idealistcəsinə tərbiyə görmüş, bütün həyatı metafizik mülahizələri ilə keçmiş Şeyx Sənan ilə Gürcüstanda eyş və işrət ilə yaşamış, bütün mənası ilə təbiət balası olan Xumarın şimal ilə cənub qütbləri qədər çiçəkli Qafqazın qarlı dağları ilə qumsal Ərəbistanın odlu səhraları qədər yekdigərində hər cəhətdən ayrı olan iki tipin bir vahid təşkil etməsi hansı məntiqə uyacaqdır? Əlbəttə ki, bu əsas üzərinə dayanmış bir «eşq» təbii və həqiqi deyildir. Yuxarıda gösətrilən əsaslara görə Şeyx Sənanın bu eşqi də yalnız bir şıltaq və keyfi hərəkət idi. Böylə bir qeyri-təbii əməlin nəticəsində Şeyx Sənan iki zatın, yəni əvvəl özünün və sonra Xumarın fəlakətinə səbəb olur.

7. Şeyx Sənan yalnz Xumar ilə özünün məhvinə deyil, müəllimi Şeyx Kəbirin qızı Zəhranı da süslü və təmtəraqlı sözlər vasitəsilə əvvəlcə özünə məczub etmək, altı il müddətində Zəhrayə qəti bir cavab verməməkdə həyatda təcrübəsiz gənc qızı hər zaman elani-eşq etməyə məcbur ediyor. Və nəhaəyət onun da həlakına səbəb olmuşdur.

8. Bütün böylə cinayətlər və hərc-mərclik qarşısında bulunan və özü-özünə qəti bir hesab verməyən Şeyx Sənan günahkar olduğunu öz vicdanı, öz Allahı qarşısında etiraf ilə, əfvlər diləyi ilə yenə də özünün xilasını son dəqiqəsində dindarlıqda və Allahı tanımaqda görüyor. Burası artıq Şeyx Sənan şəhvətinin son mərhələsini təşkil ediyor. Bunun təbii sonu uçurumdan başqa bir şey olamaz.

9. İştə qeyd edilən maddələrə görə ictimai-ədəbi məhkəmə Şeyx Sənanın ictimai tərbiyə nöqteyi-nəzərindən cəmiyyət içərisində yaramaz, mənfi bir tip, yalnız özünə müvafiq xiyalat uçurumlarına layiq olduğuna qərar verdi.

Sədr: Həbib Cəbiyev.
(Hənəfi Zeynallı)
(Ə.Şərif)
Məhkəmə əzaları:
(Nəsrullah Əsgərov)
(V.Məhəmmədov)
Katib: Akif»[202].

Belə bir qərarın çıxarılmasına baxmayaraq, əsər yenə də repertuardan düşmədi. Lakin bundan sonra Şeyx Sənan rolunun ifaçıları onda günahlandırılırdılar ki, məhkəmə zamanı zalda iştirak edən aktyorlar oradakı iradları nəzərə almırlar. «Yeni yol» qəzetində çıxış edən «Vav» (Vəli Hacı oğlu – C.Q.) imzalı müəllif yazırdı: «Şeyx Sənan» mühakimə edilərkən aktyorlardan bir çoxu iştirak edirdilər. Buna görə də onlar bu rolun və Şeyx Sənanın kim olduğunu layiqincə düşünməli idilər"[203].

Ədəbi məhkəmələrin yekunu kimi demək olar ki, bütün bu mühakimələr düşünülmüş şəkildə həyata keçirilən siyasi repressiyanın milli mənəvi dəyərlərə qarşı yönəlmiş əsas formalarından biri idi.

[202] «Kommunist» qəzeti, 16 yanvar, 1925.
[203] «Yeni yol» qəzeti. 11 mart, 1925.

Konkret «Şeyx Sənan»ın məhkəməsinə gəldikdə isə deməliyik ki, təsəvvüf düşüncəsi, irfan işığı, sufi baxışları rəmzləşdirilmiş formada Cavid əfəndinin yalnız «Şeyx Sənan»ında deyil, bütün yaradıcılığında özünü büruzə verir və H.Cavid irsini bunlarsız təsəvuvür etmək olmaz. Ədəbi məhkəmələrin qarşısında duran əsas vəzifələrdən biri də klassik irsdən qaynaqlanan təsəvvüf düşüncəsini, irfan işığını, sufi baxışları yalnız Cavid əfəndinin yaradıcılığından deyil, bütövlükdə ədəbiyyatın özündən çıxarmaq və onu sosialistləşdirmək idi.

MİLLİ MUSİQİ ALƏTLƏRİNİN, YAXUD TARIN MƏHKƏMƏSİ

Folklorda bütövlük özünü o zaman qoruyur və möhkəmliyini təmin edir ki, xalq öz yaratdıqlarına həmişə və hər yerdə yiyə və sahib çıxa bilir.

İstər çar, istərsə də sovet Rusiyası dövründə yalnız milli adətlərə deyil, eyni zamanda milli alətlərə – bütövlükdə türk musiqi mədəniyyətinə, xüsusilə də el nəğmələrinə, aşıq yaradıcılığına müəyyən zərbələr vuruldu. Türkün ortaq mədəniyyət nümunələrini öz kökündən qoparmaq üçün onlara türklərin deyil, Qafqaz xalqlarının müştərək yaratdığı mədəniyyət adı verildi. Və beləliklə də maddi-mənəvi dəyərlərimizə yad ortaqlar tapıldı. Bolşeviklərin ideoloqu V.İ.Lenin qeyd edirdi ki, «mədəniyyət nə qədər dağıdılmış olsa da, onu tarix həyatından silmək olmaz. Həmin mədəniyyətin bu və ya digər hissəsini, bu və ya digər maddi qalıqlarını aradan qaldırmaq mümkün olmayacaqdır, çətinlik yalnız onun bərpa edilməsində olacaqdır».[204] V.İ.Leninin bu tezisi ilə tamamilə razılaşmaq olar ki, milli mədəniyyəti «tarix həyatından silmək olmaz». Çünki milli mədəniyyət (istər mənəvi, istərsə də maddi olsun) bir millətin ruhundan, mənəvi əxlaqi dünya görüşündən süzülərək zaman-zaman durulur və ictimai həyatda yaşayır. Bir qədər obrazlı desək milli maddi-mənəvi dəyərlər milli ruhun bətnindən çıxır və özünəməxsusluğunu axıradək qoruyur. Başqa sözlə, «kültür insanın ictimai irsiyyət yoluyla əldə etdiyi maddi və mənəvi hər ünsürü içinə alır»[205].

Prof. Dr. Mustafa Erkala görə: «Kültür, bilgiyi, sanatı, ahlakı, hukuku, örf ve adetleri kapsadığı gibi, insanın cemiyetin bir üyesi olması dolayısıyla kazandığı diğer bütün

[204] Lenin V.İ. Əsərləri, c. 27, s. 117.
[205] Kültür, yıl 1, sayı 1, Ankara, 1969, s. 2.

kabiliyet ve alışkanlıkları da içine alan bir bütündür»[206]. *«Bir milletin estetik, ahlakı ve felsefi zevkleri ise, kendisine mahsustur.* Bunları asla dışarıdan alamaz. Duyğular, heyecanlar, zevkler, kültürün manevi unsurları oldukları için tamamıyla millidirler».[207]

«Milli kültür politikası olmayan ve ya yanlış olan devlet katiyen milli devlet değildir. Milli devletin başlıca ölçüsü, milli kültürdür»[208]. Ermənilərin milli kültürləri olmadığı kimi milli mədəniyyətləri də olmamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbirincə desək, «ermənilər ömrü boyu rusların for-postu olmuşlar». Özgənin for-postu olmaq ermənilərin ictimai-siyasi həyatının bütün sahələrində, o cümlədən kültür politikasında özünü göstərir.

Yuxarıdakı nümunələrdən də aydın olur ki, mədəniyyətin təməlində millilik dayanır. Milli mədəniyyəti, milli ruhu və milli təfəkkürü olmayan xalqlar dövlətlərini də idarə edə bilməz, onların özləri idarə olunarlar. Ermənіləri də for-posta çevirən milli mədəniyyətdən, yəni milli ruhdan, milli əxlaqdan, milli psixologiyadan məhrum olmalarıdır. «Ərməni xalqının müasir musiqi sənətinə, rəqslərinə, ənənəsinə, məişətinə diqqət yetirsək, çox asanlıqla Azərbaycan və türk musiqisinin, həyat tərzinin güclü təsirini görə bilərik. Ərməni rəqsləri sırf türk və Naxçıvan rəqs məktəbinin ənənələri əsasında inkişaf etmişdir. Xalq mahnıları isə Sayat Novanın əsərlərinin bir hissəsini çıxmaq şərtilə, 90%-i Azərbaycan xalq mahnılarından götürülmüşdür. Bunu ifa zamanı milli musiqi ahənginə görə, spesifik milli musiqi ornamentləri və ifa üsullarına görə asanlıqla ayrımaq olar. Hərçənd ki,

[206] Mustafa Erkal, Sosyal meselelerimiz ve sosyal değişme, Ankara, 1984, s.3

[207] Ziya Gökalp, Terbiyenin sosyal ve kültürel temelleri, İstambul, 1973, s. 302.

[208] Prof. Dr. Cemal Anadol, Dr. Nazile Abbaslı, Dr. Fazile Abbasova. Türk kültür ve medeniyeti. İstambul, 2002, s. 51.

ərməni musiqişünasları bunu çox gözəl bilsələr də heç vaxt etiraf etmirlər, əksinə, ərməniləşdirməyə çalışırlar. Onlar buna müəyyən mənada müvəffəq olsalar da, əksər Azərbaycan xalq və bəstəkar mahnıları ərmənilərin ifasında öz milli xüsusiyyətlərini saxlamışdır»[209].

Müasir Ermənistan ərazisi azərbaycanlıların əzəli və əbədi torpaqları olduğu üçün sonradan oraya köçürülmüş ermənilər onun musiqisindən gen-bol bəhrələnmiş və bir qisminə yiyə çıxmışlar. Aleksandr Kalantaryans «Bakıdan məktub» sərlövhəli məqaləsində yazır ki, «Erməni müğənnisinin özünəməxsus yüksək xüsusiyyətləri yoxdur. Onun oxuduqlarının məzmunu çox zaman türk və ya fars mahnıları olur»[210].

«Tarixi, nəzəri və praktiki təhlillər göstərir ki, «ərməni muğamları» adlı muğam sənəti yoxdur! O, fəqət, Azərbaycan muğamlarıdır ki, ərməni ifaçıları tərəfindən müasir Ermənistanda yayılmışdır. Tarixi sənədlər sübut edir ki, tarixən etnik kökündə Azərbaycan, fars, türk və s. millətlər olan ermənilər içərisində istedadlı muğam ifaçıları olmuşdur. Ermənilərin musiqi istedadının və muğam kimi mürəkkəb bir sənət növünün mənimsənilməsində onların etnosunda olan türkçülük və daima türklərin hakimiyyəti altında yaşamalarının, böyük təsiri olmuşdur»[211].

M.Brutyan göstərirdi ki, «Ermənilərdə muğam ümumşərq mədəniyyətindən ayrılaraq, fərdi milli xüsusiyyətlər zəminində inkişaf etmişdir. Ermənilər orta əsrlərdə muğamın inkişafında daha aktiv iştirak etmişlər, nəinki bizim günlərdə».[212] Məsələ burasındadır ki, ermənilər muğam oxuya

[209] Rafiq İmrani. Muğam tarixi. I cild. B. 1998, s. 61.

[210] Tarıverdiyeva G. Azərbaycan mədəniyyəti erməni dövrü mətbuatında (1850-1920). B. 1985, s. 8.

[211] Rafiq İmrani. Muğam tarixi. I cild. B. 1998, s. 64.

[212] Brutən M. o bıtovanii muqamata v Armenii. – V kn.: Makomı, muqamı i sovremennoe kompozitorskoe tvorçestvo. Taşkent. QİLİ im. Q.Quləma, 1978, s. 139.

və ya hər hansı bir aşıq mahnısını ifa edə bilər, lakin bu musiqi milli düşüncənin məhsulu olmadığına, başqasından oğurlandığına görə onlarda muğam və ya aşıq mühiti yarana bilməz.

Ermənilər böyük mədəniyyət yaratmaq əvəzinə ən kiçik detallardan istifadə etməklə özlərini böyük sənətin yaradıcısı elan edirdilər. Belə ki, bolşevikləşmə illərində triolar təşkil edilir və o üçlüklərə beynəlmiləlçilik prinsiplərindən çıxış edərək ermənilər də daxil edirdilər. Bununla da erməni muğam mədəniyyətinin qədim dövrlərdən yarandığını sübut etmək istəyirdilər. Elə Brutyanın «ermənilər orta əsrlərdə muğamın inkişafında daha aktiv iştirak etmişlər» fikri də buna xidmət edir. Əslində bu, musiqi mədəniyyətimizin mənimsənilməsinin əsas metodlarından biri idi. Digər bir mənimsəmə metodu isə, Azərbaycan musiqi əsərlərini oğurlamaq, folklor örnəklərini, xüsusilə də el nəğmələrini götürüb bir çox hallarda dilini belə dəyişmədən erməni əlifbası ilə təqdim etmək idi. Məsələn, erməni tədqiqatçıları tənbur çalan Arutinin (XIX əsr) «Şərq musiqisinin öyrənilməsi» risaləsinə söykənərək bunun şərq xalqlarının musiqisini öyrənmək baxımından əvəzsiz bir əsər olduğunu qeyd edirlər. Hətta N.Təhmizyan göstərir ki, türk, fars və erməni dillərini mükəmməl bilən Arutinin bu risaləsi «türk dilində erməni hərfləri ilə yazılmışdır». Görəsən üç dili mükəmməl bilən bu erməni öz risaləsini niyə məhz türk dilində, lakin erməni hərfləri ilə yazıya almışdır? Bu bir tərəfdən təsdiqləyir ki, həmin dövrdə və ondan sonrakı illərdə bu bölgədə türk – Azərbaycan dili aparıcı dil olmuşdur. Digər tərəfdən isə erməni dilinin leksik-semantik xüsusiyyətləri buna imkan vermirdi. Lakin məsələnin əsl səbəbi tamamilə başqadır. Sənətşünaslıq doktoru Rafiq İmrani Arutinin kitabının Haşımbəyin və Zakirbəyin musiqi risalələri ilə müqayisəli təhlilini apararaq belə bir məntiqi nəticəyə gəlmişdir ki, «erməni musiqiçilərinin musiqi risalələri Azərbaycan-türk

muğam sənəti haqqında olan musiqi əsərləridir ki, erməni əlifbası ilə üzü köçürülmüşdür»[213].

Başqa bir mənimsəmə metodu azərbaycanlıların yaratdıqları el nəğmələrini nota salmaqla özününküləşdirmək idi. Vaxtı ilə Üzeyir bəy göstərirdi ki, Anton Mailyan «Şah İsmayıl» operasından «Haydı qızlar!» və fars dilində oxunan «Ay yoldaşlar!» nəğməsini notaya alaraq öz musiqisi hesab edirdi[214].

Lakin XX əsr tarixin yaddaşına təkcə Azərbaycan musiqisinin ermənilər tərəfindən mənimsənilməsi kimi yox, həm də milli musiqimizin qanlı metodlarla repressiyası tarixi kimi yazıldı. ***İnkvizisiya və irtica öz gücünü milli alətlər üzərində də sınadı. Milli musiqi alətimiz olan «Tar»ın da farslardan gəlmə olduğu elan edildi. Elə ona görə də 1929-cu ildə artıq tarın səsi böyük səhnədən deyil, məhkəmədən gəldi. «Tar» ədəbi mühakiməyə verildi. Ədəbi mühakimə və ya ədəbi məhkəmə totalitar rejimin repressiv aksiyalarının formalarından biri idi.***

Kommunist qəzetinin 11 yanvar 1929-cu il tarixli, 9-cu sayında oxuyuruq: «Tarın məhkəməsi: Şənbə günü yanvar ayının 12-də axşam saat 7 tamamda, Bünyadzadə adına Dövlət Türk Teatrosu binasında tarın bir musiqi aləti olmaq üzrə lazım olub olmadığı haqqında böyük müzakirə və mübahisə məclisi çağırılır.


Müzakirədə xalq maarif komissarı Quliyev və musiqi mütəxəssisləri iştirak edəcəkdir.

Teatra daxil olmaq üçün əvvəlcədən Dövlət Konservatoriyasından buraxılış kağızı alınmalıdır» [215].

1920-30-cu illərin mətbuu mənbələrindən aydın görünür ki, xalq yaradıcılığına, klassik irsə ikili münasibət bəsləyənlərdən biri xalq maarifi komissarı, görkəmli tənqidçi M.Quli-

[213] Rafiq İmrani. Muğam tarixi. I cild. B. 1998, s. 72.
[214] Üzeyir Hacıbəyov. Seçilmiş əsərləri, B. Yazıçı, 1985, s. 184.
[215] «Kommunist» qəzeti. 11 yanvar, 1929, № 9 (2575).

yev idi. Azərbaycan xalq mahnılarından danışan tənqidçi onlara yüksək qiymət verir, sosialist musiqi mədəniyyətini yaradarkən həmin örnəklərdən istifadə olunmasının vacibliyini göstərir. O, xalq mahnıları barədə yazırdı: «Bu mahnılar bu vaxta qədər toplanmamışdır. Musiqi mədəniyyəti xalq mahnılarının əsasını təşkil edilir. Keçmişdə Azərbaycanda mütəxəssis türk işçiləri olmadığından türk nəğmələri işçi sinfinin işində bir ahəng əks edilməmişdi. Buna görə də, bir material olaraq Azərbaycanın təbii əhvalını, çöllərini,



Tarın məhkəməsi

Şənbə günü yanvar ayının 12-də axşam saat 7 tamamda, Bundyad - zadə adına Dövlət Türk Tiatrosu binasında tarın bir musiqi aləti olmaq üzrə lazım olub-olmadığı haqqında bəyan mübahisə və münaqişə məclisi çağırılır.

Müzakirədə Xalq Maarif Komissarı Kylijof və musiqi mütəxəssisləri iştirak edəcəqlərdir.

Tiatroya daxil olmaq üçün əvvəlcədən Dövlət Konservatoriyasından buraxılış qağızı almalıdır.

Tarın məhkəməsi ilə bağlı verilmiş elan.
«Kommunist» qəz., 1929, № 9

dağlarını, ormanlarını, kütlə yaşayışının şəraitini, kütlə güzəranını, xan, bəy hakimiyyətinin istibdadını əks etdirən kütlə mahnılarından istifadə edilir».[216]

Bu sözlər tənqidçinin xalq yaradıcılığına olan münasibətinin müsbət tərəfidir. Bəs onun xalq yaradıcılığına münasibətinin məhdudluğu nədə idi?

Azərbaycan xalq dastanları əsasında yaradılmış ilk milli operalarımız «Leyli və Məcnun», «Əsli və Kərəm» və «Şahsənəm»i (Aşıq Qərib) sosialist mədəniyyəti üçün yaramaz bir şey hesab edən M.Quliyev bu operalardakı musiqi parçalarını İran-fars mənşəli hesab etməklə, şikəstə, bayatı-qacar, şur və i. muğamların Azərbaycanın tələbatına cavab vermədiyini söyləyir. Onun fikrincə, «bu musiqi Azərbaycan kəndlisinə tamamilə yabancıdır, bunu yalnız ziyalı və varlı təbəqə qəbul etmiş və geniş təbəqələrə isə çatmamışdır».[217]

M.Quliyev xalqımıza olduqca yaxın, doğma olan tarı da İran musiqi aləti hesab edirdi. Burada haqlı bir sual meydana çıxır: Səsimizin ahəngi, dodağımızın zümzüməsi, ana laylası ilə qanımıza hopmuş muğamlar, pərdələri üzərində hər bir azərbaycanlının qəlbinin telləri köklənmiş, təsvirəgəlməz dərəcədə gözəl və möcüzəli səs imkanlarına malik, xalqımızın baş musiqi aləti tar bizə yaddırsa, bəs onda nədir bizə doğma olan? Qeyd edək ki, yersiz hücumlar nəticəsində tar orkestrdən və konservatoriyanın tədris proqramından çıxarıldı. Nə qədər ağrılı olsa da yeri gəlmişkən onu da qeyd etməliyik ki, həmin ərəfədə ermənilər tarın, neyin, kamanın onlara məxsus olduğunu sübut etməyə çalışırdılar. Maraqlıdır tarı birinə (azərbaycanlıya) yaddan gəlmə adı qoyaraq qadağan edir, heç bir aidiyyatı olmayan digə-

[216] Bəhcət B. Sarı Aşıq. Ədəbiyyat qəzeti, 29 fevral 1936.
[217] Əfəndiyev P. Azərbaycan folklorşünaslığının tarixi. Doktorluq dissertasiyası. B. 1973, s. 249.

rinə (ermənіyə) isə yaddan gələni özününküləşdirməyə şərait yaradırlar.

Xalq ədəbiyyatına və musiqisinə, klassik irsə ögey münasibət və hücumlar 30-cu illərin əvvəllərində davam etməkdə idi. Rəhim Həsənov öz məqaləsində yazırdı: «Heç bir ağlı başında adam deyə bilməz ki, «Əsli Kərəm», «Aşıq Qərib», «Şah İsmayıl» və bu iki bəstəkarın başqa əsərləri sosialist quruluşçusuna bu və ya digər faydanı verə bilirlər. Heç kəsə gizli deyil ki, bu əsərlər bizim traktorlarla, kombaynlarla, sosialist zavodları zərbəçiləri ilə, fabriklər və çöllərlə, bluminqalarla, elektrikləşdirmələrlə, domna ocaqları ilə, traktorstroylarla, Dneprostroylarla və başqaları ilə coşub yüksələn həyatımızı qətiyyən əks etdirməyirlər. Hacıbəyovun və Maqomayevin yaradıcılığı burjua bəstəkarlarının yaradıcılığıdır»[218].

Klassik irsdən hər cür istifadəni zərərli və düşmənçilik hesab edən R.Həsənov göstərir ki, «biz hələ keçmişin təsirlərindən tamamilə azad olmamışıq və özümüz üçün Hacıbəyovun və Maqomayevin yaratdıqlarına qarşı çıxa biləcək qiymətli əsərlər yaratmamışıq»[219]. Keçmişlə indi və gələcək, klassik irslə sosialist mədəniyyəti arasında barışmaz bir ziddiyyət görən, xalq yaradıcılığının iki yaxın sahəsini bir-birinə qarşı qoyan bu müəllif «kolxoz aşıqları yeni və əsrimizə uyğun mahnılar yaratmalıdırlar. Cabbarlının, Şuşinskilərin və başqa bu kimilərin manerası isə bizə yaramır və zərərlidir»[220] - deyə məşhur muğam ifaçılarının, xalq xanəndələrinin kütlə tərəfindən sevilən sənətinə qarşı çıxır.

[218] Həsənov R., Mamedova Ş. – Türk musiqi teatrosu nəzəriyyatçısı rolunda. İnqilab və mədəniyyət jurn., 1932, № 5, s. 30.
[219] Həsənov R., Mamedova Ş. – Türk musiqi teatrosu nəzəriyyatçısı rolunda. İnqilab və mədəniyyət jurn., 1932, № 5, s. 31.
[220] Həsənov R., Mamedova Ş. – Türk musiqi teatrosu nəzəriyyatçısı rolunda. İnqilab və mədəniyyət jurn., 1932, № 5, s. 31.

1929-cu ildə «İnqilab və mədəniyyət» jurnalı oxuculara «Tar konservatoriyadan çıxarıldı» xəbərini (müjdəsini) çatdırırdı: «Azərbaycan Dövlət Konservatoriyasını qüvvətləndirmək məqsədilə Azərbaycan Xalq Maarif Komissarlığı bir çox qərar qəbul etmişdir. Bu qərarlara görə məcburi dərs kursu olan tarın öyrənilməsi konservatoriyanın bütün dərəcələrində tədris planlarından götürülür və konservatoriya yanında olan Şərq orkestrosu ləğv olunur»[221].

Ədəbi əsərlərin və ya musiqi alətinin - tarın mühakiməsi əslində milli düşüncənin mühakiməsi idi. Maarif Komissarı M.Quliyev İrandan gəlmə alət olduğunu bəhanə edərək tarın arxivə göndərilməsi təşəbbüsü ilə çıxış edir. Əlbəttə M.Quliyev aysberqin görünən tərəfi idi. Ona görə də tarın mühakiməsini yalnız onun adı ilə bağlamaq sadəlöflük olardı. O, sadəcə bu siyasi sifarişin sadiq icraçısı idi. Görünən tərəf M.Quliyev olduğuna görə dövrün bir çox görkəmli ziyalıları da məhz ona öz etirazlarını bildirirdi. «Kommunist» qəzetindən götürdüyümüz Əfrasyab Bədəlbəylinin məqaləsinin[222] indiyə kimi başqa bir mənbədə nəşr olunmadığını nəzərə alaraq (həcminin bir qədər geniş olmasına baxmayaraq) onu olduğu kimi burada verməyi, elmi dövriyəyə buraxmağı məqsədəuyğun hesab edir, eyni zamanda bununla göstərmək istəyirik ki, totalitarizm dövründə də milli mədəniyyətimizə və milli musiqimizə qarşı yönəlmiş təhdidlərə müqavimətlər də olmuşdur. Onu da qeyd etməliyik ki, 1920-1950-ci illərdə milli mənəvi dəyərlərə qarşı təqib və təzyiqlər nə qədər güclənirdisə ona qarşı müqavimət hərakatı da bir o qədər artırdı.

[221] «İnqilab və mədəniyyət» jurnalı. 1929, № 2.
[222] «Kommunist» qəzeti. 11 yanvar, 1929, № 9 (2575).

Tar üzərinə mühakimə münasibətilə
Tar Azərbaycan xalq musiqi instrumentidir.
Tarın nota ilə çalınması
işində böyük müvəqqətiyyətlər vardır.
Tarı «muzeyə göndərmək» təşəbbüsü yanlışdır.
Tarın tərəqqi yolunu kəsməməli

Beynəlxalq musiqi alətlərindən başqa, hər xalqın özünəməxsus bir çox musiqi aləti dəxi vardır. Bunların bəzisi öz qayırılışı, səsi və dəyərinə görə, çox geniş intişar tapdığından (ingilis tütəyi kimi) beynəlxalq musiqi instrumentləri sırasına daxil olur. Bəziləri isə tərəqqi etmir, öz ibtidai halında qalırlar (saz kimi).

İnqilabdan sonra, şuralar ittifaqında xalq musiqi instrumentləri geniş intişar tapmışdır. İşçi klubları, kəndli guşələri, qızıl ordu hissələrində xalq musiqi instrumentləri dərnəyi təşkil olunmuşdur.

Avropa və Amerika ölkələrində də hər xalq öz musiqi instrumentinə «mülkü hüquq» verməyə, onu beynəlxalq musiqi instrumentləri ailəsinə daxil etməyə çalışır.

Bizim xalq musiqi instrumentlərimizdən ən çox tərəqqi və intişar edəni tardır.

Bir çoxları tarın Azərbaycan musiqi instrumenti olmadığını və rözəxanlar, mərsiyəxanlar ilə birlikdə İrandan gəldiyini və böyləliklə də xalis İran musiqi instrumenti olduğunu söyləyirlər. Bu fikir çox da doğru deyildir.

Əgər tar Azərbaycana İrandan gəlmişsə, hər halda tarın İranda icad edildiyi dəxi doğru deyildir. Miladdan 2000 il qabaq misirlilərin «Nabla» adlı musiqi instrumenti tarın ibtidai bir şəklindən başqa bir şey deyildir. Misirlilərin nablası İranda Əbu Nəsr Farabi tərəfindən təkmil edilmiş, İran tarı halına salınmışsa, Azərbaycanda da İran tarı məşhur tarçalan Sadiq tərəfindən büsbütün dəyişdirilmiş, Azərbaycanlılaşdırılmışdır.



TAR — AZƏRBAJCAN XALK M YSIKI INSTRYMENTIDIR. TAR LN NOTA ILƏ ÇALLNMASI I3INDƏ BƏJUQ MUVƏFFƏKIJJ ƏTLƏR VARDLR. TARL «MYZ EJƏ QƏNDƏRMEQ» TƏ3ƏB - BUSU JANLI3DLR. TARLN TƏRƏKKI JOLYNY QƏSMƏMƏ LI.

Bejnəlxəlk mysiki a'lətlərin - dən baəka, hər xalkın ozunə məx sys bir çok mysiki a'lətj dəxi var dır. Bynların ba'zisi əz kajırılışı, səsi və dəjərinə qora, çok qənə intiaar tapdıgından (inqiliz tutəji qibi) bejnəlxalk mysiki instryme ntləri sırastna daxil olyr. Ba'zələri isə tərəkki etmir, əz ibtidai ha lında kalırlar (saz qibi)

Inkılabdan sonra, 3yralar Itti fakında xalk mysiki instrymentləri qənə intiaar tapmıalardır. Iəci kylybları, qəntli qyəələri, kı zıl ordy hissələrində xalk mysiki instrymentləri dərnəqləri təəqil olynmyədyr.

Avropa və Amerika olqərində da hər xalk, əz mysiki instrymen mysikiçilər jetiadirməq məksədi jurutulmuədur.

Mysiki məqtəblərində (əvvəlcə Dəvlət Turq Mysiki Texnikymy, sonra isə Dəvlət Konservatorja - sında) tar dərsi okyjan aajırdlara həm Bərk məkamatı və həm də nota uzrə tar çalmak dərsləri verilir.

Tarın nota uzrə çalınması lələrini daha muqəmməl, daha duzqun və daha səmərəli bir hala salmak için vəktilə dəvlət mysiki texnikymy janındaqı Ilmi - Bədii 3yra; tar instrymentinin bütün xusysijjətini nəzərə alaraq tar için xusysi mysiki açarı (Qərb mysikisindəqi metso — soprano açarı jerində) bir mə-

orqestrosyny tembr e'tibarilə zənginləədirməq deməqdir»

Tarın etnografik cəhətjucə də əhəmijjəti bəjuqdur. Xalk mysikisinə xusysi bir əhəmijjət verdijimiz bir zamanda, eyni zamanda xalk mysikisini) qəzdirəq, eyni qəsiqini çəqən' ony saklaq tarı myzeja qəndərməq üçün kadar junk3 bir təəbbusdur.

3yra cumhyrijjətlərində xalk mysiki instrymentlərinə bəjuq bir əhəmijjət verilirqən, xalk mysiki instrymentlərindən orqestrolar təəqil olynyrqan, balalajka və garmoəkalardan butun iəci kylyblarında dərnəqlər duzəltdirqən xalk mysikisinin tərəkkisi üçün bəjuq bir məj— [illegible]

Əfrasyabın tarın məhkəməsinə etiraz məqaləsi.
«Kommunist» qəz., 1929, № 9

Aprel inqilabından sonra tar geniş bir intişar tapmışdır. İşçi klubları, qadınlar klubları, kəndli guşələri, məktəblər və qızıl ordu hissələrinin çoxunda tar dərnəkləri vardır. Eyni surətlə musiqi məktəblərində dəxi tar dərsi sinifləri təşkil olunmuş və bu siniflərdə oxuyanlardan gələcəkdə toy tarçıları deyil, bəlkə musiqi elmini istər nəzəri və istərsə əməli cəhətdən ətraflı öyrənmiş musiqiçilər yetişdirmək məqsədi yürüdülmüşdür.

Musiqi məktəblərində (əvvəlcə Dövlət Türk Musiqi Texnikumu, sonra isə Dövlət Konservatoriyasında) tar dərsi oxuyan şagirdlərə həm Şərq muğamatı və həm də nota üzrə tar çalmaq dərsləri verilir.

Tarın nota üzrə çalınması işlərini daha mükəmməl, daha düzgün və daha səmərəli bir hala salmaq üçün vaxtilə dövlət musiqi texnikumu yanındakı Elmi-Bədii Şura; tar instrumentinin bütün xüsusiyyətlərini nəzərə alaraq tar üçün xüsusi musiqi açarı (Qərb musiqisindəki metso-soprano açarı yerində məlakəmizin sərlövhəsində sol tərəfdən çəkilmişdir) qəbul etmiş başqa instrumentlərdə olduğu kimi tar üçün dəxi müəyyən dörd təyin olunmuş (ağ sim – do, sari sim – bir kvarta, yəni dörd pərdə aşağı – sol) və nota ilə tar dərsləri bu əsas üzrə verilmişdir.

25-ci il may ayında Dövlət Türk Musiqi Texnikumu tələbələri tərəfindən oynanılan «Arşın Mal Alan» operettası, orkestrasında iştirak edən tarçılar; hazırda «Leyli və Məcnun», «Şah İsmayıl», «Aşıq Qərib» kimi operalarda musiqinin muğamat qismini çalan tarzən vəzifəsini daşımırdılar. Onlar: orkestrın başqa üzvləri (skripka, klarnet, qaboy və başqaları) kimi bərabər hüquqda olub onlarla birlikdə ümumi ahəngi qüvvətləndirir və tembri (səsinin xasiyyəti) ilə orkestri zinətləndirir.

Bizim gələcək opera və simfoniyalarımızın yazılışında tar üçün xüsusi bir sətr ayrılmalıdır.

Tar; öz diapazonuna (səsinin həcmi) görə də kiçik bir instrument deyildir. Bunun iki oktava yarım səsi vardır.

Halbuki, Avropa musiqisi instrumentlərindən bir çoxunun diapozonu bundan kiçikdir.

Məşhur rus musiqişünası İppolitov – İvanov tar haqqında yazır:

«Bu instrumenti; Avropa musiqi instrumentləri ailəsi içərisinə daxil etmək, Avropa orkestrını tembr etibarilə zənginləşdirmək deməkdir».

Tarın etnoqrafik cəhətcə də əhəmiyyəti böyükdür. Xalq musiqisinə xüsusi bir əhəmiyyət verdiyimiz bir zamanda onu (xalq musiqisini) gəzdirən, onun keşiyini çəkən, onu saxlayan tarı muzeyə göndərmək nə qədər yalnış bir təşəbbüsdür.

Şura cumhuriyyətlərində xalq musiqi instrumentlərinə böyük bir əhəmiyyət verilərkən, xalq musiqi instrumentlərindən orkestorlar təşkil olunarkən, balalayka və qarmoşkalardan bütün işçi klublarında dərnəklər düzəltdirən xalq musiqisinin tərəqqisi üçün böyük bir meydan verilir və yardım göstərilərək əvvəllərdə gülünc görünən Türküstan sazı ilə bir türküstanlı Şuralar İttifaqında konsert qastrollarına çıxdıqda (Kari Yəkub) böyük müvəffəqiyyətlər ilə qarşılanarkən, doğrudan doğruya mükəmməl bir instrument olan və ölkəmizdə çox intişar tapan tarı muzeyə göndərmək – hər bir halda doğru bir xətt hərəkət deyildir.

Tarın tərəqqi yolunu kəsməməli, Konservatoriyada tar dərslərini məhdud bir hala salmamalı, yenə də əvvəldə olduğu kimi aparmalı, tarı çayçı, kababçı dükanlarından xilas edib, Azərbaycan xalq instrumentləri nümayəndəsi sifətilə beynəlxalq musiqi instrumentləri ailəsi içərisinə daxil etməyə çalışmalıdır[223].

Bu məqaləni adı çəkilməsə də maarif komissarı M.Quliyevə açıq məktub da adlandırmaq olar. Yeri gəlmişkən, akademik izahlı lüğətlərdə fransızcadan alınmış ***«comissaire»*** sözündən olan ***«komissar»*** ifadəsi ***hərbi***

[223] «Kommunist» qəzeti. 11 yanvar, 1929, № 9 (2575).

işin başında dayanan adam kimi mənalandırılır. Bu cəhətdən, komissar deyəndə yada maarif və təhsil işçisi deyil, komandir, hərbi hissə, polk, diviziya, onlara verilən tapşırıqların müzakirəsiz və müdaxiləsiz icrası düşür. ***Mənim məqsədim Xalq Daxili İşlər Komissarlığı (NKVD) tərəfindən millətçilikdə ittiham edilərək 3 iyul 1938-ci ildə güllələnmiş komissarı və ya kommunisti yenidən güllələmək deyil, əksinə onu dərdləri və milliliyi ilə birlikdə dərk etməkdir.*** Təkrardan qorxmadan deməliyəm ki, tanınmış alim M.Quliyev aysberqin yalnız görünən tərəfi (icraçı) idi. Aysberqin görünməyən tərəfində isə böyük bir totalitar rejim və onu idarə edənlər dayanırdı.

Mətləbdən uzaqlaşmadan deməliyik ki, tara olan bu münasibətə etiraz edənlərdən biri də böyük Üzeyir Hacıbəyov idi. Üzeyir bəy yalnız tarın deyil, bütövlükdə milli musiqinin taleyinə biganə qala bilmir və özünün obyektiv münasibətini bildirməkdən çəkinmirdi. «Hər halda yoldaş Quliyevin (Mustafa Quliyev nəzərdə tutulur – C.Q.) operalarımızı tənqid etməsində bizi məmnun edəcək bir hal var ki, o da türk operalarının mədəni əhəmiyyətini iqrar ilə tərəqqisini tələb və arzu etməkdir. Bu tənqid ilə inqilabdan əvvəl eşitdiyimiz tənqid arasında göy və yer qədər təfavüt vardır. O vaxt türkcə danışmağı özləri üçün «ayıb» bilən, türk qəzetlərini ələ almağı «ar» hesab edən bir para «abrozovannı» adamlarımız türk operalarını dəxi bir «biabırçılıq» deyə tənqid edib ləğv edilməsini istəyirdilər. Avropa musiqisindən cüzi də olsa bir şey anlamayan bu şəxslər öz «intelligent» olmaqlarını göstərmək üçün, rus opera teatrının ən qiymətli lojalarında oturub əsnəməyi özləri üçün ar hesab etməyib, türk operasına «bezobraziya» deyib əskik göz ilə baxardılar. Türk operalarının zühuru Azərbaycan xalqı arasında mədəni bir hadisə, tərəqqiyə tərəf dərin bir meyl əlaməti olduğunu başa düşə bilməyən bu çürük fikirlər, əlbəttə, başqa cür «tənqid» yolu bilməzdilər».[224]

[224] Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı. 1985, s. 200.

Üzeyir bəy fikirlərinin davamı kimi yazırdı: «Musiqi təhsili – Eşitdiyimiz məruzədən böylə anlaşıldı ki, yoldaş Quliyev yalnız Avropa musiqisi təhsilinin tərəfdarıdır. Şərq musiqi təhsili lüzumuna aid məruzədə bir şey yoxdu. Yalnız bunu bildik ki, Quliyev yoldaş şəxsən (tar) təhsilinin tərəfdarı deyildir və hətta tarın xalq musiqisi aləti cümləsindən olduğuna da inanmır.

Zənn edirəm ki, yoldaş Quliyev tarın xalq musiqisi alətindən biri olduğunu iqrar etsə idi, yenə tar təhsili şəxsən lüzumsuz edəcək idi. İş bundadır ki, başqa millətlərin, məsələn, rus, alman, firəng və sairələrinin dəxi bir xeyli xalq musiqi alətləri vardır. Bununla belə bu alət və sazların çalğısı musiqi məktəblərində təhsil olunmur. Çalğıları öyrənilən alət yalnız piano və əlavə orkestrdə mövcud olan instrumentlərdir. Məsələn, vialon, violonçel, klarnet, fleta, trumba və sairə; daha gitara, mondalina, qusli, dombra və bu kimi xalq musiqi alətləri musiqi məktəbləri daxilində təhsil edilməz. Böylə olan surətdə, bizə nə düşübdür ki, tar, saz, zurna və balabanlarımızı konservatoriya proqramına daxil edib tədrisini tələb edək.

Əlbəttə, əgər bir musiqi təhsilindən ibarət yalnız Avropa musiqisini hesab etsə idik, biz də yoldaş Quliyev ilə bərabər tar təhsilinin lüzumsuz bir şey olduğunu iqrar edib ləğv tərəfdarı olardıq.

Fəqət bu xüsusda bizim fikrimiz böylədir ki, Avropa musiqisindən əlavə birdə Şərq musiqisi vardır və biz azərbaycanlılar özümüz Şərq əhlindən olduğumuza görə musiqi təhsili işində Şərq musiqisinə qarşı laqeyd qalarsaq, öz mədəni vəzifəmizi kamalınca ifa etməmiş olarıq. Tar isə Şərq musiqisi təhsilini genişləndirə bilən alətdən ən qiymətlisi, ən mühümüdür. Yoldaş Quliyev zənn etməsin ki, tar təhsilini konservatoriya proqramına daxil etməklə gələcək üçün sazandalar hazırlanması nəzərdə tutulur. Musiqi məktəbi tara yalnız elmi cəhətdən yanaşır və onu Şərq

musiqisinin əsası olan muğamatın kəşf və şərhi üçün elmi bir alət sifəti ilə öz proqramına daxil edir. Tarda musiqi məktəbi daxilində «ənzəli» kimi küçə diringələri çalğısı təhsil edilmir, bəlkə müəyyən proqram üzrə muğamat tədris edilməklə Avropa musiqi əsasından qeyri olan Şərq musiqi əsasları şagirdlər üçün şərh və bəyan olunur. Əz cümlə tarı not üzrə çalmaq mümkün olduğundan tarçı şagird tam bir musiqi təhsili görmüş olur.

Hər halda yoldaş Quliyev tar haqqında öz şəxsi fikrini söyləyib, mübahisəli olan bu məsələnin qəti həllini musiqarlara həvalə etməyə mail olduğunu bildirdi ki, ən gözəli də budur. Bununla belə yoldaş Quliyevin tar haqqındakı rəyi böylə bir xeyir işə müncər oldu ki, Şərqi qina (xanəndəlik) kimi heç bir elmi, fənni və bədii mənası olmayan dərslər musiqi məktəbi proqramından silinsin.[225]

Tarın mühakiməsi və müdafiəsi yalnız məhkəmə ilə yekunlaşmadı, musiqişünasların mübahisə predmeti olmaqla yanaşı ədəbi prosesin – poeziyanın özünə də yol açdı. S.Rüstəmin poeziyasında ***tarla proletar həmqafiyə olsa da, həmdərd ola bilmədi:*** əks qütblər, düşmən tərəflər kimi bir-birinə baxdılar. S.Rüstəmin:

«Oxuma tar, oxuma tar,
Səni sevmir proletar.

Ötmə dedim, ötmə tar,
İstəməyir proletar
Səndə çalınsın qatar»,

– poetik imperativi səsləndi. M.Müşfiq isə təqib və təzyiqlərə sinə gərərək öz yanğısını və xalqın yaratdıqlarına olan sevgisini poetik-milli manifestasiyaya çevirdi:

[225] Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı. 1985, s. 203.

Oxu, tar, oxu, tar!...
Səsindən ən lətif şeirlər dinləyim
Oxu, tar, bir kadar!...
Nəğməni su kimi alışan ruhuma çiləyim
Oxu, tar!
Səni kim unudar?
Ey geniş kütlənin acısı, şərbəti,
Alovlu sənəti!

M.Müşfiqin «Oxu tar», S.Rüstəmin «Oxuma tar» müraciətində tarı dinləyənlərin və dinləməyənlərin ünvanı eyni idi, «proletar» və «geniş kütlə». Bir qədər sonra xalq şairi, mərhum Bəxtiyar Vahabzadənin «Muğam»dan tara müraciətini eşidirik:

Dinlə tarı, dinlə neyi,
O keçmişdən söhbət açan
Səs muzeyi.

B.Vahabzadə «Oxu tar», «Oxuma tar» dilemmasına və təzadına özünün poetik hökmünü verir və tara neyi də əlavə edərək «dinlə tarı», «dinlə neyi» – deyir. Burada müraciətin ünvanının coğrafiyası bir qədər də genişlənir, tarı dinləməyə «proletar» və ya «geniş kütlə» deyil, bütövlükdə xalq dəvət olunur. O xalq ki, tarı öz ruhunda yaşadır.

Sovet hökumətnin diqtə etdiyi "ələmdən nəşəyə" aparan yol özünün zirvə məqamına köləlikdə, qrammofonluqda, manqurdluqda çatır. Ələmdən, əzabdan keçib özünüdərkə aparan yol isə təsdiqini Nizami Gəncəvidə, Məhəmməd Füzulidə, Hüseyn Caviddə, Əlibəy Hüseynzadədə, Tofiq Fikrətdə, Sultan Qəliyevdə, Ziya Göyalpda, «Kitabi-Dədə Qorqud»da və nəhayət, azadlığa aparan şəhidlik zirvəsində, müstəqillikdə tapır. Hər yerdə fərdi ziyalı «mən»inin dərki, azadlığı, milli «mən»in dərki və azadlığı ilə tamamlanır.

NƏTİCƏ

Üst qatda, görünən tərəfdə bədii əsərlərin hər hansı bir obrazı mühakimə olunsa da ümumilikdə, bir ictimai-siyasi formasiya kimi kapitalizmin özü ittiham edilirdi. Bu isə daha gerçək bir qatın, mahiyyətin – milli-mənəvi dəyərlərin, ruhun davamının qarşısını almağa yönəlmişdi.

Dram əsərlərinin ittihamı onların kütləvi təsir imkanı ilə bağlı idi. Ədəbi məhkəmələrdə hüquq işçilərinin iştirakı fikrimizcə, iki məqsədə xidmət edirdi; Birincisi hüquq-mühafizə orqanlarının işçiləri ədəbi məhkəmələrin gedişatında ardıcıllığı və ya məhkəmə prosesini düzgün qurmaq üçün məsləhətçi kimi qatılır, ikincisi isə daha ciddi mətləblərdən xəbər verirdi. Belə ki, hüquq-mühafizə orqanlarının məsul əməkdaşlarının özlərinə göstərirdilər ki, gələcək məhkəmələrdə ziyalıları ittiham edərkən onların əsərlərindəki bu kimi məsələlərə də diqqət yetirsinlər və ziyalıları sovet hökumətini təbliğ etməyə istiqamətləndirsinlər.

İndi məhz bu günkü arxivlərdəki yeni sənədləri ilk dəfə üzə çıxarakən, həm repressiv aktlarda, həm də repressiyaya məruz qalımş əsər və müəlliflərlə bağlı həqiqətlərdə bu vaxta qədər naməlum, və gizli saxlananlarla tanış olarkən, hadisələr gözlərimiz qarşısında tamamilə təzə bir rakursda, bu hadisələrə məhz azad, suveren, milli təfəkkürdən, qürurdan və ağrıdan düşən işıqda əsl tarixi bütövlüyü və əxlaqi həqiqəti ilə görünür.

Maraqlıdır ki, bu qədər qadağaların olmasına baxmayaraq, sovet cəmiyyəti demokratik, humanist bir cəmiyyət kimi qələmə verilirdi. O dövlət ki, «troyka» ilə idarə olunur orada demokratiyadan və demokratik prinsiplərdən danışmaq olmaz. «Ellər atası» Stalinin dediyi hər bir söz təkcə dövlət adamları yanında deyil, ucqar əyalətlərdən mərkəzə qədər hamı üçün qanun idi. Demokratiya estetik hissin, duyğunun və bütün sağlam düşüncənin azadlığıdır. Demok-

ratik dövlətdə fərdin, «mən»in yox, xalqın, «biz»in fikrinə söykənilir. «Mən» özü ilə dövlətə demokratiya deyil, siyasi repressiya və şəxsiyyətəpərəstiş gətirə bilər. Arxiv materiallarından aydın olur ki, bolşeviklər Azərbaycanda repressiyalara Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi illərdən başlamışlar. Bu əvvəllər terror, təxribat xarakteri daşısa da sovetləşmənin ilk günlərindən kütləvi siyasi repressiyaya çevrilmişdir. Bu siyasi repressiyanın ilk qurbanı isə Azərbaycan Xalq Cümhuriyyətinin özü olmuşdur. Təqribən iki il fəaliyyət göstərən bir dövləti bolşeviklər «dəfn etməyə» cəhd etdilər və xalqın yaddaşından bu iki illik zamanı silib atmağa, kəsib tullamağa çalışdılar. Bu proses müxtəlif yollarla həyata keçirilirdi ki, bunlardan biri də Azərbaycanın maarif, mədəniyyət adamlarının və ziyalılarının məhv edilməsi və yaxud da sovet masasının ətrafında əyləşdirmək idi.

Sənətkarın böyüklüyü, bütövlüyü onun yaradıcılığı ilə şəxsiyyətinin vəhdətində özünü tapır. Bu bütövlük onun sözü ilə işi, yaratdıqları həyatda mənəviyyat və əxlaqı ilə, şəxsiyyətin, sənətdə fərdi «mən» informasiyası arasındakı ahəngdən yaranır. Bu vəhdət pozulanda sənətkarla zaman arasında da harmoniya pozulur, nəsillər və illər arasında da səhman məhvərdən çıxır, «zamanın bağları» qırılır.

Bu qanunauyğunluq zamanla ədəbiyyat arasında münasibətlərin, istisnasız, bütün tarixində özünü göstərir, amma xüsusilə qabarıq, açıq, klassik formasını – zorakılıq, irtica, inkvizisiya və repressiya dövrlərində alır.

Odur ki, qeyri-prinsipial, yarımçıq, saxta etiraf, tənqid və islahatla («perestroyka» ilə) qırmızı imperiyanı – ilk gündən repressiv inzibati-siyasi qurum kimi doğuran mexanizmi – repressiya quruluşunu cilalamaq mümkün olmadı. SSRİ-nin dağılması obyektiv-tarixi qanunauyğunluğun ifadəsi oldu. Və təmamilə qanuni olaraq bu son böyük imperiyanın xərabələri üzərində suveren, müstəqil xalqların milli dövlət

sarayları ucaldıldı. Həmin xərabələrin altında isə hələ də tam şəkildə üzə çıxara bilmədiyimiz çoxlu sayda tarixi həqiqətlər qalmaqdadır. Ədəbi məhkəmələr də həmin dövrün milli mənəvi dəyərlərimizə vurduğu zərbələrdəndir ki, onları da elmi-ədəbi ictimaiyyətə çatdırmağın vaxtı çoxdan çatmışdır.

Araşdırmaların yekunu kimi demək olar ki, ədəbi məhkəmələrdə İskəndərin ittihamı («Ölülər») milli ziyalıların, Gültəkinin ittihamı («Aydın») milli burjuaziyanın, Şeyx Sənanın («Şeyx Sənan») ittihamı milli dini-islami dəyərlərin, Tarın ittihamı isə milli musiqi mədəniyyətimizin mühakiməsi idi. Göründüyü kimi, sovetləşmənin ilk illərindən milli ziyalının, milli burjuaziyanın və milli dini-islami dəyərlərin məhvi və ya öz arzu və istəklərinə uyğunlaşdırılması bolşeviklərin əsas məramı idi. Bütün bunlar yalnız bədii düşüncə məsələsi deyil, həm də genezis məsələsi idi.

ƏLAVƏLƏR

«ÖLÜLƏR» ƏSƏRİNİN QƏHRƏMANI İSKƏNDƏRİN MÜHAKİMƏSİ İLƏ BAĞLI MATERİALLAR

«Əxbar» qəzeti, 9 iyul, 1920, № 40

Ədəbi məhkəmə

Bu günlərdə dövləti teatro heyəti ədəbiyyat və tənqid komisyonunun təşəbbüsü ilə Dövləti teatro müdiriyyəti aktyorlarının və bəzi məruf ədəbi mühümlərin iştirakı ilə məşhur «Ölülər» faciəsinin qəhrəmanı Kefli İskəndərin ədəbi mühakiməsi olacaqdır. Bu xüsusda hazırlıq görülməkdədir. Mühakimə açıq qapıda xalq müvacihəsində mərkəzi fəhlə klubunun (sabiq türk ocağının) salonunda olacaqdır.

* * *

«Əxbar» qəzeti, 23 iyul, 1920, № 52

Teatro və musiqi

Ölülər

Qabaqda xəbər verilmiş olduğu üzərə keçən cümə günü Şura (Əbilov) teatrosunda «Ölülər» faciəsinin qəhrəmanı Kefli İskəndərin mühakiməsi olacaq idi. Fəqət müddeyi-ümuminin gəlməməyindən dolayı mühakimə baş tutmadı.

Şimdi mühakimə bugün (cümə) iyulun 23-ndə təyin edilmişdir.

Möhtərəm cəmaətə xəbər veriliyor ki, tamaşa pulsuzdur. Qadınlar üçün ayrıca lojalar var.

Təvəqqe olunur mühakiməyə mane olmamaq üçün öz vaxtında gələsiniz.

* * *

«Maarif və mədəniyyət» jurnalı, 1923, fevral, № 2.

Ədəbi mühakimə

Darül-məlumat binasında: Molla Nəsrəddin tərəfindən yazılmış və dəfaətlə səhnəmizdə movqeyi-tamaşaya qoyulmuş olan «Ölülər» namındakı pyesa üzərində məhkəmeyi-ədəbiyyə cərəyan etmişdir: müddeyi-ümumilər Cəfər Cabbarzadə, Əbdül Əbdülzadə və müdafiələr sırasında Hüseyn Sadiq, Cavad və Zeynallı Hənəfi iştirak etmişlər. Mühakimə birinci dəfə bir az da tərtibsiz və bir tağım nöqsanlarına baxmayaraq son dərəcə maraqlı keçdi. İskəndəri müvəqqətən ictimai həyatımıza müğayir bir tip gördükləri üçün məhkəmə tərəfindən hüquqi-mədəniyyədən məhrum etdilər. Lakin Şeyx Nəsrullaha qarşı apardığı üsyanında müsbət bir hərəkət etdiyi də ayrıca qeyd etdilər.

* * *

«Maarif və mədəniyyət» jurnalı, 1923, № 2.

Darül-məlumat binasında «Ölülərin» ədəbi mühakiməsi olmuşdur. Prokuror C.Cabbarlı, müdafiəçilər – Seyid Hüseyn, Əhməd Cavad və H.Zeynallı.

Məhkəmənin qərarı: İskəndər müvəqqəti olaraq ictimai həyata müğayir bir şəxsiyyət kimi mədəni hüquqdan məhrum edilsin. Lakin Şeyx Nəsrullaha qarşı üsyanı müsbət bir hərəkət kimi qeyd edilsin.

* * *

«Yeni yol» qəzeti, 1923, 3 mart, № 8.

Ədəbi məhkəmə

Bakı ziyalıları!

İki cümədir «Ölülər» qəhrəmanı Kefli İskəndəri mühakimə edirlər. İskəndər ziyalı olmasa idi və onun hərəkəti də

ümumən ziyalılara toxunmasa idi şübhəsiz İskəndər məhkəməyə cəlb edilməzdi.

Əvvələn İskəndərin o zaman yaşadığı mühiti, tərbiyə aldığı dairələr (istər Azərbaycan, istər Fransa olsun) və özünün yetişdiyi və həm də dönüb yaşadığı külfəti nəzərə almalıdır. Bu gün İskəndəri bir ictimai vəzifəsini ya da ictimai borcunu yerinə yetirməyib tənbəllik və keflilik ilə gün keçirməkdə töhmətləndirirlər.

O vaxtın ziyalıları nəinki tənbəl idilər, hələ bəlkə qulluq etmələri ilə xalqa zərərli idilər, qeyri millətin qulluqçuları ilə bunların bir fərqi görülmürdü. Fəqət İskəndəri onların cərgsində aparmaq olmaz. İskəndər aktivni (fəal) işləməmiş isə də fəqət hər zaman xurafat və mövhumat əleyhinə getmişdir. Xalqda bir fikir və şübhə oyanmışdır.

Əgər onun adının keflilik ilə məşhur olmasına qalırsa, bunun heç əhəmiyyəti yoxdur: avam xalq həmişə adamın adını və ya fəmilini işlətməzlər. Hər halda ləyalca bir quyruq, bir süpürgə bağlayar deyərlər. Məsələn: Sibirə gedib qayıtmışlara Sibir Aslan, erməni ilə dost olana erməni Məhəmməd, başına şapka qoyana rus Kədim, Tiryəki Murad, donuz Qara, bircə istəkan çaxır içsə kefli İskəndər deyərlər.

O zaman da yalnız İskəndəri töhmətləndirmək lazım gəlirdisə, bugün şairlər, ədiblər, hətta bütün şəhər insanları keflidirlər.

Bugündə ali təhsilli adamlar məscidlərdə pul verib ölüsü üçün dualar oxutdurur, fəqət İskəndər o zaman zidd gedirdi.

İskəndər haqqında çıxarılan qərar yersiz və nahaq oldu.

Qur.

* * *

«Yeni yol» qəzeti, 1923, 10 mart, № 9.

«Ölülər» qəhrəmanı İskəndərin məhkəməsi münasibətilə

Fevralın 16-da Sabir kitabxanası təşəbbüsülə «Ölülər» qəhrəmanı İskəndərin üzərində tərtib edilən məhkəməyə zi-

yalılar, tələbələr və bir çox başqa vətəndaşlar cəlb edilmişlər.

19-cu əsrin son illərində Azərbaycan yaşayışının zəmisində əmələ gələn «yeniyetmə» ziyalıların, İskəndər doğru bir tipidir. Ona görə İskəndərin düşüncələrini öyrənmək onun tərz-hərəkətini təyin etmək, yuxarıda göstərdiyimiz vaxtda ziyalıların ictimai yaşayışında tutduğu vəziyyəti nəzərdən keçirmək deməkdir.

O vaxt ziyalıların bir hissəsi Sabirin axundları ilə bərabər: «Millət necə tarac olur olsun nə işim var» - deyib «piyaladan» və «Sonyalardan» başqa bir şey tanımayanlardan o biriləri isə xalqın qaranlıqda və əsirlikdə yaşamasını nəzərə alıb mövhumat ilə ciddi mübarizəyə girişənlərdən və buna görə çarizm hökuməti tərəfindən təqib və sürgün edilənlərdən ibarət idi.

Əcəba! Realizm cəhətcə Qoqol «Revizorundan» geri qalmayan, ədəbiyyatımızda yüksək mövqe tutub, mətbuatda dəfələrlə debatlara səbəb olan «Ölülər» qəhrəmanı göstərdiyimiz məşrut hissələrin hansına mənsub olmalıdır. Bu suala cavab vermək üçün İskəndərin tərcümeyi-halı ilə aşna olmaq, onun səhnədəki fəaliyyətinə diqqət edib, ailəsinə və mühitinə nə kimi münasibətdə bulunmasını düşünmək lazımdır.

İskəndər Naxçıvanın adlı-sanlı taciri Hascı Həsənin oğlu olub ilk təhsilini sxolastik metodu ilə bir molladan alar. Atası sevgili oğlunu başqaları ilə bərabər məktəbə göndərmək istəmədiyindən ona evdə dərs verdilər. Təbii, molla verdiyi dərsin ən böyüyü dərs verən molla və onun mütəəllimi anlamayan Sədi Gülüstanı olacaq idi. Bu təhsil dövrəsini bitirdikdən sonra İskəndər Bakıya göndərilir ki, orada «kafirlər» elmi oxuyub bir «adam» olsun. «Adam olmağı» Hacı Həsən nə cür anlaması bizcə məlumdur. Fəqət əsas üzrə qalır – İskəndər Avropa üsulu ilə elmi təhsil etməyə müvəffəq olur. Belə cəsarətli addım atmaqla Hacı Həsən yeniləşmiş əsrinə böyük bir ərməğan vermiş olmurmu? Yəqinki Hacı Həsən

belə cəsarətinə görə Hacı Baxşəlilər tərəfindən təqfirlərə və lənətlərə düçar olacaqdı. Ancaq Hacı Həsən bununla da iktifa etmir. «Ətəklərlə qızıl töküb» oğlunu Firəngistana göndərir. Yenə təkrar edirəm Hacı Həsənin oğlunu təhsilə göndərməkdə nə kimi məqsəd təkib etməsi bizi maraqlandırmaz. Çünki Firəngistan təhsilindən kayıdacaq qəhrəmanın fəaliyyəti yəqinki ölülərin dirilməsinə inanan Hacı Həsənlərin istək və arzularından asılı olmayacaqdır.

Nə olursa olsun İskəndər bir zamandan sonra təhsildən qayıdar. Əvvəllərdə gözəlcəsinə tanıdığı mühit bütün çılpaqlığı ilə bunun qarşısında durar. Mövhumatın qara buludları ətrafı bürümüş, heç yerdən nicat işığı yoxdur. Doqquz yaşlı qızlar babaları yaşlı kişilərə verilir. Gündə bir İsfahan lotusu ölü diriltmək bəhanəsi ilə xəlqi soyar, namusuna təcavüz edər.

Belə cəhalət qarşısında duran anlaklı, Avropa təhsili görmüş İskəndər nə edir. Bir neçə vaxt Şekspirin Hamleti kimi «varlığını yoxluğunu» deyər. Bilməz mübarizəsini hansı tərəfdən başlasın. Öyrəndiyi tarix və fəlsəfədə yollar arar. Haqlı olaraq qubernator və naçalniklər yanında jandarmalıq etməyi alçaq iş hesab edər. Başqa ictimai vəzifələri də tutmağa kəndisində cəsarət bulmaz. Çünki belə vəzifədə çalışanları hökumət sürgün edir. Bu qədər ölçü-biçimdən sonra altun gücü ilə təhsil edən ziyalı «böyük bir inqilab yolu tapar». O da müsqirat sərxoşluq və bundan əmələ gələn fənalıq yollarıdır. Məhkəmə üzvlərindən biri İskəndərə «şərab içməkdə məqsədin nə idi?» - deyib sual verdikdə İskəndər cavabən: «Şərab ilə ölülər sultanlığında inqilab yapmaq istərdim» - dedi. Görəsən, tarix indiyə kimi belə bir inqilabçı yetiribdirmi? (Sonu var).

H.İmanov

* * *

«Yeni yol» qəzeti, 1923, 31 mart, № 11.

«Ölülər» qəhrəmanı İskəndərin məhkəməsi münasibətilə (sonu)

İskəndərin inqilab yolunda çalışması nədən ibarət olur: illərcə bunun üstündə zəhmət çəkib, qara gürühlar təqfirinə düçar olan, bəlkə də oğluna Avropa təhsili verməklə «Babı» adı alan atası Şeyx Nəsrullah xüsusunda İskəndər ilə danışdıqda İskəndər ona doğru yol göstərmək əvəzində onu təhqir edər və ona «Tfu sizə» deyib gedər. Avropa tərbiyəsi görüb «Ölülər» sultanlığında anlaklı sayılan əfəndinin bu birinci və etik cəhətdən alçakca çıkışı. Bəziləri deyər ki, İskəndər Hacı Həsənlə başqa dil ilə danışa bilməzdi. Bəlkə də Hüseyn Sadıq əfəndi kimiləri də atanı təhqir etməyi bir inqilab yolu sanacaqlar. Bir dəqiqə güman edəlim ki, belə «inqilabçılar» haqlıdır. Bəs İskəndərin Cəlala və Nazlıya göstərdiyi «inqilab yolları» hansı məntiq və pedaqoji qanunları ilə haqlı və doğru sayıla bilər?

İskəndər Nazlını özü dediyi kimi qaranlıqdan işığa çıxarmaq istəyirdi. Əcəba! Bu işıq Naxçıvanın hansı məktəbindən, hansı maarif yurdlarından gəlirdi? Bunu gözəlcəsinə bilən İskəndər yəqin ki, Nazlını işığa deyil, yanğından çıxarıb yağmura salacaq idi, onu yenə qaranlıqda avara və sərgərdan qoyacaq idi. İskəndər düşünməli idi ki, Nazlıları «çıxarmaq» onları azadlığa dəvət etməkdən qabaq «ölülər» fanatizmini yıxmaq, məktəblər düzəltmək lazım idi. Ancaq İskəndər bunu düşünməz, alkoqol təsiri altında dediyi sözlərin nə kimi nəticə bağışlayacağını anlamaz.

Qardaşı Cəlala göstərdiyi «yollar» bundan da maraqlıdır. Cəlalı bir vaxt özü oxuduğu elmlərdən kənar edib, ona doğru bir təhsil yolu göstərmək əvəzinə, İskəndər onun dərs otağına girib – «bilirsənmi qardaş, Sokrat nə demişdir?» -

deyə sual verər. Yazıq Cəlal anlaklı qardaşından tərbiyəsinə dair yeni bir fikir gözlədiyi halda, «Sokrat demişdir ki, nə qədər oxumamışdım elə bilirdim ki, bir şey bilirəm, oxuyandan sonra anladım ki, heç zad bilmirəm» - sözlərini eşidir. Cəlala oxuyan bir şey anlamaz cümləsi nə qədər fəna təsir edəcəyi hər kəscə aşkar və aydın bir şeydir. Bu sözlər ilə İskəndər Cəlalı doğru yola dəlalət edər, deyib, bəlkə bunun sifətində Mirbağırlar və «ölülər» sultanlığının Şeyx Nəsrullah fırıldağına uyan üzvlərini hazırlar. Avropa təhsili alıb, araq şüşəsindən başqa bir şey tanımayan İskəndəri görən Hacı Həsən təbii kiçik oğlunu da «piyaniska» etmək istəməyəcək və onu Avropa təhsilinə deyil, Nəcəfə yaxud Kərbəlaya göndərəcək.

Müdafiəçilər Şeyx Nəsrullahın hiyləsi açılmasında İskəndəri birinci və ümdə səbəb sanırdılar. Amma əsərin gedişinə diqqət edərsək görərik ki, şeyxin qaçmasına səbəb İskəndər deyil, bəlkə işıqlanmış üfüqlərdən gələn və Şeyx Nəsrullahın kim olmasını daha yaxşı anlayan xəbərçilər olmuşdur.

Müddəi-ümumilər öhdələrinə götürdüyü vəzifəni gözəlcəsinə ifa etdilər. İskəndəri dərin və ətraflı analiz etməklə onun ictimai yaşayışda nə kimi mövqe tutmasını aydın və açıq göstərdilər.

Bunların nitqindən sonra İskəndərin parazit və yaşayış səhnəsində artıq davame tməyə yaramayan bir ünsür olması hər kəsə aşkar idi.

Buna baxmayaraq, məhkəmə İskəndərə yüngül bir cəza – hüquqi mülkiyyətdən məhrum etmək – təyin etdi. Fəqət bugünkü məhkəmənin cəzası yüngül oldusa, gələcək tarix məhkəməsi cəzasının pək ağır və şiddətli olmasına əminiz.

H.İmanov

* * *

Azərbaycan Dövlət teatr muzeyi inv. 530.

«Ölülər» pyesinin ədəbi məhkəməsində «prokuror» Cəfər Cabbarlının çıxışının əlyazması

Ölülər

Əfəndilər! Hər kəsə bəllidir ki, hər daim, hər halda çox vaxt məhkəmələrdə iki mübariz tərəf-müddəi-ümumi və müdafiələr bir-birilə çarpışar və nə vasitəsilə olursa olsun yekdigənlərinə qalib gəlmək istəyirlər. Müddəi çox vaxt həqiqət və ədalətlə belə hesablaşmadan müttəhimin hər bir işini, sözünü və hərəkətini fənalığa yonar və müttəhimin məhkum edilməsinə çalışar: Eynilə müdafiələr caniliklərini açıüq bildikləri bir adamı belə müdafiə edərkən bütün fəna hərəkətlərini bilərək yaxşılığa yormağa, cinayətləri əntüb pərdələməyə və nə vasitə ilə olursa olsun müqəssiri pak təqsirsiz çıxarmağa çalışarlar. Burası hər iki tərəfin bir növ vəzifələridir. Fəqət bu gün mən arzı edərdim ki, heç bir tərəf yoxdur, mütəəssübliyə qapılmayıb bir həqq, bir ədalət naminə mühakimə yürütsün, heç kəs bilərək haqdan qaçmasın və böyləliklə bugün müttəhimlər səndalyasında oturmuş İskəndərin əsl siması aydınlaşıb araya çıkmış olsun. Biz buna söz veriyir və əhd ediyiniz həmin bunu bu bitərəflik və ədalətli də müdafiə vətəndaşlardan gözlər ümid və arzu edəriz.

Nemətlərindən istifadə etdiyi mühitin bir yavrusu bir fərdi doğurur, bəsləyir, yaşadır, böyüdən, tərbiyə edər, özüözünü idarə edə biləcək, dolandıra biləcək bir insan halına döndərər ki, bunlar həpsi həmin şəxsin möhtac dövrlərində dirilmiş bir borcdur. Alınan bir borc şübhəsiz ki, qaytarılmalıdır. Bunu inkar etmək olmaz, həm də bu borcun məqsədi nasıl olmalıdır. Təbiətdə ümumi bir qanun vardır. Təsir əks təsirə müsavidir. Bu qanunu dediyimiz məsələdə də işlədəcək olursaq böylə şəkildə deyə biləriz ki, hər bir fərd

üçün nə qədər artıq zəhmət çəkilmişsə, o qədər də o artıq zəhmət çəkməli, nə qədər artıq faydalanmışsa, o qədər də artıq fayda verməlidir.

... adlı bir təbir meydana çıxıyor ki, onun da mənası belədir: Sən bəşəriyyətin bir üzvünü, onun illər boyu ... təcrübələrindən tərəqqi və təzlisində istifadə etmişsən, sən ona bir mənfəət yetirməlisən. Sən içində bulunduğun xalqın bir üzvü, ölkənin bir yavrususan. Onun biliyindən, ruzisindən, ab-həvasından istifadə etmisən, ona bir mənfəət yetirməlisən, həm də bu mənffət aldığın faydanın miqdarına çox da olmazsa barabar olmalıdır. İştə buradan tarixdə öylə qüvvətli simalar təsadüf ediyor ki, bütün varlığını xəlqə borclu olduğunu hiss ediyor və kəndisini unudub varlığını da həmin xalqa vəqf ediyor. Fəqət öylə simalar da vardır ki, onlar deyil ki, öz vəzifeyi-ictimaiyyələrini ifa etməyir, xəlqə, cəmiyyətə bir fayda gətirməyirlər. Hətta bir çox zərərlər də toxundururlar. Bu adamlar aldıqları borcu, aldıqları şeyləri qaytarmadıqları üçün bir çalıcı meydud tokundurduqları zərərlər içində bir canidirlər. İştə böylə simalardan biri də bugün müddəilər skamyasında qarşınızda oturmuş kefli İskəndərdir.

O bugün qarşınızda gördüyünüz uzun illər uükudan sonra göz açmış və kəndisini XX əsrin tərəqqi və təkamülünə qarşı yoxsul, gücsüz və qaranlıqda bulmuş zavallı, halına ğalanacaq şaşqın bir mühitin oğludur. Mən burada asanlıq üçün xəlqı, cəmiyyəti bir ailəyə, ailəyi də Hacı Həsən əmi olmaq üzrə bir şəxsin simasında toplayıb ümumi nəzəriyyələrdən ayrılmaq və həqiqətin içinə girmək istərəm. Hacı Həsən əmi kəndi avamlığına, qaranlıqda parçalanmasına baxmayaraq həmin bu İskəndəri bu cür nazla tərbiyə etmiş, böyütmüş, gecələr yatmamış, qazanmış, ona yedirtmişdir. Fəqət Hacı Həsən əmi bununla iktifa etməmiş, İskəndəri başlı başına burakmamışdır. Onu məktəbə göndərmiş, yıllarla oxutmuşdur. Bulunduğu dairədəki hər kəslə

bərabər ğir yüksəkliyə qaldırmışdır. Mühiti nəzərə alarsaq deyə biləriz ki, bununla Hacı Həsən əmi öz atalıq vəzifəsini ifa etmişdir. Fəqət Hacı Həsən əmi adi atalar və yaxşı bir ata olmaqla da iktifa etməmiş, o öz oğlunu daha gözəl tərbiyə etmək istəmiş, ağırlığınca pul qoymuş, onu ta Firəngistana qədər göndərmişdir. 7 il onu orada oxutmuşdur. Bu bizim vəqtimizdə bir qədər qəribə gəlməyir. Fəqət mən istərdim ki, buradakı adamların təsəvvüratı bir qədər geniş olsun və həmin bu mühit içinə girib görsün ki, Hacı Həsən əmi bununla nə kimi böyük bir fədakarlıq göstərmişdir. Şübhəsiz, tanışlar, bilişlər, hacılar onu töhmətləndirmiş, oğlunun kafir olacağı ilə qorxutmuş, o zavalı oğlunun nə olacağı xəyalilə gecələr uyumamış, allah mənim oğlumu yoldan saydırma, ona kömək ol, mənim üzümü xəlq içində qara eləmə deyə, bəlkə də bir çok uykusuz gecələri ağlamışdır. O bu kədərlər, şübhələr içində allah sənə pənah deyə kəndisinə təsəlli vermiş və oğlunun qayıtmasını gözləmişdir. O istəyir ki, onun oğlu oxusun, böyük adlı bir Adam olsun və o da qoca vaxtında öz oğlunun əqli ilə, adılə iftixar etsin, lovğalansın. Qoy bunu kimsə onun fənalığına yormasın. Qoy burada olan vətəndaşlardan ata olmayanlar psixolociyaya ata olanlar kəndi yüreklərinə müraciət etsinlər və görsünlər ki, bu hər bir atada təbii bir atalıq hissidir. Xüsusilə Hacı Həsən əmi tək bunları da düşünməmiş, o deyir müsəlmanları okumadıqları üçün töhmətləndirirlər, qoy müsəlmanlar da oxuyan olsun, burada bir vətəndaşlıq, dindaşlıq, nə isə ictimai bir duyğu, bir rəng də vardır. Soruyuram mən hər kəsdən ki, bu yoxsul, zavalı mühitdən bundan artıq nə yaxşılıq, nə atalıq haqqı gözləmək olur. Hətta vəqtimizin ataları belə 2 faiz böylə atalar göstərməzlər. Hətta hansı bir fransız ya ingilis öz oğluna bundan artıq əmək sərf etmişdir. Hacı Həsən əmi öz atalıq vəzifəsini və bir qədər geniş ölçüdə götürüb. Mühit İskəndər xüsusunda öz vəzifəsini artıqlamasıda ifa etmişdir.

İştə 10 il keçir, İskəndər Firəngistandan dönüb gəliyur, Hacı Həsən əminin yürəyi döyünür, çünki bu qədər çəkdiyi zəhmətlərin, töhmətlərin, iztirabların hədərmi, yerlimi olduğu ümumiyyətlə nəticəsi şimdi anlaşılacaqdır. Hər kəs maraqlanıyur ki, əcaba İskəndər nə olmuş qayıtmışdır. Zatən şimdi də hər kəs maraqlanıyur. Fəqət mən sizi maraq içində boğmamaq üçün əvvəlcədən söyləyirəm. Biliyirmisiniz İskəndər nə qayıtmışdır. Hakim əfəndilərin müsaidəsilə kefli İskəndər ki, mühitin ona verdiyi bu Adı təhlil etdikdə əxlaqsız, tərbiyəsiz, işsiz, gücsüz, tənbəl, birisinə it küskürər, o birisini yalandan aldatar, cocuqları yoldan çıxarıb səfalətə alışdırmaqa çalışar, mühitin adətlərilə, ənənəyətilə hesablaşmaz, heç bir sözün yerini, heç bir hərəkətin vaxtını bilməz, başsız ayaqsız bir səfil, bir sərxoş qarşısında mühiti şu bədbəxt, qaranlıq xalqı cəhalət didiyur, əziyur, parçalayur, məhv ediyur, möminlərlə Şeyx Nəsrullah şu bədbəxtləri aldataraq namuslarına tokunuyur, irzlərini-namuslarını canavarlar kibi çamurlara çırpıb tapdayur, bunların həpsini görüyur, bir ölü kibi hərəkətsiz qalıb ona müəyyən bir yol göstərməyir, onun üçün çalışmayır, xalqın səadəti üçün bir diləyi yok, bir ideyalı yox, ictimai işlər üçün bir procesi yok, öylə səfil bir halda dikirlənib gediyur. Fəqət əfv edərsiniz İskəndərin bir ideyalı, diləyi yoxdur deyincə, bən burada bir həqsizlik tapdım. Hər halda İskəndərin bir diləyi, bir ideyalı vardır. O da bilirmisiniz nədir. Bir şişəyi səhərdən içib axşama kimi, o biri şişəyi də axşamdan içib səhərə kimi keflənmək və İsrafil surini çalıncayadək ayılmamaq. Əfəndilər, mən bilirəm və siz şimdicə görərsiniz ki, müdafe əfəndilər deyəcəklər ki, İskəndəri içməyə məcbur edən mühit özüdür. O mühitdə gördüyü rəzalətləri, qaranlığı görmiyur, mühit onu anlamıyur, o da bütün fəlakətləri alkoqolla sərxoş qoynunda boğmaq, xırpalamaq istəyur. Əvət bən əvvəlcə dedim ki, yürüdəcəyimiz mühakimələr bitərəflik və ədalətdən ayrılmamalı, haqlar etiraf edilməlidir. İştə bən də özümə sadıq qalıyur, hətta

etiraf ediyur və deyirəm mühit İskəndəri anlamır. Fəqət qoy buna qarşı hər kəs xüsusilə müdafe əfəndilər əllərini vicdanlarının üzərinə qoyub etiraf etsinlər ki, İskəndər özü də mühiti anlamayır, anlamağa çalışmayır, anlamaq istəməyir.

Xalq etiraf edir ki, o qaranlıqdır, anlamayır. Bu onun üçün bir o qədər də ayıb deyil və bir günah da deyildir. İsgəndək 10 il Firəngistanda oxumuş gəlmiş, heç şübhəsiz buə vam mühitdən yüksəkdə olacaqdır və Parisdə götürdüyü XX əsrin pək uzaqlara getmiş fikrini, fəlsəfəsini, Nuh dövrünü yaşayan xalqa birdən söyləyərkən o anlamayacaqdır, ürkəcəkdir. Cəhalət xalqı parçalayır, burada mübarizə gərəkdir ki, gecələri uyumasın, müəyyən yollar, planlar düzəltsin, bütün varlığıla ayıq bir fikir, düşüncə ilə xalqın içinə atılıb onun ruhini adət və ənənətını, tradisiyasını, psixologiyasını bütün dərinliklərinə, görülməz incəliklərinə qədər öyrənib onu təhlil etsin və bunlar üzərinə gecələr uyumayıb müəyyən planlar qursun, yollar düzəlsin və gündüzlər haman yolları xalqın anlayacağı bir tərzdə keçirsin, xalqı anlatsın, öyrətsin, xalq üçün bir müəllim olsun. Fəqət İskəndərdən böylə baş yorucu şeyləri sormayın, zatən bunları düzəltmək üçün ayıq bir vaktı yok ki. O, böylə cəfəngiyyata baxmaz. O, hər şeyi təsadüfi görmək istər. O, sistema üsul-filan tanımaz. Yolunda yaxşılıqdan başqa heç bir şey etməyən, kəndisini heç bir şeydə müqəssir bilməyən Hacı Həsən əminin yanına gəlir və heç bir söz demədən, səbəbini anlatmadan birdən başlar: tfu sənin üzünə, hac Nəcəfəliyə yetişir, heç bir söz demədən mans-mans kuskus deyə itə yedirtmək istəyir. Axır neçin? Səbəbi bəlli deyil. İskəndər özü bilir və yaxud 2 aydan sonra gedib qəbristanda ölülərin məzar daşlarına nəsihət söyləyir. İştə İskəndərin bütün mübarizəsi mühit onu anlamayır deməklə buradan çıkılmaz hər bir yenilik, hər daim kəndisinə bir çok rəqiblər bulmuş və ancaq böyük sistematik mübarizələrdən sonra, anlatandan sonra təzvic edilə bilmişdir. Bu gün

mühiti təqsirləndirəcək və İskəndəri haqlandırmağa çalışacaq XX əsrin oğulları olan müdafiələr qəti deyə bilərlərmi ki, yarın onlar özləri bir İskəndər qarşısında qalınca, Hacı Həsəndən daha fəna bir vəziyyət almayacaqlar. Bu gün də yok yarın avam bir göz deyil təsəvvür ediniz... Oğlunu, Səməndəri böyük zəhmətlərlə Petroqrada oxutmağa göndərmiş ki, gəlsin adətən bir insan olsun. Şimdi bu arada çalışdıqlarını gördüyü ziyalılar kimi olsun. Səməndər getmiş, 10 ildən sonra Güzdəyə qayıtmış, fəqət nə cür qayıtmış, fəqət nə cür qayıtmış, bütün apltarlarını soyunmuş, lut madərizad o kəndin içində gəziyir. Bir qonaqlıqdan gələn anasını küçənin ortasında yaxalamış və birdən-birə tfu sənin üzünə, kim ona dəli deməz ? Hətta müdafelərin öz başlarına bu iş gələrsə ona dəli deməyəcəklərinə söz verə bilərlərmi? Fəqət bu Adam dəli deyilmiş, bilirsiniz nə imiş, bir fotorist imiş. Anasının da yüzünə onun üçün tüpürmüş ki, nəçin başına ipək yaylıq bağlamış, köynək geymiş, halbuki, o bir təbiətin qızıdır, çılpaq gəzsə daha gözəl olur. Biz heç kəsə istədiyi fikirdə olmasını yasaq edəməyiz. Fəqət hər kəs etiraf edir ki, yeni bir fikri təzvic üçün keflənməyib çalışmaq, o fikri anlatmaq lazımdır. İskəndər mühit üçün bir müəllimdir. Şübhəsiz mühit onu anlamayacaq idi. Mühit onu anlayacaq dərəcədə olursa xalqın idrakı onun yüksəkliyində olursa o zaman kimə lazım idi. İskəndər cəhənnəm olub getsin, şüşə ilə deyil istəyir boçka ilə içsin. Əsli dərd də orasındadır ki, mühit ondan aşağı o isə bir müəllim vəziyyətindədir. Nəhayət, söylədiyimiz hal ki, məktəbə bir müəllim göndərilirkən mütəəllimlər əvvəlcədən həmin müəllimin bildiyi dərəcədə öyrədilir. O zaman kimə lazımdır müəllim. Müəllim bilməyənlərə, anlamayanlara gərəkdir ki, gəlsin müxtəlif yollar, vasitələr ilə bir yol, 5-7-100 yol desin anlatsın öyrətsin, yoxsa müəllim içəri girəcək Həsən 5 kərəm 5 = müəllim 18. Müəllim başlayacaq tfu sənin yüzünə, mənə bir küp şərab bunlar məni anlamayırlar. Bu bir cəhəti. Fəqət bizim əlimiz-

də tutarlı sənədlər vardır ki, İskəndəri kefli halına salan mühit deyil, onun keyf mayişadan alkoqola alışdığıdır. İskəndər evdə təklikdə oturub düşünür nədir elm? Elm ona deyərlər ki, bir Adam bu şüşəni çəksin başına həpsini içsin. Bu onun xüsusi düşüncəsidir ki, heç kəsə dəxli yoxdur və təklikdə İskəndərin düşündüklərini bir şeyə qarşı nümayiş kimi götürmək olmaz. İştə böyləlik ilə İskəndər bütün varlığını alkoqolun müdhiş pəncəsinə tapşırmış heç bir vəzifeyi-ictimaiyyəsini ifa etməmiş mühitdən aldığı faydaları da borcları da bir midvər kimi bənimsəmiş qaytarmamışdır. Mühit mübarizələrə möhtac ikən o heç bir yaxşı iş görməmişdir. Hətta İskəndərin qarşısında cinayətlər işlənir. Şeyx Nəsrullah hər gün məsum zavalı bir yavrucuğun namusunu tapdayır. İskəndər susuyor. Heç bir əməli qəti təşəbbüsə girişməyir. Halbuki bu mümkün idi də. Şeyx Nəsrullah ölüləri diriltməki iddia ediyirdi. İskəndər bilirdi ki, bu yalandır. Orada xalqa bu yalanı anlatmaq üçün böyük fədakarlıqlar lazım idi. Bir igit istəyir idi ki, şu kor xalqın qarşısına çıxsın və şeyxə söyləsin ki, şeyxanə bu ölülərin həpsini dirilt, ya Heydər ağayı ökrədib göndərə idi ki, get ölülərini diriltməyi xahiş et, şeyx bunu bacarmayacaq və yalanların üstü açılacaq cinayətləri aradan qalxacaq idi. İskəndər bunu etməyir, çünki ayıq deyil idi. O hər şey bitəndən sonra sallana-sallana durub gəlmiş və toydan sonra nağara və ya ruslar demişkən posle draki kulakami maşet. Ölülərə vəz ediyir. İskəndər deyil ki, ümumi ölçüdə çalışamayır, hətta bir ailəyə də təsir edəməyir. Çünki takındığı qiyafətlə onu kimsə tanımaq istəməz, ona kimsə etibar etməz. İskəndər yalançıdır da, duyğusuz və canidir də. Bacısını müdafiə etməyə söz vermişkən bir fəlakətə məruz qalmış zavalı yavru son gündə hər yerdən əli üzülmüş bircə ona ümid edər, ona iltica edər, ondan müdafiə gözləyirkən gəl bacım mən ölmədikcə səni kimsə məndən ayırmaz deyə qollarını açıb onu qucmaq və qəhrəman kimi araya atılmaqdansa onu

kobudcasına itələyib yıxır, fəqət İskəndər qollarını açıb qucuyur da həm də qucduğu şübhəsiz ki bilirsiniz nədir haman şişə ki bütün varlığı ondan ibarət bilir. Bəzilərində öylə bir nəzəriyyə var ki, nəhayət şeyxin torları açıldı, İskəndərin fikri qalib gəldi. İskəndər qalib gəldi. Xalq anladı ki, İskəndər haqlı imiş. Bəlkə bu özü də bir metoddur. Fəqət bu yalnış bir nəzəriyyədir. Əvət şeyxin fırıldaqları açıldı, həm də bir çok məsum qızlar çeynənəndən sonra açıldı. Fəqət bunda İskəndərin iştirakı olmadı. Qalib gələn İskəndər deyil idi. Bir təsadüf idi. Xalqın anladığı İskəndərin fikri deyil idi. Bəlkə şeyx Nəsrullahın fırıldaqları idi. İskəndər olmasaydı da bu fırıldaqlar açılacaq idi. O burada arabanın 5-ci çərxi də ola bilməmişdir. İskəndər bütün o cinayətlərə qarşı susmuş, özü də bir cani olmuşdur.

Bəziləri, xüsusilə İskəndər özü də düşünə bilər ki, pəki Hacı Bəxşəli də cəmiyyət üçün, xalq üçün çalışmayır, onu nə üçün mühakimə etməyirlər. Şərab da içirəm özüm bilirəm Can mənim cəhənnəm tanrının, fəqət onun üçün mütəəssüfanə olaraq burası böylə deyildir. Qanun kodekslərində bir qanun vardır. Bir nəfər səməndər keflənib ya da hətta dəli olub öz evini yakarsa ola bilər ki, onu cəzalandırsınlar ola bilərdə ki bir növ əfv etsinlər. Fəqət həmin səməndər keflənib öz evini yakarsa və onun üzərinə göydəki evlərin həpsi od alıb yakıla külə dönərsə səməndər mütləqa cəzalanmalıdır. Onu heç bir qanun əfv edəməz. Şimdi bakalım İskəndər keflənməsi ilə yalnız öz evini yakıyor. Çünki dediyimiz kimi şərait böylə düşmüş ki, İskəndər Firəngistandan qayıtmış xalq mədəniyyətinin, elmin, maarifin nə olduğunu bilməyir. İskəndəri haman mədəniyyətin, maarifin, yeni fikirlərin bir timsal mücəssəmi kimi görüyor. Ona bakacaq mədəniyyətə öz münasibətini təyin edəcəkdir. Bu bir həqiqətdir. İskəndər bir nümunədir ki, onu görüncə hankı bir axmaq öz oğlunu Firəngistana göndərəcəkdir.

Xalq anlamış, daha doğrusu İskəndər onlara anlatmış ki, oxuyanlar allahı, peyğəmbəri tanımaz, gecə kefli, gunduz kefli, böyük bilməz kiçik bilməz, əxlaqsız, tərbiyəsiz, işsiz, gücsüz bir sərsəm olaraq küp dibində yatacaqdır. Bunu görən Hacı Həsən 10 il əvəl oğlunu Firəngistana göndərmişdi. Bilirmisiniz nə düşünür, nə qənaət hasil etmiş ...

Nə oluyor, nə düşünür bən onu sizə təcəssüm etdirmək istərəm ...

/Oxuyur/ iştə qoy Canı çıksın zavalı mollaların ölsün qaranlıqda məhv olsun. Çünki İskəndər bütün mədəniyyəti, elmi, maarifi, onun əsl məna və əhəmiyyətini məhv etdi. İskəndər onların ölümünə bais oldu. İştə buna görə də İskəndər Firəngistanda keflənib qalsaydı öz evini yakmış olurdu, fəqət gəlib bu zavallı mühit içində keflənmiş, binlərlə evləri yakmış, ailələri məhv etmiş, binlərlə zavalı cəlalların qaranlıq pəncəsində Can çəkişməsinə səbəb olmuşdur. Ona görə bugün ona bəraət qazandırmaq istəyənlərsə bütün gəncliyin haqqı vardır ki, qalxıb bir səslə bağırsın: qaldırın onu mühitdən, o bizə gərək deyildir. O gələcək nəslin qatilidir. O şeyx Nəsrullahdan daha bədtər canidir. Yolları ayrı fəqət hədəfləri birdir. Şeyx Nəsrullah xalqı elmdən uzaqlaşdırıyor, qaranlıqda boğuyor. İskəndər elmi xalqdan uzaqlaşdırıyor. Xalqı tapdayor, öldürüyor, məhv ediyor. Bən sözümü bitiriyor və əsl mühakiməyi möhtərəm hakimlərə tapşırıyoram, qoy onlar özləri kəsdirsinlər Kim daha böyük müqəssirdir. Müəyyən bir psixolocun xəstəlik nəticəsində cinayətlər işləmiş və bu mühitə bir şey borclu olmayan şeyx Nəsrullahı və ya mühitdən böyük faydalar alıb ona bir çox şeylər borclu olan eyni vaxtda zavalı xalqı bir qaranlığa doğru sürükləyən gələcəyin, gəncliyin qatili kefli İskəndərmi?

* * *

Azərbaycan dövlət teatr muzeyi inv. 531.

İskəndər Hacı Həsən oğlunun təqsirnaməsi

Böylə bir zamanda haman şəhərdən Məşhəddən Nəsrullah adlı bir ölüdirildən bir şeyxin zühuri və bir neçə gün həmən şəhərdən keçib gedeceyi haqqında bir məktub alınır və bir neçə gün sonra məzkur şeyx bir nəfər şeyx Əhməd adlı yoldaşıla şəhərə vərid oluyur. Mərhum ölülərinin dirilməsi həvəsilə mədhuş ölən əhali şeyxi boyük bir ehtiram və məsərrətlə istiqbal və qəbul edir şeyxin füsünkar natiqəsi və əvamhirib hərəkətləri bütün şəhər əhlinin o cümlədən əvam və sadədil Hacı Həsən əmiyə də ixfal ediyur. Şeyx öz hiylə və ixfasına müvəffəq olduğunu görüncə əvam camaatın irz namusuna belə əl atır. Hər gecədə bir məsum qızın nəfsi-həyvaniyəsinə fəda ediyur. Onların həyatlarını əbədilik zəhərləyir. İşlərin həpsini İskəndər görüyur, anlayur və yalnız bir tamaşaçı olaraq qalıyur. Nəhayət sonda İskəndərin 9 yaşlı bacısı zavallı Nazlıya gəlincə. Nazlı bu şeyxə varmaq təklifindən imtina ediyur. Ata anasının israr və təhdidlərinə qarşı ağlayır, sızlayır, heç birisinə sözünü anlatmadığından qardaşının onu müdafiə edəcəyini və şeyxin qucağına düşmək fəlakətindən onu qurtaracağını ümidlə son bir çarə bir nicat olaraq «qardaşım razı olursa gedərəm» deyir və haqlı olaraq qardaşının onu qurtaracağı xüsusunda verdiyi vədlərə güvənir və böylə bir halda kəndisini şarab şüşəsini başına qondarmaqla məşğul olan qardaşının ağuşi himayəsinə atmaq istəyir. İskəndər isə onu birəhmanə surətdə itələyib yerə yıxır. Zavallı qıza heç bir yardım və müavinət etməyir. Bu aralıq bir təsadüf nəticəsi olaraq şeyxin hiylələri anlaşılır, fəqət bundan əvvəl şeyx qaçmış imiş, nə qədər bir hüss təsadüf olaraq Nazlı şeyxin zəhərli ağuşuna düşməyir və onun kibi bir çok məsumlar qızlar şeyxin şəhvaniyəsi, nəfsaniyəsi qurbanı olduğu

təzahür ediyur və şeyxin hərəmxanasında ağlar bir halda tapılırlar. Demək cinayət irtikab olunmuş. Onu İskəndər bilmiş, görmüş və qaytarmaq üçün heç bir şey eləməmişdir. Bu da İskəndər. Binaəniləh İskəndəri alim və ziyali bir şəxsiyyət olmaq hissi ilə kəndisinə yakışmayan işbu hərəkət və təbiətindən tulayi aşağıdakı qərar üzrə müddəhim ediyur və müqəssir görüyuruz.

Əvvəla, İskəndər əxlaqca zəifdir. Çünki hər zaman sərxoşdur. Hər kəsə qarşı tərbiyəsizcəsinə hərəkət ediyur və hətta atalıq vəzifəsində ona qarşı heç bir qüsuri olmayan ixtiyar atasının yüzünə tüpürür, hər kəsə sataşır, mənasız olaraq it küskürür və bu kimi hərəkətlərlə əyləniyur. Yalançıdır, bacısına şərab içməməyi vəd etmişkən sözündən qaçıb içir.

Saniyən, İradəcə zəifdir. Çünki qovlu ilə feli bir deyildir. Sözdə dediyini, fikirdə düşündüyünü həyatda tətbiq üçün özündə qüvvə, cəsarət görməyir. Bacısı Nazlıya o qədər də ciddi bir şey yoxkən yaşadıqları mühitdən çıkıb getməyi təklif etdiyi halda sonradan fəlakət gəlincə yardım belə etməyir.

Səlisən, canidir. Çünki Şeyx Nəsrullahın cinayətlərinə qarşı imkan varkən bir ciddi təşəbbüs və hərəkətdə bulunmayır. Nazlı kibi məsum və zavallı qızların bədbəxt olması faciəsini yalnız bir tamaşaçı olaraq qalıyur, hətta Nazlıyı belə rədd ediyur. Bunun üçün qanun ədalət böylə bir şəxsiyyəti başqa birinə ibrət olmaq üçün cəzasız buraxmaması qətiyyən mətlubdur.

Binaəniləh İskəndəri deyil, yalnız əxlaqsız və bir insan kibi zəif bir şəxsiyyət nöqteyi-nəzərincə əxlaqsız və zəif olduğundan mənfi bir sima görüyürüz, hətta ümumiyyət nöqteyi-nəzərincə və xüsusən alim və ziyalı bir şəxsiyyət olmaq hissilə kəndisinə yakışmayan, fövqəlzikr hərəkət və təbiətindən dolayı ümumiyyət nöqteyi- nəzərincə də mənfi və müzir bir ziyalı sanıb aşağıdakı qərar üzrə onu müttəhim edciyur və müqəssir görüyürüz.

«AYDIN» əsərinin qəhrəmanı Gültəkinin mühakiməsi ilə bağlı materiallar

«Kommunist» qəzeti, 30 oktyabr 1924, № 242 (1242).

Ədəbi mühakimə

Cümə günü oktyabrın 31-də səhər saat 9 tamada «Kommunist» qəzetəsinin «Stalin» adına olan işçi müxbirləri qulubunda həman qulubun ədəbiyyat dərnəyi təşəbbüsüylə «Aydın» tamaşasının qəhrəmanı olan

Gültəkin

Mühakimə ediləcəkdir. İşbu ədəbi mühakimədə ümumi mühərrər, müxbir, ədəbiyyat maraqlıları və bütün maarif xadimləri iştirak edə bilərlər.

İdarə.

* * *

«Kommunist» qəzeti, 2 noyabr 1924.

Ədəbi məhkəmə

«Kommunist» qəzetəsi idarəsinin «Stalin» klubunun «Ədəbiyyat» dərgisi tərəfindən Cəfər Cabbarzadənin «Aydın» adlı əsərinin «Gültəkin» qəhrəmanının cümə günü təşrin olan 31-nə təyin edilən ədəbi məhkəməsi «Stalin» klubunda yer azlığına görə Əli Bayramov klubunun salonunda Həbib Həbibofun sədarəti altında açıldı.

Məhkəmə müşavirləri Əbdülşərif və Əziz Nuri yoldaş müddəi-ümumi Seyid Hüseyn və müdafiəçi Xəlil İbrahim. Gültəkin – Dosti Səfərova.

Məhkəmə iclası açıldıqda təqsirnamə elan olunur. Polkovnik Aslan bəyin qızı (Gültəkin)in təqsirnaməsi.

Bakı şəhərinin sakinəsi Gültəkin Aslan bəy qızı (22) yaşında ziyalı və mütahilə.

Aydın kimi səadət və istirahətini ancaq özünün əməyilə hazırlayan zəhmətkeş bir gənc tələbənin həyat yoldaşı olmasına baxmayaraq özünün atası evində aldığı burjuaziya ruh və tərbiyəsini dəyişə bilməmişdir.

Öz heysiyyət və şərəfini saxlaya bilməyib Dövlət bəyin qucağına atılmış, onun bütün alçaqcasına olan xahiş və arzularını yerinə yetirməklə qadınlıq izzət-nəfsini təhqir etmiş, iradəsi zəif olduğundan düşdüyü çirkabın içərisindən çıxa bilməmişdir.

Aydından daha ayrılmadığı bir halda könlünü Dövlət bəyə vermiş. Onu sevmək qədər bir qəbahət yapmışdır.

Əski burjuaziya ruhunu dəyişmədiyi üçün əlbisə və zinət düşkünü olmuşdur.

Böylə bir əxlaqi ilə Aydının fəlakətinə səbəb olmuşdur.

Gültəkin kimi iradəsi zəif, aldığı tərbiyənin təsiratını özündən uzaqlaşdırmayan qadınlar hazırki cəmiyyətimiz üçün mənfi şəxsiyyətlər olduğunu etiraf etmək, öylələrini cəmiyyət qarşısında təqsirli göstərmək mühit və zəmanəmizin icabatıdır.

Bunun üçün Gültəkinin fövqədə göstərilən nöqsanlarının təhlil edilməsi, lazımi qərarlar çıxarılması hazırki cəmiyyətimizin gənc qadınlığı nöqteyi-nəzərindən mətlubdur.

Təqsirnamə oxunduqdan sonra şahidlərdən öncə Aydın, Dövlət bəy, Novruz bəy, Surxay, Böyükxanım danışdırılıb müddəi-ümuminin təklifi üzrə Aydının səhhəti dəmağiyəsini müayinə üçün təbiblər komisyonu dəvət olunmaqla tənəffüs elan olunuyor.

Tənəffüsdən sonra təbiblər komissiyonunun qərarı oxunur:

«Təbiblər komissiyonu Aydının səhhətini və xüsusən, səhhəti-dəmağiyəsini müayinə etdikdən sonra bu qərara gəliyor ki, Aydının şüuru sağlamdır; Fəqət həyatında keçirdiyi məşəqqətlər, aclıq və sairə şübhəsiz səhhətinə təsir etmiş, əsəbiliyinə bais olmuşdur. Şahid tam səhhət üzrə əğli-salimə malikdir».

Sonra müddəi-ümumi söz alıyor.

Müddəi-ümumi özünün nitqində ibtidai Aydının ictimai vəziyyətindən bəhs edərək onun əməkçi bir ailə içərisindən çıxmış olduğunu, qərb mədəniyyətinin, ictimai həyatın bütün mənfi cəhətlərini düşünə biləcək bir zəkaya malik olduğunu qeyd ediyor, sonra Gültəkinin ictimai vəziyyətindən bəhs edərək diyor ki, Gültəkin Aslan bəyin qızıdır. O, həyatında qətiyyən ehtiyacın nə olduğunu hiss etməmişdi. Öylə zənn ediyordu ki, hər bir şeyi yalnız istəməklə əldə etmək mümkün olur. Çünki atası evində o yolda tərbiyə görmüşdür. Kəndisinə uzadılan əlləri qəbul etməyib Aydını intixab etdi. Çünki Aydın gənc bir tələbə idi.

İyi tar çalıyordu. Parlaq bir istiqbalı var idi. O, Aydına gələrkən burasını düşünməmişdi ki, Aydın onu möhtəşəm imarətlərdə saxlaya bilməyəcək. Onun bütün maddi tələblərini təmin edəməyəcək. İştə Aydının da faciəsi buradan başlayır!

Müddəi-ümumi Aydının həyata qarşı bədbinliyini bununla isbat ediyordu ki, hər nə qədər Gültəkin Aydından gözəl əlbisələr və iyi otaqlar tələb etmiyor desə də fəqət Aydın bunu hiss ediyor deyə Gültəkini yalnız sərvət və dövlətlə məsud edə biləcəkdir. Aydında isə böylə sərvət yox idi. Bu halları düşündükcə Aydının həyata qarşı bədbinliyi artıyor, Gültəkinə birləşməsinə təəssüf ediyordu, Aydın yalnız bunun üçün Gültəkini ancaq uzaqdan sevmək arzusunu bəsliyor, bunu öz arkadaşı Surxaya açıqcasına söylüyor.

Müddəi-ümumi sonra Gültəkinin təqsirlərini birər-birər təkrar ediyor. Ən artıq Gültəkinin odasında bulunan (pudra)ya əhəmiyyət vermiyor. Diyor ki, Gültəkin bu pudrayı kim üçün kullanıyordu. Əgər o desə ki, bən bunu Aydın üçün istimal ediyorumdum doğru bir söz deməmiş olur, çünki Aydının ən çox nifrət etdiyi o yapma gözəlliklər idi. Gültəkin bu pudrayı yalnız Dövlət bəy üçün kullanıyordu. O

hər nə qədər ibtidalarda Dövlət bəyə təslim olmaq istəmiyordusa da fəqət sonradan yavaş-yavaş buna alışdı. Eyni zamanda Aydından belə sovuşdu. Bunu Gültəkin özü belə etiraf ediyor. Dövlət bəyə diyor: «Sən yalnız benim varlığımı deyil, qəlbimi, könlümü də aldın. Bən hər şeyi onun xatirəsi üçün yapmışkən imdi o yazıq büsbütün gözümdən düşmüşdür». Bana diyor, Dövlət bəylə görüşmə, bən yenə onun sözündən çıxıb, səninlə görüşürəm».

Müddəi-ümumi bunun üzərində dayanaraq isbat etmək istiyor ki, Gültəkin atası evində aldığı tərbiyənin əsərini özündən ata bilməmiş.

Dövlət bəyin ailəsi olduğu halda kəndisini yalnız əlində bir oyuncaq kimi kullanıyor. Gültəkini Dövlət bəy kimi bir şəxs sevəcək qədər bir zəiflik göstəriyor. Sevdiyi Aydından savıyor. Qəlbini ona veriyor. Çünki Dövlət bəyin parası var idi.

Bununla bərabər müddəi-ümumi Gültəkinin Dövlət bəydən aldığı hədiyyələrə də işarət ediyor. Bunların nə üçün qəbul etdiyini soruyor. Bununla Gültəkinin iradəsi zəif, əlbisə və zinət düşkünü olduğunu isbat etmək istiyor.

Müddəi-ümumi nitqinin xülasəsində diyor ki, «Gültəkin kimi sevdiyini xilas etmək üçün yanlış yollara sapdıran Dövlət bəyin torundan çıxmaq üçün özündə bir cəsarət bulmayan zəif əlbisə və zinət düşkünü qadınlara hazırki cəmiyyətimizdə yer veriləməz».

Sonra müdafiəçi nitqə başlayaraq əvvəlcə birər-birər müddəi-ümuminin iradlarına cavab verdikdən sonra bu kimi hadisələri doğuran ictimai şəraitə keçib diyor ki, «Əvvəla Gültəkin satılmamışdır və altun, zinət düşkünü deyildir, Gültəkin əxlaqsız, şərəfsiz deyildir. Bəlkə eşqinin yolunda böyük bir fədakardır; əzmkar, səbatkar, müstəqim qadındır. Saniyən, əgər bir dəqiqəliyə müddəi-ümuminin dediyini qəbul etsəniz belə, yenə də təqsir Gültəkində deyil. Birisinin gündə 2 000000 manat gəliri var ikən, o birisi zəif, xəstə

olduğu halda gündəlik qute-layəmutə (azuqəyə ehtiyac) möhtac olmasıdır.

Əgər cəmiyyətdə ədəmi müsavat olmasaydı, əgər cəmiyyətdə bir xəstənin acından ölməsi, həlak olması təhlükəsi olmasa idi, əgər Gültəkin çirkin təklifləri rədd etdikdə Dövlət bəyin əlində onun ərini xidmətdən çıxarmaqla ailə yaşayışını pozmaq imkanı olmasa idi, şübhəsiz ki, Gültəkin böylə hərəkətdə bulunmağa məcbur olmazdı. Necə ki, qabaqlarda mürtəkib olmamışdı və necə ki, Aydın xidmətdən çıxarılandan bir saat qabaq həman Dövlət bəyi «Çəkil! Uzaq bəndən» - deyə rədd etmişdi. Demək burada təqsir Gültəkində deyil, cəmiyyətdə, kapital üzərində qurulmuş cəmiyyətdə və altunun gücündədir. Nə qədər altun var, nə qədər sərvətdarlıq cəmiyyəti var, böylə Gültəkinlər bir deyil, binlərcə olacaqdır.

İkincisi: müddəi-ümumi burada zalım və məzlumdan bəhs edərək dediyinə məzlum olmazsa, nə zalım olar, nə də zülm. Fəqət bu o demək deyil ki, zülm və zalım olmamaq üçün məzlumları təqsirləndirmək və məhkum etmək lazımdır.

Zülmün kökünü kəsmək üçün güclü gücsüzlük doğura bilən cəmiyyəti kökündən devirmək və öylə bir cəmiyyət qurmaq lazımdır ki, orada nə zülm doğa bilsin, nə zalım. Öylə bir cəmiyyət qurmalıdır. Orada altun və altuna malik bir avuc quldur hakim olmasın. Əgər Gültəkin böylə bir cəmiyyətdə yaşasa idi əlbəttə ki, altun kralının vəhşi ehtirasına da fəda olmazdı. Aydının səhhətini hifz üçün Dövlətin «hüzuruna» getməyə də məcbur olmazdı.

Nəhayət, burada heysiyyət, şərəf və əxlaq sözü işləndi və Gültəkinə fahişə deyildiyini qeyd və ailə münasibətində bu məfhumları yaratmış olan ictimai-iqtisadi dövrdən müxtəsər bəhs edərək diyor ki, bu surətlə bu gün biz yalnız ailə şərəfindən bəhs etmiş oluyoruz. Zira Gültəkin şəxsən öz bəşəri heysiyyətini saxlamış bir qadın olmaq nisbilə çox

şərəflidir. Ancaq deyə bilərsiniz ki, ailə sədaqətini üzmüşdür. Bu isə atabaşlıq (pedərşahi) və dərəbəklik dövründən başlayaraq malikiyyət məxsusən, irs-varis meydana gəldikdən sonra meydan almış və həman məsələlər ilə mərbut bir məfhumdur.

O mənada olan heysiyyət və şərəfi nə bənim müdafiə etdiyim qadın, nə ümum qadınlar, nə Gültəkini günahsız görən Aydın, Surxay və sairləri qəbul edərlər, nə də bən.

O ki qaldı Gültəkinə isnad edilən «fahişə» kəlməsinə bən sual ediyorum: «Fahişə kimdir? Fahişəlik nədir?». Bu da burjua və kapital hakimiyyətinin doğurduğu bir sözdür ki, özünü maddi-mülahizə ilə satan qadınlara isnad veriliyor.

Yoldaşlar! Yenə təkrar ediyorum əgər cəmiyyətdə birinin tox, birinin ac yaşamasına imkan verən maddi bərabərsizlik olmasaydı yəqin maddi mülahizədə qalmazdı.

Maddi-mülahizə ilə satılmaqda olmazdı.

Əgər bugün yüz binlərcə qadını burjuaziya aləmi, bir söz ilə ləkələndiriyorsa, qoy hamı bilsin ki, bu ləkə bimürtəkib olan qadınlar deyil, cəmiyyətin üzərində də əgər fahişə – özünü maddi-mülahizə ilə satan qadınlara deyiliyorsa, hamıyı belə adlandırmaq mümkün olsa da, Gültəkini fahişə adlandırmaq olmaz. Çünki bütün onu tanıyanlar diyorlar və şahidlər diyorlar, bən də təkid ediyorum. Gültəkin maddi-mülahizə ilə satılmamış, bəlkə eşqi və məşuqi uğrunda fədakarlıq etmişdir.

Nəhayət, təqsirnamənin axırında müddəi-ümumi göstəriyor ki, Gültəkin kimi qadınlar cəmiyyətimiz üçün mənfi şəxsiyyətlərdir...

Amma bən diyorum: Xayır. Gültəkin də, onun kibi ümum qadınlar da onların həqq olduğunu etiraf edən vicdanlı erkəklər də, o cümlədən bən də diyorum ki, çirkab yaradan və öz ətrafını həman çirkaba salıb da ləkələndirən bir cəmiyyət qadınlarımız üçün də, hamımız üçün də mənfi bir cəmiyyətdir. Biz gərək böylə cəmiyyət quruluşunu təğbih edək və kökündən dəyişdirək».

Son söz Gültəkinə veriliyor. Gültəkin öz axırıncı sözündə müddəi-ümuminin onu töhmətləndirdiyi maddələrdən bəhslə diyor ki, «hər kəsin alnına səcdə etdiyi, altunun bütün mühitə hökmranlıq sürdüyü və bütün mühiti özünə tapındırdığı və pərəstiş etdirdiyi bir dövrdə yüzlər və binlər ilə həyat və təcrübə görmüş insanlar onun çənqalında əzilib boğulub məhv oluyorkən mən həyatda təcrübə görməmiş və bütün həyatını məktəb divarları arasında kağız üzərində keçirmiş, zavallı, gücsüz bir qadın nə edə bilərdim ki, etməmişəm? Bana diyorlar ki, beş altuna satılmısan. Bu yalandır. Öylə olsaydı bən atanın evində ikən yüzlərlə bəni istəyən milyonerlərdən birinə gedərdim. Bən Aydını yoxsulluğunu və onunla keçirəcəyim ehtiyac və iztirabları görərək və düşünərək onu sevdim. Həmin bu sevginin uğrunda da bütün altunlarımı, zinətlərimi hər bir şeyimi verdim. Bəndə yalnız iki şey qalmışdı, qarşımda iki yol açılmışdı. Ya bütün varlığımla sevdiyim onun həyatı, ya öz namusum, bənliyim və həyatım. Bunlardan birisini fəda etməli idim.

Fəda etmək üçün ikincisini intixab etdim. Bən öz könlümü, öz varlığımı öz eşqimə qurban verdim, təkrar ediyorum ki, faciənin həpsində müqəssir bən degiləm. Aydın da deyil. Yalnız altun, onun yaratdığı çirkin, yaramaz mühit və onu təmsil edən Dövlət bəylərdir. Bu fəlakətlərə uğrayanlardan bən birincisi və sonuncusu deyiləm, binlərlə bənim kimi və Aydın kimi zavallılar həmin altunun ağır məngənələrində özləri, namusları və həyatları məhv olub getmişdir. Bən heç, mənim kimi həyatı və mənliyi tapdalanmış milyonlar ilə insanları böylə faciələrdən qurtarmaq üçün bir yol vardır ki, o da altunun və onun yaratdığı hakimlər və məhkumlar mühitinin məhv və nabüd olmasıdır. Bu gün benim yerimdə – müqəssirlər kürsüsündə bən və kimsə deyil, ancaq Dövlət bəylər oturmalıdırlar».

Bundan sonra Gültəkin bir kaç sözlə Dövlət bəydən aldığı zinətlərin yalnız onu incitməmək, Aydını fəlakətə

düşürməmək üçün olduğunu, ona çox vaxt həyətlərini süpürməyi və paltarlarını yumağı təklif etməsini qeyd ilə Aydın getdiyindən sonra Dövlət bəy ilə büsbütün əlaqəsini kəsdiyini və müəllimələlik edib öz əlinin əməyi ilə yaşadığını və xüsusən şantan öz namuslu bildiyi və inandığı dostu Qəmər bacının adı ilə aldadılaraq şantan olduğu göstərilməyərək çağırıldığını və Dövlət bəyin orada olmasını bilmədiyini göstərib kəndisinin müqəssir olmadığını və məhkəmə tərəfindən bağışlanmasını rica ediyor.

Gültəkinin sözündən sonra məhkəmənin müşavirə qərarı çıxarması üçün tənəffüs elan olunur.

Tənəffüsdən sonra məhkəmənin böylə bir qərarı oxunuyor: «Məhkəmə heyəti hazerunun Gültəkinin işi ilə son dərəcə maraqlandığını və mozuye-məsələnin yalnız bir Gültəkin və bir ailə deyil, köhnə cəmiyyətdəki bütün ailə münasibəti məsələsi olmaq üzərə böyük ictimai əhəmiyyəti nəzəri-etibarə alaraq bu işin ümumən iştirakı ilə həll edilməsini təhti-qərara alıyor. Bunun üçün lazım biliyor ki, bu yaxın günlərdə Dövləti-türk teatrosunda Aydın pyesası bir daha səhnədə qoyulsun və hazerun Gültəkinin vəziyyətini mükəmməl surətdə tədqiq etsinlər. Bundan sonra hər kəs öz fikrini məktub vasitəsilə «Kommunist» qəzetəsi idarəsində məhkəmə heyətinə bildirsin və həmin rəylər üzərinə məhkəmə qərarını çıxarılaraq gələcək iclasların birisində ümumən-nəzər-diqqətinə elan etsin. Eyni zamanda Gültəkin bu gündən təht mühafizədən azad edilsin».

Məhkəmənin bu qərarı oxunduqdan sonra sədr məhkəmənin bu iclasını qapanmış olduğunu elan ediyor.

İclas saat 4 radələrində qurtardı. Qalıb salonu mühakiməyə maraq edənlər ilə başdan başa dolu idi. Tamaşaçılardan çoxu ayaq üstə durmağa məcbur olmuşdular. Tamaşaçılar tərəfindən göstərilən bugünkü maraq bu kibi mühakimələrin tez-tez qurulmasını isbat ediyor.

* * *

«Kommunist» qəzetəsi, 14 dekabr, 1924. №279.

Məhkəmənin Gültəkin haqqındakı qərarı

Mühakimə qurtardıqdan sonra keçən mühakimənin Gültəkin haqqındakı qərarı elan olunur, iştə qərar:

Aydın pyesasının qəhrəmanı Gültəkinin işinə baxan Baku ictimai ədəbi mühakimə heyyətini şahidlərin və müqəssirin bəyanatını müdafiəçi və moddəi ümuminin nitqini və təqsirnaməsini dinləyib aşağıdakı qərardadı qəbul ediyor.

Qapitalizm cəmiyyəti daxilində baxüsus xırda burjua və ziyalı kütləsi içində qadınların hüquqi və şəxsi həyat və bəxtsəadəti təmamilə kişilərin əlində qalıyor. Çünki, iqtisadi cəhətdən qadın tamamilə ərkəklərdən asılı bulunuyor. Ailə başı olan kişinin mübarizə həyatda aciz bir halda qalması köhnə ailənin ictimai əsaslarını qırıyor və ümumiyyətlə qadını burjua cəmiyyətinin ona vermiş olduğu ailəvi qeyri-hüquq və adətləri qırmağa və bu adətlərdən kənara çıxmağa vadar ediyor.

Nə özünü və nə arvadını lazımi iqtisadi cəhətdən təmin etməyə müqtədir olmayan avara ziyalı «Aydın»ın acizliyi Gültəkini öz ailəsini fəlakətdən qurtarmaq məqsədi ilə Dövlət bəyin əli ilə təslim olmağa vadar ediyor. Və bu kimi məcburi «xəyanət» sayəsində köhnə ailə münasibətinin kökünə zərbə vuruluyor və o ailə dağılıyor.

Burjua cəmiyyəti daxilində hər gün müşahidə etdiyimiz bu kimi əhvalat kişi ilə qadın arasındakı köhnə ailəvi münasibətin qırılması qayət təbii bir hadisə olaraq davam ediyor.

İctimai mühakimə heyəti yuxarıdakı 3 maddədə qeyd edilən ictimai əsaslara Gültəkinə isnad edilən təqsiri rədd etməklə Gültəkinin hərəkətdə bir cinayət olmadığını elan ediyor. Mühakimə heyəti bütün Gültəkinə isnad edilən təqsiri qapitalizm cəmiyyətinin şəraitində görüb proletar əxlaqi nöqteyi-nəzər ilə Gültəkini tamamilə bəraət ediyor.

«ŞEYX SƏNAN» ƏSƏRİNİN QƏHRƏMANI ŞEYX SƏNANIN MÜHAKİMƏSİ İLƏ BAĞLI MATERİALLAR

* * *

«Kommunist» qəzetəsi, 13 noyabr 1924, № 253 (1253).

Bildiriş

Cümə günü noyabrın 14-də səhər saat 10 tamada qəzetəmizin «Stalin» adına olan işçi müxbirləri qulubunda teatr və ədəbiyyatımızda və ictimai həyatımızdakı ədəbi və ictimai tiplər üzərəsində mühakimələr qurulması məsələsi üçün bu cəhətlə maraqlanan ədəbiyyat və məhkəmə xadimlərinin müşavirəsi çağrılıyor. Müşavirəyə aşağıdakı yoldaşlar dəvət olunuyor:

Xalq ədliyyə komissarlığından: Vəlibəyov, Haşımov Mahmud, Məhəmmədov Talıb.

Ali Məhkəmədən: Şükürov Nəsrulla, Musabəyov, Bağırov.

Bakı vilayət Məhkəməsindən: Poladxanov, Hadıyev Məhəmmədqulu, Babaxanov Məhəmmədəli, Ağlarov Sultan, Kərimov.

Bakı müddəi-ümumiliyindən: Ramazanov, Həmidov.

Hərbi müddəi-ümumiliyindən: Dağlı Əlihüseyn.

* * *

«Kommunist» qəzeti, 20 noyabr 1924, №259.

İctimai mühakimələr təşkili

Şura hökuməti quranda bütün mühüm məsələlərimiz haqqında ictimai fikirlərin əhəmiyyəti nəzərə alınmasıyla, böylə məsələlər dairəsində həmişə lazımi və geniş müzakirələr edilməsi tətbiq edilmişdir.

Çünki qarşımızda durub həlli gözləyən ən mühüm və ən çətin məsələlərdən birisi də «Yeni həyat» məsələsidir.

İştə bu məsələni qarşıda dutub onun həlli yolunda edilən bütün təşəbbüsləri görülən və görülməkdə olan işləri həyatımızın hər bir təbəqələrində arayıb tapıb böylələrini ictimai mühakiməyə verərək aydınlaşdırmalıdır.

İctimai mühakimələr təşkil etdikdə onun səbəbinə ortaya atılan bir neçə məsələləri hələ qabaqdan əsasi bir surətdə həll etməlidir ki, təşkil olacaq məhkəmələr dəsturəməl etsinlər.

Aşkardır ki, ictimai mühakimələrin hər birinin ayrılıqda əməli nəticəsini müəyyən etmək olmaz. Çünki böylələri mühakimədən ötəri götürülən mövzuhaddan və onun mühakiməsi əsnasında müəyyən olacaqdır, bizim məqsədimiz isə məsələnin əsas tərəfidir.

Əvvəla: kimi ya nəyi mühakimə etməliyiz? Mənim nəzərimcə təşkil edəcək olduğumuz ictimai mühakimələrdə hal-hazırda davam edən şura quruluşunun möhkəmlənməsinə və qabağa getməsinə cürbəcür yollar və hərəkətlər ilə maneəlik göstərən ünsürləri mühakimə etməliyiz.

Buraya ictimai həyatımızda «Yeni həyata» doğru gedişimizə müqavimət edən qüvvələr hamısı daxildir.

(yəni hədd-büluğa yetişməyən qız ilə evlənmək, qanlılıq, mədəniyyətsizlikdən başlayaraq ədəbiyyat cəbhəsində müşahidə olan yabançı hərəkətlərədək hər şey)

İkinci məsələ: mühakimələrdən əsas məqsədimiz nə olmalıdır?

Aşkardır ki, böylə mühakimələrdə bir şeyi ya bir şəxsi mühakimə etdikdə adi ədliyə məhkəmələri verdiyi nəticə verilməməlidir.

Mühakimədən məqsəd: Mühakimə etdiyimiz şəxsi ya şeyi (yəni bir ictimai hadisəni) hazırki Şura quruluşunun gedişinə mane olmaq dərəcəsinə nə kimi ümumi hadisələr yaxud hansı siyasi və ictimai quruluş gətirdiyini müəyyən

etmək ilə müqəssir şəxsində onun müqəssir olmasının əsas səbəblərini tənqid etmək ilə onların təsviyyəsi yollarını qərarda göstərmək və onu mətbuat vasitəsilə geniş füqərayi-kasibə kütləsi arasında nəşr etməkdir.

Böyləliklə, elə biz qurdugumuz mühakimələr nəticəsində cəmiyyətinimizin yeni həyata doğru getməsi yolundakı bütün maneələri üzə çıxarmaq ilə onarın əmələ gəlməsini füqərayi-kasibə nöqteyi-nəzərilə aşkara çıxarıb təsviyyə yollarını və həyatın hər cəhətini füqərayi-kəsbəyə göstəririz.

İştə məsələnin əsas tərəfləri, əməli tərəfinə gəldikdə böylə mühakimələrin bir nəticəsini təcrübə etdikdən sonra onları geniş dairələrə çıxartmaq lazımdır.

İkinci ən mühüm tərəfi mühakimələrimizi hər bir cəhətdən lazımi şəklə salmaq və ictimai mühakimələrimizin mənalı və ətraflı olması üçün ən böyük şərtlərdən birisi bu işlərə məhkəmə və ədəbiyyat xadimlərimizin yaxın iştirakı ilə fəaliyyətdə bulunmalarıdır.

Ə. Yusifov

* * *

«Kommunist» qəzeti, 3 dekabr 1924. №270.

Şeyx Sənan

«Qomunist» qəzetə müdirinin təşəbbüsü ilə ədəbi əsərlər və ictimai tiplər üzərində bir çox mühakimələr qurulması təhti-qərara almışdır.

Bu yaxınlarda Şeyx Sənan üzərində mühakimə qurulacaqdır. Bu münasibətlə məzkur pyesa dekabrın 4-də (cümə axşamı) dolәti türk teatrosunda mouğe tamaşaya qoyulacaqdır. Keçən dəfələr mühakimənin teatroya və teatronun mühakiməyə nə qədər mərbut olduğunu və yardım etdiyini cayi təcrübələrdə gördik. Məsələn, «Aydın» pyesası mühakimədən sonra oynandıqda tamaşaçıların səhnəyə nə qədər tənqid və mühakimə gözülə baxdıqlarını və zahiri

görünüşlərdən ziyadə əsərin hər tipik ruhuna diqqət verdikləri və hər uyğunluq və namüvafiqliklərini qeyd və zikr etdikləri bizə açıqca göstərdi ki, bu kimi mühakimələrin çox faydası vardır. Ona görədir ki, işçi müxbirlər klubunun ədəbiyyat dərnəyi gələcəkdə bir çox böylə mühakimələr qurmaya qərar vermiş və hətta məhkəmə işçilərini də fəaliyyətə cəlb etmişdir.

Ona görə yaxşı olar ki, hamı həman mühakimələrə hazırlanmaq üçün bu münasibətlə verilən teatrolara getsin və digər tərəfdən hər pyesayı daha yaxşı bilməkdən ötəri böylə ədəbi-ictimai mühakimələrə gəlsin.

X

* * *

«Kommunist» qəzetəsi, 4 dekabr 1924.

Xalq Maarif Komissarlığı
Yoldaş Dadaş Bünyadzadə adına Dövlət Türk teatrosu

Pəncşənbə günü kanune əvvəl (dekabrın) 4-də 1924-ncü yılda «Kommunist» qəzetəsi tərəfindən cümə günü dekabrın 5-də təşkil olunan ictimai ədəbi mühakimə münasibətilə moğe olunan ictimai ədəbi mühakimə münasibətilə moğeyə tamaşaya qoyulacaqdır.

Əsər: Hüseyn Cavid, Şeyx Sənan.
Mənzum faciə 6 pərdədə.
Baş rejissor: A.A.Tuğanov
Rejissor: Sidqi Ruhulla
Müavine rejissor: Ə.H.Rizanov
Biletlərin qiyməti: 10 qəpikdən 2 manata qədər səhər saat 11-dən 2-yə və axşam saat 5-dən tamaşa bitənə qədər teatronun qassasında satılmaqdadır.
Tamaşa başlanacaq axşam saat 8-də.
Baş müdir: Hacı Ağa Abbasov
Müdir: Bulatov

Müdafiələr heyətindən: Əliyev İsmayıl, Ağabəyov Rzabəy, Şirin bəy Səfərəlibəyov.

* * *

«Kommunist» qəzeti, 11 dikabr, 1924, № 277.

«Tiyatrolarda Şeyx Sənan»

Cümə güni deqabrın 12-ndə «Qommunist» qəzetəsi tərəfindən «Şeyx Sənan» üzərində ictimai-ədəbi mühakimə qurulur. Bu münasibətlə cümə aqşamı ayın 11ində Dövləti Türk Tiyatrosunda «Şeyx Sənan» pyesası mövqei-tamaşaya qoyulacaqdır. Mühakimə ilə tiyatro tamaşasının çok mərbud olması və biri birinə nə qədər yardım etməsi yabaqkı təcrübəmizdən aşkarən görünmüşdür. Ona görə bütün maraqlıların həm tiyatroya həm də mühakiməyə getməsi ayrıca tevsiyə olunur.

* * *

«Kommunist» qəzetəsi, 11 dekabr 1924

İctimai ədəbi mühakimə

Cümə günü kanun-əvvəl (dekabr) ayının 12-də «Kommunist» qəzetəsinin ədəbiyyat dərnəyi tərəfindən «Əli Bayramov» adına olan əməkçi türk qadınları klubunun salonında «Şeyx Sənan» üzərində ictimai-ədəbi mühakimə təyin edilmişdir. Mühakimə tam saat 12 tamamında başlanacaqdır. Bütün ədib, şair, mühərrər, müxbir və hər bir ədəbiyyat, ictimaiyyət maraqlıları dəvət olunuyor. Rica olunuyor gecikilməsin.

İdarə

***

«Kommunist» qəzetəsi, 14 dekabr 1924. №279.

İctimai ədəbi mühakimə

Qanune əvvəlin 12-ndə Əli Bayramov klubunda yoldaş Həbib Cəbiyevin sədrliyi Cəfər Cabbarzadə, Əhməd Bədi və Şirin bek Səfərəlibekov yoldaşların müddəi-ümumiliyi və Akif Kazımovun katibliyi ilə Hüseyn Cavidin «Şeyx Sənan» əsərinin qəhrəmanı olan şeyx Sənanın mühakiməsi başlanmışdır.

Şeyx Sənan işbu təqsirlər ilə ittiham ediliyor: 1) Həyatının tapqını - şəhvət və ehtirasatının əsiridir, 2) iradəsi zəifdir, 3) səbatsızdır. 4) yalançıdır və 5) Zəhra və Xumarın fəlakətinə bais olmuşdur.

Faciədə iştirak edənlərin çoxu şahid sifətilə məhkəməyə çağrılmışdır. Müttəhimin vəkilləri yoldaş Yusifov ilə Xəlil İbrahimdir. Məhkəmə başlandıqda sədrin təklifi ilə katib təğsirnameyi elan idiyor: Şeyx Sənan (35 yaşında) Turan əhillərindən kiçik vaxtından Ərəbistanə gedib Şeyx Kəbirin evində yaşamış və orada təhsil etmişdir. Orada Şeyx Kəbirin qızı Zəhraya aşiq olub təhsilini bitirdikdən sonra onunla tahel etmək vəd etmiş olsa da 6 ildən sonra islama intişar vermək qəsdilə səyahətə çıxmış və səyahət əsnasında gəlib Gürcüstanda gürcü Platonun qızı Xumara bənd olduqda fikrindən büsbütün daşıyıb onun uğrunda hər bir şeyi qurban ediyor. Xumarı almaq üçün ki, keşişin çaxır içmək və xaç taxmaq və Quranı yandırmaq kimi təkliflərini qəbul edib Xumarı almaq üçün onun atasının domuzlarının iki yıl otarıyor və nəhayət, Xumarı da fəlakətə düçar ediyor.

Şeyx Sənanın; hazırki məhkəmə heyyətinin onun işinə baxmasına etiraz etmədigindən sədr onu çağırıyor. Şeyx Sənan müttəhim edildiyi təqsirlərin heç birində özünü

müqəssir bilməyib bunların onun haqqında iftira olduğunu bəyan ediyor. Diyor ki:

Bən türklüyün türklər arasında islam yapıldığı zaman təhsil üçün Ərəbistana getmiş və orada özümü islamlığın dar çərçivələrinə salmışdım. Türklərdə bir azadlıq qanı cərəyan etdiyinə görə islamlıq məni sıxmış və islamlığı qəbul etmişəmsə də bir çox məsələlərdə (Merac Şouğəlğəmər və bu kimiləri) tərəddüd edib, fikrimdə bir çox dolaşıqlıqlar var idi. Şeyx Kəbirin nəsihətlərinə görə qadınların insan üçün bir fəlakət mənbəyi olmasına zahib olaraq qadınlardan həzər edib onlara nifrət bəslərdim. Zəhra Şeyx Kəbirin qızı olduğundan ona yalnız ehtiram edərdim. Amma sevməzdim. Bütün ömrümdə mən ehtirasatdan qaçmış və yalnız ruhani ehtiyacları hiss ediyordum. İnsanın səadətini din ixtilaflarını qaldırmaqda və hamıyı bir islam dini ətrafında birdləşdirməkdə görərək bən bu məqsədlə də səyahətə çıxdım. Qafqaziyyəyə gəldikdə buranın təbiəti əski qanımı cuşa gətirdi. Xaricində də məsud yaşamağın mümkün olduğunu anlayıb din haqqındakı tərəddüdlərim daha da qüvvələndi. Bu zaman bana bir dərviş öz sözlərilə bütün qaranlıq məsələləri sanki aydınlaşdırmış oldu.

Əncil, Zəbur, Tövrat və Quran cənnət və cəhənnəmin və dinlərin əfsanə olduğunu yəqin etdim. Bundan böylə öz səhvlərimi buraxıb yeni bir üsul götürdüm. Bu bəyanatdan sonra sədr, moddəiye-ümumi və vəkillər tərəfindən Şeyx Sənana suallar verilir.

5 dəqiqə tənəffüz elan ediliyor. Sonra şahidlərdən Şeyx Kəbirin qızı Zəhra və Şeyx Mərvan dindiriliyor. Vəğt gec olduğundan bir də qalan şahidlərin dindirilməsi və müdafiəçilər ilə müddəi-ümumilərin nitqləri gələn cüməsiyə təxir edilərək mühakimə 4 yarım saatda kəsiliyor. Məhkəmə salonu dob-dolu idi. Yer olmadığından bir çoxları qayıtmağa məcbur oldu.

Məhkəmə; xalqın bu həvəs və arzusunu nəzərə alaraq gələn iclasın türk tənqid-təbliğ teatrosu (sabiq fenomen) binasında toplanmağa qərar vermişdir.

***

«Yeni yol» qəzeti, 15 dekabr 1924, № 44 (98), səh. 4

Hüseyn Cavidin «Şeyx Sənan» faciəsinin ədəbi məhkəməsi

Məhkəmə sədri: Cəbiyev Həbib
Üzvlər: Əsgərov, Xudadadov.
Katib: Aqif.
Prokuror: Səfərəli-bəyov, Əhməd Bədi, Cəfər Cabbarzadə.
Müdafiəçilər: Yusufov, Xəlil İbrahim, Şeyx Sənan Hüseyn Sadiq.
Zəhra: Dostu xanım.
1924-cü il dekabrın 1-də.

Şeyx Sənan Turan əhli Mədinədə yaşarmış. Zeyx Kəbirin qızı Zəhrayı 6 il dolandırmış və sonra bırakmış, başkasını sevmiş.

İslam arasında olan ixtilatı aradan götürmək istəmiş və səyahətində Tiflisdən keçərkən bir gürcü qızına vurulmuş və hər bir şeyini bırakaraq sonra dəxi qızı fəlakətə sürükləmiş.

Sənan

Öz hisslərinin tapkını və ehtiramlarının əsiridir.

İctimai həyatın artıq nüsurudur, yalançı, xudpəsənd, iradəsi zəifdir.

Müttəhim özünü günahlı saymadığından məhkəmə heyəti qərara alır ki, Sənan və şahidlər dindirilsin.

Sənan tərcümeyi-halını başlayır. Mən Xumarı sevdiyim üçün müqəssir sayılıram.

Mən turan türklərində hürr və azad yaşadığım halda Ərəbistanın çərçivəli həyatına düşdüm. Ərəbistana oxumağa gəldiyim üçün ərəb fəlsəfələrini oxudum.

Zəhra məsələsində mən onu hörmətlə sevirəm, başqa dürlü sevməzdim. Eynən Şeyx Kəbirin nəsihəti üzrə qadınlardan nifrət edərdim. Təfrikəni qaldırmaq məqsədilə səyahətə çıxdım. Ərəbistanın quru mühitindən Gürcüstanın gözəl mühitinə gəldikdə başqa şeylər duydum. Buranın insanlarını daha məsud gördüm.

Beynimdə şübhələr oyandı. Dəli dərviş şübhələri artırdı. O insanlıq arasındakı ədavəti din və məzhəbdən göstərdi.

Bu fikirləri tapdım, əski fikirlərimdən daşındım.

Sədrin suallarına cavab olaraq Ərəbistana təhsili üçün getdiyini əlavə edir. Irkımla təhsilim uyuşmurdu, Gürcüstanda şənlik var bizdə yox idi.

Fikrim dəyişilirdi. Sonra bu fikrə gəldim ki, ancaq Dinin ortadan qalxması ilə insanlık xoş gün görə bilər. Zəhranın dediyinə görə Sənan ilə görüşürlərmiş.

***

«Kommunist» qəzetəsi, 19 dekabr 1924. № 284.

İctimai ədəbi mühakimə

Bu gün ayın 19-nda «Qomunist» qəzetəsinin ədəbiyyat dərnəyi tərəfindən dövləti türk tənqid-təbliğ teatrosunda «Şeyx Sənan» üzərindəki ictimai-ədəbi mühakimə davam ediləcəkdir. Mühakimə tam saat 12 tamamında nümayişə başlayacaqdır. Bütün qəzetə müxbiri, ədib, şair, mühərrir və hər bir ədəbiyyat, ictimaiyyət və maraqlıları məhkəməyə dəvət olunuyorlar.

İdarə

***

«Kommunist» qəzetəsi, 23 dekabr 1924. №287. s.6.

Cümə günü qanune əvvəlin 19-nda türk tənqid-təbliğ teatrosunda Hüseyn Cavidin əsəri «Şeyx Sənan»ın qəhrəman Şeyx Sənanın mühakiməsi münasibətilə voğu olmuş olan ikinci məhkəmə iclasının təfsilatı qəzetəmizin növbəti «Sənayi nəfisə» səhifəsində müfəssəl surətdə dərc ediləcəkdir.

***

«Kommunist» qəzeti, 16 yanvar 1925.

Şeyx Sənan haqqında ədəbi-ictimai mühakimənin qərarı

Oxucularımıza məlum olduğu üzərə dekabr ayında Hüseyn Cavidin «Şeyx Sənan» adlı əsərinin qəhrəmanı olan Şeyx Sənan Bakı ədəbi-ictimai məhkəməsi tərəfindən mühakimə edildi.

Mühakimə iki cümə davam etmiş, fəqət qərar o gün elan edilməmişdir. Sonra qəzetəmiz vasitəsilə elan ediləcəyi bildirilmişdi. Məhkəmə heyətinin uzun-uzadı müqaviərsindən sonra Şeyx Sənan haqqında böylə bir qərar çıxarılmışdır:

1) Turanda doğmuş, səbavəti məchul (dumanlı) Şeyx Sənan din təhsilini icmal üçün Ərəbistana gəlmiş və gənclik həyatını (dövri-şəbabını) bütün bir nəslin və dövrün nümayəndəsi olan Şeyx Kəbirin təhte nüfuzunda keçirmişdi.

Bu dövrdə artıq milyonlar təşkil edən kütləyə bir mərkəzdən rəhbərlik imkanı qalmamışdı və islamiyyət mərkəzi yeni ictimai münasibətlərin vücuda gəlməsi ilə

özünün sabiq təşkilatçı və rəhbərlik rolunu tədricən itiriyor idi.

Buna görə də, fəlsəfi cəhətdən «islam rəhbərləri» içərisində belə müəyyən təzad və şübhələr oyanmaqda idi və Şeyx Kəbirin şagirdləri üçün islamiyyət məfkurəsi həyati ideal (şayeyi-amil) olamıyordu.

Mədinə kimi mərkəzlərdə təhsilə sarılmışlar və alimlik (ruhanilik) fikrilə tərbiyə edilənlər, hər kəsin bildiyi üzərə ümum islamlar tərəfindən göndərilən əməkçilər parası ilə əməyilə müftəxorcasına tüfeli olaraq yaşayırdılar. Özləri də həyatdan və mübarizə həyatından uzaq düşmüş, kiçik bir təbəqə (qrup) təşkil etməkdə idilər.

Buna görə də, iş bu dairədə bulunanlar məna mərkəz kainat mərkəz xilqət yalnız özlərini görüyor. Gecə-gündüz metafizik ilə uğraşar və tamam düşüncələrini din kimi füqəra sofulastikaya həsr etməklə vaxt keçirməkdə idilər.

2) Böylə bir mahiyyətin içində otuz il yaşayan birisi aldığı tərbiyə nüfuzundan çıxamayacağı təbiidir. İştə Şeyx Sənan da bu mühitin yetişdirməsi, onun oğlu olaraq meydana çıxır. Məlum ki, ağacdan düşən çürük alma kötükdən çox uzağa düşməz.

Fəlsəfəcə mütərdid qalan elektik-elematik varisi və müftəxorluq ilə işsiz vaxt keçirən çürük pinsip (əsas) və məfkurəsi Sənan dəxi içində oyanan şübhələr ilə əsrinin əleyhinə çıxmaq kimi bir qüvvət qəlbə və iradəyə sahib olamayır. Ümumi cərəyana tabe olaraq quru şübhələr ilə iktifa ediyor. Lakin yenə də sələfi misallı üzünü mərkəzi xilqət görmək, hüsi motləğ peşində qaçmaq, eşqi hər şeydən üksək saymaq eimi metafizik həyatı olmayan məsələlər ilə məşğul oluyor və bunun nəticəsində Şeyx Sənan həyatdan uzaq, natamam, qeyri-təbii və avara Sima olaraq ərzi-vücud ediyor. Və bütün misalı motəəssefane fikirlərdən bəhs edən Şeyx Sənan tamamilə bir sufi kimi də axıra qədər özünü aparamıyor.

3) Süquta üz qoyan böylə mühitin qeyri-təbii övladı şəxsiyyətini hər şeydən uca, arzularını hər şeyə üstün bilirdi və eyni zamanda ətrafında milyonlar ilə «əhqər» xəlq misallı çalışmaz və həyat ilə çarpışmada asar göstərməzdi. Yaşayış çəkişməsində iştirak etməyənlərə fəqət tüfeyli sayaq başqasının əməyi ilə yaşayarlar. İştə Şeyx Sənan da müftəxor ruhlu, hər kəsin və hər şeyin özünün zoğe nəfsiyyəsinə fəda olmasını görən bir individualist və ictimaiyyəti tərəqqiyə sövq edəcək qüvvələrdən tamamilə uzaq bir şəxsdir.

4) Geniş ictimai kütlələr içərisində yaşamayanlar onun ehtiyacını bilmədikləri kimi heç bir ictimai də olamazlar. Şeyx Sənan dəxi bir dairə içərisində olaraq geniş xalq kütləsindən tamamilə ayrı yaşadığı cəhətdən ölənə qədər xodkam, başqalarının ehtiyacını bilməz, həyatın həqiqətini ictimaiyyətdə olduğunu duymaz, olduğu üçün nəinki müxtəlif işlimlərdə yaşayan məzlum xalqın, hətta bir dəstə üləmanın belə rəhbərliyi vəzifəsinə xəyanət ediyor.

Bütün bu hərəkətlərin təbii nəticəsi olaraq Şeyx Sənan öz kefi, şıltaqlığı, eşqbazlığı yolunda öylə bir nöqtəyə varıyor ki, ardınca düşüb iltimas edən üləma və xalq kütləsindən üz çeviriyor və bütün fəziləti uçurumlara atılmaqda görüyor.

5) Sənan kimi geniş ictimai xalq kütlələrindən tamamilə uzaq olan bir çox idealistlər və romantiklər üçüçn sevimli görülə biləcək Şeyx Sənan hər şeyin fövqündə mərifət olduğunu özünün din və inayət qulu olmadığını, çaxır içmək, xaç salmaq, donuz otarmaq kimi bir taqım oyuncaqlar ilə göstərmiş olduğu zənn olunurdusa, bütün bu hərəkətlər düşüncəli, anlaqlı bir surətdə hazırlanqmış bir çərçivə içinə sığmadığı üçün həqiqi bir ateizm məqsədilə yapılmadığı üçün realist və həqiqət aşina tənqid qarşısında məqbul görülən bir hərəkət sayılmaz. Bunların həpsi şəxsiyyətə fəda olan ideallar namüəyyən etidaq və hər bir kiçik əngəllər qarşısında müxtəlif şəkil və rənglərə girə biləcək

məqsəd və qayələrdən sapıldığı üçün geniş idealsız tiplər tərbiyə edəcəyi aydındır.

6) Səthi baxışdan o qədər yüksək görülən «Sənan eşqi» həqiəqt halda təbii və sağlam bir ruha malik zatin eşqi deyildir.

Bu eşq dəxi Sənanın qeyri-təbii müstəsna şəxsiyyətinə müvafiq yenə də qeyri-təbii müstəsna bir şıltaqlığından, keçici arzusundan ibarət idi. Metofiziklərdə olduğu kimi mücərrəd (abstraktnıy) bir eşqdən bəhs etmək təbiətdə olmadığı üçün doğru deyildir, hər bir həqiqət müşəxxəs olaraq nəzərə alınmılıdır. «Eşq» namını alan təbii bir sevgidə iştirak edən əşxas cismani və psixoloci cəhətlərdən yek digərinin mütəənəmmü olub və ikisinin də bir vahid təşkil etməsi qanuni təbiyyəcə qəti və mütləqdir.

Ərəbistanda fəqət ruhani idealistcəsinə tərbiyə görmüş, bütün həyatı metafizik mülahizələri ilə keçmiş yaşayan Şeyx Sənan ilə Gürcüstanda eyş və işrət ilə yaşamış, bütün mənasilə təbiət balası olan Xumarın Şimal ilə Cənub qütbləri qədər çiçəkli Qafqazın qarlı dağları ilə qumsal Ərəbistanın odlu səhraları qədər yek digərindən hər cəşətdən ayrı olan iki tipin bir vahid təşkil eləməsi hanki məntiqə uyacaqdır?! Əlbəttə ki, bu əsas üzərinə dayanmış bir eşq təbii və həqiqi deyildir. Yuxarıda yalnız bir şıltaq və kefli hərəkət idi. Böylə bir qeyri-təbii əməlin nəticəsində Şeyx Sənan iki zatın yəni əvvəla özünün və sonra Xumarın fəlakətinə səbəb olur.

7) Şeyx Sənan yalnız Xumar ilə özünün məhvinə deyil, müəllimi Şeyx Kəbirin qızı Zəhrayı da süslü və təmtəraqlı sözlər vasitəsilə əvvəlcə özünə məxzub etmək, 6 il müddətinə Zəhraya qəti bir cavab verməməklə həyatda təcrübəsiz gənc qızı hər zaman elani-eşq etməyə məcbur edir və nəhayət onun da fəlakətinə səbə olmuşdur.

8) Bütün böylə cinayətlər və hərc-mərclik qarşısında bulunan və özü-özünə qəti bir hesab verməyən Şeyx Sənan

günahkar olduğunu öz vicdanı, öz allahı qarşısında etiraf ilə əfvar diləyib, yenə də özünün xilasını son dəqiqəsində dindarlıqda və allahı tanımaqda görüyor. Burası artıq Şeyx Sənanın süqutunun son mərhələsini təşkil ediyor. Bunun da təbii etinacı uçurumdan başqa bir şey olamaz.

9) İştə qeyd edilən maddələrə görə ictimai-ədəbi məhkəmə Şeyx Sənanı hazırki ictimai tərbiyə nöqtə nəzərindən cəmiyyət içərisinə yaramaz, mənfi bir tip yalnız özünə müvafiq xəyalat uçurumlarına layiq oluğuna qərar Verdi.

Sədr: Həbib Həbibov (Hənəfi Zeynallı, Ə.Şərif)
Məhkəmə üzvləri: Nəsrullah Əsgərov (V.Məhəmmədov)
Katib: Akif

***

«Raboçiy zritel», 1930, 12 yanvar.

Səhnədən çıxarılmasını tələb edirik

Türk incəsənət teatrında Hüseyn Cavidin «Şeyx Sənan» pyesi səhnələşdirilib. Bu pyes yalnız bir qrup dini yönümlü xırda burjuaziya nümayəndələri arasında uğur qazanmışdır. Əməkçi insana pyesin mahiyyəti və mətni demək olar ki, aydın deyil. Pyesin suceti bundan ibarətdir ki, ərəb mənşəli Şeyx Sənan yuxusunda gürcü qızı Xumarı görür və ona aşiq olur. Oyananda o, bütün işlərini atır və yer üzündə o qızı axtarmağa başlayır. Bu axtarışlar zamanı o Quranın böyüklüyü, inamın dərinliyi və gücü və sair bu kimi dini-mistik söhbətlər aparır. Ən sonunda öz güclü inamı ilə Şeyx Sənan Xumarı tapır və onunla bir yerdə səmaya uçur.

Ümumilikdə dini-fantastik uydurma.

Biz hesab edirik ki, türk sovet teatrının əməkçi tamaşaçıya belə bir pyes göstərməsi utancdır. Şübhəsiz ki, ziyandan başaq o tamaşaçıya heç nə vermir.

Aktyorların əməyi, teatrın böyük işi, maddi xərclər və tamaşaçıların itirdiyi dəyərli vaxta heyiflər olsun.

Biz təklif edirik ki, mümkün olduğu qədər tez bu pyes səhnədən götürülsün. Əməkçi insanların bu zərərli məhsulla zəhərlənmələrinə sakitcə baxmaq olmaz.

A.Manaflı-Axundzadə.

* * *

Şeyx Sənan haqqında

Sözə başlamazdan əvvəl keçənlərdə söylədiyim bir məsələyi bir daha xatırlatmayı qaçılmaz görürəm.

Adətən məhkəmələrdə müddəi nə olursa-olsun müttəhimin yaxşılıqlarını gizlətməyə, hətta yaxşılıqlarına da bir fənalıq göstərməyə və beləliklə, nə olursa-olsun, müttəhimi təqsirləndirməyə çalışdığı kimi, müdafiəçi də tərsinə olaraq fənalıqlarını gizlətmək, onalar bir yaxşılıq göstərmək və bu vasitə ilə müttəhimi doğrultmağa, haqlı göstərməyə çalışırlar.

Bu onların vəzifəsidir. Fəqət mən həmin «Şeyx Sənan» mühakiməsinin böyük əhəmiyyəti olduğunu düşünərək bir dəfə də olsun mütəəsib olmamayı, məsələyə açıq bir göz, bitərəf bir mühakimə ilə yanaşmayı ilk əvvəl möhtərəm müdafiəçilərdən və başlıca olaraq möhtərəm məhkəmə heyətindən, nəhayət möhtərəm tamaşaçılardan rica edərdim.

Bu, Sənanın mühakiməsi üçün ... olduqca mühüm bir şeydir. Çünki dünyada, həyat və məişətdə olduğu kimi görülən şeylər xüsusunda çox düşünmədən bu daşdır, bu ağacdır, bu taxtadır – deyə qəti hökm vermək bir o qədər də

güc bir şey deyildir. Fəqət olduğu başqa, göründüyü isə bam-başqa olan şeylərə böylə yanaşılmaz. Bunu parıltısına görə gümüş qiymətinə qaşıq alıb 2 aydan sonra qaraldığını və ya paltarına, yaxud sözlərinə görə pak, müqəddəs sandıqları bir adamın çox çəkmədən yaramaz əçlaqsız bir sərsəm olduğunu görənlər daha eyib bilirlər. İştə bugün müqəssirlər qəfəsində oturan Sənanın da şəxsiyyəti, tam mənası ilə, olduğu başqa, göründüyü isə bam-başqa şeylərdən biridir.

Mən özüm onun gördüyünə aldanıb müdafiəsinə hazırlanırkən daha dərindən baxınca, olduğunu olduğu kimi görüncə, fikrimi dəyişdim, müddəiliyə getdim.

Burada hər bir ehtiram parlaq bir cümlənin, hər hərəkət az-çox iti bir ağılın böyük bir məharətlə qurduğu, aldadıcı bir fəlsəfənin, gözəl bir bəhanənin, hər bir yalan daha məntiqli, daha tutarlı ikinci bir yalanın arxasında gizlədilmiş, örtülmüş, basdırılmışdır. İştə bu yalanları doğrulardan ayırmaq hər bir sözün, hər bir hərəkətin özünü və məqsədini tutuşduraraq düzgün bir nəticə çıxara bilmək üçün olduqca diqqətli və ehtiyatlı olmalıdır. Belə olanda Sənanın özünün donuz damında ikən onun üstündə bir-birilə çəkişən

Altı ildir sənin əsirin ikən
Şimdi biganəyimmi könlünə mən?
Nə təbiət bu səndə? Həm nə tuhaf!
Yoxmudur səndə mərhəmət, insaf?
Nerədə əvvəlki vədlər əcəba?
Əcəba yoxmu, yoxmu səndə vəfa?
O məhəbbətlə parlayan gözlər,
Şimdi bir başqa macəra söylər.

Diqqət edilsin. Hankı vədlərdir və bu vədlər nəyə qarşı verilmişdir. Hankı əhdə və hankı hərəkətə qarşı vəfa tələb edilir. Qoy hər kəs düşünsün, bu qız aldanmamışdır? Sənan

aldırmayır. Yoxsa Sənan vəd, vəfa, məhəbbətlə par-layan gözlər və i. a. mənasını bilməyir. Yaxud yazıçının türkcə savadsız olduğunu iddia edir. Əfv edərsiniz, Sənan əfəndi.

«Sənan, məni qəhr et də lakin atma» - deyincə Zəhranın haqlı tələbatına qarşı istər-istəməz:

Səni atmaqmı?! Bir düşün, əcəba
Bu olur şeymi nazənin Zəhra?
Sən mələksin, sevimli afətsin...

- deyə cavab verirsən. Bunun üzərinə Zəhra onu qucuyor.

Pək eyi, Sənan əfəndi, nə üçün Zəhrayı atmaq olmaz? Nə üçün bu sevimli afəti atmamaya məcbursan. Müsəlmanlıqda naməhrəm bir qadın heç bir əlaqədə bulunmadığı naməhrəm bir kişiyi quca bilərmi? Diqqət edilsin, Sənan bu qızcığazı aldatmamışmı? Bunu Sənan özü pək gözəl bilir. 10 ildən sonra da Zəhrayı görüncə:

Ah Zahra, zavallı solğun nur,
Səni Sənan görüncə alçalıyor.

- deyə zavallı Zəhranın fəlakətinə qarşı gözlərini yerə tikir. Nə üçün, Sənan əfəndi, sən Zəhrayı görüncə özündə bir alçaqlıq hiss edirsən? Nə isə, məsələ aydındır. Vəd etmiş, aldatmış, sözündən qaçmış, Zəhranın fəlakətinə səbəb olmuşdur. Unutmamalıyıq ki, bu şimdiki vaxt üçün bir o qədər ağır görülməyir. Pək eyi, qızdır. Əvvəl sevdim, şimdi sevmirəm. Fəqət Zəhranın mühiti düşünülərsə, bu onun üçün bir fəlakətdir. Adı dillərdə gəzən Zəhrayı ölüm deyil, nə qurtara bilər?! Ona görədir ki, Zəhra deyir: «Məni qəhr et də, lakin atma aman». Sənan Zəhranın tələblərinə qarşı boyun əyməyə məcburdur. Sən mələksən atmam - deyə yenidən ona söz verir. Fəqət yalan, həm də məcburi bir

yalan, fəqət dadlı, gözəl bir yalan. Həmin bu dəqiqədə Zəhranın nə olursa-olsun artıq köhnəldiyini düşününcə və xəyalında yaratdığı mavi gözlü qadını xatırlayınca həmin gözümüzün önündə sözündən qaçır. Böylə səbatsız bir adama, bu dəqiqə söz verib ikinci dəqiqədə qaçan yalançı bir adamın sözünə və özünə nə kimi bir qiymət verilə bilər. Nə isə Sənan Zəhrayı artıq sevməyir, gecə-gündüz başqa bir qadını düşünür.

Onun bu qadıncıllığını Şeyx Kəbir də bilir. Ona deyir ki,

Oğlum! Er-gec tutar cahanı adın,
Söylənir ictihadü irşadın.
Cahil-arif böyük-kiçik yeksər
Səni özlər sevər, pərəstiş edər.
Bu səadət fəqət uzun sürməz.
Çünki röyada gördüyün uçrum
Səni eylər bu feyzdən məhrum,
Baş verir səndən öylə bir hərəkət
Ki, bütün xalq edər haman nifrət.
Alçalar ruhun alçalar... Ancaq,
Səni alçaldan ehtiras olacaq.
Hankı şeydir səbəb fəlakətimə?
Ah!.. o yalnız qadındır, iştə qadın!

Hər halda Şeyx Kəbir Sənanı, onun zəif cəhətlərini çox gözəl bilir. Fəqət Sənan onu da, hətta öz inandığı Allahını belə aldatmaqdan utanmayır. Zəhra ilə 6 illik bir macərası bəlli ikən, bu saat Zəhra ilə söz vermişkən, nəhayət, gecə öz mavigözlü qadınını düşünürkən üzünü Allaha çevirib:

Ey böyük tanrı, ey böyük yaradan!
Məni səndən gözəl bilən, tanıyan
Varmı ey xaliqi-zəminü zaman!

Yalan, qara bir yalan. Sonra Şeyx Kəbirə ikinci bir yalan:

Mən otuz il cahanda zahidvar,
Bilmədim qız-qadın nədir zinhar
Nə qədər məndə varsa hissü həyat,
Ehtirasatə düşmənim... heyhat!
Mana biganə zövqi-nəfsani,
Sevdiyim yalnız eşqi-ruhani...
Daha könlümdə qeyri eşqə, inan,
Yer bulunmaz, xayır... xayır...

Bu da yalan. Gördüyü qadın, aldatdığı qadın, söz verdiyi qadın, düşündüyü qadın, bu da danışdığı sözlər.

Fəqət bunları o, ancaq onu gözləyən şöhrət və böyüklük xatirəsi üçün başqalarının gözlərini örtməkdən ötrü yalandan deyir. Daxildən isə onun qadınçılığı, onun ehtirası varhğını didir, üsyan edir. Onun yalanlarını üzünə çırpır. Sənan nə çapıq çıxdı xatırından deyir. Sənan xəlvətdən ona cavab olmaqla mən şaşırdım, saqın inanma, - deyir.

Demişdim ki, zövqi-nəfsaniyə uymam, ehtirasata uymam, eşqi-ruhani ilə sevirəm. İnanma, yalan deyirdim. - iştə Sənanın bütün mahiyyəti.

Nə isə Şeyx Sənan Şeyx Kəbirin sözlərindən istifadə ilə Zəhradan yaxa qurtarır və kim bilir şimdi Zəhranın bəlkə sümükləri də çürümüşdür.

Bir də biz, Sənanı 10 ildən sonra böyük bir kütlənin rəhbəri olaraq görürük. O, böyük bir əməl ilə uğraşır. İslam parçalanmış, dağılmış, onu birləşdirmək və bununla xalqı nicata çıxarmaq zənnindədir. Bu yolda heç bir əziyyətdən, heç bir əzabdan çəkinməyəcəyinə söz verir, and içir. O, şimdi böyüklük və şöhrət düşkünüdür. Fəqət daxilindəki qadınçılığı onu rahat buraxmayır. O, qadınlardan qorxur. Ona görə nərəyə çatırsa, «həp cinayət, qadın cinayəti». Fəqət bu qadınları sevmədiyi üçün deyil, bəlkə də daha çox

sevdiyi üçündür. Sənan qadınlara qarşı gücsüzdür. Qorxur, onlardan qaçır. Hər halda o zamandan Mədinədə nələr yapdığını bilməyiriz. Ehtimal ki, Zəhra orada olduğu üçün bir şey yapmazdı.

Nə isə Sənan böyük əməli-islamiyyəti diriltmək, bəşəriyyətə nicat vermək kimi böyük bir dilək, bir məfkurə, bir ideal ilə Kəbəyə and içib yola çıxır. Tiflisdə bir dərvişə təsadüf edir. Dərviş ona bir qədər mübhəm sözlər deyir. Sənan bir qədər bunun üzərində düşünür. Fəqət burasına bir qədər diqqət verilməlidir. Çünki bilirəm Sənanın gələcək hərəkətləri üçün bütün təqsiri bu yazıq Şeyxin boynuna yıxacaqlardır. Fəqət bu yalandır. Dərviş ona demişdir:

Əgər fövqəlbəşər olmaq dilərsən,
Uzaqlaş daima cinsi-bəşərdən.

Dərviş ona demişdi: yalnız bulun, demişdi ki, get evlən. Dərvişin sözləri Sənanı hələ islamlıqdan döndərməmişdi, çünki ondan sonra Quranı yaxarkən Sənan özü deyir ki: «Hökmi-Quran ilə məbəd ucalır».

Deməli, dərviş onu hiylə yolundan çıxarmamışdı. Onu yoldan çıxaran başqa birisi idi. Gözəl bir gürcü qızı Xumar idi. İmdicə Şeytanbazarda dərviş görünür. Ona deyir ki, yalnız bulun... nəhs kimi mavi gözlü, füsunkar bir gürcü qızına təsadüf edir. Xumar pək gözəldir. Mən də etiraf edirəm. Qumral saçlar, mavi gözlər, bilməm al dodaqlar, lahuti bir baxış, ilahi bir görünüş. Bu qadın onun zövqünə uyan, onun yaratdığına bənzər bir qadındır. İştə burada illərdən bəri Sənanın şöhrət və böyüklük həvəsinin ağırlığı altında susmuş qadınçılığı varlığına da, iliklərinə də uymuş adi, bayağı bir erkəklik, saxlanmaz ehtirasları qalxır. Deyil, yalnız onun böyüklük və şöhrət həvəsini, hətta onun bütün varlığını, bütün mənliyini, izzəti-nəfsini, şərəfini, məsbkini, əqidəsini, bir sözlə, ürəyində yaxşılıq adına hər nə

saxlanmışsa, həpsini alt-üst edib çevirir. Və nəticədə dünən qadınlardan qaçan, dünən qadınlara qarşı kin bəsləyən, dünən öz şeyxinə söz vermiş, bu gün dərvişdən bir çox nəsihətlər dinləmiş və böyük bir kütlə yanında Kəbəyə qarşı and içib yola çıxmış Sənan bütün dinini-imanını, məsləkini, əqidəsini, əməlini, diləyini, idealını, məqsədini, hər bir şeyini böyük bir rəzalətlə bir qadının ayaqlarına sərib: - mən təslim, - deyə bayrağını endirir, silahını təslim edir. Şimdi soruram sizdən: Böylə bir adam ictimai həyat üçün yararlı bir adammıdır? Böylə bir adama cəmiyyətdə məsul bir vəzifə tapşırıla bilərmi? Həyat yürüdükcə ictimai bir fikri yenə də cəmiyyətin səadətini düşünərək başqa bir fikrə çevirmək olur. Yanılmışam. Cəmiyyətin, bəşəriyyətin nicatı üçün o yol yaxşı deyil, bu yol yaxşıdır. Böylə adamlara ad tapmaq olur. Çünki bu adi bir şeydir. Həyat tərəqqi etdikcə, cəmiyyət irəlilədikcə şərait dəyişir. Bununla bərabər yaşayış vasitələri, fikirlər, fəlsəfələr də dəyişir. Fəqət başındakı bir fikri, inandığı bir əqidəyi doğru sandığı bir məsləki, bayrağını gəzdirdiyi bir orduyu ancaq öz şəxsiyyətinə, öz mənfəətinə, öz şəxsi, səadət və ehtiraslarına fəda edən bir adama nə ad vermək olar. Doğrusu, mən tapmadım. Ona görə də təqsirnamədə də yazmamışam. Ancaq indi başıma bir söz gəldi ki, o da xain kəlməsidir. Bu sözun nə qədər münasib olduğunu məhkəmə heyəti qərar çıxararkən düşünə bilər. Doğrudan da təsəvvür ediniz ki, o bir komandandır. Sənan həqiqətdə də fikri bir komandandır. Hərbin ən qəti, ən canalıcı bir dəqiqəsini birdən fərmani-hümayun: Dayan... geri! Nə var-nə var, heç nə! Bəs Ağa Komandan bənd olmuşdur?! Geri! Ona görə deyil ki, geri dönmək lazımdır. Şimdi böylə bir komandana nə demək olar. Fəqət onu da unutmamalıdır ki, komandan düşmən ordusundan əsir alınmış qıza bənd olmuşam. Ona görə də, «geri!» deməyir. O başqa bir bəhanə bulacaqdır. Məsələn geri: çünki «abi-şur əst. Xeyr nədarəd.» İştə Sənanın da ictimai həyatda

ağırlığı olsa-olsa, bu qədər olacaqdır. Bu rəzalət Şərq diplomatiyasının tarixində görülməz bir şey deyildir. Baxsanız Avropa qadınlarının qoynunda imza edilmiş bir çox müahidələrə, bir çox müqavilələrə, bir çox imtiyazlara bəlkə də təsadüf edə bilərsiniz. Hər halda tariximiz Baltaçı Məhəmməd paşalara yabançı deyildir.

Nə isə Sənan Xumarı görüncə, ağlı başından oynayır, papağını götürür, başını endirir, kəndisinə məxsus dadlı, aldadıcı bir dil ilə:

Bir təbəssüm o hüsni-dilbərdən,
Bir nəvaziş o mavi gözlərdən. -

deyə kəbin kağızını təqdim edir.

Platon kişi adamdır. O, Sənan kimi andını geri götürən, bu saat verdiyi sözdən utanmadan qaçan adamlardan deyildir. Fəqət Xumar qoca, ixtiyar bir mollanın əlində məhv olacaqdır. Keşiş çarə tapır. Qarşıdakı böyük bir kütlənin rəhbəri, böyük bir ordunun komandanı, məsləkli, səbatlı, əqidəli bir adamdır. Öylə isə al bu şərabı iç. Fəqət keşiş hesabında pək yanlışdır. Sənan üçün öz şəxsiyyəti hər şeydən artıqdır. Doğrudan da, Sənan alır, içir. Ya Şeyx, içdiyin haram deyilmi? İctihad, daha doğrusu, bəhanə hazırdır. Bir istəkana eybi yoxdur. Pək eyi, möhtərəm Şeyx əfəndi, nə üçün sən bunu dünən demirdin. Pək eyi, bir istəkana eybi yoxdur. Keşiş pərt olur, ancaq çox bicdir, özünü itirməyir. Al bu xaçı da as. Sənan alır. Ya Şeyx nə yapırsan? Abi-şur əst. Xeyr nədarəd. Bununla bir parça gümüş arasında heç fərq yoxdur. Pək eyi, Şeyx əfəndi, bunu nə üçün sən demirdin? «Olsun, o xaç bir gümüşdür» - mən də qəbul edirəm. Fəqət sən özün hər şeydə bir rəmz arayırkən sən bilməyirdinmi ki, onu sənə verirkən - al, bu gümüş parçasını as, - demir. Al, taqın, xristian ol, - deyirlər. Əvət, sən pək gözəl bilirdin. Bilərək də aldın. Çünki sən öz

ehtiraslarının əsiri, iradəsiz bir adamsan. İstəmədən xristian olursan! Deməli, sən öz məqsədini, öz əməlini, cəmiyyətin nicatı üçün düşündüyün bütün əməl və idealları öz şəxsiyyətinə, öz şəxsi ehtiraslarına, öz nəfsinə fəda edən bir adamsan. İstəmədən xristian oldun. Olmadınsa yalançısan. Xristian olmadan qarşıdakıları aldatmaq üçün xaçı alıb asır və bununla da sənə tabe olan böyük bir kütləyi doğru bildiyin yoldan sapdırır, inanmadığın bir yola sövq etmiş olursan. Əvət, Şeyx əfəndi, mən səni pək gözəl anlayıram.

Qoy sənin şəxsi səadətin təmin edilsin. Bunun üçün bir çoxlarının fəlakətinə də lüzum görülərsə, vur yerisin. Eşqin tərs-avandı olmaz. Keşiş şaşırır. Qarşısında böyük bir kütlənin rəhbəri azacıq səbatlı, dayanıqlı bir adam təsəvvür edərkən Sənan lax çıxır. Fəqət keşiş yenə ümidini kəsməyir. «Al Quranı yaq». Yox, sən yaqacaqsan. Ya Şeyx, Quran yaqılmaz. Susunuz, budalalar. İllət var. Nə imiş - yaqılan kağız və mürəkkəbdir. Nə qədər bayağı bir bəhanə! Abi-şur əst. Xeyr nədarəd. Əfv edirsiniz, Şeyx əfəndi. Quran yalnız kağız və mürəkkəb isə nə üçün onu boynunuzda gəzdirirsiniz? Nə üçün bunu dünən demirdiniz? Pək eyi, kağız və mürəkkəbdir. Mən də qəbul edirəm. Fəqət sən başqalarına arif ol deyirkən düşünməyirdinmi ki, burada məqsəd kağız və mürəkkəbin yanması deyil, sənin tutduğun yolun, məsləkin, əqidənin yaqılması, çeynənməsi, tapdalanmasıdır. Halbuki, sən ona hələ inanırdın. Hökmi-Quran ilələbəd ucalır deyirdin. Və istəmədən üz tutduğun yolun müqəddəsatını, komandanı bulduğun kütlənin, ordunun bayrağının yaqılmasına yol verirdin. Çünki sən öz məsləkini, öz əqidəsini şəxsi səadətinə satan bir adamsan.

Mən bilirəm ki, burada Quran, din, xaç bir çox yoldaşları sapdıracaqdır. Burada məqsəd Quran, xaç və sair deyil, bir ubejdeniye, bir məsləki-bəşəriyyənin, cəmiyyətin səadəti

üçün düşünülmüş bir yol deyirəm. O yol öz-özlüyündə doğru da ola bilər, yanlış ola bilər. Mənim onunla işim yoxdur.

Mənim məqsədim ancaq əqidəni daşıyan adamın şəxsiyyəti üzərinədir. Əlbəttə, yoldaşlar, sevgi, eşq yaxşı şeydir. Fəqət sevirəm deyə hər şeyə ixtiyarım var da demək olmaz. Quran kitabı götürməyiniz, başqa bir kitab götürünüz. Şimdiki halda, məsələn, bir ingilis kralının mavi gözlərinə qarşı bir parça əskidir - deyə yurdunun bayrağını yaqan bir vətənpərvərə siz nə deyərsiniz və yaxud bir kadet qızına vurulduğu üçün insanlar bizcə birdir, bu bayraq da elə bir arşın parçadan başqa bir şey deyildir - deyə öz bayrağını yaqan bir kommunistə siz nə deyirsiniz?! Hər nə deyirsiniz, özünüz bilirsiniz, mən bilməyirəm. Ancaq gərək ki, çox da yaxşı şey deyildir.

Nə isə iş-işdən keçmiş. Keşiş yavaş-yavaş Sənanı tanımaya başlayır. Nə istərsiniz, o itaətdən boyun qaçırmaz, deyə adi bir qarışqa, bir böcək qədəri əhəmiyyəti qalmayan Sənana belə baxmaq istəmədən ötürür. Sənan özü də deyir. Hər nə əmr etsəniz qəbul edərəm. Doğrudan da deyirlər donuz otar, baş üstə. Yaxşı ki, Şeyxin səfilliyini hər kəs bilir. Bunun da səbəbini soruşmayırlar. Yox, yəqin ki, Şeyx kənd təsərrüfatını yüksəltmək istədiyini bəhanə gətirəcəkdi. Siz görürsünüz ki, hər nə tələb etsələr, Sənan qəbul edir. Hərəsinə də bir bəhanə gətirir. Qumar oyna deyəydilər, baş üstə. Ya Şeyx haram deyilmidir? Səsini kəs, budala köpək. Köpəyə nə söz. Onun eybi yoxdur. Fəqət eybi yoxdur, ona görə deyil ki, doğrudan da, eybi yoxdur. Ona görə ki, Sənanın şəxsi səadəti üçün bu lazımdır. Platonun 3-4 nəfər düşməni var, onları da aradan qaldırır. Baş üstə. Ya Şeyx, adam öldürmək olmaz. Səsini kəs, budala, 3-4 nəfərə nə söz və i. a. Abi-şur əst, xeyr nədarəd.

Onu da deməliyəm ki, burada ayrı-ayrı sözlərimdən sallanıb deyə bilərlər ki, Sənan üçün ingilis, fransız, yəhudi, türk, ərəb yoxdur. O, Xumarı sevməklə din təəssübünə

zərbə vurdu. Pək gözəl. Beynəlmiləlçilik yaxşı şeydir. Fəqət burada Sənanın bu hərəkətlərindən məqsəd beynəlmiləlçilikmidir? Cəmiyyətə, insanlığa bir nicat, bir səadət vermək-midir? Burada mühüm məsələ hərəkətin, vasitənin yaxşı-yamanlığı deyil, zərərli-xeyirli olması deyil. Sənanın şəxsiyyətini təyin etmək üçün əsil məsələ onu o hərəkətlərə sövq edən səbəblərdir. Əsil məqsəd nədir, onu qiymətləndirməlidir. Dünyada o qədər müharibələr olmuşdur. Bu müharibələrdə o qədər qanlar tökülmüşdür ki, Fransa inqilabında tökülən qanlar onun çərəki də olmaz. Hər ikisində qan tökülmüşdür. Fəqət Azərbaycanda bütün qan tökülən müharibələrə nifrət edilirkən Fransa inqilabı bayram saxlanılır. Nə üçün? Çünki məqsədlər başqadır. Bir italyan zabiti canından qorxub müharibədən qaçmışdır. Biz onun üçün bir heykəl tikməliyiz ki, nə var, gedib qan tökməmişdir... Doğrudur, onun qaçması nəticəsində qan tökülməmişdir. Yaxşı iş olmuşdur. Ancaq onun məqsədi qan tökülməmək deyil, müharibəyə insan qanının tökülməsinə qarşı üsyan deyil, bəlkə öz canının qorxusudur. Ona görə də bizim üçün heç bir əhəmiyyəti yoxdur. Şimdi ola bilər ki, şərab içmək yaxşı şeydir, qumar oynamaq yaxşı şeydir, donuz otarmaq da yaxşı şeydir - kənd təsərrüfatı artar. Gürcü qızı sevmək də yaxşı şeydir, çünki bunlar cəmiyyətə xeyir verə bilər. Fəqət Sənan Xumarı ona görə sevməyir ki, cəmiyyəti-bəşəriyyəyə xeyirdir, ona görə sevir ki, Xumar gözəldir, döşünə yatır. Xaçı ona gorə asmayır ki, onun xeyri vardır, ona görə asır ki, Xumarı almaq üçün o bir vasitədir. Burada məqsəd Xumar, mühərrik isə onun nəfsi, onun qadınçıllığı, onun daxilindəki saxlanmaz adi, bayağı ehtiraslar. İştə həmin bu ehtiraslara da Sənan bütün əməlini, diləyini, ictimai məqsədlərinə, məfkurəsini, məsləkini qurban verir. Üzvü bulunduğu cəmiyyət qarşısında daşıdığı vəzifələri atır, cəmiyyət üçün bəslədiyi ictimai əqidə və məsləkini öz şəxsi ehtiraslarına, öz şəxsiyyətinə satır. Öz şəxsi ehtiraslarına tapınaraq bəşəriyyəti

buraxır, donuz damına soxulur. Böylə bir şəxsiyyətə Ştiverdən başqa hankı bir cəmiyyət müsbət gözlə baxa bilər. Deyə bilərlər ki, o donuzlar Sənanı əhatə edən şeyxlərdən yaxşıdır? Sənan onlardan ayrılmaqla çirkabın üzərinə çıxmış oldu. Hər doğru yol tapıb özünü kənara çəkənlərə yaxşı adam deyib bilərmi? Pək eyi, çox gözəl, Mərvan donuz, Nəim də donuz, bəs Sədra? O donuzdur. Bəs Hadi? O da donuzdur! Bəs səni bəsləyən, səni yetişdirən, tərbiyə edən mühit, sənə göz bəbəyi yedirən cəmiyyət, sənə əba verən, ləbbadə verən, əmmamə verən fəqət həmin səfalətiçirkabın içərisində boğulan, çabalıyan milyard yarımlıq zavallı bəşəriyyət. Onları kim düşünməlidir. Hər doğru yol tapıb evinə qapanan adamlara yaxşı deyilərmi? Sənin həyat və səadətin təmin edildisə, hər şey bitdimi? Sən doğru bir yol buldunsa, hər şey bitdimi? Halbuki, sən səmimi bir xalqçı olsaydın, bir eqoist olmasaydın, öz ehtiraslarını boğar, öz nəfsini öldürər və donuz damına girməkdənsə, səni görməyə gəlmiş yığın-yığın insanların arasına çıxar, tapdığın doğru yolu onlara da göstərərdin. Öz nüfuzundan istifadə ilə onları bir nicata doğru çəkə bilərdin. Fəqət sən bunu yapmadın, çünki bu, gücdür. Bunun üçün insanda fədakarlıq, iradə lazımdır. Fəqət Sənanda Xumarın eşqinə qarşı qüvvət və iradə yoxdur. O, ehtiraslarının əsiridir. Onları tanıyor, onları düşünür. Özünü, ancaq özünü düşünür. Ona, böyük bir məqsəd ilə gəldin - deyəndə Vətənim, Kəbəm, Məkkəm, Mədinəm həp Xumardır, əl çəkməm - deyir. Ondan başqa hər şeyə nifrət. Qoy bütün dünya məhv olsun, fəqət mən Xumardan əl çəkməm. Bu bir yaxşılıqmıdır? Bu bir hünərmidir? Bunu hər kəs yapa bilər və yapır. Bunu bütün məmləkətin, bütün xalqın hüququnu, həyat və səadətini öz şəxsiyyətinə fəda edən 1-ci Lüdoviq «Posle menya xot potop» - deyə daha gözəl bacarır. Bunun bütün məmləkəti, bütün xalqı obezliçenni bir hala salan, bütün cəmiyyət öz şəxsiyyəti ayaqlarında tapdayan 14-cü Lüdoviq də

«Qosudarstvo - eto ya» - deməklə daha gözəl yapır. Pək eyi, Şeyx əfəndi, sizin bunlardan nə fərqiniz vardır? Fəqət fərqiniz vardır. O da budur ki, onlar yapdıqlarınə olduğu kimi açıq-açığına söyləyirlər. Sən isə niyyətini gizlətmək üçün hər hərəkətinə bir bəhanə qoşur, bir don geyindirirsən. Hər hərəkət üçün bir bəhanə gətirirsən. Fəqət məqsəd sənin şəxsiyyətindir. Bütün ictihadların ancaq şəxsi mənfəətinə xidmət etmək üçündür. Məkkədə ikən həp cinayət, qadın cinayəti. Çünki Sənan qadınları öz şöhrət və cəlalı üçün qorxulu görür. Tiflisdə ikən qadınlar yaxşıdır. Çünki Sənan Xumarı sevir. Son pərdədə qadınlar başa bəladır. Çünki, Sənanın Xumardan əli çıxmışdır. Şərab içmək yaxşıdır, çünki Sənan özü içməyə məcburdur. Xaç taxmaq olar, çünki buna da məcburdur. Sənan özü yaxşı ki, adam öldürmək məcburiyyətində qalmamış, yoxsa o da İbrahimin qoyunu kimi bir ictihad, bir qanun olaraq boynumuza keçəcəkdi. Beləliklə, hər bir ictihadı ta Şərq mollalarında olduğu kimi, cəmiyyətin səadəti üçün deyil, ümumi birlik ilə deyil, ancaq Sənanın səadətinə xidmət etmək üçündür. Burada bir məsələyi qeyd etməlidir. Çünki bizim adamlar bir az fantazistdirlər. Ariflik deyə hər açıq şeydə gizli bir məna, bir rəmz, bir müəmma ararlar. Deyirsən, bazara gedirəm. Deyir görəsən haraya deyir, biz başa düşməyiriz.

Məsələn, Sənan Xumarı almaq istəyir. Bir də görəcəksən müdafiəçi durdu ki, yox, sən başa düşməyirsən. Xumar hələ Sənanın idealıdır... Onu bir ideal kimi sevir. Xumar Sənanın fikri, əqidəsi, əməlidir. Onun yolunda hər şeyi fəda edir. Bunu Sənan desə, eybi yoxdur. Çünki o adəta hər şey üçün bir bəhanə tapa bilir. Ona deyəndə ki, ya Şeyx, sən ki, o qadından ürkərdin? Deyir bu qadın deyil, mələkdir. Müdafiəçi də bu sözdən yapışıb deyəcəkdir ki, tək bir mələk deyil, hətta əməldir, idealdır, bilməm nədir. Çünki Sənan ona özü mələk deyir. Nə olsun ki, deyir. Sənan Zəhraya da deyirdi ki, sən mələksən, əməlimsən və i. a. Bu hiylə belə

olar da. Bir kişi aldığı bir qadına nə deyə bilər? Ya deyəcək sən mələksən, ya deyəcək məlaikəsən, allahsan, bu, korkordur da. Yoxsa nə desin?! Desin sən şeytansan, ifritəsən, əcinnəsən, kafirsən. Ya mələk deyəcək, ya da buna oxşar bir şey də. Yaxşı, tutalım ki, Xumar Sənanın hələ doğrudandoğruya idealıdır. Nə üçün Sənan keşişin bir kəlmə sözü ilə öz idealını atıb getdi? Əgər Sənan bütün idealları üçün böylə mübarizə aparırsa, daha yaman. Tula itdən murdar. Son pərdədə Xumar ona gəlib deyir:

Pək müqəddəsdir iştə bəncə sənin
Hər şeyin, həp təriqətin, dinin.

Burada yoldaş müdafiəçi də özünü itirəcəkdir. Əcəba o könüldən düşən bunların hankıdır? Xumar Sənanın, ya Sənan Xumarın. Ancaq bunların həpsi birər xəyal, birər xülyadır. Mələyin, əməlin, idealın donuz damında nə işi vardır?

Nəhayət, Sənan iki il donuz otardıqdan sonra əski şöhrət və cəlalının da əldən getdiyini, Xumarı da ala bilmədiyini görüncə peşiman olub deyir:

Şeyx, ya Şeyx, gəl də seyr eylə,
Yandım atəşlə kəndi rəyimlə,
Mən qulaq vermədim dəyərli sözə,
Həp qadından gəlir nə gəlsə bizə.

Demək, Xumarı sevmədiyindən onun uğrunda əhlini, diləyini atmasından peşiman olmuşdur.

Ah, sağ olsaydı şimdi Şeyx Kəbir,
Ataraq seyr edərdi pək ələni,
Kəndi möcüznüma kəramətini.

Yəni Şeyx nə demişdisə, öylə də oldu. Fəqət Şeyx nə demişdi bilirsiniz:

Baş verir səndə öylə bir hərəkət,
Alçalır, ruhun alçalır... Ancaq
Səni alçaldan ehtiras olacaq.
Hankı şeydir səbəb fəlakətimə?
Ah!.. o yalnız qadındır, iştə qadın!

Sənan bu sözləri xatırlayaraq və doğru olduğunu etiraf edərək deyir:

Mən qulaq vermədim dəyərli sözə,
Həp qadından gəlir nə gəlsə bizə.

Yəni qadın, Sənanən fəlakətinə səbəb olan qadının da başqa bir mənası vardır. Bəlkə qadın ərəbcə mələyikəyə-zada deyirlər, mən bilmirəm. Ancaq qadın bizim dildə - iki əlli-ayaqlı qadına deyirlər. Fəlakət də fəlakətə deyliir. Sənan son nəfəsdə Xumara: yeganə qurtuluş qarşıdakı uçurumdur deyir. Uçurum da uçuruma deyirlər. Yəni dərin bir uçurumun dibi. Nə az, nə çox Sənan türkcə danışırsa, sənə bəllidir.

Xumar nə mələkdir, nə əməldir, nə də məsləkdir. Sadə, adi bir qadındır. Yox, əgər Sənan göydəki mələklərin dilində danışırsa, onu biz bilmirik. Bəlkə orada uçurum fəzilətə deyirlər, ya məfkurəyə deyirlər, kim bilir. Ancaq, yoldaşlar, mənə aydındır, Sənan özü bir Türküstanlı bir türkdür. Türkcə də danışır. Xəyala, xülyaya uymaya gəlməz. Ariflik təbii, fəna bir şey deyildir. Ancaq genə də hər şeyə öz adını vermək yaxşıdır. Sənan bir qızı sevmiş, bənd olmuş, onun yolunda yaxşı-yaman öz məsləkini satmış, hər bir şeyi atıb öz ehtiraslarına əsir olmuşdur. Nəhayət, qızı özünə məftun etdikdən sonra onun uğrunda heç bir mübarizə aparmadan qoyub qaçmış və zavallı qız son nəfəsində ondan nicat yolu istərkən uçurumdur deyə onun da fəlakətinə səbəb olmuşdur.

İştə, yoldaşlar, Sənanın bütün şəxsiyyət və mahiyyəti. Yalnız, yoldaşlar, bir məsələ də vardır. Bu macəralar Xumarın və Zəhranın fəlakətilə bitməmiş olsaydı, demək olurdu ki, pək eyi, Sənan qadınçıdır. Şərab da içir, sənə nə var. O da bu şərab içənlərdən, o da bu qumar oynayan-lardan biri. Mən, yoldaşlar, onu deyəcəyəm ki, o bu cəmiy-yətin bir üzvüdür. Cəmiyyət onu böyüdüb tərbiyə etmiş. Hər bir fərd olduğu kimi, o da cəmiyyət qarşısında bu ictimai həyatda bir vəzifə daşımalı, bir fayda verməlidir. Yoxsa ona cəmiyyətin yaramaz övladı deyərlər. Fəqət, yoldaşlar, mən başqa bir şey demək istəyirəm. Sənan bu sadə qumarbaz-lardan, sərxoşlardan olsaydı cəhənnəmə, dərd yarı idi. Fəqət mən çox işlətdiyim bir timsalı burada xatırlatmaq istəyirəm. Qanun kitablarında gərək ki, böylə bir maddə vardır. Məsələn: Bir Məmmədqulu acıqlanıb, ya keflənib öz evini yaqarsa ona cəza verilməlidir. Ancaq bağışlamaq da olur. Fəqət həmin Məmmədqulu acıqlanıb, ya keflənib öz evini yaqarsa və bunun nəticəsi olaraq qonşu evlər də od alıb kəndin yarısı yanarsa, o zaman Məmmədqulu rus de-mişkən «ne nipodkakim vidom» bağışlanmaz, mütləq cəza-lanmalıdır. Şimdi Sənanın hərəkətlərinə və onların nəticə-lərinə fikir verəlim. Sənanın mühiti qaranlıq, cahil bir mühit-dir. Gözlər kor, fikirlər paslı, kimsə düşünməz, düşünsə də; uzaq getmə batarsan - deyə ağzını yumarlar. Bu mühitdən bir nəfər Sənan çıxır. Ağlının ucilə meraca şəkk eyləyir, şəqqülqəmərə də başqa bir məna verir. Bunun üzərinə bütün mühitdə ona qarşı bir şübhə doğur. Mühit bir az inamr, bir az şübhə edir. Fəqət həmin mühit meraca şəkk etməkdən başlamış Sənanın 2 ildən sonra bir qız üçün xaç taxmaqla bitirməsini görüncə, ümumən böylə yeni fikirlərə nasıl baxa bilər. Bundan sonra bir zihəyat çıxıb merac yalandır deyə bilərmi? Uzaq getmə, sən də Sənan kimi batarsan - deyə ağzını tıxayacaqlardır. Sənan öz hərəkətləri ilə tarixin yetişdirdiyi xalq və hikmət oğullarının -

cəlaləddinlərin və sairənin də yollarını kəsmiş, ağızlarını qapamış, qanadlarını qırmış olur. Xalqda yeni fikirlər və yeni fikirli adamlara qarşı bir nifrət, bir etimadsızlıq törədir ki, bu, xalq üçün, bu, mədəniyyətin və bəşəriyyətin tərəqqisi üçün hər şeydən zərərlidir.

Böyləcə öz hərəkətləri üçün zaman və məkanla hesablaşmayan ünsürlər də xalq üçün zərərlidir. Tutalım ki, Sənanın yeni bir fikri vardır. Öz hərəkətlərini xalqın səadəti üçün yapırdı. Şərab içməyi xeyirli bilirdi. Fəqət o, bunların həpsini bir qıza qarşı yapmamalı, mühitin əhvali-ruhiyyəsini düşünməli, onun anlağı dərəcəsində hərəkət etməlidir. Yaponlar nə üçün Avropa mədəniyyətini tez mənimsədilər. Çünki yaponlar Avropa mədəniyyətini Yaponiyaya şərab içərkən, ya kataloq taqınaraq gətirmədi. Onlar Parisə oxumağa gedərkən kataloqda getdilər, qayıdarkən yapon ərəqçinində qayıtdılar. Xalqın içinə girdilər. Onunla onun öz paltarında, öz dilində danışdılar və onu anlatıb kataloq taqdıqdan sonra özləri də kataloq taqdılar. Sənan da həqiqi bir məslək mürəvvici olsaydı, onu donuz damından söyləməzdi. Araya çıxar, xalqı onun öz dili ilə anladardı. Mən istərdim yoldaşların bir dəqiqə də olsa, fikri Sənanın yaşadığı mühitə köçürüləydi, xalqın Sənanın hərəkətlərinə qarşı nələr duyduğunu hiss edə biləydilər.

Pək eyi, şimdiki zamanı götürünüz. Qadınlardan daima şikayət edən bir müəllim təsəvvür ediniz. Bir nəfər qobulu öz qızını onun yanına qoymuş, oxudur. Bir gün qobulu içəri girir. Müəllim lüt madərzad soyunmuş, qızı da öpmək istəyir. Saxla, yoldaş, nə yapırsan? Sən sus, çünki sən donuzsan, anlamazsan, bir dəfə öpməyin eybi yoxdur. Hətta şimdiki zamanda böylə bir müəllimə nə deyilə bilər? Şübhəsiz, ya dəli deyirlər, ya əxlaqsız. Halbuki, heç biri deyil. Sən demə, yazıq müəllim sonradan fikrin dəyişmiş «daloy stıda» oxşar bir şey olmuşdur. Bu 10 il bundan əvvəl yapılsaydı, bir nəfər qobulu qələt eləyib öz qızmı məktəbə göndərərdimi? Fikrin

var, onu mənə də anlat. Yoxsa mən nə bilim sən nə yapırsan? Yoxsa sən qıza bənd olub şərab içəcəksən? Deyəndə də deyəcəksən ki, sən donuzsan, kim anlamayırsa, dəf olsun. Bu da bir rəhbərlik oldu. Sən, Sənan, həqiqi bir inqilabçı olsaydın, xalqın ruhunu düşünər, onun ilə öz dilində danışardın. Öz duyğularını, öz həyatını boğar, xalqın içinə girər, onu anladar, nicata doğru sürüklərdin. Yüzü anlamazsa, ikisi anlardı. Sənə o da bəsdir. Nə cür ki, bunu heç səbəbsiz təhqir etdiyin bu qoca dərviş yapırdı. Onun bir fikri var. Yanlışdır. XX əsrdə xalqı bəşəriyyyətdən uzaşmaya dəvət edəcək bir fikrə doğru deyəcək deyiliz. Fəqət doğru-yanlış bir fikri vardır. O bilir ki, həyatın şimdiki quruluşu, zamanın fikir və fəlsəfələri yanlışdır. Dinlər hədərdir. Çarə bəşəriyyətdən uzaşmayı görüyor, fəqət özü qaçmayır. O, başaçıq, ayaqyalın rus demişkən «bezşabaşno» bütün xalqın, bütün kütlənin, izdihamın, bütün bəşəriyyətin içinə atılmış, öz fikrini anladır, xalqı doğru yola çəkir. Bunun üçün sadə, anlaşılan vasitələrə müraciət edir. Sənanı son fəlakətdə göründə, yorulmaq bilmədən kim bilir nərələrdən qoşub gəlir. İştə gördünmü din nələr törədir? - deyə bir mülayimətlə ona anladır. Böylə açıq, sadə bir tərzdə, böylə münasib bir mövqedə söylənmiş sözləri kim anlamaz? İştə bu adam doğrudan da bir xalqçı, doğrudan da bir məslək adamıdır. O, çırpınır, o pərvanə kimi xalqın başına fırlanır. O, bir şey, bir mükafat da gözləmir. O, iki ildən sonra əhdə vəfa, otardığı donuzlara qarşı Xumarı da istəməyir. O, havayı çalışır. O, öz məsləki və əqidəsi üçün çalışır və kim bilir böyləliklə nə qədər adamı qandırmış, nə qədər adamın fikrini yerindən oyatmış, həqiqəti düşünməyə, heç olmazsa, düşünməyə sövq etmişdir. Bu hər halda cəmiyyətdə bir faydadır. Fəqət Sənan bağlandığı 2 il şu donuz damından cəmiyyətə nə verə bilərdi? Olsa-olsa 3, 4 donuz. Çünki o, xalqı düşünməyir. Xalqın ruhunu anlamırdı. Onun sadəliyini, avamlığını donuzluq sanır. Halbuki Yan Qusu yaqırkən qoca

bir qarının savab olsun deyə, şəbsindən ocağa 2 çırpı atmasını görüncə sevine, böyük bir məmnuniyyət, bir zövq ilə deyir: «Svyataya prostata». İştə bu adam xalqı anlamış, onu anlamaya çalışmışdır. Fəqət Sənan xalqı heç düşünməmiş, ancaq özünü, öz ehtiraslarını düşünmüşdür. Minlər ilə insanlar onun ziyarətinə gəlmişkən, ondan nicat yolu gözləyirkən o utanmadan deyir: «Sərsərilər, zavallı şaşqınlar, gediniz, haydı, haydı, azğınlar!»

* * *

Şeyx Sənan haqqında (əlyazma)[226]

... olduqca mühüm bir şeydir. Çünki dünyada, həyat və məişətdə olduğu kimi görülən şeylər xüsusunda az bir düşüncə ilə qəti bir hökm vermək, bu ağacdır, bu daşdır, bu taxtadır söyləmək bir o qədər də güc deyildir. Fəqət olduğu başqa, göründüyü isə bambaşqa olan şeylərə qarşı böylə yanaşılamaz. Bir çox şeylər üçün görkəminə qarşı düşünmədən hökm verənlərin son peşimanlığı da fayda vermiyor. Bunu görkəminə görə gümüş qiymətinə aldıqları gözəl qaşıqların bir aydan sonra Allahın izni ilə qaraldığını və paltarına və yaxud sözlərinə görə gözəl günahsız hətta dahi sandıqları bir adamın bir aydan sonra yaramaz bir sərsəm olduğunu görənlər həpsindən iyi biliyorlar.

İştə bugün mühakimə edilən Sənanın da şəxsiyyət və siması da böylə varlığı başqa, göründüyü isə bambaşqa olan şeylərdən biridir. Burada hər bir ehtiras parlaq bir cümlənin, hər bir yalan bacarıqlı, məntiqli görülə biləcək ikinci bir yalanın, hər bir yaramaz hətta səbirli bir hərəkət

[226] Qeyd. Tədqiqatçı alim Asif Rüstəmlinin C.Cabbarlının «Ədirnə fəthi» kitabında çap etdirdiyi materialdan başqa bu əlyazmanı da əldə etdik. Bu materiallar arasındakı müəyyən fərqlərin olduğunu nəzərə alaraq onu da (C.Cabbarlının ev muzeyindən əldə etdiyimiz əlyazmanı da) burada verməyi məqsədəuyğun hesab etdik.

az-çox niyyətli bir ağılın böyük bir məharətlə quraşdırdığı doğrultmalar yüksək, parlaq fəlsəfələr, ibarələr və nəticə etibarilə yenə də Sənanın özünün inanmadığı səmimi yalanlar arxasında gizlədilmiş, örtülmüş, basdırılmışdır. İştə burada doğruyu yalandan, yapmalığı həqiqətdən ayırmaq üçün son dərəcə diqqətli və ehtiyatlı olmalıdır. Böylə olunca Sənanın özünün xəlvətdə öz vicdanına qarşı etiraf etdiyi təqsirləri bənim burada isbata qalxışmağa da lüzum qalmayır, o özü donuz damında ikən onun çocuk ehtiraslarından ötəri biri-birini boğmazlayan, çeynəyən insanların boğuşmasını, qoparılan iniltiləri, tökülən göz yaşlarını görüncə xəlvətdə:

Bu fəlakətlərin bütün səbəbi
Həp bənəm, bən, bağışla ya rəbbi.

-deyə öz günahlarını, öz təqsirlərini boynuna alıyor. Ona görə də mən onu təqsirləndirməyi hankı qanun məcəlləsinin hankı maddəsinə görə müqəssir olduğunu göstərməyə çalışmayacağam, yalnız onun tərcümeyi-halını göründüyü kimi deyil, olduğu kimi söyləməyə çalışacaq və nəticə çıxarmayı isə hər kəsin və bütün tamaşaçıların vicdani-ümumiyyəsinə tapşıracağam.

Böyləliklə Sənan kimdir? İlk görüşümüzdə Sənan yaşının məsuliyyət daşıya biləcək bir çağında 30 yaşında az-çox ağıllı, fəqət adi, bayağı cinsiyyət ehtiraslarına tapqın, 30 yaşında gözəl, xoşsima bir tələbədir. Ona atalıq edən, onu tərbiyə edən, bildiyi hər bir şeyi ona söyləyən, onun tərbiyəsində heç bir qüsur göstərməyən, hətta vaxtın, mühitin adətlərinə baxmayaraq öz evini, qadınını, qızını ona məhrəm sanan yazıq Şeyx Kəbirin mini-mini yavrusunu, tək bir qızını, zavallı Zəhranı aldadıyor, zavalı qızın çocuqluğundan istifadə ilə ona bir çox yalan vədlər veriyor, onu özünə yenə məczub ediyor və bir qadın kimi ondan istifadə ediyor. Sənə

atalıq edən, səni doğma bir oğul kimi öz evinə buraxan bir adamın ufaq qızına göz etmək, onun qadınlığından istifadəyə çalışmaq üçün insanda bilməm nə qədər şərəfsizlik, nə qədər saxlanmaz, rəzil bir ərkək ehtirası olmalıdır. Əvət, Sənan bunu yapıyor. Cəhənnəmə, demək olur ki, bir qızdır, nəhayət alacaq, onu da fəlakətdən qurtaracaq, özü də işin içindən çıxmış olacaqdır. Fəqət, Sənan böylə deyildir. O ancaq özünü, öz ehtiraslarını, öz istədiyini düşünən, başqalarının istirablarına, aldanmış və vurulmuş yazıq bir qızın mini-mini yalvarışlarına, göz yaşlarına əhəmiyyət verənlərdən deyildir. O fədakarlıq nə olduğunu bilmiyor... Həyat bir dürlü qalmaz, insan çox istədiyi şeylərdən doyur, çox gördüyü şeylərdən usanır. İştə Sənan da zavalı qızcığazı bir çox yalan vədlər ilə aldadıb, məczub etdikdən sonra, 6 il onunla gizli macəralar keçirdikdən sonra nəhayət doyur, usanıyor. Şimdi o öz xəyalında, öz təsviratında daha gözəl, daha dilbər bir qadın yaradıyor. Onun füsünkar çöhrəsinə qarşı əyilmək, onun mavi gözlərini öpmək istiyor. Zəhra isə köhnə təbiətlidir, usandırmışdır. Sənan ondan qaçıyor, bunun üzərinə zavallı Zəhra bir çocuq səmimiyyəti ilə yalan bilməz, sevib bir mələk sadəliyilə ona müraciətlə: (oxuyor) ...

Möhtərəm hakimlər, möhtərəm müdafiəçilər, möhtərəm tamaşaçılar. Nəhayət möhtərəm molla Sənan. Bu zavallı qızdan bir qadın kimi istifadə edilməmişdir. Nəhayət nə istiyorsunuz. Yalan çirkin hərəkətlərin, yaramazlıqların heç bir kitabda yazılmayacaq, heç bir cəmiyyətdə söylənməyəcək, nəzakətsizlik sayılan ifadələrin kəlməbəkəlmə, nöqtəbənöqtə qeyd edilməsini, yorğanın yaxud balışın rəngi göstərilməsinimi istiyorsunuz. Əfv edərsiniz Sənan əfəndi. Sizin utanmadan yapdıqlarınızı, silistçi də utanmadan əmin ilə söyləməyə məcbur deyildir. Möhtərəm hakimlər. Şimdiki halda bu iş bir o qədər də qorxulu deyildir. Qadındır ərkəkdir, bugün uyuşa bilər, yarın ayrıla bilərlər. Fəqət zavallı Zəhranın mühiti böylə deyildi. Onun üçün yüzü qara ər

evinə getmək nə qədər böyük bir fəlakət olduğunu, nə qədər şərəfsiz bir ölüm olduğunu indi də xalqımız arasında görə biləriz. Onun üçündür ki zavallı Zəhra son nicat yolu olaraq - Sənan vəfasız, qəddar, bəni qəhr et də, lakin atma, aman - deyə boynuna sarılaraq ağlıyor. Sənan əfəndi, əcəba müsəlmanlıqda naməhrəm bir qadın heç bir əlaqədə bulunmadığı naməhrəm bir kişinin boynuna sarılıb onu quca bilərmi?

Böylə hallarda vəd nəyə qarşı verilə bilər? Nəhayət bən qorxuyorum ki, Sənan əfəndi silistçinin vəd ya vəfasız sözlərinin mənasını bilmədən yazdığını və yaxud yalandan yazdığını iddia etməsin. Fəqət Sənan əfəndi, özünüzə böylə bir zəhməti verməyiniz. Əvvəla silistçinin türkcə pək gözəl bildiyini hər kəs biliyor. Nəhayət sən özün Zəhranın qəti tələbatına qarşı ayılıb tutduğun işlərin nə qədər qorxunc, nə qədər fəlakətli olduğunu düşünüyor, bu dəfə ikinci bir vəd, ikinci bir yalanla yaxa qurtaqmaq istiyorsun və Zəhranın tələbatına qarşı:

Səni atmaqmı? Bir düşün, əcəba
Bu olur şeymi? Nazənin Zəhra
Sən mələksin, sevimli afətsin

- yalan, həm də məcburi bir yalan, fəqət tatlı, gözəl, parlaq, sevimli bir yalan.

Sənan əfəndi neçin Zəhrayı atmaq olmaz. Neçin sən onu atmamaya məcbursun. Afət kimə deyilir. Yoxsa sən özün də ərəbcə afətin mənasını bilmiyorsun. Əvət yoldaşlar görüyormusunuz ki, Sənan özünü qaçılmaz bir məcburiyyət qarşısında görüncə tərəddüdə başlıyor. Fəqət bir aralıq onun xəyalında yaratdığı mavi gözlü qadın ağlına gəliyor. Nə olursa olsun, Zəhra yenə köhnədir. Halbuki Ərəbistanda qara gözlü, mavi gözlü, bilməm nə gözlü gözəl qadınlar vardır.

İştə Sənan onları bu fəlakət qarşısında:

Əvət, bəndən nə istiyorsun get
Bəndə can qalmamış bir insaf et

- deyə özünü məcburiyyətə uyuşdurmaq istiyor. Yenə Zəhraya qarşı gözəl qadınların varlığı fikrini birtərəf edə-miyor, nəhayət bir dəqiqə əvvəl verdiyi sözləri bir dəqiqə sonra bir nədamətlə – «Getmə gəl ey nazənin mələyim» - deyə ona diyor, utanmazcasına sözündən qaçıyor.

Nə isə. Bunun üzərində durmayacağam. Bu o qədər açıq bir şeydir ki, bunu Şeyx Mərvan da biliyor və bir rəzalət deyə ayrıca qeyd ediyor. Şeyx Sənanın qadınpərəstiliyini, fəndsizliyini nəhayət Şeyx Kəbir də anlamış və ona açıq-açığına deyir:

Bu səadət fəqət uzun sürməz.
Çünki röyada gördüyün uçurum ...

İştə Sənanın bütün mahiyyəti. Sənan o qədər yalan danışmış ki, inandığı Allahı da aldatmaq istiyor. Bu saat gözümüzün önündə Zəhraya söz vermişkən dinləyənləri də aldatmaq istiyor, üzünü Allaha doğru tutub:

Bəni səndən gözəl bilən, tanıyan
Varmı ey xaliqi-zəmin-e zaman.
Mən otuz yıl cahanda zahidvar,
Bilmədim qız-qadın nədir zinhar.
Nə qədər məndə varsa hissü həyat,
Ehtirasatə düşmənəm.

Bunu Sənan xalqa qarşı onu gözləyən böyüklük xatirəsi üçün diyor. Fəqət onun daxilindəki adi bayağı bir ərlik susmayır, üsyan qaldırıyor. Onun yalanlarını üzünə çırpıyor və həman fikrinə çırparaq «Sənan nə çabuq çıxdı xatirindən» - deyincə, Sənan heç olmazsa, adamlara qarşı

özünü saxlamaq və onu da bir qədər sakit etmək üçün «aman ... diyor, sən danışma ...». Nəhayət, kəndisindəki ehtirasların susmaz olduğunu görüncə «bən şaşırdım, sakın utanma» - deyə bu saat öz müəlliminə, yoldaşlarına, hətta öz vicdanının təsirinə qarşı böyük bir əzəmətlə verdiyi təntənəli sözləri yaramaz, səbatsız, iradəsiz, müqəddəs bir erkəyin çəkilməz bir rəzaləti ilə geri götürüyor.

Ah gəl, gəl qüsura baqma

- deyə özünü öz saqın ... qoynuna atmaqla adi bir erkək kibi qarşımızda bütün çıplaqlığı ərzi əndam ediyor. İştə Sənanın bütün şəxsiyyət və mahiyyəti. Zəhra da o yana getdi. Saraldı-soldu. İmdi yəqin ki, sümükləri də çürümüş-dür. Beləliklə, Sənan Şeyx Kəbirin sözlərindən istifadə ilə Zəhranın ....

Bir də biz Sənanı ildən sonra bir kütlənin rəhbəri olaraq görüyoruz. Onu artıq böyüklük, ağalıq, hətta bütün bəşəriy-yətə qarşı hökmranlıq duyğusu yakanmış və müvəqqəti bir zaman için qadınçılığını ona unutdurmuşdur. Çünki Şeyx Kəbir ona demişdi ki, onun səadətini, hökmranlığını, cəlal və didəsini qadın məhv edəcəkdir. Onlar da qadınlardan guya qaçıyor, ancaq hökmranlıq fikri ilə yaşıyor və hətta bütün bəşəriyyəti əslən məhv və onun altında şəxsiyyətinə tapın-dırmaya çalışıyor. Fəqət ilan vuran çatından qorxar. Sənanın varlığındakı qadınçılıq onu rahat buraxmıyor. O, qor-xuyor. Ona görə də nərəyə çatdırsa qadınlığa qarşı bir nifrət, bir şikayət, biri damdan yıxıldısa, həp cinayət, qadın cinayəti, biri dəvədən digirləndisə həp cinayət, qadın cina-yəti deyə-deyə ... başlamış ... bütün qadınlara bir nifrət təbliğinə başlayır, fəqət unudulmasın ki, bunun çəkmədiyi qadınlar deyil, onun cəlal, şövkət, əzəmət və hökmranlığını sərnigaran edəcək qadınlardır. Qadını ona görə də sevmiyor ki, qadındırlar, ona görə sevmiyor ki, onları çox istiyor.

Onlara qarşı çox mühtərisdir, onlardan qorxuyor. Onların böyüklüyünü məhv edə bilirlər. Nəisə. 10 il müddətinədək böylə bir dolanbacla yaşıyor. Qadınlara aşkar yaklaşmayır. Zatən onsuz da, Zəhra orada ikən bir şey yapamazdı. Nəhayət islam bayrağı altında öz şöhrət və böyüklüyünü bütün dünyada tanıtdırmaq üçün Kəbəyə, təqsirinə qarşı and içib, «islam içində təfriqə var, biz onları birləşdirməliyiz və məqsədimiz böyük olduğu üçün zillət və əziyyətdən qorxmayıb izzət göstərməliyiz» - deyə yola çıxıyor. Fəqət son nəfəsdə zavallı Zəhrayı gör necə aldadıb fəlakətinə səbəb olduğu bir qızın baxışlarına qarşı bir vicdan qəzəbi ilə – «Ah Zəhra, zavallı, solğun üz. Səni Sənan gör necə alçaldıyor» - deyə hər bir şeyi bütün açıqlığı ilə etiraf ediyor. «Bəni əfv eylə ey şikəstə həyat». Sənan əfəndi neçin Zəhranı görüncə özünü alçaldıyorsun, hanki bir günaha qarşı səni bağışlamalıdır. Onun həyatı kimdən və neçin şikəstədir. Sən sus. Bən də deyəmiyorum, qoy xalqın vicdani-ümumisi cavab versin. Nə isə. Sənan böyük bir məfkurə təqsib ediyormuş kibi Məkkədən ayrılıyor. Məqsəd milləti bir islam bayrağı altında birləşdirmək, fəlakətdən qurtarmaq, guya nicata çıxarmaqdır. Zatən bunu bütün mollalar böylə diyorlar. Tutalım ki, Sənan biraz yaxşı molladır, biraz da fikri açıqdır. Hətta keçənlərdə meraca da şəkk eləmişdir. Şoğəlğəmərə də bir o qədər inanmayır. Təbii bunun üçün Sənana təşəkkür etməlidir. Nə isə. Böylə guya böyük ali bir məqsəd, bir əməl, bir dilək, bir ideal ilə gələn Sənan aşkarda nə varmış bir mavi gözlü gürcü qızcığazı görüyor. Qız gözəl, pək gənc, füsünkar bir gözəlliyə malikdir. Sənanın sevdiyi qadın tipinə, onun zövqünə pək uyur. Burada Sənanın böyüklük və şöhrət duyğusu bir anından susdurulmuş zat qadınçılığı bütün dəhşəti ilə qalxıb onun deyil ki, yalnız böyüklük və şöhrət tamayülünü, hətta onun bütün düşüncələrini, Şeyx Kəbirin bütün vəsiyyətlərini həp cinayət, qadın cinayəti deyə aparılan təbliğatları 5 dəqiqə əvvəl dərdin

təlqin etdiyi «əgər fövqəlbəşər olmaq dilərsən uzaqlaş da təmasını bəşərdən» deyə qandırdığı rəbbini hər şeyini biliyini, şərəf, heysiyyət, bir sözlə Sənan da yaxşılığa, adilə qarşı bütün tökuntülərin həpsini məhv ediyor və qadınlığa qarşı adətən üsyan qaldırmış Sənan bunun bütün diləyini, məsləkini, əməlini edib alınca böyük bir rəzalətlə bir qadının ayaqlarına endirib səlahiyyətini təslim ediyor. Seviyorum, həpsindən böylə bir adam ictimai həyat üçün yararlı bir adammıdır? İctimai həyatda ona bir vəzifə tapşırıla bilərmi? Təsəvvür ediniz ki, o, bir komandandır, o, ... fikri bir komandan yerindədir. Hərbin ən şiddətli vaxtında fərman humayun ... «dayan geri». Neçin. Ona görə deyil ki, irəliləmək lüzum deyildir. Ona görədir ki, ... düşmən ordusundan əsir düşmüş bir qıza bənd olmuşdur. Fəqət geri dön deyərkən o, demiyəcəkdir ki, geri dön, çünki bən bənd olmuşam. O, başqa bir bəhanə bulacaqdır. Məsələn, ... çünki ab şor əst xeyr nədarət. İştə Sənanın ictimai həyatda ağırlığı olsa-olsa bu qədər ola biləcəkdir. Baxsanız, şərəf diplomatiyasının tarixində yüzlərcə, binlərcə böylə rəzalətlərə təsadüf edərsiniz. Platon kişi adamdır. O Sənan kimi andından dönən deyildir. And içmişdir. Fəqət bu yazıq avam xristian görür ki, onun qızı bu qoca müsəlmanın, xüsusilə mollanın əlində məhv olacaqdır, çarə arıyorlar, tapılmıyor. Sənan müsəlmandır, molladır, bir kütlənin rəhbəridir. Ehtimal ki, müsəlləh nəbatlı bir adamdır. Böyük bir izdihama qarşı bir şişə şərab al. İç. Zənn edirsiniz ki, Sənanca şərab halal da olsa onun içməsini - ancaq bir qız üçün içdi - deyə təlqin edəcəklərindən o içməyəcəkdir. Fəqət Sənandan artıq böylə şeyləri sormayınız. O şimdi ancaq öz dərisini, öz ehtiraslarını düşünüyor. Alıyor. İçiyor. Ya Şeyx bu içdiklərin haram deyilmidir? Sənan çox düşünmiyor, ictihad, daha doğrusu bəhanə hazırdır. Ab şor əst xeyr nədarət. Bir istikanın eybi yoxdur. Fəqət möhtərəm Şeyx əfəndi, neçin bunu sən dünən demiyordun. Pəki, bir istikanın eybi yoxdur,

fəqət keşiş çox bicdir, o öz işini pək gözəl biliyor. Al, bu xaçı da as. Sənan alıb asıyor. Ya Şeyx, nə yapıyorsan. Ab şor əst xeyr nədarət. Bununla bir parça gümüş arasında bir fərq yoxdur. Əvət, Sənan əfəndi. O xaç bir parça gümüşdür. Bən də qəbul ediyorum. Fəqət sən hər şeydə bir rəmz arıyorkən onu düşünəmiyordun ki, o xaçın sənə verilməsi bu gümüşü al demək deyil. Açıq-açığına xristianlığı qəbul et deməkdir. Sən düşünüyordun, düşünərək də aldın. Çünki ehtirasın əsirisən, özün istəmədən xristian oldun. Bunun əleyhinə sən öz məsləkini öz şəxsiyyətinə, öz şəxsi səadətinə, öz ehtiraslarına satan, fəda edən, tapdayan bir adamsan. Xristian olmadın, yalançısan. Çünki xristian olmadan qarşıdakıları aldatmaq üçün xaçı alıyorsan. Əvət, bən səni anlıyorum. Bu cəhətcə sən tək deyilsən. ... Sənin səadətin üçün bir çoxlarının fəlakətlərinə lüzum görülüyorsa veriyorsun, mavi gözlərdən keçmək olmaz. Keşiş pərt oluyor. Zavallı öz hayında yanılmışdır. O qarşısında böyük bir kütlənin rəhbəri, azacıq nəbatlı və dayanıqlı bir adam təsəvvür ediyorkən Sənan lax çıxdı. Keşiş yenə ümidini kəsmiyor. Al, Quranı da yax. Şeyx Quran yaxılmaz, Şeyx ... var. Nə imiş, yanan kağız və mürəkkəbdir. Yəni ab şor əst xeyr nədarət. Fəqət Şeyx əfəndi, neçin sən o kağız və mürəkkəbi qoynunda qızdırıyordun. Neçin bunu dünən demiyordun. Qırx yıllıq həyatında bir dəfə də olsun şərabdan qaçdın, Qurandan söz düşməyi neçin demiyordun və neçin təbin ancaq mavi gözlərə qarşı coşdu. Pəki, kağız, mürəkkəbdir. Bən də qəbul ediyorum. Fəqət sən başqalarına arif ol deyirkən özün düşünmədin ki, burada məqsəd kağız və mürəkkəb deyil, sənin tutduğun yolun, əqidənin, məsləkin yakılması, çeynənməsidir. Buna sadə bir qızcığaz Xumar belə inanmıyor. Kəsin sən dayanıyorsun. Nə isə. Keşiş Sənanı yavaş-yavaş tanımaya başlıyor. Hər şeydən ümidini kəsib nə istərsiniz o itaətdən boyun qaçırmaz deyə ötürüyor. Bunu Sənan da diyor. Hər nə əmr etsəniz qəbul

edərim. Doğrudan da diyorlar iki yıl donuz otarmalısan. Baş üstə. Yaxşı ki, ona da bir bəhanə gətirməmisən ki, kənd təsərrüfatını yüksəltmək lazımdır. İştə cəmiyyət içində Şeyx Sənanın əhəmiyyəti. Siz görüyorsunuz ki, Platon hər nə istəsəydi Sənan qəbul edəcəkdi. Qumar oyna! Baş üstə. Ya Şeyx, qumar oynamaq haramdır. Səsini kəs, budala, köpək, köpəklə eybi yoxdur. Fəqət eybi yoxdur ona görə deyil ki, eybi yoxdur. Ona görə ki Sənanın səadəti üçün bu lazımdır. Platonun üç-dörd nəfər düşməni var. Onları da öldür. Ya Şeyx, adam öldürmək haramdır. Səsini kəs, budala, üç-dörd nəfərə nə söz. Vallah, ab şor əst xeyr nədarət. Şimdi yoldaşlar, böylə bir adamın cəmiyyətdə nə kibi əhəmiyyəti olur. Burada bir məsələyi də qeyd etmək istiyorum. Çünki bizim adamlar biraz fantazistdirlər. Bir arif ki hər şeydə gizli bir məna ararlar, deyirsən bazara gediyorum, deyir görəsən haraya gedəcəkdir, bazarı simvol olaraq diyor. Burada deyə bilərlər ki, Sənan Xumarı bir qadın kimi deyil, bir ...

Burada diyorlar ki, Sənan bütün bu hərəkətlər ilə əskiliklərdən ayrıldı. Öz yoldaşları kimi gör mütəəssib olmadı. Onlardan, o çirkin adamlardan ayrıldı, çirkabın üzərinə çıxdı. Bu böylə degilsə də fəqət olsun. Ancaq nə etməli ki, Sənan bir çirkabdan, ondan daha dərin, daha çirkli bir çirkaba düşmək üçün çıxdı. Tutalım o çirkabın içində bir-iki, beş-on nəfər Sənanın sevdiyi mərvanlar var idi. Şeyx Hadinin təqsiri nə idi? Şeyx Sədranın təqsiri nə idi? Həman çirkabın içərisində bulunan 400 milyon zavallı xalqın, milyard yarımlıq zavallı insanlığın təqsiri nə idi. Tək-tək şəxsiyyətlərin çirkab üzərinə çıxması bir hünərmidir? Hünər binlər ilə çirkablarda bulunan, çapalayan xalqın çəkilib çıxarılmasıdır. Fəqət Sənan donuz damlarında keçirdiyi həyatında cəmiyyətə nə fayda verə bilərdi? O donuz damından cəmiyyət üçün nə çıxarmaq olur.

Olsa-olsa otuz ya qırx ... donuz, nə az nə çox. Halbuki o, öz nüfuzundan istifadə ilə görüşünə, ziyarətinə gəlmiş

yığın-yığın kəndlilərə, köylülərə onun yoldaşları tərəfindən qazılmış çirkablarda boğulan zavallılara yol göstərə bilərdi, nicat verə bilərdi. Fəqət Sənan xalqı, kütləni düşünmüyor. Ancaq özünü düşünüyor. Ona deyəndə ki, tövbə et, diyor – Xumardan başqa hər şeyə nifrət. ... qoy bütün dünya məhv olsun, fəqət bən Xumardan əl çəkməm. Bu bir hünərmidir? Bu bir yaxşılıqmıdır? Bu çətin bir işmidir? Bunu hər kəs yapa bilir. Bunu çoxları yapıyor. Bunu bütün məmləkətin, bütün xalqın nicat və saədətini ancaq öz səadət və zövqünə, eyş-işrətinə fəda edən 15-ci Lyudoviq də böylə yapıyor (posle menya xot potop). Bunu bütün məmləkətin hüquq və şəxsiyyətini çeynəyən, bütün xalqı öz şəxsiyyətinin ayaqlarında çeynəyən 14-cü Lyudoviq də böylə yapıyor (qosudarstva eto ya). Məmləkət bənim deməkdir diyor. Yəni bütün varlıq bənim zövqümə, bənim istəyimə fəda olmalıdır. Bunu həpsi yapa bilir. Pəki Sənan əfəndi. Tarixdə mənfi simalar kimi görülən bu adamlardan sənin nə fərqin vardır. Fəqət fərqin vardır. O da bilirmisən nədir? Bunlar düşündüklərini açıq pərdəsiz, bəhanəsiz diyorlar. Sən isə yapdıqlarını bin dürlü bəhanələr altında gizlətməyə çalışıyorsan. Fəqət o bəhanələr ancaq bəhanədir. Hər yerdə isə məqsəd sənin şəxsiyyətindir. Bütün ictihadların ancaq şəxsi mənfəətinə xidmət etmək üçündür. Bunu səndən əvvəlki mollalar da həp böylə yapmışlardır. Sənan bir kütləyə rəhbərlik edərkən Sənan kütlənin ya ümumən insanlığın səadəti üçün bir ictihadda bulunmuşmudur. Yox. Məkkədə ikən hər cinayət doğmaz qadınlardan. Çünki qadın Sənanın şöhrəti üçün qorxuludur. Tiflisdə ikən qadınlar yaxşı adamdır. Çünki Sənan Xumarı sevir, şərab içmək olur, çünki özü öz şəxsi mənfəəti uğrunda şərab içməyə məcburdur. Xaç asmaq olur, çünki özü xaç asmağa məcburdur. Donuz oturmaq olur, çünki özü buna məcburdur. Axırıncı pərdədə qadın bu faciəsini ... hər bir ictihad ancaq Sənanın şəxsiyyətinə xidmət etmək üçündür. Yaxşı ki, Sənan adam öldürmək

məcburiyyətində qalmamış. Çünki o da bir ictihad olaraq, bir qanun olaraq boynumuza keçəcəkdi.

Burada bir məsələyi də qeyd etməlidir. Çünki bizim adamlar çox fantazistdirlər. Ariflik deyə hər açıq şeydə gizli bir məna arar, məsələn, aşkar ikən açıq qapıyı zorlarlar. Deyirsən bazara gediyorum, deyir görəsən haraya diyor, biz başa düşməyiriz. Məsələn, Sənan Xumarı bir qadın kimi almaq istiyor. Bir də görəcəksən yoldaş müdafiəçi durdu ki, yox siz başa düşmüyorsunuz. Sənan Xumarı bir qadın kimi deyil, bir ideal kimi seviyor. Xumar Sənanın fikridir, əməlidir, bilməm əqidəsidir. Onun yolunda hər şeyi fəda edər. Sənan desə onun ayıbı yoxdur. Çünki biz onu pək gözəl tanıyoruz. O, adətən hər şey üçün bir bəhanə tapa biliyor. Şeyx Mərvan ona deyəndə ki, sən ki əvvəl qadından ürkərdin, diyor bu qadın deyil mələkdir.

Necə yani mələkdir. Müdafiəçi bu sözdən tutub deyəcəkdir ki, yox Xumar qadın deyil mələkdir. Hətta idealdır. Əməldir. Çünki Sənan özü diyor. Axırı nə olsun ki, Sənan diyor. Sənan Zəhraya da diyordu ki, sən mələksin. Bunu xırda uşaqlar da biri-birinə öz sevgilərini söylərkən diyor. Sən bənim əməlimsən, sən bənim mələyimsən, vallah, vallah, evlənmək istəyən bir kişi almaq istədiyi qadına nə deyir. Ya deyəcək sən mələksən, ya deyəcək bənim əməlimsən, bənim tanrımsan, daha nə desin axır. Desin sən cinsən, şeytansan, ifritəsən. Ya deyəcək mələksən, ya da buna oxşar bir şey deyəcəkdir də. Heylə tutalım ki, Xumar Sənanın doğrudan doğruya idealı idi. Neçün Sənan keşişin bir kəlmə sözü ilə öz idealından əl çəkib getdi. Öz idealının uğrunda mübarizə aparmaq istəməyən, bir kəlmə sözlə onu buraxıb qaçan Şeyx Sənanı biz hankı dəftərə yazaq. Bunlar təbii, ancaq birər fantaziyadır. Əməlin, idealın, mollanın donuz damında nə işi vardır.

Son pərdədə Xumar ona diyor:

Pək müqəddəsdir iştə bəncə sənin
Hər şeyin, həp təriqətin, dinin.

Burada möhtərəm müdafiəçi də özünü itirəcəkdir. Əcəba, kim kimin idealıdır. O, zənbil ilə göydən düşən insan görkəmli ideal, ya mələk kimdir. Sənandır, ya Xumar. Nəhayət Sənan özü. Nəhayət Sənan iki il donuz otardıqdan sonra əski şöhrətinin cəlalının da getdiyini, qızdan da əli çıxdığını görüncə diyor:

Şeyx, ya Şeyx gəl də seyr elə,
Yandım atəşdə kəndi rəyimlə
Bən qulaq vermədim dəgərli sözə
Həp qadından gəlir nə gəlsə bizə.
Ah, sağ olsaydı şimdi Şeyx Kəbir
Görərdi öz möcüznüma kəramətini.

Fəqət Şeyx ona nə demişdi:

Alçalır ruhun alçalır ancaq
Səni alçaldan ehtiras olacaq.

Sənan soruşdu - hankı şeydir səbəb fəlakətimə - cavab olaraq söyləmişdi.

Sənin fəlakətinə səbəb olacaq şey
Qadındır, iştə qadın.

Sənan bu sözləri xatırlayaraq diyor:

Yandım atəşdə kəndi rəyimlə
Bən qulaq vermədim dəyərli sözə.
Həp qadından gəlir nə gəlsə bizə.

Qadından gəlir. Ya sən qadının fəlakətinə səbəb olan Sənanın ruhunu özünü alçaldan qadının da başqa bir mənası vardır. Bəlkə ərəbcə qadın başqa bir şeyə deyirlər. Mələkiyəzadə diyorlar. Onu bən bilmiyorum. Ancaq bizim dildə qadın iki əlli, iki ayaqlı, iki gözlü, çox vaxt da mavi gözlü qadına deyirlər. Fəlakət də fəlakətə diyorlar. Sənan son dəfədə pənah ancaq uçurumdur diyor. Uçurum da uçuruma diyorlar. Yəni dərin bir dərənin dibinə, nə az nə çox. Bir sözlə, Sənan əgər türkcə danışıyorsa məsələ bəllidir. Xumar nə fikirdir, nə idealdır, nə mələkdir, nə də bir şeydir, adi sadə bir qadındır. Yox əgər özü etiraf etdiyi yeni bir dildə danışırsa ya gördüyü mələklərin dilində danışırsa bilmiyorum bəlkə orada uçurum fəzilətə, qadın mələk ya ideala diyor... Kim bilir. Ancaq yoldaşlar. Məsələ aydındır. Çək-çevirə lüzum yoxdur. Sənan bir qızı sevmiş, bənd olmuş, onun uğrunda bütün məsləkini, əqidəsini, yaxşı yaman onunla ... bir qədər hər bir şeyini atıb öz ehtiraslarına əsir olmuşdur. Nəhayət qızı özünə məczub etdiyindən heç bir mübarizə aparmadan buraxıb qaçmış və nəhayət zavallı qız ondan son nicat yolu istərkən son nicat uçurumdur deyə onun da fəlakətinə səbəb olmuşdur. Burada bir məsələ də vardır ki, onu da qeyd etməlidir. Məsələ Zəhranın və Xumarın fəlakətləri ilə bitmiş olsaydı demək olardı ki, pəki Sənan qadınçıdır. Şərab da içiyor. O da binlərlə şərab içənlərdən, qumar oynayanlardan biri. Nə olsun. Ancaq yoldaşlar, məsələ böylə deyildir. Sənan bu sadə adamlardan biri olmuş olsaydı cəhənnəmə, dərd yarı idi. Fəqət bən çox işlətdiyim bir təmənnanı xatırlatmaq istiyorum. Məsələn, qanun bir Məhəmmədqulu acıqlanıb öz evini yandırar, ona cəza verirlər. Fəqət bağışlana da bilər. Fəqət həman Məhəmmədqulu acıqlanıb öz evini yandırırsa və bunun üzərinə yanğın bütün kəndin evlərini məhv edərsə o zaman Məhəmmədquluyu heç bir qanun bağışlayamaz. O məqsəddir. Onda cəza verilməlidir. Şimdi Sənanın hərəkət-

lərinə fikir verəlim. Sənanın mühiti qaranlıq, cahil bir mühitdir. Hər tərəf qaranlıq, hər tərəf mövhumat kimi. Bir şey düşünmək istəmiyor. Düşünəmiyor. Çünki müəyyən qanun vardır. Uzaq getmə batarsan. Bu mühitin içərisindən bir Sənan çıxıyor. Ağlının ucuyla meraca şəkk eliyor. Şoğəlğəmərə də başqa bir məna veriyor. Bunun üzərində bütün mühitdə ona qarşı bir şübhə çıxıyor. Hər kəsdə bir etimad ilə bərabər bir şübhə də vardır. Fəqət həman mühit meraca şəkk eləməkdən başəkkmiş. Sənanın iki ildən sonra bir qız üçün xaç asmaqla bitirməsini görüncə ümumən böylə yeni fikirlərə nasıl baka bilir. Ondan sonra bir nəfər zihayat çıxıb deyə bilərmi ki, merac yalandır. Deyəməz. Həman, sus sən də axırda xaç asacaqsan, uzaq getmə Sənan kimi batarsan - deyə ağzını tıxayacaqlardır. Sənan öz hərəkətləri ilə tarixin yetişdirdiyi cəlaləddinlərin, Ömər Xəyyamların və bu kimi bəşəriyyətin nicatı üçün heç bir təmənnasız fikirlər, fəlsəfələr doğuranların yolun kəsmiş, qanadlarını qırmış, ağızlarını tıxamış oluyor. Həmin halda xalqda da böylə yeni fikirli şəxslər, ümumən yeni fikirlərə qarşı bir inanmazlıq, bir etimadsızlıq yaradıyor ki, bu da bütün xalq üçün zərərdir. Böylə ... hərəkətlərə və öz hərəkətləri ilə zaman və məkanla hesablaşmayan ünsürlərə əlbəttə yol verilməməlidir. Tutalım Sənan yapdıqlarının həpsini xeyirli biliyordu. Şərab içmək, xaç asmaq heylə yaxşı şeymiş. Fəqət o bunları öz şəxsi ehtirası üçün bir qıza qarşı yapmamalı idi. O ehtiraslarını, öz şəxsiyyətini boğmalı və öz fikirlərini özünün bir şey gözlədiyini göstərmədən təbliğ etməli idi. O zaman bən ona fədakar deyə bilərdim. Böyləliklə isə təsəvvür ediniz bən öz qızımı özüm dərs aldığım professorun leksiyalarına göndərmişəm. Professor hər gün qadınların belə olma səbəbindən onlardan qaçmaq lazım olmasından bəhs ediyor. Bir gün içəri giriyorum və o, bənim qızımı yaxalayıb öpüyor.

Sən sus sən donuzsan, anlamazsan. Bir dəfə öpməklə eybi yoxdur. Hətta şimdiki zamanda bu professora nə deyilə

bilir və əgər əlli yıl bundan əvvəl Azərbaycanda yapılsaydı bir azərbaycanlı öz qızını məktəbə göndərərmiydi. Halbuki professor əslən bir fəna iş görməmiş, onun fikri dönmüş və sərbəst məhəbbət kimi yeni bir fikrə gəlmişdir. Fəqət bu vəziyyətdə bunu kim anlayacaqdır. Sən öylə bir vəzifədə şərab içiyorsun, deyəndə də diyorsun siz donuzsunuz. Kim yol-iz bilmiyorsa dəf olsun, bu da bir rəhbərlik oldu. Sən Sənan səmimi bir xalqçı, bir məslək adamı olsaydın orada öz nəfsini boğmaz və öz fikirlərini sadə, avam, zavallı xalqın dilində ona anlatmaya girişərdin. Nə cür ki bunu sənin heç səbəbsiz təhqir etdiyin xacə dərviş yapıyordu. O vaxtın quruluşunu düz görmüyor, biliyor ki, vaxtın, zamanın bütün bu fəlsəfələri yalnışdır. Onu yeniliklər ilə başqa bir aləmə sövq etmək lazımdır. Onun da fikri yanlışdır. Biz XX əsrdə bəşəriyyətin biri-birindən ayrı olaraq monfərd yaşaya biləcəyini etiraf edəcək deyiliz, fəqət, məsələ onun fikrinin doğru-yalanlığı üzərində deyildir. Məsələ onun şəxsiyyəti üzərindədir. O diyor, insanlıqdan qalmalıdır. Fəqət özü qaçmayır. Özü xalqdan ayrılamayır. Başı açıq, ayağı ruslar demişkən biz ... bir izdihamın içinə atılmış kimi görüyorsun. Nərədə görüyorsan zaman fəlsəfəsinin boşluğunu dinlərsən. Yalanlığını bilməm nə kimi şeylərin yaramazlığını təbliğ ediyor və onu ... üçün hər bir açıq sübutdan istifadə ediyor. Sənanı son fəlakət içərisində görüncə həman bir rukaf bilmədən kim bilir nələrdən qoşub gəliyor. ... işdə gördünmü din nələr törədir. Nə bənlər, nə ...

Din bir olsaydı yer üzündə əgər,
Daha məsud olurdu cinsi-bəşər.

O təkdir, o mübarizə aparıyor. O məkrini isbat üçün çalışıyor. O pərvanə kibi xalqın başına fırlanıyor, çırpınıyor. O bir şey, bir mükafat da gözləmiyor. İki yıldan sonra içdiyi şərablara, otardığı donuzlara qarşı Xumarı istəmiyor. O

havayı çalışıyor. O öz məsləki, öz əqidəsi üçün çalışıyor. Və kim biliyor bununla nə qədər adamın fikrini yerindən oynatmış, həqiqəti düşünməyə, heç olmazsa düşünməyə məcbur etmişdir. Kim bilir, o nə qədər insanları doğru bir yola sövq etmişdir. Fəqət Sənan bəşəriyyətə nə vermişdir. Olsa-olsa təkrar ediyorum, Platonun damından otuz-qırx donuz, nə az nə çox. Çünki o xalq üçün çalışmıyor. O öz ehtiraslarını, öz dərisini qoruyor və bununla insanlara onun ziyarətinə gəlmişkən, ondan nicat gözlüyorkən Sənan utanmadan söyləyir.

İstəməm, çəkilin bəndən olmaz bir istifadə sizə
Başqa mürşüd birlikdə kəndiniz.
Şeyxiniz hər nə varsa tərk etdi
Getdi həp əski bənliyim getdi

Ona diyorlar:

Elədin Kəbə qarşısında yəmin
O bu gün məhv olurmu bir qız üçün.

Sənan diyor:

Vətənim mənim, Mədinəm, Kəbəm
Həp Xumardır, vaz keçəməm.

İştə. Sənanın bütün xalqçılığı və cəmiyyətə verəcəyi ya verə biləcəyi nəticələr. Nəticələr dumanlı isə bir neçəsini bən söylüyüm:

Şeyximiz satdı dini imanı,
Öncə islama bir mürəvvic ikən
Xaç asıb çıqdı dinü məzhəbdən.
Gedəlim haqqa iltica edəlim.

Gedəlim Şeyx üçün dua edəlim.
Gedəlim ta ki burada sapmayalım.
Gedəlim biz də xaça tapmayalım-

-deyə hər yeniliyə göz yumaraq, qulaq tıkayaraq məscidin küncünə yığılıyor. İştə Sənan, onun işləri və onun nəticələri. Bən özüm heç bir şey demiyorum. Qoy hər kəs özü düşünsün. Nəticə çıxarsın. Fəqət unutmamalıdır ki, hər parlayan qaşıq gümüş olmaya bilir və farsi demişkən iti dişli pələngə acımaq qoyunlara zülm etmək deməkdir.

TARIN MÜHAKİMƏSİNƏ DAİR MATERİALLAR

«Maarif və mədəniyyət» jurnalı, 1926. № 9(32)

Gözəl sənətlər
Azərbaycanda musiqi tərəqqisi
Musiqi təhsili

Eşitdiyimiz məruzədən böylə anlaşıldı ki, yoldaş Quliyev yalnız Avropa musiqisi təhsilinin tərəfdarıdır. Şərq musiqisinin təhsili lüzumuna aid məruzədə bir şey yoxdur. Yalnız bunu bildik ki, Quliyev yoldaş şəxsən (tar) təhsilinin tərədarı deyildir və hətta tarın xalq musiqi aləti cümləsindən olduğuna da inanmayır.

Zənn edirəm ki, yoldaş Quliyev tarın xalq musiqi alətindən biri olduğunu iqrar etsə idi də, yenə tar təhsilinin şəxsən lüzumsuz edəcək idi. İş bundadır ki, başqa millətlərin məsələn rus, alman, firəng və sairlərinin dəxi bir xeyli xalq musiqi alətləri vardır. Bununla belə bu alət və sazların çalğısı musiqi məktəblərində təhsil olunmayır. Çalğıları öyrənilən alət yalnız piano və əlavə orkestrdə mövcud olan instrumanlardır. Məsələn. Viyalon, viyalon-çin, klarnet, fleyta, trumba və sairə. Daha gitar, mandolin, qövslü dumbra və bu kimi xalq musiqi aləti musiqi məktəbləri daxilində təhsil edilməz. Böylə olan surətdə bizə nə düşübdür ki, tar, saz, zurna və balabanlarımızı konservatoriya proqramına daxil edib tədrisini tələb edək.

Əlbəttə, əgər biz musiqi təhsilindən idarət yalnız Avropa musiqisini hesab etsək idik, biz də yoldaş Quliyevlə bərabər tar təhsilinin lüzumsuz bir şey olduğunu iqrar edib, ləğv tərəfdarı olardıq.

Fəqət bu xüsusda bizim fikrimiz böylədir ki, Avropa musiqisindən əlavə bir də Şərq musiqisi vardır və biz azərbaycanlılar özümüz Şərq əhlindən olduğumuza görə musiqi

təhsili işində Şərq musiqisinə qarşı biqeyd qalarsaq, öz mədəni vəzifəmizi kəmalınca ifa etməmiş olarıq. Tar isə Şərq musiqisi təhsilini genişləndirə bilən alətdən ən qiymətli və ən mühümüdür. Yoldaş Quliyev zənn etməsin ki, tar təhsilini konservatoriya proqramına daxil etməklə gələcək üçün sazəndələr hazırlatmaq istənilir. Musiqi məktəbi tara yalnız elmi cəhətdən yanaşır və tarı, şərq musiqisinin əsası olan muğamatların kəşf və şərhi üçün elmi bir Alət sifətilə öz proqramına daxil edir. Tarda, musiqi məktəbi daxilində «Ənzəli» kimi küçə diringələri çalğısı təhsil edilmir. Bəlkə müəyyən proqramm üzərə muğamat tədris edilməklə Avropa musiqi əsasından qeyri olan Şərq musiqi əsasları şagirdlər üçün şərh və bəyan olunur.

Əz cümlə tarı not üzərə çalmaq dəxi mümkün olduğundan tarçı şagird tam bir musiqi təhsili görmüş olur.

Hərhalda yoldaş Quliyev tar haqqında öz şəxsi fikrini söyləyibdə mübahisəli olan bu məsələnin qəti həllini musiqarlara həvalə etməyə mail olduğunu bildirirdi ki, ən gözəli dəxi budur. Bununla belə, yoldaş Quliyev tar haqqındakı rəyi böylə bir xeyir isə münəccər oldu ki, şərqi və ğəna (xanəndəlik) kimi heç bir elmi fənni və bədii mənası olmayan dərslər musiqi məktəbi proqramından silinsin.

Yuxarıda bəhs edilən məsələlərdən əlavə yoldaş Quliyev Azərbaycan hökumət türk musiqi texnikumu ilə Azərbaycan konservatoriyasının birləşməsi və əlavə şərqi orkestro məsələsi haqqında dəxi öz fikri və nəzərini məruzəsində söylədi. Bu mühüm məsələlərin şərhi xüsusi məqalələrə möhtac olduğundan onları və əlavə musiqi təhsili məsələsinin təfsilatını gələn nömrələrə saxlayırıq.

Ümumiyyətlə, burasını qeyd etmək lazımdır ki, yoldaş Mustafa Quliyevin məruzəsi Bakı musiqi xadimləri üzərində böyük bir təsir buraxdı. Müxtəlif və bir əks yollara dağılmış olan fikirlər üçün müəyyən və məqsədlə yaxınlaşdıran bir vahid yol göstərilməklə fikirlər bir çox mühüm məsələlr

üzərində birləşdirildi. Pozulmuş orkestroya müəyyən bir ton verilib sazlaşdırıldı.

Ümid edirik ki, bundan sonra musiqi xadimlərinin Azərbaycanda musiqi tərəqqisinə aid olan xidmətləri biri-birinə saz və müvafiq gəlib, məruzədə göstərilən bir yol üzərə davam ediləcəkdir.

Üzeyir Hacıbəyli

* * *

«Yeni yol» qəzeti, 28 sentyabr, 1926.

Şərq musiqisinə Avropa təmayülü verilməsi məsələsi

Sentyabrın 25-də axşam saat 6 tamamda Hökumət Akademik teatrosunda Xalq Maarif Komissarı yoldaş Mustafa Quliyevin Azərbaycan musiqi mədəniyyəti xüsusunda məruzəsi oldu. Maarif Komissarlığının bu məruzəni qoymaqda məqsədi kütlənin rəyini bilməklə Şərq musiqisinin bəzi alətlərini bilmərrə ortadan qaldırmaq və bəzi havacat və muğamatlara Avropa təmayülü vermək idi.

Yoldaş Quliyev havacatlara və muğamatların İrandan alınmasını göstərməklə, tar musiqisinin dəxi onlardan qalmasını qeyd edərək bunun əhəmiyyətsiz bir musiqi aləti olmasını söylədi. Türk musiqi texnikumu ilə rus musiqi texnikumunun birləşməsi məqsədilə olmayıb, Şərq musiqisinə Avropa təmayülü vermək üçün olduğunu dəxi qeyd etdi.

Hər millətin özünə məxsus bir musiqisi olduğu kimi tar da Azərbaycanın özünə məxsus bir musiqi olduğu hər kəsə bəllidir. Həmin bu musiqi alətindən (tar) tərtib olunaraq son vaxtlar Moskva və Şuralar İttifaqının başqa ölkələrinə getmiş Azərbaycan orkestrosunun gələcəkdə birincilərdən hesab olunacağını mətbuat belə qeyd etmişdir.

Şura bərpasından sonra musiqinin Azərbaycanda yuxarı dərəcəyə qalxmasından dolayı bu 5 sənənin müddətində və böyük işlər görüldüyü müşahidə olunur.

Bütün Azərbaycan kütləsində Şərq musiqisinə artıq maraq oyandığını hər kəs təsdiq edir zənnindəyiz.

Ona görə Üzeyir bəy və qeyri yoldaşlar qeyd edən kimi biz kəndi musiqimizdən vaz keçməyib onu qüvvətləndirmək ilə tar və bu kimi Şərq musiqi alətlərinin daha da incələşdirilməsini və həqiqi Azərbaycan musiqisi halına salınmasını arzu ediriz.

* * *

«Kommunist» qəzeti, 11 yanvar 1929.

Tar üzərində mühakimə münasibətilə

Musiqi məktəblərində (əvvəlcə Dövlət Türk Musiqi Texnikumu, sonra isə Dövlət Konservatoriyasında) tar dərsi oxuyan şagirdlərə həm Şərq muğamatı və həm də nota üzrə tar çalmaq dərsləri verilir.

Tarın nota üzrə çalınması işləri daha mükəmməl, daha düzgün və daha səmərəli bir hala salmaq üçün vaxtilə dövlət musiqi texnikumu yanındakı Elmi – Bədii Şura; tar instrumentinin xüsusiyyətlərini nəzərə alaraq tar üçün xüsusi musiqi açarı (Qərb musiqisindəki metso-soprano açarı yerində məlakəmizin sərlövhəsində sol tərəfdən çəkilmişdir.) Qəbul etmiş instrumentlərdə olduğu kimi tar üçün dəxi müəyyən kök təyin olunmuş (ağ sim – do, sarı sim – bir kvarta, yəni dörd pərdə aşağı – sol) və nota ilə tar dərsləri bu əsas üzrə verilmişdir.

25-ci il may ayında Dövlət Türk Musiqi Texnikumu tələbələri tərəfindən oynalınan «Arşın Mal Alan» operettası, orkestrasında iştirak edən tarçılar; hazırda «Leyli və Məcnun», «Şah İsmayıl», «Aşıq Qərib» kimi operalarda musiqininin muğamat qismini çalan tarzən vəzifəsini daşımırdılar. Onlar; orkestrın başqa üzvləri (skripka, klarnet, qaboy və başqaları) kimi bərabər hüquqda olub onlarla

birlikdə ümumi ahəngi qüvvələndirir və tembri (səsinin xasiyyəti) ilə orkestri zinətləndirir.

Bizim gələcək opera və simfoniyalarımızın yazılışında tar üçün xüsusi bir sətr ayrılmalıdır.

Tar öz diapazonuna (səsinin həcmi) görə də kiçik bir instrument deyildir. Bunun iki oktava yarım səsi vardır. Halbuki, Avropa musiqi instrumentlərindən bir çoxunun diapozonu bundan kiçikdir.

Məşhur rus musiqişünası İppolitov-İvanov tar haqqında yazır:

«Bu instrumenti Avropa musiqi instrumentləri ailəsinə daxil etmək Avropa orkestrosunu temr etibarilə zənginləşdirmək deməkdir».

Tarın etnoqrafik cəhətiqcə də əhəmiyyəti böyükdür. Xalq musiqisinə xüsusi bir əhəmiyyət verdiyimiz bir zamanda onu (xalq musiqisini) gəzdirən, onun keşiyini çəkən, onu saklayan tarı muzeyə göndərmək nə qədər yalnış bir təşəbbüsdür.

Şura cumhuriyyətlərində xalq musiqi instrumentlərinə böyük bir əhəmiyyət verilərkən, xalq musiqi instrumentlərindən orkestrolar təşkil olunarkən, balalayka və qarmoşkalardan bütün işçi klublarında dərnəklər düzəldirkən xalq musiqisinin tərəqqisi üçün böyük bir meydan verilir və yardım göstərilərək əvvəllərində gülünc görünən Türküstan sazı ilə bir türküstanlı Şuralar İttifaqında konsert qastrollarına çıxdıqda (Kari Yəkub) böyük müvəffəqiyyətlər ilə qarşılanarkən, doğrudan doğruya mükəmməl bir instrument olan və ölkəmizdə çox intişar tapan tarı muzeyə göndərmək – hər bir halda doğru bir xətt hərəkət deyildir.

Tarın tərəqqi yolunu kəsməməli, Konservatoriyada tar dərslərini məhdud bir hala salmamalı, yenə də əvvəldə olduğu kimi aparmalı, tarı, çayçı, kababçı dükanlarından xilas edib, Azərbaycan xalq instrumentləri nümayəndəsi

sifətilə beynəlxalq musiqi instrumentləri ailəsi içərisinə daxil etməyə çalışmalıdır.

Əfrasiyab
Müzakirə tərikilə

* * *

«Kommunist» qəzeti, 11 yanvar 1929.

Tarın məhkəməsi

Şənbə günü yanvar ayının 12-də axşam saat 7 tamamda, Bünyadzadə adına Dövlət Türk Teatrı binasında tarın bir musiqi aləti olmaq üzrə lazım olub olmadığı haqqında böyük müzakiaə və mübahisə məclisi çağırılır.

Müzakirədə Xalq Maarif Komissarı, Kuliyof və musiqi mütəxəssisləri iştirak edəcəklərdir.

Teatra daxil olmaq üçün əvvəlcədən Dövlət Konservatoriyasından buraxılış kağızı almalıdır.

«Kommunist» qəzeti, 11 yanvar, 1929.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Arxiv materialları

1. Azərbaycan Dövlət teatr muzeyi. inv. 530.
2. Azərbaycan dövlət teatr muzeyi. inv. 531.
3. AR SPİHDA, f.1, siy. 1, iş 8.
4. AR SPİHDA, f.1, siy. 1, iş 86.
5. MTN-in arxivi. H.K.Sanılının istintaq qovluğu. 1937-ci il, RP-25606.
6. MTN-in arxivi. S.M.Əfəndiyevin istintaq qovluğu. 1937-ci il, PR-16647.
7. MTN-in arxivi. M.Ə.Nazimin istintaq qovluğu. 1937-ci il, PR-28010.
8. MTN-in arxivi. V.Xuluflunun istintaq qovluğu. 1937-ci il, PR-25014.
9. MTN-in arxivi. Q.Əfəndiyevin istintaq qovluğu. 1937-ci il, PR-23199.
10. MTN-in arxivi. H.Zeynallının istintaq qovluğu. 1937-ci il, PR-26385.
11. MTN-in arxivi. Ə.Müznibin istintaq qovluğu. 1937-ci il, PR-30749.
12. MTN-in arxivi. F.Köçərlinin istintaq qovluğu. 1937-ci il, PS - 12206.
13. MTN-in arxivi, PR-20552.
14. MTN-in arxivi, PR-41065.
15. MTN-in arxivi, PF-274.
16. MTN-in arxivi, PF-292.
17. MTN-in arxivi. PF-283.

Kitablar

1. Abbasov Ş. Böyük sənətkar (C.Cabbarlıya həsr olunmuş xatirələr və şerlər). Bakı, 1976.
2. Allahmanlı M. Din, təriqət və aşıq. Bakı, «Şur» nəşriyyatı, 1999.
3. Azərbaycan ədəbiyyat tarixi. 3 cilddə. II cild. Bakı, 1960.
4. Azərbaycan Sovet Ensiklopediyası. VI cild, Bakı, 1982.
5. Azərbaycan Sovet Ensiklopediyası. VIII cild, 1984.
6. Azərbaycan Sovet Ensiklopediyası. IX cild, Bakı, 1986.
7. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2 cilddə. Bakı, 2005.
8. Babaxanlı A. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. Bakı, 2010.
9. Babaxanlı G. Cavidşünaslıq. II – III cild. Bakı, 2007.
10. Cabbarlı C. Ədirnə fəthi. Bakı, 1996.
11. Cabbarlı C. Əsərləri. 4 cilddə. II cild. Bakı, 2005.
12. Cavidi xatırlarkən. (Xatirələr toplusu). Bakı, 1982.
13. Cəfərli M. Azərbaycan dastanlarının struktur poetikası. Bakı, «Nurlan» nəşriyyatı, 2010.
14. Ədəbiyyat məcmuəsi. IX cild, Bakı, 1949.
15. Əfəndiyev P. Azərbaycan folklorşünaslığının tarixi. Doktorluq dissertasiyası. Bakı, 1973.
16. Ələkbərli M. Azərbaycan ədəbiyyatı. Bakı, «Azər-nəşr» nəşriyyatı, 1935.
17. Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, 2008.

18. Gökalp Z. Terbiyenin sosyal ve kültürel temelleri. İstambul, 1973.
19. Göyalp Z. Türkçülüyün əsasları. Bakı, «Maarif» nəşriyyatı, 1991.
20. Göyuşov N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı, 2001.
21. Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı, «Yazıçı» nəşriyyatı, 1985.
22. Həbibbəyli İ. Ədəbiyyat – tarixi yaddaş və müasirlik. Bakı, 2007.
23. Hümmətova X. Klassik poeziya və metaforik-terminoloji sabitlik. Bakı Slavyan Universitetinin nəşriyyatı, 2011.
24. Hüseynov R. Məhsəti necə varsa. Bakı, 1989.
25. Hüseyn M. Əsərləri. X cilddə, IX cild, Bakı, «Yazıçı» nəşriyyatı,1979.
26. İbrahimov M. Böyük demokrat. Bakı, 1957.
27. İmrani R. Muğam tarixi. I cild. Bakı, 1998.
28. İsrafilov H. Ölülər. Bakı, 1966.
29. Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı, 1980.
30. Qarayev Y. Ədəbi üfüqlər. Bakı, «Gənclik» nəşriyyatı, 1985.
31. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı, «Sabah» nəşriyyatı, 1996.
32. Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, 2002.
33. Qasımov C. Repressiyadan deportasiyaya doğru. Bakı, 1998.
34. Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı, 2007.
35. Lenin V.İ. Əsərləri. 24-cü cild. Bakı, 1957.

36. Məmməd A. Seçilmiş əsərləri. 2 cilddə. II cild. Bakı, 1968.
37. Məmməd C. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı, 1973.
38. Məmməd T. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı, 1999.
39. Məmmədli Q. Azərbaycan teatrının salnaməsi. Bakı, 1975.
40. Məmmədli Q. Cavid - ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı, 1982. Məmmədli Q. Mola Nəsrəddin: Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətinin salnaməsi. Bakı, 1982.
41. Məmmədli Q. Azərbaycan teatrının salnaməsi. Bakı, 1983.
42. Məmmədov C. Hüseyn Cavid. Bakı, 1960.
43. Məmmədov K. XX əsr Azərbaycan gülüşü. Bakı, 1989.
44. Məmmədquluzadə C. Əsərləri. I cild. Bakı, 1966.
45. Məmmədquluzadə C. Əsərləri. 4 cilddə. I cild. Bakı, 2004.
46. Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, 1983.
47. Misgin Abdal. Bakı, «Səda» nəşriyyatı, 2001.
48. Mustafa E. Sosyal meselelerimiz ve sosyal değişme. Ankara, 1984.
49. Prof. Dr. Anadol C., Dr. Abbaslı N., Dr. Abbasova F. Türk kültür ve medeniyeti. İstambul, 2002.
50. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, 1991.

51. Rüstəmova N. və Alıyev T. Mir Cəfər Bağırovun məhkəməsi. Bakı, «Yazıçı» nəşriyyatı, 1993.
52. Rüstəmli A. Cəfər Cabbarlı: həyatı və mühiti. Bakı, 2009.
53. Rzasoy S. Nizami poeziyası: mif-tarix konteksti. Bakı, 2003.
54. Saraclı Ə. Azərbaycan yazıçıları cümhuriyyət dönəmində. Bakı, 2007.
55. Seyidov M. Azərbaycan mifik təfəkküründün qaynaqları. Bakı, «Yazıçı» nəşriyyatı, 1983.
56. Sultanov Ş., Sultanov K. Ömər Xəyyam. Bakı, 1991.
57. Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. Bakı, 1964.
58. Tarıverdiyeva G. Azərbaycan mədəniyyəti erməni dövrü mətbuatında (1850-1920). Bakı, 1985.
59. Zamanov A. Əməl dostları. Bakı, 1979.
60. Брутян М. О бытовании мугамата в Армении. – В кн.: Макомы, мугамы и современное композиторское творчество. Ташкент. ГИЛИ им. Г.Гуляма, 1978.
61. Кныш А. Очерк «Лахут» // Ислам. Энциклопедический словарь. М.: Наука, 1991.
62. Юнг К.Г. Избранное. Минск, 1998.

Dövri mətbuat

1. «Azərbaycan» qəzeti, 1919, 3 yanvar, № 78.
2. «Azərbaycan» jurnalı, 1961, № 4.
3. «Azadlıq» qəzeti, 1997, 29 noyabr, № 247.
4. «Açıq söz» qəzeti, 1916, 1 may, № 173.
5. «Əxbar» qəzeti, 1920, 10 iyul.

6. «Əxbar» qəzeti, 1920, 23 iyul.
7. «Ədəbiyyat» qəzeti, Bəhcət B. Sarı Aşıq. 1936, 29 fevral.
8. «İnqilab və mədəniyyət» jurnalı. 1929, № 2.
9. «İnqilab və mədəniyyət» jurnalı, M.Quliyev. Türk ədəbiyyatında sağ uklon. 1929, № 10.
10. «İnqilab və mədəniyyət» jurnalı, Həsənov R., Mamedova Ş. Türk musiqi teatrosu nəzəriyyatçısı rolunda. 1932, № 5.
11. «Kommunist» qəzeti, 1924, 30 oktyabr, № 242.
12. «Kommunist» qəzeti, Ədəbi məhkəmə.1924, 2 noyabr, № 244.
13. «Kommunist» qəzeti, 1924, 3 noyabr.
14. «Kommunist» qəzeti, 1924, 13 noyabr, № 253.
15. «Kommunist» qəzeti, Ə.Yusifov. İctimai mühakimələr təşkili. 1924, 20 noyabr, № 259.
16. «Kommunist» qəzeti, 1924, 3 dekabr, № 270.
17. «Kommunist» qəzeti, 1924, 11 dekabr, № 277.
18. «Kommunist» qəzeti, 1924, 14 dekabr, № 279.
19. «Kommunist» qəzeti, 1924, 19 dekabr.
20. «Kommunist» qəzeti, 1924, 23 dekabr.
21. «Kommunist» qəzeti, 1925, 16 yanvar.
22. «Kommunist» qəzeti, 1925, 25 dekabr.
23. «Kommunist» qəzeti, 1928, 25 aprel.
24. «Kommunist» qəzeti, 1929,11 yanvar, № 9.
25. «Kurtuluş» məcmuəsi, Mirza-Bala. Cafer Cabbarlı: Diriliği, yaratdıqları və vaxtsız ölümü. Berlin, 1935, № 4.
26. «Kurtuluş» məcmuəsi, Berlin, 1936, № 18.
27. «Kültür» məcmuəsi, yıl 1, sayı 1, Ankara, 1969.

28. «Müsavat» bülleteni, Y.Əbdülvahab. Gizli müsavat təşkilatının xarakterik vəzifələri. 1962, № 4.
29. «Maarif və mədəniyyət» jurnalı, 1923, № 2.
30. «Maarif və mədəniyyət» jurnalı, 1929, № 9.
31. «Revolyusiya və kultura» jurnalı, 1940, № 1.
32. «Şərq qadını» jurnalı, 1937, № 7.
33. «Yeni yol» qəzeti, 1923, 3 mart, № 8.
34. «Yeni yol» qəzeti, 1923, 10 mart, № 9.
35. «Yeni yol» qəzeti, 1923, 31 mart, № 11.
36. «Yeni yol» qəzeti, 1924, 15 dekabr, № 44.
37. «Yeni yol» qəzeti, Ə.Nazim. Ədəbiyyatmı, xalqmı? 1924, 28 dekabr.
38. «Yeni yol» qəzeti, 1925,11 mart.
39. «Yeni Qavqaziya» jurnalı, 1924, № 15.
40. «Yeni fikir» qəzeti, 1924, 8 fevral.

İnternet materialları

1. www. islam.az.

CƏLAL QASIMOV

ƏDƏBİ MƏHKƏMƏLƏR

Mətbəənin direktoru: ***Elman Qasımov***
Dizayner: ***Mətanət Əliqızı***

Çapa imzalanmışdır: 06.06.2012
Formatı 60x90 1/16. Həcmi 19 ç.v.
Sifariş №256. Tiraj 700

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 514-73-73,
mob. (050, 055) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru

03071273

Az-1
46681



Qasımov Cəlal Əbil oğlu 1959-cu ildə Şərur rayonunun Püsyan kəndində anadan olmuşdur. Ədəbiyyatşünas, filologiya elmləri doktoru (2000) və professordur (2006). Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan Dövlət Universiteti) tarix-filologiya fakültəsini bitirmişdir (1984). 1984-1991-ci illərdə Sabirabad rayonunda dil-ədəbiyyat müəllimi işləmişdir. 1991-1993-cü illərdə vaxtilə təhsil aldığı Naxçıvan Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1993-cü ildən Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyində çalışır. Görkəmli tənqidçi və ədəbiyyatşünas "Abdulla Surun həyat və yaradıcılıq yolu" mövzusunda namizədlik, "Siyasi repressiya həyatda və ədəbiyyatda" mövzusunda isə doktorluq dissertasiyası müdafiə etmişdir. Siyasi repressiya qurbanlarının faciəli taleyi haqqında tədqiqatların, o cümlədən 20 kitabın – "Abdulla Sur və əsərləri" (1995), "Əsrin qiyamət çağı" (1997), "Yaddaşın repressiyası" (1997), "Repressiyadan deportasiyaya doğru" (1998), "Bitməmiş istintaq" (1998), "Yaddaşın bərpası" (1999), "Məhbus tərcümeyi-halı" (2003), "Abdulla Surun həyatı və yaradıcılığı" (2004), "MTN: tarixi-hüquqi mənbələr" (2005), "Cavidi məhbəsə aparan yol" (2007), "Azərbaycan təhlükəsizlik orqanlarının qısa tarixi" (dərslik, 2008), "Azərbaycan təhlükəsizlik orqanlarının tarixi" (azərbaycan, rus və ingilis dillərində, 2009), "Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi" (2011), "Bolşevik qurşununun qurbanları" (2011) və s. əsərlərin, eyni zamanda 150-dən artıq elmi-publisistik məqalənin müəllifidir.